Fikrət Sadıq "Halbuki"



23.04.2012

FİKRƏT SADIQ

Halbuki

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

Tanınmış istedadlı şairin oxunaqlı şeirlər bədii nəsr nümunələri və digər aktual publisitik əsərlərindən ibarət kitabı…

YYSQ - Milli Virtual Kitabxananın
e-nəşri N 17 (2012)

Virtual Redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana
Bakı - 2012

Nərgiz NƏŞRİYYATI
BAKI-2010

Bu kitab şair Fikrət Sadığın anadan olmasının 80 illiyi münasibətilə toplanıb

Redaktoru: ***Orxan Fikrətoğlu***

FİKRƏT SADIQ. «Halbuki». Bakı, «Nərgiz» nəşriyyatı, 2010, – 392 səh.

Dövlət mükafatı laureatı, şair Fikrət Sadığın bu kitabına son illərdə yazılmış bütün şeirləri, miniatür şeirlər, kiçik poemalar daxil edilmişdir. Kitabda həmçinin, əvvəllər nəşr olunmuş kitablardan seçilmiş nümunələr, nəsr yazıları: hekayələr, onun yazdığı və onun haqqında yazılmış məqalələr də var.

S $\frac{742000000}{079}$ 602 – 2010

© «Nərgiz», 2010

ÖN SÖZ

Əslində Fikrət Sadığın özü mənim üçün ön sözüdür. Mən şair olduğunu bilmədiyim dövrdən Fikrət Sadığa ata demişəm. Və sonra o, şair çıxıb. Məsələ də elə bundadır. Mənim Ön sözüm – atamdır və bu ata əvvəlcə şair idi.

Fikrət Sadıq haqqında konseptual yazı yazmaq istəsəm də, hisslərim qoymur.

Sevgi, ehtiram, hörmət və genetik bağlılıq quru publisistikanı üstələyir.

Çalışacağam düz olum. Fikrət Sadıq şair əxlaqındadır. O heç vaxt adam və bazar malı satmayıb. Reallığı olduğu kimi görüb. Gördüyünü yazıb.

Belə yaşamağı Allah hədiyyəsi sayıb. O, əsl qafiyə sındıranlardandı. Yəqin elə ondandır ki, həmişə qafiyələri dilinin ucundadır. Şeir texnikasını, şeir teoriyasını bilən nadirlərdəndir. Mövzusu var – Vətəndaşdır. Sosial mövzularda yazdığı şeirlərində belə ironik, Sabir məktəbindən gələn müdriklərdəndir.


Fikrət Sadıq fikrimcə az şeir yazıb. Daha çox şeiri çöldən içinə daşıyıb. Bu gün şeirdə çılpaqlıq dəbdir. Fikrət Sadıq bu baxımdan həyalıdır, qapalıdır. Daha çox tarix üstə köklənmiş əxlaqdadır. Ona görə onu görməkdən ötrü bir az uzaqdan və uzağa baxmalısan.

Fikrimcə o, şeirinin mükafatını alıb. Nəvələri onun ən böyük mükafatıdır. Allah da onu sevir. Mən bunu bir dəfə gözümlə görmüşəm. Bir insanı ki, Allah sevdi, heç bir bəndə kiçildə bilməz. Bu yaxında dedim ki: «Ata, mən Avropaya gedirəm. Gəl, səni özümlə aparım». Fikrə getdi. Altı-yeddi gün sonra mənə dedi: – Getmə, başa sal!

Başa düşməyəni başa salmaq mənim görəvimdir. Başa düşməyəni sevmək isə onun. Şair üçün bundan ağır iş olmaz. Bu da ön söz!

Allahdan sonra. İkinci abzas: Fikrət Sadıq!

Orxan Fikrətoğlu



ŞEİRLƏR

www.kitabxana.net



HİMN OXUNANDA

On adamın, yüz adamın
Ayaq üstə, farağat durub,
Yan-yana,
çiyin-çiyinə,
əl-ələ,
oxuduğu marş,
ildırım çıxmasına,
göy gurultusuna bənzəyir, qardaş!

Allah, Allah,
gör, sözdə nə qüdrət varmış!
Birliyin səsi göyə çatarmış.
Titrədərmiş dağı-daşı,
Kükrədərmiş dənizləri,
Sarsıdarmış Göyü-Yeri,
Tutarmış düzü-dünyanı.

Günümüzdə, güzaranımızda
Bəs, o birlik hanı?
Neçin, axı, adamlar
Yalnız himn oxunanda
Çiyin-çiyinə duracaq?
Başqa vaxtda hamı təkdir,
Hər kəs öz bildiyini
oxuyur ancaq.

2005

MƏNİM BAYRAĞIM

(dərslik üçün)

Ucalan bayrağımda
Əvvəl də ulduz vardı,
Amma, tək-tənha idi,
Ay üçün darıxardı.

İndiki bayrağımda
Ulduz da var, Ay da var.
Səmavi məhəbbətin
Adı – Ay-ulduz olar.

Ay – ulduza yaraşır,
Ulduz – Aya yaraşır.
Ay-ulduzlu bayrağım,
Bu dünyaya yaraşır.

Sentyabr, 2005

BAMBAŞQA

Bu adda iki şerim var,
Bu bambaşqa, bambaşqadı.
Bu şerə başqadan başqa,
Başqa bir ad yaraşmadı.

Gördüm, Qırat uçub gəlib,
Qaçaq Nəbinin vaxtına.
Gördüm, Bozat uçub gəlib,
Qoç Koroğlunun vaxtına.

Qırat da baxıb, mat qalıb,
Boz at da baxıb, mat qalıb.
Qırat tüfəng görməmişdi,
Bozat şeşpər,
Belə-belə işlər!

Baxa-baxa qaldı atlar,
Tanımadılar yiyələrini.
Hər şey başqa, hər şey yeni.
Bir kimsənin əlindən
Su alıb içmədilər.
Kişmiş alıb yemədilər.
Gözlərinin ucu ilə də
Baxmadılar arpa-samana.
Sonradan sonraya
Bildilər ki, düşüblər
Tamam başqa zamana.

Hər gülün öz məqamı,
Hər səsin öz muğamı,
Hər igidin öz atı,
Hər atın öz igidi var.

(Bu da bir divar, bu da bir divar.
Eləyər iki divar.
Nə qədər şişirtsələr
İki dönüb dörd olmaz.
Bu şişirtmə olmasa
Dünyada heç dərd olmaz).

Gəlib çıxdıq bu günə,
Bugünün – gözünə dönüm,
budu ha!
Gələn tankdı – «dəmir atdı»,
Nə Bozatdı, nə Qıratdı.
Üstümüzə göydən yağan
Nə yağışdı, nə doludu,
Ölüm dolu, yanğın dolu – «qrad»dı.
Ermənіyə qəhmər çıxan
Fars – əmioğludu, rus – «brat»dı.
Bu gör-götür dünyada
Görüb də götürdüyün,
Qəlbinə həkk etdiyin
Qalın yaddaşın hanı?
Dostu-düşməni tanı!
Başın daşdan-daşa dəydi,
Bəsdir, ayıl! Arif ol!
Tükü tükdən seç, ayır,
Türkü türkdən ayırma!
Bütöv ol! Qayım ol!
Özünə qayıt!
İki yüz il sürünən
Süstlüyün daşını at!
Bir az Qoç Koroğlu,
Bir az da Qaçaq Nəbi olanda,
Bir az da dön, Həzi ol!
Həzi olmaq da azdır,
Cəsarətin özü ol!
Civə kimi zərrə-zərrə
Səpələnib, dağılmışıq.
Bir yerə yığışmaq gərək!
Çay olub, lal axmışıq,
Sel olub, daşmaq gərək!
Cıdır düzünə bir daha
qayıtmaq üçün.

Xəznə dərəsinin
ab-havasını
ciyər dolusu udmaq üçün.
Doğma yerləri yenidən
Göz bəbəklərimizə yığıb,
lal olmaq üçün.
Elə-belə qalmaq üçün.
daha müdrik, daha ayıq,
daha da sərt olmalıyıq.
Mərd olmuşuq, yenə mərdik,
Daha da mərd olmalıyıq!
Keçməliyik bir də oddan
Amma, amma kömək umma,
Nə Bozatdan, nə Qıratdan,
Özün silaha sarıl, özün atlan!

***

Avropa – laqeyd, soyuq!
Asiyanın vaxtı yox!
Hər qitə öz hayında
Yalnız özünə inan,
özün alış, özün yan!
Daha azad olmaq üçün,
Daha güclü olmaq üçün,
Gələcəyə qalmaq üçün
Yıxıb köhnə adətləri,
Yandırıb çox millətləri,
Sökülüb, sümük-sümük
Təzədən yığılmalıyıq.
Bambaşqa olmalıyıq!
Tam başqa olmalıyıq!
Tamam başqa olmalıyıq!

1994-2003

PƏRAKƏNDƏ VƏ BÜTÖV

Gecə yarı,
dön, bax yuxarı!
Üzüm salxımları
səpələnibmi,
Ya mavi örtüyə
dağılıb darı?
Yoxsa, tək-tək ulduzlar,
topa ulduzlar
örtüb səmanı?
O ulduzların arası ilə,
Axır Şərqdən Qərbə
bulud karvanı.

***

İndi, gəl bəri,
seyr elə Yeri!
Harda var bu adda
axar-baxarlı
gözəl mənzərə?
Ayağın altda
qırçın-qırçın dağ,
Laləli yamac,
çiçəkli dərə.
Şaxəli ağac,
yarpaqlı budaq.
Cığıra tökülüb
nar dənələri.
Yolunun üstdə
ovulmuş qaya.
Qum zərrələri
sürüşür çaya,
Dağın qaşında dur,
üzü Günəşə.
Sən burdan dünyanı
görə bilərsən.
Gör necə yaraşır
zirvəyə çəmən,
Gör necə yaraşır
dağlara meşə.

Ağaca sarmaşıb,
mavi, al, sarı,
yaşıl sarmaşıq.
Bu yoxuşa çıx,
Bu enişə en!
Hamar yola çıx,
Kəndə sarı dön!
Budur ha… Çatdın.

Birər, birər, üzlü daşla,
ucalmış qala,
hörülmüş divar.
Dəmir alaqapı,
həyət, bağça-bağ,
bağçada çax-çax.
Yenə ağaclar
pıtraq-pıtraq bar.
Alma, heyva, nar.
Qızılgül kolu
bağlayıb yolu,
kiçik hovuzda
üzür balıqlar.

***

Bəs evin içi?
Haşiyəli rəflər,
güllü kasalar.
Zərif pərdələr,
dürr dolu mücrü.
Mivari, inci
boyunbağılar,
Sapını qırsan
yerə dağılar.
Yerə döşənib
xəlçə-gəbələr,
Xəlçə-gəbə üstdə
oynar bəbələr.

***

Silsilə günlər –
görünməz keçir,
Dincini almır
durmadan keçir.
Qovur göylərdə
gecəni-gündüz –
gündüzü gecə.
Bölünə-bölünə
dəqiqələrə
Bütöv ömrümüz
bitir beləcə.
Hər şey dağınıq və pərakəndə.
Yollar uzanır,
kənddən şəhərə,
şəhərdən kəndə.
Bütöv olmaq üçün
indən belə sən,
Ya dönüb
yol olasan gərək,
Nəyisə nəyəsə birləşdirəsən.
Ya içindən
bir qayım
sap kecə gərək,
böyunbağı sapı kimi.
Qəlbin açıq ola gərək
taybatay qapı kimi.
O sap gəlib gecə bizdən,
içimizdən
bağlana-bağlana.
Bu minvalla
bağlana gərək
insan insana.

***

Bir torpaq üstündə
dərədə, təpədə, düzdə salınan,
insana məskən olan,
Neçə-neçə şəhərə,
neçə-neçə kəndə
diqqətlə bax!

Təbitədə hər nə varsa –
ya bütövdür,
ya pərakəndə –
Günlərə bölünən il kimi.
Qətrədən yaranan sel kimi,
Pərakəndə hərflər
birləşəndə söz olur.
Sözlər cümlə,
cümlələr kitab olur.
Pərakəndə ağrılar, acılar,
bir yerə yığışanda
Dərd olur, əzab olur,
Damcı-damcı sular da
yığışıb bulaq olur.
Bulaqlar, çaylar axır da,
axırda dəniz olur,
Pərakəndə mən, sən, o
birləşəndə Biz olur.
Pərakəndə doğma diyar,
Bakı, Gəncə, Mil, Muğan,
Şəki, Şirvan, Qarabağ
birləşəndə olur,
Bütöv Azərbaycan –
Ana torpaq.
Ya pərakəndə ol,
para-para ol!
Təkləsinlər səni.
Ya bütöv ol, qoru,
bütöv Vətəni!

2000-2005

GÖRK

Ağzındakı dilindən bir ibrət al!
Çevik gərdişinə bax!
Gördüyü işinə bax!
Otuz iki düşmən –
dişin arasında
cəsarətlə ömür sürür.
Müstəqildir, əyilməzdir,
Yeri darısqal olsa da.

Lap dönüb lal olsa da,
İnadından
dönməz bir an.

Mat qalmışam sənə, insan!
İndi ki, sən belə azad,
belə məğrur,
fail-muxtarsan belə.
Bəs nə üçün
bir düşmənlə bacarmırsan?
Barışırsan taleyinlə,
Haqsızlığa baş əyirsən.
Elə bil ki,
o, əvvəlki
türk oğlu türk deyilsən?!

***

Təəccübdən, heyrətdən
«Ayağım altdan
yer qaçdı» – deyirlər.
Bu ya qanadlı sözdür,
ya şeirdir,
ya da əsl zəlzələ.
Sənin üzünə gülə-gülə,
Ayağının altından
çəkib apardılar
bir parça
Vətən torpağını.
Bu söz deyil,
Bu əməldi,
O da başımıza gəldi.
İndi qalmısan baxa-baxa,
Uzaqdan boylanırsan.
Görə də bilmirsən
İtirdiyin o yerlərin
Dərəsini, dağını,
bir parça
Vətən torpağını.

07.10.2003

BU YAĞIŞ

Bu şeir – meydanda çaxan qığılcımdan yarandı.

Bir az hündürə çıxmışdım. Birdən-birə insan dənizinə baxıb gördüm ki, bir-birinə sıxılmış daşlar, vaxtilə Bakının küçələrinə döşənmiş iri, yumru çay daşlarına bənzəyir. Bir-birinə sıxılmış o daşlar kimi, elə bu daşların da hərəsi bir yana baxırdı. Yoxsa bütövləşə bilməmək, pərakəndəlik elə bu daşlardan çıxıb başlarımıza.

Tanrım, bizə qıyma!

Hirsimi soyutdu bu yağış…
Soyuq damcıların qırmancı altında
sızıldadı, qaraldı, söndü qəzəbim.

Ay çıxıb, aydınlaşdı yol, iz,
Bir üzü ağ, bir üzü qara.
Çay daşlarına bənzədi ötən günlər.
Ay işığına büründü
Uzandı dünyanın əvvəlinədək,
İl-il, ilmələnə-ilmələnə.
Birdən-birə, bir yerdə göründü
Bütün əsrlər mənə;
Bu ucsuz-bucaqsız yolda,
ayağım altında
bir dəfəyə gördüm,
körpəlik çağından ta bugünədək
bəşər ömrünü.

Əsrlər dəyişdikcə özü dəyişib,
Söhbəti dəyişib, sözü dəyişib.
Çadır-çadır, kənd-kənd, oba-oba,
Yurdu, yeri dəyişib.
Geyimi, yeməyi, ədası, nazı,
Allahı, nağılı, şeiri dəyişib.
Amma, dəyişməyib ömrü-günü.
Təbiəti belə dəyişib çox yerdə
Amma, dəyişməyib öz təbiətini.
körpəlik çağından,
güclü elə, güclüdür gördüm.
hələ də
gözlərindən qan damır.
Zəif – elə zəifdir, indi də
Baxanda yazığı gəlir adamın.

Yenə dərə dərədir,
dağ dağdır.
Cəsur cəsurdur,
qorxaq qorxaqdır.
Yenə də düz adam dünyaya
gələndən düzdür.
Əyri də elə vaxtdan əyridir.

Allahlar ha düz yola çağırır,
Qanunlar ha dəyişir,
kitablar ha öyrədir.
Gözü tox – elə gözü toxdur,
acgöz – elə acgözdür.
Bir kəs xasiyyətini dəyişmir,
Hər kəsin uzaqdan gəlir xisləti.
Yetər, sadaladığım yetər!
Gördüm hərənin bir suçu var,
Saysam sayılar,
insan sayı qədər.

Nə yaxşı ki, yağdı yağış…
Soyutdu hirsimi.
Gördüm, elə Yetim Abbasın oğlu
Yetiməm ki, yetim!
Yaxşı deyib Orxan Vəli:
«Mənim loxmam aslan ağzında!»
Ustadın xətrinə dəyməsin,
Kaş mənim də loxmam,
aslan ağzında olaydı.
Mənim loxmam insan əlindədir.
Aslan döyüşü üzbəüz olur, mərd olur,
İnsanda min bir fənd olur.

Nə yaxşı ki, yağdı yağış,
Ay işığında işıldadı yol-iz.
Yola döşənmiş çay daşları
Bir-birinə bənzəsələr də
Hərəsi bir yana baxırdı,
Üstündən keçmişə addımlayan,
o uzaq adamlar kimi.

Bakı,
noyabr, 1988

SÜKUT BUZU SINDIRILDI

Atillanın atlıları
su içdiyi Dunay üstə – Budapeştdə,
Bir işğalçı ermənilə
Acı sözə dözəmməyən
Bir Türk oğlu arasında
dava düşdü.

Birdən-birə qövr elədi,
ürəyində puçurlayan torpaq dərdi.
İllər keçir, yurddaşları hələ də ki,
Didərgindi, dərbədərdi.
Guya səbr kəsası var,
bir gün daşar.
Bəs bu səbr kəsasının
Görən həcmi nə qədərdi?
İllərdir ki, söz deyirlər,
Təkcə sözlə iş düzəlməz,
Söz hədərdir!

Xocalını yandıran o,
Qarabağı tapdayan o,
O «yan»ların birisindən qisas aldı,
Ər oğlu ər, milli əsgər Ramil Səfər.

Bu xəbəri eşidəndə
Dədəm Qorqud qopuz çaldı.
Boy boyladı, söz söylədi
Bamsı Beyrək baş qaldırıb:
«Çal qılıncın, Ramil Səfər, yetdim» – dedi.
Qoç Koroğlu Çənlibeldən:
«Çal qılıncın, Ramil Səfər, yetdim» – dedi.
Qaçaq Nəbi Araz üstdən:
«Çal qılıncın, Ramil Səfər, yetdim» – dedi.
Tankçı Həzi öz tankından:
«Çal qılıncın, Ramil Səfər, yetdim» – dedi.
Neçə ana: «Muradıma yetdim» – dedi.
Hamı ona: «Oğlum» – dedi, «kətdim» – dedi.
O gün bir az ürəkləndi,
Ana yurdun oğlu, qızı,
Sındırıldı sükut buzu!

Talançıya qəhmər çıxmaq,
Yalançıya qəhmər çıxmaq,
Dəbə düşüb, nə adətdir?
Gör BMT nə BMT,
Gör bu ATƏT nə ATƏT-dir.
Məndən mini qurban gedir, dunya susur,
Ondan biri getsə əgər, qiyamətdir.

Bu, bir haray, bir çağırış!
Bu, gələcək döyüşlərə
xəbərdarlıq işarəsi,
haqqın səsi!
Sonra hücum… Sonra zəfər,
Onda bizim sıramızda olacaqdır,
Ər oğlu ər, milli əsgər Ramil Səfər…

2004

TANRI TÜRKÜ QORUSUN

Eramızdan yüz illərlə əvvəllərdən Türk dövlətlərinin bayraqlarında Aypara çəkilib. Bütöv ayın lap dörddə biri. Türklər o qədər təvazö sahibi olublar ki, bütöv ayı bayraqlarına çəkməyiblər. Çox olublar: tayfa-tayfa, qəbilə-qəbilə, dövlət-dövlət və para-para. Bundan da elə Aypara doğur. Nə Oğuz, nə Mete, nə Atilla, nə Çingizxan, nə Osman, nə Atatürk bayraqlarına bütöv ay çəkməyiblər. Bütöv ay – bütün türklərin birləşməsindən sonra çəkiləcək bayrağımıza. Hələ ki, Ayparalar yaşadır bizi. Bəzi qüdrətli dövlətlərə paxıllığım tutur. Məs: Yaponiya. Onların bayrağında bütöv günəş var. Yəqin orda millət də, dövlət də bütövdür. Bizim kimi dağınıq deyil. Bizi Ayparalar zəfərdən-zəfərə, yüzillikdən yüzilliyə aparır.

Gün o gün olsun ki, türklər minillik arzularına çatsınlar. Onda Ayparamız bədirlənmiş Ay olar. İnşallah!

Tanrısına tapınıb, Tanrısından güc alıb,
Ox-yayıynan tanınıb, qılıncıyla ucalıb,
Yeri-göyü fəth edib, ulduzlardan bac alıb,
Adını eşidəndə düşmən udub sarısın,
Türk özünü qorumur, Tanrı türkü qorusun!

Uşaq kimi aldanan, Qorqud kimi ağıllı,
Dili sərt – hünər dili, bayatılı, nağıllı.
Yer üzünə ulduz tək səpələnib, dağılıb,
Ana yurddu türklərə bu dünyanın yarısı,
Türk özünü qorumur, Tanrı türkü qorusun!

İldırım kimi çaxan, bulud kimi dolandı…
Bir ucdan çiçək açan, bir ucdan da solandı.
Dilim-dilim kəsilən, parça-parça olandı,
Başına daş salıbdı ermənin, urusun,
Türk özünü qorumur, Tanrı türkü qorusun!

Böyük Atilladan ta böyük Sabirə qədər,
Ərləri, şairləri adlı-sanlı, mötəbər.
Fəqət, dönük türk də var sərasər niyyəti şər,
Damarından axan qan yarı qandı, yarı su –
Türk özünü qorumur, Tanrı türkü qorusun!

Sabir düz deyib, vallah, bu qəribə millətdi,
Bunun qəribəliyi bilinmir nə illətdi,
Dərdi var qalaq-qalaq, Qarabağ təzə dərddi.
Hələ qisası qalır Zəngəzurun, Gorusun, –
Türk özünü qorumur, Tanrı türkü qorusun!

Bölünüb məhlə-məhlə, tayfa-tayfa, kəndbəkənd,
Bu ona atır kəmənd, o buna atır kəmənd.
Qurdu öz içindədir, ovur içini bənd-bənd,
Bu xislətdə, bu dərddə millət necə yarısın?!
Türk özünü qorumur, Tanrı türkü qorusun!

Dili, dini bir olan əqidəcə bir gərək,
Bu millət bir olunca bizlərə səbir gərək,
İyirmi, yüz il azmış, bəlkə iyirmi bir gərək?
Gəlsin, Türkün açılan yarasını sarısın,
Türk özünü qorumur, Tanrı türkü qorusun!

Oktyabr, 2000

ƏLİMİ GÖRÜRSƏN

«Şeirimdən çox
əlim danışır» – deyirsən.
İnsafın, mürvətin olsun, balam!
Gözün görə-görə göz yumursan,
doğru sözümə.

***

Əlimi görürsən
doğru sözümü, düz danışan
dilimi görmürsən?

***

Əlimi görürsən,
amma, iş axtara-axtara
əlləri yanına düşən
elimi görmürsən?

***

Əlimi görürsən,
divardan asılmış
xalçanı görürsən, elə bil,
ayaqlar altına atılmış,
tapdanan kilimi görmürsən?

***

Əlimi görürsən,
əlim dərddən danışır,
dərddən danışan əllərin
çəkdiyi zülümü görmürsən?

***

Əlimi görürsən,
keşkə dilimizdən çox
əlimiz danışaydı.
Onda vətən bütöv olardı,
yoxsa bu qədər tökülən qanı,
ölümü görmürsən?!

***

Əlimi görürsən,
qəmin kəm, bilirəm
onsuz da öz istədiyini
görür indi hər kəs.
Kim harda durubsa
o tərəfi görür ancaq,
bütöv həqiqəti
hər adam görə bilməz.

Mart, 2000

GƏLMƏ KƏLMƏLƏR

Adi bir sözdü paxıllıq,
adi bir kəlmədi.
Söz bizim sözdü,
kəlmə bizim kəlmədi,
amma, özü gəlmədi.
Tək-tək yaşayıb
birləşə bilməmək də,
Nahaqqa baş əyib
haqqa yaxın gəlməmək də
gəlmədi, vallah gəlmədi.
Rüşvət, yalan, nəfsitilik gəlmədi.
Qorxaqlıq, alçaqlıq,
mütilik gəlmədi,
Haçaqsa bu Ana yurdun
elə günü-güzaranı,
elə çağı olub.
Kişilik gündəlik işi,
Mərdlik adi yerişi,
Düzlük onun bayrağı olub.
Qalanları gəlmədi,
gəlmədi, qardaş,
vallah, gəlmədi,
billah, gəlmədi.
Kim gətirdi bunları bəs?
Bir kimsə görmədi,
bir kimsə bilmədi?

Bakı, 1991

BAŞ ÜSTƏ

Ana durur övladının başı üstə,
Allah durur ananın başı üstə.
Allahdan yuxarı kimsə yox!
Baş əyir hamı onun qüdrətinə.
Ulduzlar deyir: – Baş üstə,
Kainat deyir: – Baş üstə,
Təbiət deyir: – Baş üstə,
Göy-Yer deyir: – Baş üstə!
İnsanlar da aciz, müti…
Min illərdi,
Gündüzün günorta çağı,
Əldə çıraq axtarırlar həqiqəti.
Zaman-zaman, nəsil-nəsil,
dizin-dizin, yer-yerdən
mehrabların önündə
elə «baş üstə» deyə-deyə,
heçlikdən gəlib, gedirlər heçliyə,
görəsən, niyə?
Nədir bu sirri – xuda?
Bilə-bilə ki bir heçsən axırda,
Yaşamağa dəyərmi?

Ana durur övladının başı üstə,
Allah durur ananın başı üstə.
Sabah o uşaq da böyüyəcək,
O da deyəcək: – Baş üstə!

Avqust, 2006

BİR DAHA SÖZ HAQQINDA SÖZ

İndi hamı öz hayında,
Şişdə kabab köz hayında.
Söz qiymətdən düşüb tamam
Bir kimsə yox söz hayında.

İndi sözü güdənlər var,
İndi sözə gedənlər var,
İndi sözü yeməyən yox,
Sözü yeyən – gödənlər var.

O söz ki, lazımdır bizə,
Heç deyilmir, çıxmır üzə,
Ta doğru – söz gözə dəymir,
Yalan – söz çıxıbdı dizə.

Ta mərd sözü demək çətin,
Namərd sözün var hörməti.
Qorxaq sözlər, yumşaq sözlər
Yastığıdır cəhalətin.

Əyri otur, sözü düz de!
Deyirsənsə bütöv söz de!
Başa düşmək olmur, dadaş,
Yarımçıq sözü ha yüz de!

Söz-dərd udar, sevinc səpər,
Söz həm oxdur, həm də sipər.
Təpərli söz deyən kəsin
Özündə olmalı təpər.

Elə söz de, əyilməsin,
Sözünə söz deyilməsin,
Bircə kəlmə söz de, bilək,
Nəkarəsən, kimsən, nəsən.

08.05.2007

HALBUKİ

Nə olsun çaylar dolub, çaylar dolub nə olsun,
Halbuki, meşə solub, meşə solub halbuki.
Nə olsun el dərdlidir, el dərdlidir nə olsun,
Halbuki, azad olub, azad olub halbuki.

Nə olsun qabda aş var, qabda aş var nə olsun,
Halbuki, gözdə yaş var, gözdə yaş var, halbuki,
Nə olsun yol hamardır, yol hamardır nə olsun,
Halbuki, yolda daş var, yolda daş var halbuki.

Nə olsun gün saçır nur, gün saçır nur nə olsun,
Halbuki, qanım donur, qanım donur halbuki.
Nə olsun göz doymayıb, göz doymayıb nə olsun,
Halbuki, ömür sönür, ömür sönür halbuki.

Yanvar, 2007

VƏ LAKİN

Bu dünyada sevinc də var,
Və lakin – kədərlə birgə.
Səadət – bağrı badaşdı,
Qəzavü-qədərlə birgə.

Bu dünyada qızılgül var,
Və lakin – tikanla birgə.
Bülbül aşıq timsalıdı,
Köksündəki qanla birgə.

Aydın səma, göy üzü var,
Və lakin – dumanla birgə.
Ümid dolu ürək də var,
Nigaran – gumanla birgə.

Bir də övlad fərəhi var,
Və lakin – dərdiylə birgə.
Hələ biçilməmiş – zəmi,
Dolu yağan göylə birgə.

Həyat da var dadlı, şirin,
Və lakin – ölümlə birgə.
Çox acı sözlərim də var,
Çox şirin dilimlə birgə.

Bu dünya bütövdür – guya,
Və lakin – kəsirlə birgə.
Kor-koranə ömür sürür,
İnsan min bir sirlə birgə.

Tarix qələmlə yazılıb,
Və lakin – qılıncla birgə.
Dua, alqış ərşə dirək,
Qarğışla, qaxıncla birgə.

Quru, torpaq adalar var,
Və lakin – dənizlə birgə.
Tərpənmir, amma fırlanır,
Dünya – bəndənizlə birgə.

Azadlığa da çıxmışıq,
Və lakin – izinlə birgə.
Sən azadsan – azad olsan
Özünlə, sözünlə birgə.

Fevral, 2007

SƏSLİLƏR VƏ SƏSSİZLƏR

Ağlayanda, güləndə,
Doğma kəndə gələndə,
Qorxanda, yıxılanda,
Ürək bərk sıxılanda,
Dərd hücum eləyəndə,
Ehtiyac mələyəndə,
Kimisə çağıranda,
Qışqırıb-bağıranda,
İnsan «a» deyir, «ə» deyir,
«U» deyir, «ü» deyir,
«O» deyir, «ö» deyir,

Əlacı kəsiləndə
Lap «i» deyir, «ı» deyir.
Əllərini qaldırıb
Göydən imdad istəyir.
Bunu da bilmək gərək,
Hələ ki, indiyədək
Dara düşəndə heç kəs
«M» demir, «n» demir,
«T» demir, «d» demir.
Desə də, sərf eləmir.
Səssizdən çıxarmı səs?
Bilir bu acizlərdə,
Təpər yoxdur əzəldən.
Sısqa bulaq kimidir,
Səssizlərin imkanı.
Səslilərin səsləri
Tutub bütün dünyanı.
Səslilər birər-birər,
Zəngin, varlı, mötəbər.
Səssizlər alababat,
Kasıb, qara camaat.

Çox ağırdır, səsinə
Hay verən tapılmasın.
Bu qədər əlləş-vuruş,
Qədir bilən olmasın?!

Dünyanın əzabına
Mərd olan kəs baş əyməz!
Yaxşı deyiblər, «dünya
saman çöpünə dəyməz».

Doğrudan səsli-səssiz
Əlifba imiş həyat.
Bu səs-küyün içində
Di, gəl rahat yaşa, yat!

Fevral-mart, 2007

O GƏLİNİ NƏNƏM GÖRDÜ

I

Başında «Sürüşdüm-düşdüm»
düşbərə örpək.
Saçında «Qoşabülbül» daraq.
Barmağında «Gül» üzük,
Qulağında «Ay-ulduz» sırğa,
Boynunda danə-danə
«Arpa» boyunbağı.
Sinəsində daş-qaşla süslənmiş
ağır həmayıl.
Görən bir də dönüb baxır,
Baxan olur hayıl-mayıl.
Əynində «Küçə mənə dar gəlir»
darayı don.
Üstündə «Alışdım-yandım»
məxmər gödəkçə.
Ayağında «Düşmən bağrı çatladan»
qızıldüyməli dübəndi.
Keçdiyi yola gül-çiçək
səpilir elə bil.
Ayağa qaldırıb bütün kəndi,
Sallana-sallana,
doqqaza sarı dönür
Sarı gəlin.

II

Doqqazda dayanıb qarı nənə,
O, gəlinin qaynanası –
Oğul anası.
Əynində «Ontaxta»
zərxara tuman.
Üstündə həşyəli nimtənə.
Onun da üstündə naxışlı kürdü.
Başında butalı kələğayı,
Ayağında sumağı başmaq.
Gözündə mehr-məhəbbət,
boylandı yola sarı.

Sarı gəlini gördü.
Doya-doya baxdı
onun yerişinə.
Bir vaxt vardı o, da
bu yaşda idi.
Yeriyəndə ayağının altda
yer titrəyirdi.
İndi də ürəyi uçunur fərəhdən:
«Allah, Allah, bu mənim gəlinimdi,
Qoy, acıdil qaynanalar eşitsin,
Onu belə şux saxlayan
Mənim şirin dilimdi!»

III

Yalnız bircə anlığa
keçmişə qayıtdım mən.
Gördüm o sarı gəlini.
Gördüm o qarı nənəni.
İndi hər şey bam-başqadır,
O millət deyilik, yəni?!

Yanvar, 2006

BABA-NƏVƏ NAĞILI

Qocalmışam, qəddim bükülüb,
ayağım yorulub,
Gəzirəm yıxıla-yıxıla.
Heyfsilənmirəm yaşıma,
Təki, təki nəvələrim
yığıla başıma.

Nəvə-nəvədir,
istər qız ola,
istər oğul ola,
Təki başıma yığıla.
Halay vurub qaynaşalar dövrəmdə,
Kənardan durub
baxım mən də!

Quş olub uçum fərəhimdən
qəddim düzələ,
ayağım yeriyə,
eynim açıla.

Əl ağacıma yox,
Nəvəmə dirsəklənib,
dikəlim doğrula-doğrula.

Bax, elə möcüzəyə bənzəyir bu!
Bax, elə buymuş elə
«Baba-nəvə nağılı!»

Dünya yaranandan indiyədək
Bundan doğma
bundan şirin,
Bir hekayət uydurmayıb insan ağlı.

2006

FƏXRİYYƏ

(«Qoca şairlərin sözü tükənib» deyən bir para gənclərə)

«Sözüm tükənib» – deyirsən,
Sözü görənə sözüm var.

Sən şerimdə gecə gördün,
O üzündə gündüzüm var.

Dərələrdə nə gəzirsən,
Çıx, gör, dağlarda izim var.

Sənin gözündə bulanan
Aydan aydın kəhrizim var.

Doğru sözün təşnəsiyəm,
Yalan sözə pəhrizim var.

O sapand, o daş, götür at!
Söz atmağa nə lüzum var?!

Sevinmə ki, sönmüşəm ta,
Qor altında çox közüm var.

Nə olsun ki, qocalmışam,
Nələ dünyada gözüm var.

Hələ məndə Əyyub səbri,
Hələ məndə zor dözüm var.

Haqq söz üçün çox nahaqqı,
Qatdamağa sərt dizim var.

Üzümü yumşaq görmüsən,
Dönəndə gör, boz üzüm var.

Hər səhərdə bir az zülmət,
Hər sevincdə bir hüzn var.

Sən deyirsən qocaları
Cırnatmağa qərəzim var.

Zərgər tənqidçi də deyir:
«Mənim insaf tərəzim var».

Hər kəs üçün göyün altda
Yer var, sıra var, düzüm var.

Sən «sizi» bilirsən, qocaq!
Bilmirsən ki, bəs «bizim» var?!

Qərəzli sözə izn yox,
Qərəzsiz sözə izn var!

2006

TELE–ŞAİR

Bir şair gördüm efirdə,
Kresloya sərələnib,
Başı göylərə dirənib,
Ayağım üzüldü yerdən.
Bu əda ilə əyləşməz,
Nə şahənşah, nə şah, nə çar.
Bu qədər təkəbbür hardan?
Heç belə də şair olar?

Bir şair gördüm efirdə,
Qolları qoltuq üstündə,
Bu adətdi dahilərdə.
Baxışları bumbuz, soyuq,
Gözlərində nur izi yox.
Sən Allah, dərdə bax, dərdə!
O, işığı pulnan alır.
Dərəbəylik olan yerdə,
Gözəl görünür kifir də.

Bir şair gördüm efirdə,
Deyir ustayam şeirdə,
Sözlərim dürrdü, incidi.
Demir ki, Füzuli babam
Bəlkə eşidib incidi.

Bir şair gördüm efirdə,
Dili bilməyə-bilməyə
Sözü-sözə düyə-düyə
Şeir yazır, mətn yazır.

Özü deyir çətin yazır –
Ordan kəlmə, burdan kəlmə.
Bəstəkarı, bəstəsi də
Lap başının dəstəsi də,
Özü kimi, sözü kimi –
Ordan gəlmə, burdan gəlmə.

Özünün dərdi-səri yox,
Ürəyinə tapmayıb yol,
Millətin dərdi-səri də,
Bir şair gördüm efirdə.

İndi şair olub hamı,
İtib sözün dadı-tamı.
Bir şair gördüm efirdə,
Bilmirəm efirdə nə var?
Bilmirəm efirə nə var?
Layiq olmayan adamı,
Dönə-dönə, təkrar-təkrar
Niyə, bu qədər şişirdə?
Niyə, bu boyda üfürdə?

Bir şair gördüm efirdə.

07-14 sentyabr, 2002

SÜRREALİST ŞEİR

Mat qalmışam,
mən bu işə.
Bəlkə də yuxu görmüşəm.
Görürəm bütün dünyada
Dünyanın hər yerində,
Üç-üç bölünübdü bəşər,
Bu üçlükdə cəm olubdu
Xeyirlə şər,
Birgə ömür sürürlər.
Təəccüblü olsa da,
Onlar insan ola-ola
Birdən, istihalə ilə
Döndülər adi təmsilə.
Biri dönüb manqal oldu,
biri kömür,
biri maşa.
Alışıb yanmaq üçün,
(Yəni yaşamaq üçün).
Manqal gərək qarışa,
Kömür gərək alışa.
Burda kara gəlir maşa.
Ayaqları dolaşa-dolaşa
gedir o başa,
gəlir bu başa,
Hisə-pasa bulaşa-bulaşa,
dalaşa-dalaşa,
manqalı qarışdırır,
kömürü alışdırır.
Tüstü-duman içində
Gördüm közər ha közərdi,
çartaçartdı.
Qulağıma səs gəldi ki,
Bu – həyatdı!
Di, gəl indi yaşa!

Hələ də bu dünyada –
Hər üç nəfərdən –
birimiz manqaldı,

birimiz kömürdü,
birimiz maşa.
Alın yazımızdı bu!
Alışıb yanmalıyıq,
Üstümüzə su tökən yox.
Bir kəsən yox bu oyunu.
Elə-beləcə
başımız qarışa-qarışa,
ömrü vururuq başa.

Yerdə üç-üç yanırıq,
bir yerdə – Biz.
Birimiz manqal,
birimiz kömür,
birimiz maşa!
Göydə sakit-sakit durub,
bu yanğına
Fələk də edir tamaşa,
Mələk də edir tamaşa.

Aprel, 2003

EYNƏN

Sevinc aşdı-daşdı eynən sel kimi,
Eynən qanad açdı quş kimi fərəh.
Arzu çiçəkləndi eynən gül kimi,
Eynənlər qalandı üst-üstə, səf-səf.

Hər yerdə karına gəlməz bu eynən,
Məgər, fəlakətin eynəni varmı?
Bəs sən müsibəti ölçürsən nəynən,
Dərddən də o yana heç dərd olarmı?!

Gəldi-gedər deyil, dərdim sevinc tək,
Dərd – sınmaz, əyilməz, dərd – sərtdir, mərddir.
Dərdi dərddən başqa nəyə bənzədək?!
Dərdin təşbehi yox, dərd elə dərddir.

Dekabr, 2005

ADIMI ÇƏKMƏ

(Şeirimizin beşillik mənzərəsini çəkib, mənim adımı çəkməyənə)

Qumbaraya bərkitmişəm – mən adımı,
Çəkmə yavaş! Partlayacaq, çəksən əgər.
Ayağımın altında da zəlzələ var,
Dəbərtmə ha! Yer tərpənər, şəhər çökər!

Ya əsəbi, fırtınalı, daşqın dəniz,
Ya yanğındır, od-ocaqdır, mənim adım!
Ya keçilməz bir ormandır, yaşıl dəhliz,
Ya çıxılmaz uca dağdır, mənim adım!

Görə-görə görməmisən, eşit bala!
Bir də dönüb geri baxma! Yoxsa birdən
Göy yarılar, Günəş sönər, Ay qaralar,
Ulduzlar da səpələnər Yerə dən-dən.

Şeir nədir, şair nədir sən bilməzsən!
Fəhm nəsə, səndə yoxdur, xamsan hənuz!
Təşbeh-sehr, cinas daş-qaş, təlmih-eyham,
Sən girdiyin kol deyildir heca, əruz.

Beyt evdir, misra qapı, ağzı bağlı.
Bir vaxt aqil açа bilən o kilidi
İndi paslı bir mismarla nadan açır,
Çünki, indi bütün işlər ikilidi.

Dönə-dönə danışırsan sən, ağacın –
Ovum-ovum ovulacaq yarpağından.
Heç olmasa bir kəlmə də danışaydın,
Gövdəsindən, budağından, torpağından!

Sən rəngləri bilə-bilə qarışdırdın,
Qəsdən dedin, ağa qara, qaraya ağ.
Görə-görə görməyən də baxsa görər,
Yalanların üstü ilə yeriyir haqq.

İti xəncər olsa belə yalan – kəsməz,
Doğruya bax! Küt olsa da kəsər yenə.
Əyri-üyrü yalan sözü – söz saymıram,
Baş əyirəm doğru sözün düzlüyünə!

Doğru sözü eşidən yox – bu tünlükdə,
Bilmirəm ki, millətdə bu nə adətdir.
Həqiqəti gizlətsək də, gizlinləri –
Bizim üçün açan yenə həqiqətdir.

Ta qədimdən belə olub, olacaq da,
Başımızın bəlasıdı bu dərdi-sər.
Qoy ədalət çarə qılsın dərdimizə,
Biri yazar, biri susar, biri küsər.

Qəlbi yuxa qocalara acıq verən
Sütül nəslin süd qarşıq acı sözü,
Ayaq tutub yerisə də Yer üzündə,
Öz yolundan döndərəmməz şerimizi.

Bakı, 29.02.2004

70 YAŞ VƏ PİLLƏLƏR

«İllər və pillələr» şeirinin müəllifi
xalq şairi Rəsul Rzanın xatirəsinə

70-dən sonra
baş yuxarı
çıxdığın pilləleri
sayanda
70-dən başla!
Pilləleri yaşının üstünə gəl,
71, 72, 73, 74, 75 say!
1, 2, 3, 4, 5, sayma!

Ayağındakı ağrını uda-uda,
Məhəccərdən tuta-tuta.
Qan-tər içində,
təngnəfəs
bir təhər
illəri söyə-söyə
çıx yuxarı mərtəbəyə.
Dur, bir hovur,
nəfəsini dər!
Özünə gəl!

Amma, bu sirri aləmə yayma!
Pillələri 1-dən sayma!
Bu boyda yükü,
bu yaşda
baş yuxarı
qaldıran hər kəs,
bu kökə düşər.
Dünya yaranandan
elə beləcə
ömür boyu,
Gah üzü yuxarı,
Gah üzü aşağı
Addımlayır bəşər.

2003

BU DÜNYA BELƏ DÜNYADI

Sağ əl sola lağ eləyir,
Sol əl sağdan umur, küsür.
Bulaq çaydan, çay dənizdən,
Dərə dağdan umur, küsür.

Bülbül bülbülə qısqanır,
Tikan güldən narazıdı.
Zil bəmə ucadan baxır,
Bəm də zildən narazıdı.

Buludu-buluda çaxır,
Fırtına qoparır həsəd.
Daş quma qıyğacı baxır,
Qum daşa aparır həsəd.

Qar yağışa göz ağardır,
Yağış qara həsrət çəkir.
Ağaclar, quşlar, insanlar
Ulduzlara həsrət çəkir.

Günəş ayı saymır, keçir,
Ay günəşə edir qibtə.
Bu minval yüz-yüz, minlərcə
Görk var ana təbiətdə.

Varaq-varaq tarixə bax!
Kökdən gəlir hər bir adət.
Qibtədən paxıllığadək,
Qovdu bizi həsəd, həsrət.

Qara ağı, qış baharı,
Göl də çəməni bəyənmir.
Mən kimisə bəyənmirəm,
Kimsə də məni bəyənmir.

Biri-birinə göz qoyur,
Bir-birini güdür insan.
Paxıllıq öyrədir bizə,
Ta dünya binnət olandan.

Paxıllıq can güvəsidir,
Nə qazanır görən paxıl?
Paxılların ürəyindən
Qan yerinə paxır axır.

Bu millətin şairi çox,
Paxılı da çoxmuş, atam!
Paxılı çox olan xalqın,
Sabahından narahatam.

23-30 dekabr, 2003

QOŞMAYA QOŞMA

Gör, ilham pərisi küsüb, gəlmirsə,
Qoşa bilərsənmi şeir, qoşma – gəl!
Qafiyə qəhətə çıxıbsa, əl çək,
Bu işə, bu başdan sən baş qoşma, gəl!

Bu çətin ayaqda, bu dar ayaqda,
Mehrini kütəltmə, durma uzaqda.
Könlümün dünyadan küsdüyü vaxtda,
Qayıt könlümü al, qaçma, qoşma, gəl!

Gəlirsən, yenə gəl, köhnə naz ilə,
Qıyma, yuxa qəlbim sına, nazilə.
Gəl, başımı qatma şirin söz ilə,
Qoşmama nəzirə qoşma, qoşma gəl!

2004

DÜNYANIN

Başıma daş salıb, durduğum yerdə,
Başına daş düşsün belə dunyanın!
Başı qarışıqdı, işi dolaşıq,
Niyyəti qaradır hələ dünyanın!

Mehri-məhəbbəti, qılığı yoxdur,
İstidi, soyuqdu – ilığı yoxdur.
Yanmış ümidlərin qalığı yoxdur,
Torpağı oxşayır külə dünyanın.

Xeyri imkansızdı, şəri imkanlı,
Çörəyi qılçıqlı, gülü tikanlı.
Səni alıb-satar bazar, dükanlı,
Övladı sərvətə kölə – dünyanın.

Acı zəqqum dadır ən şirin suyu,
Dadını dəyişmir bir ömür boyu.
Hər addım başında qazılıb quyu,
Yolu başdan-başa tələ – dünyanın.

Dünya sarayının kərpici qəmdir,
Çölü yaraşıqdı, ta içi qəmdir.
Göz yaşı qarışıq sevinci qəmdir,
Qəmi bülənd olub zilə dünyanın,
Hər günü bərabər ilə dünyanın.

May, 2004

QOŞA RƏDİFLİ QOŞMA

Bu şerə fikir ver, «altı-dörddür»,
Birini bilirsən, birini yox.
Ört qapını, şair yaman pərtdir,
Birini bilirsən, birini yox.

Bu necə niskildir, necə dərddir?
Birini bilirsən, birini yox.
Niyə bu comərddir, o namərddir –
Birini bilirsən, birini yox.

Şəhər daşürəkli, şəhər sərtdir –
Birini bilirsən, birini yox.
Yenə eybimizi örtən kənddir –
Birini bilirsən, birini yox.

Bu dağda su qıtdı, qar da qəhətdi, –
Birini bilirsən, birini yox.
Nədir bükən beli, əyən qəddi –
Birini bilirsən, birini yox.

Gözlə öz növbəni, aşma həddi!
Birini bilirsən, birini yox.
Yaşamaq əzabsa, həyat nədi?!
Birini bilirsən, birini yox.

2005

BÖLGÜ

Gözümün nurunu,
qəlbimin odunu,
Soyadımı bölmüşəm sizinlə, övladlarım!
Çörək pulundan kəsib aldığım
Beş-üç nadir kitabı,
Bəxtimə düşən ayəndə sevinci,
Acılı-şirinli günlərimi,
Mənimlə əkiz doğulmuş ehtiyacımı,
Xislətimdə yaxşı-pis nə varsa,
Həmişə bölmüşəm sizinlə.
Nəyim var,
nəyim olacaqsa
böləcəyəm indən belə də,
Məni haqlayan qocalıqdan başqa.
Qocalıq özümündü!
Qocalığımı bölə bilmərəm,
Qocalığım yalnız mənimdi!

Ölsəm də ruhum sizdən

Nigaran qalacaq.
Cümə axşamları
Baş çəkəcəyəm Sizə –
Qapı-qapı, ocaq-ocaq.
Ruhumun yaddaşında
Dörd ünvan yaşayacaq.

Yanvar, 1991

GÖRÜŞ ƏZABI

Qərib ruhu qürbət eldə azıb bəlkə,
Burdadırsa bəs, yuxuma gəlmir niyə?!
Burda onun yoxluğunu mən bilirəm,
Bəs o mənim varlığımı bilmir niyə?!

Hətta cümə axşamları gözə dəymir,
Ruhun canı-qanı yoxdur, ruh soyuqdur.
Boylanıram bacamızın hənirinə,
Atam gəlib, anam gəlib, tək o yoxdur…

Yoxsa, ümid qalıb təkcə o dünyaya,
Bəlkə orda görüşərik, mənim balam?!
Bəlkə dedim, mən həmin o bədbəxtəm ki, –
Qorxuram heç rastlaşmayaq, məyus olam.

Biz orda da görüşməsək, onda yəqin
«O dünya» da ya yoxuymuş, ya nağılmış.
Niyə bəşər aldanır bu yalanlara,
Niyə axı, dağılmayır bu dağılmış?..

Qiyamətə qalar bizim görüşümüz,
Əgər varsa, bəlkə o da quru vəddir.
Onsuz da bu dünyadadır əsl Məhşər,
Bu gördüyüm dünya özü Qiyamətdir.

Fevral, 2006

ŞEİR OXUMAĞA ADAM TAPILMIR

Hayıf səndən, Balasadıq!
Hayıf sənə, Balasadıq!
Sən gedəli, sənin kimi
Şerə, sözə canı yanan dərd əhli yox!
Biri məşğul, biri «dahi»,
Biri paxıl, biri soyuq,
Eyham qanan bir kimsə yox!
Şerin təşbeh siqlətinə,
Mübaliğə sambalına,
Tab gətirən adam azdır.
Görürsən ki, ya oxumur,
Ya oxuyur, başa düşmür.
Çünki, kökündən dayazdır.
O kəslər ki, əhli-qələmdirlər guya,
Mən bu şerri oxuyanda
Getmişdilər daş yuxuya.

Sən gedəli,
Elə həmən-həməndi o,
O sənin gördüyün həyat.
Eşit, eşit bu şerimi,
Yenə də qal mat-məəttəl,
Amma, gəl!

Dolan bir də bu dünyanı,
Gördüyünü bir daha gör,
Tanıyırdın – bir də tanı!

Yenə haqq söz – aciz, nökər,
Yenə yalan – zalım, ağa.
Bunlar burda gün altında, aydınlıqda,
Sənsə orda kor zülmətdə, haqq yerində.
Onlar üzdə,
sən dərində.
Sən Allah, gəl,
Bu misraya diqqət yetir!
Gəl ki, bizi ayırmasın ölüm-itim.

Gəl, fikir ver,
Kaman sözdən atılan bu
Tək-tək tənə oxlarına.
Gəl sinə gər,
Bu lallığa, laqeydliyə,
Gəl, asi ol, Yerə-Göyə,
Gəl, görk olsun
bu gəlişin çoxlarına!

Yox-yox. Dayan, səbr elə,
Bir misra şeir xətrinə,
Dəyərmi, gör qayıtmağa –
Bu əzab yurduna yenə.

Burda düyünlə alnını,
Burda qaşlarını çat,
Qayıt yenə, öz yerinə!
Baxma şair dostlarının göz yaşına,
Torpağını çək başına,
ol rahat!

Sentyabr, 2003

OLACAQ

İndən belə bütün yazdıqlarımın
Əvvəli-axırı İlkin olacaq.
Sevincə bələnən şux misralarım,
Hüznə bürünəcək, qəmgin olacaq.

Uçunar bu günə düşərsə hər kim,
Bu dərdimə əlac tapmaz bir həkim.
İndən belə mənim qəlbimə hakim –
Ya qəzəb olacaq, ya kin olacaq.

Zaman da, tale də, hətta Allah da,
Suçludur bu boyda haqsız günahda!
Mənim indən belə çəkdiyim «ah»da,
Ahdan çox təsəlli, təlqin olacaq.

2004

KEÇƏCƏYİN YOL

Yolu keçəndə gəl, yel təki əsmə,
Yolda daş da olur, kəsək də olur.
Tələsən tələyə düşür, tələsmə!
Əvvəl, gözünlə keç, keçdiyin yolu.

Qara sap kimidir, amma yeriyir –
Qarışqa seçilmir qara asfaltdan.
Qarışqa canlıdır, daş-kəsək deyil,
Gözlə ha, qalmasın ayağın altda.

Püstə boyda daşın üstünə çıxsan,
Adamı fırladıb yıxa bilərmiş,
Ayağı altına adam baxmasa,
Az qala heç nədən düşüb ölərmiş.

Bunda suçlu deyil kimsə, ya nəsə,
Buna heç tale də deyilməz, dadaş!
Kim ki, gedəcəyi yolu görməsə –
Mütləq ayağına dəyəcəkdir daş!

May, 07.2007

QOYUN

Əvvəl bu söz «qoyun» idi,
«Q» düşdü, «oyun» qaldı,
«O» düşdü, «yun» qaldı,
«Y» düşdü, «un» qaldı,
«U» düşdü, «N» qaldı,
«N» də məlumdur ki,
naməlumdur,
Bəs, onda bizə nə məlumdur?!

Doğulanda qoyun doğuldu,
Başına min oyun açdılar,
Ömrü-günü oyun oldu.

Çərxi-fələyin çarxında
O qədər fırlandı ki,
Yumağa döndü yun oldu.

Yunu o qədər çırpdılar ki,
Ovum-ovum ovuldu,
un oldu.
Unu da göyə sovurdular,
yerində «N» qaldı.
«N»dən o yana yol yoxdur.
Görən, bizə nə məlum oldu?!
Nə məlum oldusa da
naməlum oldu.

2006

BU ZƏMİ HƏR İKİMİZİN

Bu quyu – su quyusudu,
Suyu – sənin, quyu – mənim.
Bu dəniz də bizimkidir,
Nefti sənin, suyu mənim.

Bir ocağın basındayıq,
Odu – sənin, hisi – mənim.
Bir yazılır umu-küsü,
Umu – sənin, küsü – mənim.

Bu zəmi hər ikimizin,
Buğda – sənin, saman – mənim.
Nə çıxarsa rastmıza
Yaxşı – sənin, yaman – mənim.

Bir süfrədə kəsdiyimiz
Çörək – sənin, loxma – mənim.
Bir küçədə yan-yanaşı
Saray – sənin, daxma – mənim.

Bölünüldü qismətimiz,
Bütöv – sənin, para – mənim.
Günlərimiz də bir deyil,
Ağ gün – sənin, qara – mənim.

Sevinc – sənin yol yoldaşın,
Amma bu göz yaşı – mənim.
Bir ölkədə vətəndaşıq,
Vətən – sənin, daşı – mənim.

1999

KİMİNDİR

Yol boyunca düzülən bu
Uca imarətlər kimindir?
Sizindir qardaş, sizin!
Bəs bu giley-güzarlar,
Bu dərdlər kimindir?
Bizimdir qardaş, bizim!

Bu möhtəşəm villaların
Dörd bir yanı daş qaladır.
Yaxşı bənna – bu qalanın daşlarından
Dörd qaçqına ev qaraldar!

O qalalar kimindir, bala?
Sizindir qardaş, sizin!
Başımıza gələn bəlalar
Yan-yana düzülsə əgər,
Elə belə qala olar!

O bəlalar kimindir?
Bizimdir qardaş, bizim!
Yaşamaq çox çətinləşib,
Çörək baha, yol haqqı da,
Ümid qalıbdır Allaha.

Biz elə bilirdik ki,
Göydəki Allah bizimdir!
Allah da sizinmiş, qardaş, sizin!
Yerdə-yerdən göyə qalxan,
Yanıqlı bir «ah» çəkilsə,
O «ah» bizimdir, qardaş, bizim!

Siz – azsınız, biz – çoxuq,
Siz – varsınız, biz – yoxuq…
Vətən – sizin, qürbət – bizim,
Torpaq sizin, həyat sizin,
Dağ-dərə, çöl-çəmən bizim,
Yalxı, quruca ad bizim.

Ana yurdun sərvətindən
Bizə də pay düşmüşdüsə,
Onu biz bir heçə satdıq.
Siz burda ev ucaltdınız,
Biz daxmada itib-batdıq.

Hərə bir cürə qorudu Vətəni,
Biz ac-susuz,
Doğrudan da Vətəni qoruduq,
Siz – özünüzü!
Büdür sözün düzü,
Kəsməyin sözümüzü!

1997-2005

ÇƏPƏR

Göz açıb
çayları balıq dolu,
meşələri meyvə dolu,
təbiəti çəpərsiz gördü insanlar.
Əlbəyaxa olub
vurduqları ovu da
ildırımdan alıb,
göz bəbəyi kimi
qoruduqları
közü də, alovu da,
qəmi də, sevinci də
hamıya tən böldülər.
Nəsil-nəsil gəldilər
Son mənzilədək.
Mehriban ailə tək
Yaşadılar, öldülər.
İllər qovdu illəri,
Əsrlər əsrləri.
Qorxdular ki, qurtarar
Yer üzünün sərvəti,
Başladılar bölməyə təbiəti –
Meyvəli meşələri,
Bərəkətli çölləri.
Həyətlər hasarlandı o zamandan
Kimisinin həyətində ağacları,
Ürəyində arzuları gül açdı.

Kimisi də acından
ona-buna əl açdı.
Ömrü boyu batdı yasa,
«İnsan paxıl olmasa
bağ çəpəri neylərdi?»
İnsan paxıl olmasa
ağır olmazdı yaşamaq dərdi.
…Görəsən bir də
elə bir gün gələcəkmi?
Daşlaşmış paxıllıqlar
qəlpə-qəlpə qopub
yerə töküləcəkmi?

1965

TV-LƏR

Gecə-gündüz efirdədir,
Havayı xəbər üfürür.
AzTV-lər, ORT-lər, NTV-lər,
Xarici saqqız çeynəyən,
Bu azman tele-dəvələr.

Reklam, reklam dalınca,
Di, gəl ki, moltanıca.
TV-ləri qarışdırma,
Dili pəltək qəzetlə.
Burda hər şey görünür,
Açıq, aydın, aşikar.
Əgər ki, həvəsin var
Bax, «qap-qara ləzzət»lə.
Həzz alarsan, məst olarsan,
Gör-götür dünyasıdı,
Görərsən, götürərsən.
Paltaryuyan tozun da
«ağıllı»sı olurmuş!
Reklamın da, demə varmış
Öz dili, öz ləhçəsi.
Burda da işə keçmir,
Azərbaycan türkcəsi.

Səhər-axşam, axşam-səhər,
Dingildəyir diringələr.
Diringələr, diringələr,
Nadanlara şirin gələr.
Belə getsə meyar itər,
Qonşuları təqlid, yetər!
Hanı xalqın mahnıları?
Hanı muğam?
Nədir axı,
bu müğənni xanımların
mahnıları?!
Hardan bilək?..
Bağırırlar: «Çəkil, çəkil»,
«Çıx get, çıx get!»
Daha hara çəkilək?
Onsuz da doğma yurddan
baş götürüb qaçanlar var.
İrana, İraqa, Rusyətə, Dubaya,
Kim baxacaq sizə, ayə!

Hardan tapıb gətirmisiniz,
Bu pisdən pis filmləri?!
Nə qədər olar, canım,
«Oğru-polis» filmləri?!
Kazino, qumar, yalan,
Dəhşət, vəhşət, ölüm, qan!
Saxta sevgi, məhəbbət,
Açıq-saçıq xanımlar,
Şəhvət, şəhvət və şəhvət.
Əvvəllər kinolarda
zəif oynasalar da,
əsl insan var idi.
İnsan cildinə girmiş
Canavarlar var indi.
Yalan-döğru, əyri-düz,
Ağ-qara, gecə-gündüz
Qarışıb bir-birinə.
Fırlanır dönə-dönə
Yenə, yenə və yenə.
Fırlandıqca filmlər,
Başımız gicəllənir,

Bu ucuz filmlərin,
Bu uzun filmlərin,
Dəxli yoxdur millətə,
Dəxli yoxdur Vətənə,
Canın yanırsa əgər,
Düş bir hava aşağı,
Ay Vətəndaş,
ay qardaş!
Gözümə kül üfürmə,
pəncərəmə atma daş!
Millətə bax!
Zillətə bax!
İş yeri tap,
zavod işlət!
Yoxsa ki, gecə-gündüz
Sənə kim deyib, balam,
Haqqı dan,
haqqı gizlət!

Bakı,
oktyabr, 2000

YENƏ DÜZ SÖZ

Birdən, bir də baxıb görürsən ki,
ağzından bir söz çıxdı.
Vay onda ki, tərslikdən o söz də
dönüb düz çıxdı.

Onda görəcəksən, qardaş,
Araya qan-qada düşdü.
Baş yarıldı, qaş partladı, göz çıxdı.

Elə burda 37-i yada düşür,
Deyirsən, 37-yə şükür!
Düz sözümdür, qardaş!
Düz sözümdür, düz sözüm!
Düz sözə öyrəşməmişik,
Düzlüyü haçan görmüşük?

Bakı, 1991

SƏBR

Səbrin canı-qanı yoxdur,
Amma, ürəkdə təpəri,
dizdə taqəti var.
Hər millət səbirli olmaz,
Səbrin də öz milləti var.

Səbrin qolu-budağı yoxdur, amma,
Kökü var, rişəsi var.
Səbrin zülmü parçalayan
Külüngü var, tişəsi var.

Səbr – gözə görünmür,
özü görünmür,
amma, dözümü var.
Dözüm öyrədir bizə,
Dünya mat qalıb, vallah,
bizim səbrimizə.
Tükənməz deyil ha!
Səbr heç nəyə bənzəmir,
Dayanıb, durub bir qıraqda
məğrur, tənha.
Hətta son ayaqda
Səbrin göz yaşı da var.
Hardasa ümid adlı
bir qardaşı da var.
Yaşatsa bu milləti
yenə səbir yaşadar.
bir də Sabir yaşadar,
Yaşa millət!
Yaşa millət!
Ümid qalıb ümidə,
Gələ səbri əridə.

Avqust, 2003

DÖVRLƏR

Silahına,
Allahına,
Günahına görə
Məşhurdur
tarixin üç dövrü.
Daş dövrü,
Tunc dövrü,
Mis dövrü,
Üçü bir yerdə
parçalanma və güc dövrü.

Sonra da
Ömrə,
Kömürə,
Dəmirə
və Hömerə görə
bir də bölünüb
tarix üç yerə.
Qızıl dövrü,
Gümüş dövrü,
Mis dövrü.
Bundan sonra gəlibdir
Dövrlərin ən pis dövrü –
Dava-dalaş,
xeyir-şər,
ədavət dövrü,
dedi-qodu dövrü,
qeybət dövrü,
Bu dərdlərin içində
İtib-batıb
Haqq-ədalət dövrü.

Allah, Allah,
Nə uzun çəkdi tarixin
Bu paxıl
və xəbis dövrü?!
Bir də qayıdarmı ola
Qızıl dövrü,
Gümüş dövrü,
Mis dövrü?!

Oktyabr, 2004

QUM SAATI

Qum saatı görmüsənmi?
İçi narın qumla dolu,
İki tərəfi də yastı,
Ağzıbağlı, dolça kimi,
Şüşə qabdı – qum saatı.

Üstü xət-xət,
Hər xətdə – vaxt.
Gah bu yana axır qumu,
Gah o yana axır qumu.
Bir-birini itələyə-itələyə –
Amma, vaxtla, asta-asta.

Qum axdıqca gəl sən də bax,
Gör necə qarışır vaxta vaxt.
Mən də baxdım,
qum saatın işinə.
Dünyanı yaşadan vaxtdır – gördüm,
Vaxt yoxdursa, yoxdur heç nə!

Günümüzü-güzəranımızı
gətirdim göz qabağına.
Gördüm, elə bu dolçadakı qum kimi
Bizi də yığıblar qoz qabığına –
Yer kürəsinə.
Burda da insanlar bənzəyir
birər-birər qum dənəsinə.
Bir də görürsən kimsə
dolçanı qoyur ayağı üstə,
axırıq üzü aşağı.
Sonra birisi,
ya elə həmin o kimsə –
dolçanı çevirir başı üstə,
yenə axırıq üzü aşağı.
Çox az müyəssər olur
bizə gün işığı.

Bu ucsuz-bucaqsız, gen-geniş,
Aylı-ulduzlu,
günəşli kainatda,
Dörd bir yanı kip qapalı şüşə,
Bu dar-daracıq yerdə yaşayırıq biz!
Üz-üzə, göz-gözə, döş-döşə,
Deyinə-deyinə, döyüşə-döyüşə,
Bir-birimizi yıxa-yıxa,
Üzü aşağı sürüşə-sürüşə
keçir ömrümüz…

2000-2005

BAŞAQ

Dava vaxtı –
çörək qıt olanda
başaq yığdığım
yadıma düşdü.
Dava vaxtı –
çörək qıt olanda
başaq yığmaq
qorxulu işdi.

Zəmini –
göz bəbəyi tək
qoruyurdu
əlitüfəngli əsgər.
Güllə atıb
öldürərdi,
doğma qardaşını da
görsəydi əgər.

Başaq nədir?
Sünbüldən
qopub düşmüş
dən-dən olmuş dən.
İtgin dəni
yaşamaq üçün
axtarırdım mən.

Əlim-ayağım
qanaya-qanaya,
qorxa-qorxa
gəzirdim.
Onda bir ovuc dən –
bir ovuc qorğa,
bir loxma çörək,
bir azca ümid idi.

Zəhmətimin
bəhrəsiydi,
o əzabla
tapdığım ruzi.
Mən Tanrımdan razı idim,
Tanrım da məndən razı.

Sonra
dava bitdi.
yaşamaq bitmədi ancaq.
Davadan betər
zülm çəkdirdi
mənə yaşamaq.
Ötən günlər
ötüb bir-bir
yaddaşlara köçsə də,
acılı-şirinli
ömrüm
tələsə-tələsə
gəlib keçsə də.

Yenə də
başaq döşürə-döşürə
yaşadım.
Yaşadımmı, yəni?!
Həmişə
əlitüfəngli
kimsələr
güddü məni.

İndi –
Bu yaşımda da
ruzim
göydəndüşmə deyil.

İndi də
qələmimlə
başaq yığıram
elə bil.

Hələ də
elə bilirəm ki,
izləyir məni,
o əlitüfəngli adam.
İndiyədək
qorxmamışam,
indən belə də,
heç qorxmuram.

12. 2005-01.2006

BAŞQA-BAŞQALAR

Şirin başqa, acı başqa,
Qardaş başqa, bacı başqa.

Barmaqların eyni deyil,
Hər birinin ucu başqa.

Sayların da sırası var,
Biri başqa, üçü başqa.

Üzünə bax, görəcəksən,
Mulat başqa, zənci başqa.

İkisi də güllə atır,
Əsgər başqa, qoçu başqa.

Peşələr də müxtəlifdir,
Zərgər başqa, suçu başqa.

Bu qalaya diqqətlə bax,
Tağı başqa, bürcü başqa.

İş axtaran camaatın
Toxu başqa, acı başqa.

Şəkilçilər də fərqlidir,
«Lı, li» başqa, «cı, ci» başqa.

Vaxt axır hey… Hər anın da,
Tezi başqa, geci başqa.

Təzadlıdır bütün aləm,
Amma, bir şeyə məəttələm.

Necə olur bir adamın
Çölü başqa, içi başqa?!

2003

ADAMLAR

Bir var – qəlbi qara, hisli adamlar,
Bir var – adamların əsli adamlar.

Ürəyi açıqlar korluq içində,
Firavan dolanır gizli adamlar.

Təmiz adamların başı üstədi,
Dumanlı adamlar, sisli adamlar.

Əlindən yapışıb gəzdirməlidi,
Gözsüz adamları gözlü adamlar.

Sevinən adamla sən də sevin ki,
Sevinməz dodağı sözlü adamlar.

Min illərdir yaxşı mənimsəyib,
Mərifəti, fəhmi, fəzli adamlar.

Susdun da sükutu mükafat aldın,
Üzdədir həmişə üzlü adamlar.

Fağır adamlara yanıq verirlər,
Qızılla, gümüşlə süslü adamlar.

Mənəmlik qovğası hələ bitməyib,
Hələ də at sürür hirsli adamlar.

Yeri də, Göyü də xaraba qoyub,
Dünyanın heçdə bir misli adamlar.

Düşmənə əyilməz, zülmə diz çökməz,
Əsarəti qatlar dizli adamlar.

Vətən bir, millət bir, bir olsun gərək,
Bölünməsin sizli-bizli adamlar.

2001-2005

QIŞDAN ŞİKAYƏT

Allah, dön bəri, dön bəri,
Bu çadıra diqqətlə bax!
Bir gör yaza çıxarmı bu
Qoca-qarı, oğul-uşaq?

Allah, əyil bax qaçqına,
Sən də baş alıb qaçginən.
Ya da bir qapı açginən,
Biz də baş götürüb qaçaq.

Allah, səbrimiz tükənib,
Bağla bu bazar-dükanı.
Ya gəl çıxart bu tikanı,
Ya köksümə sapla bıçaq.

Allah, bu necə bəladı?
Bizi tək görüb, taladı.
Üst-üstə yığıb qaladı,
Ürəklərdə çatdı ocaq.

Allah, bizi pərt eləmə,
Bu il qışı sərt eləmə,
Bir dərdi min dərd eləmə,
Yoxsa bu da dərd olacaq.

Noyabr, 1994-1998-2005

«İÇƏRİŞƏHƏR» – TƏQVİMDƏ

Təqvimdə İçərişəhəri gördüm,
çəkilib əcayib-qərayib
çəkilib ikili fənd ilə.
Ya bu adam heç Bakıda olmayıb,
Ya da qəsdən çəkib elə-belə.

Üst-üstə yığıb,
evləri qalaq-qalaq
bu yamaq, orda çalaq,
Təzə çarpaz divarlar hörüb,
Biri-birinə yapışıq, haça.
Uca minarələrdən
yalnız birini saxlayıb,
qalanlarını atıb…
O minarələrin dalında, özündən
bir neçə dam-daş qaraldıb.
Üfüqdə nə Günəşin batması,
nə çıxması,
Aşağıda bir-iki,
Şirəli, şilvərli kənd daxması,
Qədim şəhərdə bu cür
daxma olmaz ki!

Göy – göy deyil,
Sərasər açıq cəhrayı,
Buludsuz, saya.
Bu göyün nə Günəşi var,
Nə ulduzları var, nə Ayı.
Ay-ulduz çəkməyə bunun
əli gəlmir.
Binaların rənginə bax bir!
Mum rəngində, sapsarı.
Adda-budda daşlarda
naxışlar gözə çarpır.
Aralarında
xaça oxşayanı da var.
Mazqalları kiçildib,
Bürcləri uçurdub.

Aşağı həyətdəki
Məqbərəni qaldırıb
hündür bir damın
üstünə köçürdüb.
Bu necə İçərişəhərdir ki,
yoxdur Qızqalası?
Bütöv sığışmasa da
görünəydi heç olmasa
bir parçası!

Alaqapı qoymayıb,
İstəyib ki, qoy şəhər
bağlı qalsın.
Qala divarların yastıladıb.
Daş dişləri bir-bir
çəkib, atıb.
Bunu açıqca eləyib,
Bilə-bilə eləyib.
Hələ üstündən də
«Dişli divarlar
İnsanları qorxudar» deyib.
İnsan haqlarını qoruyana bax,
Sən Allah!

Şirvanşahlar sarayını
Olduğu kimi ucaldıb,
Amma bunun da
Bir əmması var,
Məğrur görünsə də
Elə bil üstdən yerə sıxılıb dam.
Mənə elə gəldi ki,
Bizi Qarabağdan
Soyutmaq istəyir bu adam.

Uçurtduğu bürcün, iç divarında,
Xəlvət yerdə,
İki kiçik xaç gizlədib,
Bu xətt mənə tanışdır,
Bəlkə də bu rəsam
ATƏT xəttilə
Gəlib-gəzibmiş
İçərişəhəri.

Belədən-belə,
addım-addım,
bitdə-bitdə.

Bunu da bilirəm ki,
Sənətdə
şərtilik var.
Canım-gözüm, var,
Amma bu əndazədə yox!

Gördüyünü gördüyü tək çəkməyib,
Ya özü belə çəkib,
Ya ona deyiblər belə çək!
O da quyruq bulayıb.
İşlətdiyi kətana hayıf,
qarışdırdığı rəngə hayıf!

2008

ŞƏKİL

Şəklini asmaqçın, sənə
divarda yer tapmadılar –
Baba Pünhan!
Sən dil açıb nə dedinsə
bəyənmədi səni dövran.
Sənin ilk sözün haqq oldu,
haqqa tapındın, haqq dedin.
Bilmədinmi, bəgəmləri,
çağdaşların qorxur haqdan.
Sən Aləmi bilə-bilə
qatanda biri-birinə.
Asıldı kiminsə şəkli –
sənin şəklinin yerinə.
Bu divarlar süslənibdi,
birər-birər şəkillərlə,
Həm üst qatda, həm alt qatda.
Onlar başqa adamlardı.
Şan-şöhrətdə, fəxri adda –
tamam başqa!
Sən onlara bənzəmirsən –
Sən alayı, sən tam-başqa!

Divarlarda adda-budda
Boş yerə bənzər nəsə var.
O yerlərlə işin yoxdur,
Onların da yiyəsi var.

2006

DOST DƏRDİ

«Gəlsə əcəl, verməz macal» – deyiblər,
Gəldi, qapı dabanını kəsdirdi.
Ürəklərə dağ üstündən çəkdi dağ,
Yeri Göynən, Göyü Yernən küsdürdü.

Günəş batdı, ulduzlar da kor oldu,
Zülmət gecə, ömür pıçı buruldu.
«Nəsimi»ni yazan şair yoruldu,
O, ki, Yazın gəlməsini istərdi.

Saat susdu, zaman durdu, an durdu,
Xəbər məni gurul-gurul yandırdı.
Tale bir də düz qəddimi sındırdı,
Çox olmazmı oğul dərdi, dost dərdi?!

Haqlamışdı onu ömrün ayazı,
Amma, yenə gözləyirdi o, Yazı.
Haqq yerinə yetişincə murazı,
Çərxi-fələk başqa yazı göstərdi.

Hara getsə təkcə adı bəs idi,
Şeiri, sözü məktəb idi, dərs idi.
Şeirə, sözə pəl vurana tərs idi,
Pis yazını yerindəcə pislərdi.

Dostlarına mehribandır ana tək,
Xislətindən dönmədi son ana tək.
Dost yolunda əsərdi o, nanətək,
Əsl dostu əzizlərdi, süslərdi.

Hatəm kimi səxavətli, rəhmdil,
Tanıyırdı onu cümlə-Vətən, el.
Şair ikən bir əsgərdi elə bil,
Bizi qəti döyüşlərə səslərdi.

Bəyim bacı[1], səni heç nə ovutmaz,
Dərdin çoxdur, söyləsən yer-göy tutmaz.
Xalq öz şair övladını unutmaz,
Xalqın özü – şair olan kəslərdi.

04-05.04. 2005

75-İM

Bu il keçirilməyən yubileyimin şərəfinə yazılıb bu şeir

Könlüm evi eşim-eşim,
Bir kimsəylə yoxdur İşim.
Kimə nə var küncdə qalıb
Mənim yetim yetmiş beşim.

Danışıram pişim-pişim,
Dodağımı kəsir dişim.
Bu dünya – nərdxanasında
Göz çıxardır qoşa şeşim.

Hanı mənim iti şişim?
Paxılın gözünü deşim.
Vallah, bəxtəvər olmayıb
Nə bu günüm, nə keçmişim.

Lap yerlə-göylə əlləşim,
Şərlə, yamanla güləşim.
Qara buludla örtülüb,
Görünməz olub Günəşim.

2005

[1] Bəyim bacı – şairin həyat yoldaşı

AVTOPORTRET

Bir zamanlar işıqçı olmağımla fəxr edirəm

«İşığın yaşı» poemasından bir parça

«Doğra, parçala, kəs, sındır,
Böl, quyuya at, as işığı,
yenə işıq olacaq!
Bütövü də işıqdır, zərrəsi də,
Rəngi də işıqdır, səsi də!
Həcmi də, tutumu da, biçimi də
İşıqdır, işıqdır, ancaq!»
…Zülmətləri yara-yara,
Qorxudulsa da, gizlədilsə də,
İşıq olub insanlara!
Budur – Avtoportretim!
Budur nuri-fikrətim!
Çünki 13 yaşımdan
İşıqdan iş köynəyi
Geyinmişəm əynimə.
Qardaş, indi özün bil,
Ya beləcə bəyən məni,
ya bəyənmə,
o qədər də vacib deyil!
Nə vecimə gələr – bu,
Nə də gələr eynimə!

2009

KİTAB

Var oldu ki, tab
gətirərsən hər əzaba

İnsanı insan eləyər mərifət, elm, bilgi, kitab,
Kitab rəfinə düzülən bər-bəzək deyil ki, kitab?

Nizami, Füzuli, Sabir kitaba dönüb yaşayır,
İnsanın ən böyük kəşfi sayılsın ilkin, ilk kitab.

Kitab gərək kitab olsun, cömərd olsun, aslan olsun,
Düzü-dünyanı tutub, namərd kitab, tülkü kitab.

İndi hər yerindən duran qələm alıb kitab yazır,
Çoxalıbdı nadan kitab, cahil kitab, yüngül kitab.

«Ana dili» də kitabdır, «Anayasa» da kitabdır,
Var asari-ətiqə, qədim, var bildir ki, bu ilki kitab.

«Kitabi-Dədə Qorqud»a bax, gör özünü, kökə qayıt!
Kitabın da soyadı var, dürrdür əsil-köklü kitab.

Kitablar kitabı-kitab, «Qurani-Kərim» də vardır,
Ayələri gün işığı ulu Tanrı körklü kitab.

Yanvar, 2006

KİTAB ATILMAZ

Bəzi kitabxanalardan kiril əlifbası ilə nəşr olunan kitablar atılır

Kitabı yerdə görsən,
Öp, qoy gözünün üstə.
Miz tapılmasa əgər,
Oxu dizinin üstə.

Kitab – çörək kimidir,
Rastlaşmağın – təbərrük!
Göz açıb ana-ata,
Sonra kitab görürük.

Qoy eşitsin cümlə-el,
Qoy bilsin kitabxana,
Kitab atmağa heç nə
Ola bilməz bəhanə!

Bu səhər gördüyümü,
Qardaş, görməyəydim kaş!
Yerdə kitab qalağı
Eynən, daş üstündə daş!

Orda heykəli olan
Bir şair görə-görə,
Kitabını fırladıb
Atdılar küçələrə.

Yığışıb kitabları
Saf-çürük eləyiblər.
«Kirillə yazılanlar
Ta oxunmaz» – deyiblər.

Tələsib, hökm vermək
Sayılmaz yaxşı adət.
Kitab qalıb keçmişdən
Gələcəyə əmanət.

Ərəb, kiril, ya latın,
Ola bilməz maneyə!
Bəs, onda bu kitablar
Bura atılıb niyə?!

Əsl kitabxanada
Hər cürə kitab olar.
Təki, kitab var olsun,
Oxuyanı tapılar.

Oxumaq istəyən kəs
Dözər beş gün əzaba.
Sonra bir sirdaş kimi,
Yaxınlaşar kitaba.

Nə rəngdə olur-olsun,
Kitab əziz tutular.
Bir şey ki, baş ucaldır,
Ayağamı atılar?!

Bakı,
oktyabr, 2009

YETİM ƏLİNDƏ QOĞAL ƏCAYİB

Əlidə var, Vəlidə var – çox əcəb!
Elə ki, məndə oldu,
qiyamət qopdu,
aləm dağıldı,
Səs düşdü – səda düşdü,
Qan düşdü – qada düşdü,
Ayə, qoymayın!
Yetim əlində qoğal əcayib!
Vallah, billah, ayıbdı, ayıb.
Bu həcmdə paxıllıq,
bu mərtəbə kin olar?
Mehribanlıq öyrədir bizə, axı,
Şeirlər, romanlar, kinolar.
Yoxsa yalanmış bunlar?!
Çətini doğulanacandı,
Elə ki, doğuldun,
Guya ki, insan oldun,
Amma, insan olmamaq,
insan olmaqdan asan oldu.
Əli çörəyə çatdı,
Qonşusuna daş atdı.
Deyinirəm, deyirlər
Baş qoşma, bu – həyatdı!

1970

BİR DƏSTƏ YAĞIŞ

Bir yağış – insanın göz yaşıdır,
Yağmağa hazırdır hər an.
Yağanda yeri-göyü yandıran
Göz yaşının hər giləsi,
Yanaqda donub qalmış
Par-par yanan buz zərrəsi!
Təsəllidən isinib əriyən,
Dama-dama ürəyə daman
Sevincdir, dərddir.

Bir yağış – ağacın göz yaşıdır,
Payızda aləm solanda
Yarpaqlar xəzəl olanda
Budaqlardan qopub düşər.
Hər solmuş yarpaq – torpağa
Qüvvət verən qənimətdir.

Bir yağış – daşın göz yaşıdır,
Daşın göz yaşı –
Kasası dolmuş səbrdir.
Sıxılmış dözümdür,
İlahi qüdrətdir.

Bir yağış – çiçəklərin, otların göz yaşıdır,
Şehdir,
Zehdir,
Qövsi-qüzehdir,
Yuyulmuş çəməndir,
Gözəlləşən təbitədir.

Bir yağış – əsl yağışdır,
Bu da göylərin göz yaşıdır.
Gurultu salıb
Şimşəyə bürünəndir.
Ruzi olub yerə enəndir,
Göydən gələn bərəkətdir.

Bütün göz yaşları torpağı yaşadır,
Göz yaşı içməkdən doymadı torpaq.
İnsan, ağac, daş, çiçək, ot, yağış ağlar.
Dünya durduqca – bunlar ağlayacaq!
Bu göz yaşları olmasa –
insan doğulmaz,
ağac bitməz,
daş dözməz,
ot göyərməz,
bulud dolmaz –
həyat olmaz!

08. 2007 – 08. 2009

QARA ŞAMAXISININ UCU İLƏ

«Qara şamaxısının ucu ilə…
gözünün yaşını sildi»

(Mahirə Abdulla «Əvvəl-axır»)

Bu qədər dərdin içində
gör, bir nə yada düşdü.
Nənənin baş yaylığı
Şamaxıdan gəlmişdi.
Qızların, gəlinlərin
göz açandan gördüyü,
baş örtüyü –
Şamaxı imiş demə!
Doğmadan doğma bu söz
Qoy yayılsın aləmə,
Niyə yayılmasın, axı?!

Hanı indi o Şamaxı?
Hanı o analar,
hanı o atalar?
Hanı o naxışlar,
hanı o butalar?
Hanı üstünü toz basmış
o cəhrələr, dəzgahlar?
Hələ də tüstülənir
o zaman çəkilmiş «ah»lar.
Güllərinə qarışıb qalır,
Onda zümzümə edilmiş
bayatılar, vəsf-hallar.
Göllərində göllənib
yanıqlı göz yaşları.
Cəm olub bu yaylıqda
bildiyin bütün nağıllar.
Üzünə zillənib durur,
qızların, gəlinlərin
o zamankı baxışları.
Hanı o otlar, çiçəklər ki,
Göy qurşağıydı Yerdə?
Görən, o otlar, çiçəklər
bitəcəklərmi bir də?..

Ah! Nə incə, nə zərif
olurmuş kəlağayı!
Yerdə insanları
heyrətə gətirmişdi,
Göydə ulduzları,
Günəşi, Ayı.
Marko Polo da görmüşdü
bu yaylığı Şamaxıda.
Axırda
gəlib «Əvvəl-Axır»da göründü.
Bir mərtəbə də ucaldı,
Məni də heyrətə saldı.

Əvvəl-axır bu işə
kimsə əncam çəkəcək.
Yenə Şamaxıda
şamaxılar toxunacaq, çiçək-çiçək
yenə də yaxın Gələcək,
Şamaxıya –
şamaxı dalınca gələcək.

Bakı, 2009

RAHAT YAŞAMAĞI SEVƏNLƏR ÜÇÜN

«Şəhərin mərkəzində rahat yaşamağı sevənlər üçün 14 mərtəbəli bina tikilir» (telereklam)

Rahat yaşamağı kim sevməyir ki,
Belə adam varsa, inanmaz ağıl.
Rahatlıq hər kəsə qismət olmayır,
Bəs niyə od tutub yanırsan, paxıl?!

Adamı adam eləyən puldur a!
Gərək həyətində neft fantan vura.
Yoldaş ol oğruya, qoşul quldura,
Dunya sənin üçün olacaq nağıl.

Sən varsan – əlində varsa var-dövlət,
Yoxsan – qismətində yoxsa səadət.
İnsan olmağına onda nə hacət?
Quma dön, səpələn, torpaq ol, dağıl!

Hanı o mürüvvət, o insan hanı?
Tanı, ikiüzlü dünyanı tanı!
Yenə də ağalar tutub dünyanı,
Əvvəllər kasıb da insandı, mağıl!

Dünyanın işinə göz yumub Allah,
Sən yuxarı baxma, dön cibinə bax!
Sənə yazılmayıb rahat yaşamaq,
Qayıt, get xaraba daxmana qaxıl!

Pulun bunca, hakim olduğu gündə,
Sənin nə işin var göyün fövqündə?!
Səbrini bas, yaşa həyət evində,
Yıxılıb eləsən, torpağa yıxıl!

3+1 (ÜÇ ÜSTƏ GƏL BİR)

Bu daşı biz qaldırmışıq,
Hər küncündən birimiz yapışıb.
İndi üçümüzün adı çəkilir,
Unudublar birimizi.

O daşın bir küncündə
sızım-sızım sızıldayır
birimizin əl izi.

Bu körpünü biz salmışıq,
dörd dayaq üstdə.
Əllərimizdən güc alıb,
taqət alıb,
körpü olub durdu
dayaq üstdə.
İndi üçümüzün adı çəkilir,
unudublar birimizi.
Dayağın birində buza dönüb,
birimizin əl izi.

Bu bulağın gözünü biz açdıq,
Şırıl-şırıl axıb, gedir dərəyə.
Yol keçən hər təşnə adam
Əyilib su içəndə hərəyə
bir «sağ ol» deyir.
O «sağ ol» üçümüzə çatır,
birimizə yox.
Birimizin «sağ ol»u
çaya qarışıb axır…

Dayanbı düşünürəm,
Hamı birdən sevinməz ki…
Qoy bu dəfə onlar sevinsin,
Bu – oyun-oyuncaq deyil,
Həyatdır, axı!

Bakı, 08.1998

MƏRSİYƏ ƏVƏZİNƏ

Əlibala Hacızadənin xatirəsinə
(Eşitdim, bir az əvvəl qəbristanlıq-qəbristanlıq gəzib, özünə münasib yer axtarmısan)

Ömür gəlib direndi axır ki, kor dalana,
Yerdə yer qəhət oldu yerdə yeri olana.

Nədən haqqı olanın üzünə gülmür həyat?
Niyə geciksin, axı sənə veriləsi ad!

Səndən sonra «təəssüf» dedilər ehtiyatla,
Cabirin məşhur şeiri yenə də çıxdı yaddan.

Uyu, düşdüyün yerdə hər yer sənə Vətəndir,
Sənin hekayələrin nə ölən, nə itəndir!

Hamı elə bilirdi xoşbəxtdi Əlibala,
«Batıb bir əli yağa, batıb bir əli bala».

Burda ruhun qırıldı, orda ruhun şad olsun,
İnsan gərək əzəldən bəxti üstdə doğulsun.

Sənin bəxtin – qələmin! Yazdıqların qalacaq!
Haqqa haqq verilmirsə, xalqa dərd olur, ancaq!

Bir-bir gedir dostlarım, dünyada qalıram tək,
Mən gedəndə görəsən kim mərsiyə deyəcək?!

Bakı, 10.2009

SƏN VARSAN DEYNƏN

(Dünyada ən aydın şeir)

Çay axır…
Mən də baxıram,
O, da baxır.
İkimiz də görürük ki,
Çay axır.

Axan çaya baxıb
mən «çay axır» deyirəm.
O, da axan çaya baxıb
«çay axmır» deyir.
Nələ mənə də deyir ki,
«sən də çay axır» demə!
Deməli, sən varsan deynən,
çay axa-axa,
gözüm baxa-baxa,
Gərək, axan çaya «çay axmır» deyəm?
Dünya dərəbəylikdir, bəyəm?!

Dekabr, 2007

GÖZ, GÖZ YAŞIYLA BİRGƏ

Göz görürsə…
Gözün işi görməkdir,
Bu – sirr deyil, bir kəsə,
Görməklə iş bitmir hələ.
Göz gərək axa, süzülə, xumarlana,
Göz gərək parlaya, işara, alışıb-yana,
Gah təbəssümlə dola, gah qəmlə dola.
Gah göz vura, fikrə qərq ola, xəyala dala,
Gah şoğunu itirə, saralıb-sola, süst qala.
Gah sakit çay kimi axa,
Gah şimşək olub çaxa.
Hərdən bimanə görünə, hərdən də pürməna.
Gözdə qəzəb, nifrət, kin-küdurət var,
Gözdə rəhm, qılıq, mehr-məhəbbət var.
Körpəni, uşağı qoruyar, gözləyər,
Ən əziz sirrini dərində gizləyər.

Ataya-anaya göz olar – göz,
İşıqlı dünyaya vurular – göz.
Dosta, yara bir cürə baxar,
Özgəyə, yada bir cürə baxar.
Göz vurğundur təbiətə –
Gördüyünə edər qibtə.
Həsrətlə baxar Aya, Ulduza, Günəşə, Göyə,
Dağı, dənizi, çəməni, düzü seyr eləyər.
Gah uzağa, yaxına zillənə,
Üfüqə boylanar, yola dikilər.
Gah da dənizdə dalğa kimi
Axşam-səhər qabarar – çəkilər.
Saymaqla qurtarmaz»
Amma, bunlardan daha əfzəl,
Daha vacib bir işi var gözün,
Göz gərək ağlaya bilə,
Göz onda daha gözəl olur.
A mənim canım, gözüm!
Ürək gizlində ürəkdir, göz – üzdə ürək!
Göz yaşarırsa – yaşayır demək!

Uşaq kimi kövrələndə,
Bulud kimi dolanda,
Bir anda, birdən,
Birər-birər, dən-dən
Yanağa süzüləndə,
İnci tək düzüləndə
Gəl, gör gözü!
Onda aləmdir göz!
Üstünə şeh daman
Bir cüt odlu köz,
Sönər sızıldaya-sızıldaya…

Ağla, gülüm ağla,
İçin-için ağla, narın-narın ağla!
Ağla zar-zar, korun-korun ağla,
Hönkürüb ağla, hıçqırıb ağla!
Sus-pus ağla, qışqırıb ağla,
Ağla, zülüm-zülüm ağla!
Qorxma, göz yaşı aparmaz
Gözünün qarasını.

Göz yaşında taparsan
Sən dərdinin çarəsini.
Göz yaşı –
Kəsər qəlbin ağrısını.
Yuyar intizarı, nisgili,
Təsəlliyə döndərər pis günü.

Göz yaşı duzludur, acıdır,
Dərd şirin olmaz ki?
Bu dünyada yalnız
qəlbi daş olanın
gözləri dolmaz ki!

2007

TARÇI, TARI KÖKLƏ

İmarət[1] bağında
Qızlar bayramında,
Günəş idi,
biz idik,
bir də Qədirdi.

«Neçin gəlməz»
dağı-daşı yandırırdı,
səmanı titrədirdi.
Günəşin kefi kök idi,
sarı sim kökdən düşmüşdü.
Tarçı bir küncə qısılıb
Deyir: – Allah, bu nə işdi?
Qədir tərs-tərs baxırdı tarçıya –
«Tarçı, tarı köklə!»

«Neçin gəlməz» bağlamışdı yeri-göylə,
Günəş ovsunlanıb, dayanmışdı bir yerdə.
Sarı sim kökdən düşmüşdü,
Səs də enirdi pərdə-pərdə.

İmarət qulaq kəsilmişdi,
Küllü-Qarabağ qulaq kəsilmişdi.
Günəşin sarı telləri
dolaşmışdı sarı simə.

[1] İmarət – Ağdamda qədim imarət və bağ

Sarı sim kökdən düşmüşdü.
«Tarçı, tarı köklə!» –
Qədir tarçıya baxırdı,
Tarçı – Günəşə.
«Heç belə işə düşməmişdim,
Heç belə isti görməmişdim».

«Neçin gəlməz» hələ də gəlmirdi,
Sarı sim daha da kökdən düşürdü.
Tarçı da tarı kökləyirdi hey…
Günəş də baxıb qımışırdı.

Qədirin səbri tükəndi,
əlini göyə uzatdı,
bir topa buludu
qavalın qabağına qatdı.
Çəkib gətirdi, örtdü
Günəşin üzünə.
Qayıtdı yenə
«Neçin gəlməz»inə.

1984

SONRA NEYNİRƏM

On ildən sonra tapılmış qoşma

İndi, çıxart məni, bu sıxıntıdan,
İş işdən keçəndən sonra neynirəm?!
Sən məni vaxtında köçürt yaylağa,
El-oba köçəndən sonra neynirəm?!

Sənə kim dedi ki, təsəlli göndər,
Təsəlli yaşamaq üçündür, məgər?
Sən mənə ruzini bu qıt vaxtda ver,
Yoxsa ki, biçindən sonra neynirəm?!

İndi tut əlimdən, yoxsa gec olar,
Arxasız, köməksiz adam necə olar?
Bu heç olmuş ömrüm heçdən heç olar,
Tale – don biçəndən sonra neynirəm?!

İyul,1999

BİR UMU-KÜSÜ

Sən xalq şairi ol, canın sağ olsun,
Qara camaatın şairiyəm – mən.
Sən sevinc içində boğul, qəmin kəm,
Bu dərdli elatın şairiyəm – mən.

Fəxr et ki, hər yerdə adın başdadır,
Haram şan-şöhrətin dadı başqadır.
Şöhrət baş aldadır, şöhrət baş qatır,
Başqa bir həyatın şairiyəm – mən.

Daha səngiyibdir o səs-səmirin,
Dərin bir sükuta qərq olub, ömrün.
Sən şirin şərbət iç kefindən hər gün,
Bu acı həyatın şairiyəm – mən.

Daha indən belə dahisən, oğul!
Ad səni yaşadır, o – ağa, sən – qul!
Səfakeş üstə qatın dostu oldun, ol!
Cəfakeş alt qatın şairiyəm mən.

İndi ayıran yox qızılı misdən,
Gecəni gündüzdən, kömürü hisdən.
Bunu eləyənlər eləyir qəsdən,
Belə təsnifatın şairiyəm – mən.

Bir umu-küsüdən bu boyda giley?
Nə tale suçludur burda, nə də göy.
Niyə doğma şerim görünür ögey?
Guya ki, bir latın şairiyəm – mən.

Nahaq çıxıb durub, haqdan yuxarı,
Qara dırmaşıbdı, ağdan yuxarı.
Məhək daşı yoxdur xalqdan yuxarı,
Haqqın-ədalətin şairiyəm – mən.

14.07.2005

MÖHÜR – SİYAHI

Hər məşhur idarədə
Bir möhür-siyahı var.
Lazım olanda dərhal
Kağıza, qəzetə, divara
Tappatapla vurular.

Orda həkk olunubdu
Yaxın qohumlar, dostlar.
Üzdə olanlar üzdə,
Yerdə qalanlar astar.

Yenə həmin adamlar,
Yenə də həmin adlar.
Onlardan sonra sönüb,
Tükənib istedadlar.

Orda nə yazılıbsa
Yazılıbdı bir dəfə.
Yalnız onlar layiqdir
Hər cür ada, şərəfə.

«Qaçqın», «köçkün» vardısa,
Qoy o da «seçkin» olsun.
Bu olmasın, o da yox,
Bəs, onda de kim olsun?

Dilim, ağzım qurusun,
«De» – dedim, demə ancaq.
Desən də, deməsən də
Sən deyən olmayacaq.

Sussun da, danışmasın,
Adı ora düşməyən
Cınqırnı çıxartsa
Çevriləcək düşmənə.

01.2004

ŞAİR OLUB

Giziroğlu Mustafa bəy şair olub,
Bunu görcək mən əl çəkdim şairlikdən.
Köhnə ocaq yerlərini eşələyib,
Beş-üç sönmüş köz tapıbmış o, küllükdən.

Eşidincə Koroğlu da pərt olubdu,
Dövran dönüb, namərd çönüb «mərd» olubdu.
Bu millətə şairlik də dərd olubdu, –
Baş götürüb qaçmaq gərək bu tünlükdən.

Şair olub Giziroğlu Mustafa bəy,
Hamı yazır, bu da şeir yazsın gərək.
Bu şeirlə gəl, beşcə gün yaşa, görək –
Xoşbəxtliyin tapıbdı o birgünlükdə.

Şeir gərək əsrlərə əyilməyə,
Səndən əvvəl, səndən sonra deyilməyə,
Ağır ola, barışmaya yerlə, göylə –
Yoxsa ki, bu bomboş qovuq yüngüllükdə?!

Deyirəm ki, hayıf, beş-üç közə, hayıf?
Bir-birinə pərcim olan sözə, hayıf!
El-obaya – sizə hayıf, bizə hayıf!
Caşbaş olub, qalmışıq bu düyünlükdə.

2005

«XATİRƏYƏ DÖNMÜŞ» ŞEİRLƏRDƏN

1. MƏZUNLAR GECƏSİ

Məni dəvət ediblər
Doğma məktəbə yenə.
Düşünürəm gedimmi
Məzunlar gecəsinə?

Bu uca, məğrur, doğma
Binanın hər yerində,
Bizi hər gün ucaldan
Mərmər pillələrində.

Neçə nişanəm qalıb,
Neçə xatirəm donub,
Qəlbimdə neçə kövrək
Sevinc donub, qəm donub.

Getsəm, görsəm yenidən
Onlar canlanacaqlar.
Burda ilk müəllimim var,
Burda ilk eşqim ağlar.

Burda addımlarımdan,
Körpəcə izim qalır.
Höccələyib yazdığım
İlk «Ana» sözüm qalır.

Getsəm, gözümdə yenə
Həmin işıq yanacaq.
Getsəm, onda qırılmış
Ümidim oyanacaq.

O burda olmasa da,
Görüşə gəlməsə də,
Qarşımda dayanacaq,
Titrəyəcək səsim də,
Əsəcək dizlərim də.
Yenə utanacağam,
Gizlədərək eşqimi.
Qəmgin dayanacağam,

Dilim söz tutmayacaq,
Təngiyəcək nəfəsim.
Qoy olsun, nə eybi var,
Onsuz da fikrim, hissim,
Ötüb keçən ömrümlə
Görüş arzulayıbdı.
Onsuz da gəncliyimdən
Ürəyim doymayıbdı.

1957

2. «DAŞLI» BAĞ

Yadındamı, o illər,
Yadındamı, «Daşlı» bağ?
Yaşa dolub, ayrıldıq
Qaldı gözü yaşlı bağ.

Kövrək dünyası vardı,
Bizi saya salardı.
Bizə sayə salardı,
Salxım söyüd saçlı bağ.

Bizi başa düşürdü,
Çox yaxın sirdaş idi.
Nə olsun ki, daş idi,
O başdı, bu başdı bağ

Gəncliyimə dönürəm,
Yanından keçəndə mən.
Sevdalı günlərimdən
Xatirə yaddaşlı bağ.

Oktyabr, 1996

ƏKS-SƏDA

Ömür-gün yoldaşıma

Mən çox arzuma çatmışam,
Bir arzum qalıb dünyada.
Öləndən sonra hardasa
Dönüb olum əks-səda.

Əks-səda, əks səda,
Əks-səda olaydım kaş!
Bu dünyada qalaydım kaş!
Ya meşədə, ya qayada,
Ya dağda, dərədə, çayda,
Göydə, səmada, hər yerdə.
Dünyada – bütün səslərdə,
Özümə məskən tapaydım.
Ağaca, gülə, çiçəyə,
Divara, daşa hopaydım.
Əks-sədaya dönəydim,
Ümid olub görünəydim,
Ürəklərə damanları
Əvvəldən bilə biləydim.
Dara düşən adamlara
Köməyə gələ biləydim.

Haray deyənə «hay» verən,
Quruca bir səs olsa da,
Yollarda yol azmışlara,
Təsəllidi əks-səda.

Evə tələsən oğula,
Gözü yol çəkən anaya,
Qəlbi nisgilli gəlinə,
Bir gözü yaşlı sonaya,
Bir doqqazda dayanıb da,
Yola baxıb çığırana –
Qəmli-qəmli çağırana –
«Gəlirsənmi, ehey-ehey?..»

Mən də eşidib, bu yandan
Qışqıraydım: «Hə, hə, hə, hə!»
O, da mənə inanaydı,
Doqqazdaca dayanaydı.
Mən çox arzuma çatmışam,
Bir arzum qalıb dünyada.
Öləndən sonra hardasa
Dönüb olum əks-səda.

Dekabr, 1987-yanvar, 1988

BİR CÜT İŞIQ TELİ

Gecələrin birində göyə baxdım,
Ulduzlara uçmaq istədim.
«Səmanın o üzündə
görəsən nə var?» dedim.
Bir-bir alışdıqca
yaxın-uzaq səyyarələr,
alışıb yandı heyrətim,
Gəzib dolaşmaq istədim kainatı.
Gözlərimdən bir cüt işıq teli
uzandı göyə.
Mən «işıq teli» dedim, sən «xəyal» de!
Bir cüt zəif parıltı,
ilk bulud topasını
keçincə qırıldı.
Bir sap ümid,
bir sap inam, bir sap arzu hörüb,
düyün vurdum
o bir cüt işıq telinə,
göndərdim yenidən göyə.
Özüm də eyvanda durub
baxdım arxasınca həsrətlə…
Keçdi yerin cazibəsini,
Dolandı ayın başına.
Dan ulduzuna göz vurdu,
Marsın yanından keçəndə
İşıqdan göyərçin şəkli cızdı,
qaranlıq səmada.
(Hərb allahının acığına)

Axdı işıq gələnə,
Ulduzdan-ulduza,
Dumanlıqdan dumanlığa.
İki böldü kainatı,
Yarıb keçdi kəhkəşanı.
Bir müddət görünmədi,
qaldım nigaran.
Hardasa oldu cazibəyə əsir,
Hardasa sındı, əyildi,
güzgüyə toxundu elə bil.
Axdı… axdı… axdı.
Bir cüt işıq teli
geri dönmədi,
axdı yalnız irəli!
Axırda yenə doğma yerə qayıtdı,
kainatın o üzündən,
Magellanın gəmiləri kimi.
Göründü doğma Vətən,
doğma şəhər,
doğma küçələr, məhəllələr.
Doğma ev, qapı…
Hətta durduğum eyvan,
Çevrilib gördüm,
Bir cüt göz baxır mənə arxadan.

1973

YERDƏYİŞMƏ

Lap «Sazəndələr» kimi

İlin, günün bu çağında,
Bir məmurun bağında,
Altı adam əyləşmişdi,
Dördkünc mizin –
Dörd yanında.
İkisi sağ tərəfdə,
İkisi sol tərəfdə.
Biri ayaqda,
biri başda.
Guya iş görəcəklər
bu səs-küydə,
bu dava-dalaşda.
Amma, qoy deyim bəri başdan,
Bu onu bəyənmədi,
O bunu bəyənmədi.
Bu onu əyəmmədi,
O bunu əyəmmədi.
Göz-gözə deyişdilər,
Söz-sözə əyişdilər.
Söyüşdülər,
Döyüşdülər.
Gördülər heç nə çıxmır,
Yorulub, süst düşdülər.
Bu ona qəzəblə baxdı,
O buna nifrətlə baxdı.
Altısı da bir yerdə
Birdən-birə durdular.
Əvvəl, əyləşdikləri
Yerləri dəyişdilər.
Sağdakılar sola keçdi,
Soldakılar sağa keçdi,
Ayaqdakı başa keçdi,
Başdakı ayağa keçdi.
Bir müddət dinmədilər,
Sükuta qərq oldular,
Belə qaldılar.

Dinib danışmadılar,
Elə bil ki, laldılar.
Amma ki, altdan-altdan
Bu onun ayağından çəkə-çəkə,
O bunun ayağından çəkə-çəkə.
Yenə əl-ayağa düşdülər,
Bir də yer dəyişdilər,
Amma heç nə dəyişmədi.
Əgər heç nə dəyişmirsə
Bu dəyiş-düyüş nədi?
İş yerdə deyilmiş, ha,
Adamların özündəymiş!
Yerlər öz yerindədir,
Sənin buna sözün nədir?
Adamlar yerində deyil,
Bütün aləm bilir bunu,
Bunu Yer deyir, Göy deyir.

2004

UŞAQLAR ÜÇÜN YAZILMIŞ ŞEİRLƏRDƏN

1. GİLƏ

Qəşəng qızam, adım Gilə,
Qonaq getdim dayımgilə.
Yağış yağdı gilə-gilə,
Ayaqqabım batdı gilə.

1970

2. İKİ QORXAQ

Əhməd dovşana baxır,
Dovşan Əhmədə baxır.
Əhməd dovşandan qorxur,
Dovşan Əhməddən qorxur.

1971

3. ÇANAQLI BAĞA İLƏ QURBAĞA

Bir çanaqlı
Çağa bağa,
Girdi bağa,
Oynamağa.
Bir qurbağa
Gördü onu
Qoydu lağa.

– Buna bax, a,
Buna bax, a!
Əynindəki
Qına bax, a!
Yaman qorxdu
Çağa bağa.
Elə qaldı
Baxa-baxa.

Sonra dedi:
– Sən də bağa,
Mən də bağa,
Təkcə «qurun»
Artıqdır ha!
Çox döşünə
Döymə, qağa!
Quruldama
Lovğa-lovğa.

1971

BƏS BU NƏDİR

– Bəs, bu nədir?
– Bu quşdur.
– Niyə bura qonmuşdu?
– Dən yeyirdi.
– Dən nədir?
– Mən də görə bilmədim,
Quş hamısını dənlədi.

– Bəs, bu nədir?
– Bu daşdır.
– Necə gəlib bura bəs?
Kimsə daşıyıb daşı?
Daş özü gələ bilməz.
– Kim daşıyıb, görəsən?
– Daş gələndə yuxudan
Durmamışdım hələ mən.

– Bəs, bu nədir?
– Ağacdır.
– Belə də ağac olar,
Hanı bunun alması?
– Almasını yığıblar,
Ağaclar qırılmasın.

– Bəs, bu nədir?
– Bilmirəm,
– Axı, mən də uşağam,
Gedib indi atamdan
Bunu soruşacağam.

1969

QARDAŞLAR

İki qardaş,
İki uşaq,
Biri qorxaq,
Biri qoçaq.

Qaçır pişik…
Biri qorxur,
Biri baxır: –
«Pişik ona
Dəyməz axı!»

Yanır işıq…
Biri qorxur,
Biri baxır: –
«İşıq yerə
Düşməz axı».

Çalınır zəng…
Biri qorxur,
Biri baxır: –
«Zəng adamı
Vurmaz, axı!»

Taxta tüfəng,
Biri qorxur,
Biri baxır: –
«Taxta tüfəng
Atmaz, axı!»

1968

«GƏRAYLILAR»DAN

SON ŞEİR

Döyüşdə ölmədim, deyəm,
Bayrağı örtün üstümə.
Üstündə son misram donmuş,
Varağı örtün üstümə.

Dön bax illərə, aylara,
Nəyim varsa para-para.
Qara günüm çoxdur, qara,
Torpağı örtün üstümə.

Ümidim – yaralı bir quş,
Qolum-qanadım qırılmış…
Üşüyürəm, xəzəl olmuş
Yarpağı örtün üstümə.

Günəşə baxdım bu səhər,
Bir teli mənə bəs elər.
Buluddan süzülən o zər
Saçağı örtün üstümə.

Göylər niyə zalım olsun,
Tale mənə zamin olsun.
Bir dərə məzarım olsun,
Bir dağı örtün üstümə.

Ağsu-Şamaxı-Bakı, 1992

GUZARANDAN KÜSƏNDƏ

O uzaqdan işıldayan
Gümüş deyil, dəmir imiş.
Ömrüm boyu işıq gəzdim,
Demə, bu da ömür imiş.

Dünya oyun, dünya ilğım,
Təpə imiş uca dağım.
Bəyaz bilib tanıdığım,
Qapqaraca kömür imiş.

Təzə çəkmə, təzə qəlib,
İş bacaran bekar qalıb.
Əmir dönüb nökər olub,
İndi nökər əmir imiş.

Çaş-baş qaldıq bu dünyada,
O dünya düşmədi yada.
Qəlbimizdən qopan nida,
Səs deyilmiş, səmir imiş.

Biz gül ikən qanqal bitdik,
Torpağa qarışıb itdik.
Pis zamanda gəlib-getdik,
Dünya evi təmir imiş.

May, 1995

VAR

Tanrı adından iş görən,
Göyün çərxi-fələyi var.
Gündə yerə gəlib-gedən
Neçə-neçə mələyi var.

Tanrım, qoru bizi şərdən,
Çox söz çatır sənə yerdən.
Bilirsən, qövmü-bəşərdən
Hansının nə kələyi var.

Vallah, aləm imiş aləm!
Ekiz bacıdır sevinc, qəm.
Kefi kök olanın da həm,
Qan ağlayan ürəyi var.

Biri varlı, biri kasıb,
Var hər kəsə deyil nəsib.
Buğdaya, una münasib
Xəlbiri var, ələyi var.

Adəmi aldadan şeytan,
Əl çəkməyib bu dünyadan.
Yeri yerindən oynadan
Tufanı var, küləyi var.

Qarışıbdır yalan-gerçək,
Bu dünya olub görəcək.
Bu yuxu uzun sürəcək,
Qurğuşundan bələyi var!

Bakı, 1996

İNSAN

Azad gəlir dünyaya,
Azad cənabdı insan.
Ömrün hər sualına,
Hazır cavabdı insan.

Bilinmir əsl yaşı,
Bəlalar səkib başı.
Özü-özünə qarşı,
Çox bədhesabdı insan.

Bir kəlmə sözdən küsər,
Gülər, ağlayar, susar…
Başdan-başa, sərasər,
Bütöv əzabdı insan.

Aldatmasa nəfs onu,
Danmaz haqqın yolunu.
Bir insan olduğunu
Bilsə – savabdı insan.

Özü gəldi-gedərdi,
Səbri ümman qədərdi,
Çəkər dağ boyda dərdi,
Demə, bitabdı insan.

Hərdən bulud tək dolar,
Tanrıya da ağ olar.
Burdan məhşərə yol var –
Yolda yatabdı insan.

İyun, 1996

TALE, SƏN MƏNİMLƏ BEŞDAŞ OYNAMA

Tale, yerində dinc otur,
Mənimlə beşdaş oynama!
Bu qoca vaxtımda məni
Eyləmə çaş-baş, oynama!

Sən yazılı aynamısan?
Sənə baxsa çaşar insan.
Sən çaşmayıb oynamısan,
Bir dəfə də çaş, oynama!

Sən Yerin-Göyün hakimi,
Məni ərköyün uşaq kimi
Kəs oyunu, saxla hökmü,
Oynama, qardaş, oynama!

Sən oynasan, axmaz sular,
Meşə saçlarını yolar.
Zəlzələn evlər uçurar,
Titrəyər dağ-daş, oynama!

Zəif görmüsən qocanı,
Qırmısan qapı-bacanı.
Mən tapmışam tapmacanı,
Sən ol, qara daş, oynama!

Otur bir az, dincini al!
Yan-yörəmdə tutma qərar,
Lap hirsindən boğul, qaral,
Lap çalxalan, daş, oynama!

Sentyabr, 1996

GİRİR ARAYA

Bir az çox sevinəndə,
Zülüm girir araya.
Yol hamara düşəndə
Ölüm girir araya.

İşim nəhs gəlir, nəhsəm,
Çaşıb bütöv söz desəm.
Bütövləşmək istəsəm,
Bölüm girir araya.

Düşmənə xoşdur halım,
İstər ki, belə qalım.
Bir iş görsə ağıllım,
Dəlim girir araya.

Xəyalım göydən ensə,
Yerdə bir yar bəyənsə,
Ürəyim bir söz desə,
Dilim girir araya.

Sentyabr, 1994

DEYİLƏM

Noolsun tez yeriyirəm,
Amma idmançı deyiləm.
Üstümü unlu görmüsən,
Mən dəyirmançı deyiləm.

Tanımadım dostu-yadı,
Tanıyan məni qınadı.
Bu dünya yalan dünyadı,
Özüm yalançı deyiləm.

Başdan-ayağa dərdmişəm,
Həsrət çəkmək mənim peşəm.
Bir qəlbi talan etmişəm,
Əsla talançı deyiləm.
Fələkdən sinə dağlıyam,

Bəndi-dərəsi bağlıyam.
Xalqımın şair oğluyam,
Quru dilmançı deyiləm.

Sentyabr, 1996

UCBATINDAN

Doğru idik, yalan olduq,
Yalan vədə ucbatından.
Zağ-zağ əsdi ürəyimiz,
Qorxu, hədə ucbatından.

Nökər oldu bəy adımız,
Acı daddı həyatımız.
İtib-batdı soy adımız,
«ov»nan, «zadə» ucbatından.

Fələk – tale yaza-yaza,
Zəhər qatdı aşımıza.
Söz batmadı başımıza,
Yüngül zədə ucbatından.

Yaşadıqca biz yorulduq,
Yanıb-yanıb lap kül olduq.
Yoxsul idik, yoxsul olduq,
Yoxsul dədə ucbatından.

Ta bizə olan olubdu,
Güllü baxçalar solubdu.
Millət pis günə qalıbdı,
Beş-on gəda ucbatından.

1991-1992

DEYİLƏM

Oğlum Orxan Fikrətoğluna

Göydən Yerə baxılsa, mən
Kövrək samanca deyiləm.
Gümanın ağ haləsiyəm,
Hətta gümanca deyiləm.

Əzab torpağı – Yerdəyəm,
Ürəyi pərdə-pərdəyəm.
Mən kamançanın dərdiyəm,
Dərdli kamança deyiləm.

Sözdü mənim son möcüzəm,
Özüm də bir kəlmə sözəm.
Parça buludca acizəm,
Xəfif dumanca deyiləm.

Taleyim bir acı töhfə,
Yaralandım neçə dəfə.
Güllə-günlərə hədəfəm,
Dolu tapança deyiləm.

Bir kimsəm yox çata dada,
Yerdə hamı – Yerli adam.
Mən qəribəm bu dünyada,
Mən bu zamanca deyiləm.

Oktyabr, 1996

ÖZÜM – ÖZÜMƏ

Söz dilinin ucundasa
Qorxma dillən, din saxlama!
Dəvə kinli olar, baba,
Sən insansan, kin saxlama!

Kin ürəkdə güvə olar,
Saxlayarsan dəvə olar,
Dəvə olsa – dava olar,
Damarında cin saxlama!

Təsəllini göydə axtar,
Sənin dadına Haqq çatar.
Rəhm eləyən öz dinin var,
Ehtiyatda din saxlama!

Unut qəmi, seyrə çıx sən,
Dağlara bax, təmkin öyrən!
Müntəzirdi yəhər, yüyən.
Kəhər atı min, saxlama!
Ürəyində kin saxlama!

Oktyabr, 1996

BİZ – SƏRNİŞİN, DÜNYA – QATAR

Kimsə yaxşı demiş, qardaş –
«Biz – sərnişin, dünya – qatar».
Hər kəsin öz isgələsi,
Hər kəsin düşmək vaxtı var.

Dünya kef olsaydı əgər,
Bilinməzdi xeyirlə şər.
Kədərlə ucalar bəşər,
Kədərlə də kama çatar.

Palçığımız tey qəm olub,
İlk adam da Adəm olub,
O, da cənnətdən qovulub,
Daha nə toy, nə saz, nə tar?!

Elə, lap o vaxtdan bəri,
Dünya olub sürgün yeri,
Bəndə salıb bəndələri,
Kim onlardan xəbər tutar.

O dərdlər ki, dünyada var,
İnsana həyandı onlar.
Dünya – dərdsiz, bom-boş olar,
Dünyalıq daşını atar,
Boşboşuna gedər qatar.

Oktyabr, 1996

ÜRƏK

Bir yandan yorulmadan
Damarlara güc vurur.
Bir yandan can evini
Kərpic-kərpic uçurur.

Döyünmək onun işi,
Yorulub əldən düşür.
Ürək – canın günəşi,
Eşiyi nur, içi nur.

Acı sözdən yaralı…
Qorxan kimi saralır,
Qəmlənəndə qaralır,
Sevinəndə uçunur.

İkitinlidir ürək –
Ya sərt olur, ya kövrək.
Ya ömrə olur dirək,
Ya heç olur, puç olur.

1999

OLMAZ

Körpə ikən ağlamasan,
Səni atıb-tutan olmaz.
Yazılmayıbsa alnında
Arzu-kama çatan olmaz.

Dünyaya yaxşı bax, insan,
Yaşamağı sanma asan!
Özün xatalı olmasan,
Ömründə bir xatan olmaz.

Mən bələdəm millətimə,
Gəl-gəl deyərlər yetimə.
İşi düşəndə çətinə,
Yetimə əl tutan olmaz.

Hər ömrün öz günləri var,
Hər bağın öz gülləri var,
Hər parçanın öz yeri var,
Cüna dönüb kətan olmaz.

Evdə, işdə, toyda, yasda
Ömür keçər asta-asta.
Can verəndə başın üstə
Anan olmaz, atan olmaz.

2003

GƏRƏK ÖZÜN QOCALASAN

Özün qocalasan gərək,
Qocalıq nədir biləsən.
Bir zaman gur ocaq idin,
İndi dönmüsən külə sən.

Günlər qaçaqaçla ötər,
O əvvəlki şuxluq itər.
Dörd bir yanında gül bitər,
Dönüb baxmazsan gülə sən.
Göz yorular, əsər dodaq,

Əl tutular, getməz ayaq.
Qov sovrular, çaxmaz çaxmaq,
Heç nəsən indən belə sən.

Görmürsənmi, ömür daşıb?!
Ta, gün batıb, şər qarışıb.
Yaşamaqdan bərk yapışıb,
Dözüb qalmısan hələ sən.

Qoca sümüklərin sızlar,
Sənə baxıb gülər qızlar.
Bu dərdin bir çarəsi var,
Gərək vaxtında öləsən.

Fevral, 1997

DAHA BİR GƏRAYLI

Tələbəlik illərindən bacı bildiyim
Məryəm xanıma

Ömrüm Axsu – dolayıdır,
Dərələrim qubar dolu.
Şerim də düyün-düyündü,
Hər düyünü qabar dolu.

Başını sallayıb gedən,
Doymadın çürük meyvədən?!
Dadına baxmırsan nədən,
Misralarım nübar dolu.

Sənə şirin şirin gəlir,
Şirin sənə dərin gəlir.
Amma mənim şerim gəlir –
Hər eyhamı bibər dolu.

Şirinə aldanma, qoçaq,
Həqiqət acı olacaq!
Barsız söyüd sırma-saçaq,
Turş alça bəhrə-bar dolu.

Şair dərdi görüb, deyir
Dərd də görünür, yeriyir.
Şirin sözlər tez əriyir,
Acı sözlər təpər dolu.

May, 2007

SİLSİLƏ ŞEİRLƏR



www.kitabxana.net



DUA

Oğlum Orxana

Məbədi – Yer kürəsi,
Mehrabı – sonsuz səma.
Bir qoca diz çökübdü,
Dilində həzin dua.

Zilləyibdi gözünü
Düz Allahın gözünə.
Pərişan ağ saçları
Dağılıbdı üzünə:

– Allah, eşit fəryadımı,
Qırma mənim soyadımı.
Rəhm et, düymə göy əsgiyə
Mənim dərdli həyatımı.
Bir şirin nəvə bəxş elə –
Noğulların acığına!

Ya küləyə bələ göndər,
Ya buluda bələ göndər,
Ya da elə-belə göndər.
Bəsdir bəla göndərdiyin,
Bu dəfə də bala göndər.
Canlı nağıl göndər mənə,
Nağılların acığına.

Ya Ayın ay qucağında,
Ya Günəşin saçağında,
Nur parçası göndər mənə,
Qoy sevinim bu çağımda.
Nəvə mehriylə isinim,
Paxılların acığına!..

Fevral-mart, 1998

NƏVƏM SEVİLƏ

O duadan yeddi il keçəndən sonra

YEDDİ VUR ON İKİ

I

Sən sallanıb enmisən,
Günəşin bir telindən.
Günəşin zəri qalıb,
Ayağında, əlində.

Niyə gecikdin, bala? –
Gözüm yolda qalmışdı.
Gəldin, nur topu kimi –
Gördüm gözüm qamaşdı.

Sənsiz bu dünyada mən,
Səndən nigaran idim.
Gəldin ağlaya-gülə:
«Baba, gəlmişəm!» dedin.

II

Tınqır-mınqır yellənir,
Çəhrayı nənnin sənin.
Nənninin baş ucunda
Söylənir ninnin sənin.

Sənə ana dilində
Ninnini nənə söylər,
Dayanıb sənə baxar,
Qayıdıb, yenə söylər.

Ninni göylərə çatar,
Ay yatar, ulduz yatar.
Ay-ulduzun altında
Körpəcə bir qız yatar.

III

Allah, eşitdin duamı,
Dağıtdın qatı dumanı.
Bir nəvə göndərdin mənə,
Həqiqət oldu gümanım.

Üzü Ayın bir parçası,
Barmaqları saman çöpu.
Bir yerdə öpsəm, az olar,
Bir-bir aç-yum, bir-bir öpüm.

Allah, biz aciz bəndəyik,
Sən verdin, sən – qoru onu!
Sərt küləkdən, mor günəşdən,
Bəd nəzərdən qoru onu!

IV

Gec də olsa mənim duam,
Haqqın dərgahına çatıb.
Bir qızılgül qönçə açıb,
Bir pöhrə qol-budaq atıb.

Quru budağı göyərdib,
Bir səhraya bulaq verib.
İllərcə intizar qalan
Bir anaya uşaq verib.

Günəş – işıq əlləriylə,
Bələyibdir bu uşağı.
Dümağ buludlar bələyi,
Bələkbağı – göy qurşağı!

V

Bir ümiddən gör nə kövrək
Təsəlli doğulub bu gün.
Nənə – Sevil fərəhindən,
Nəvə – Sevil olub bu gün.

Ata məsud, ana məsud,
Çiçək açıbdı divarlar.
Bir körpə gəlib bu evə,
Bundan böyük sevincmi var?!

Gəldi gül qədəmləriylə
Gülüstan eylədi evi,
Ay bu evin şahzadəsi,
Atalı-analı böyü!

VI

Elə, indidən bil, qızım,
Şirin olur ana südü.
Qıza nə lazımdı, daha,
Bir də ki, ata öyüdü.

Qız ki, ana südü əmdi –
Gündə bir arpa böyüdü,
Hər dərddən-bəladan onu
Qorudu ata öyüdü.

Ata-ana mehri ilə,
Bu dünya onun evidi.
Bu Yer də onun yeridi,
Bu Göy də onun göyüdü.

VII

Bu gün fələk öz çarxını,
İşıqlı yola döndərib.
Yerə bəla göndərməyib,
Bu dəfə bala göndərib.

O vaxtdan yeddi il keçir,
Məndə Əyyub səbri varmış.
Şükürlər olsun ki, axır,
Səsim Allaha çatarmış.

Allah öz adına layiq,
Ağırlayıb yer oğlunu.
Göydən Yerə nazil edib,
Baba-nəvə nağılını.

10.07.2005

YENƏ SƏNİ GÖRDÜM

I

1
Üç qitə – hərəsi səkkiz sətirdən,
Cəmisi 24 misra məhəbbət.
Az bilib küsmə ha, orda görərsən,
Bir ömürlük ümid, bir dünya həsrət.

Orda şəfəq var ki, üfüqə deyil,
Yayılır hər səhər yanaqlarına.
Orda təbəssüm var – nurdur elə bil,
Günəşdən düşübdür dodaqlarına.

2
Orda sarı geymiş ayrılıq da var,
Yaşıl eşqimizi qoruyaq ondan.
Günlərə bənzəyir orda misralar,
Bir üzü vüsaldır, bir üzü hicran.

Orda arzu var ki, göylərə sığmaz,
Sığıb gözlərinin bir giləsinə.
Orda duyğu var ki, boş yerə axmaz,
Hopub işıq kimi sənin səsinə.

3
Ən gözəl təşbehlər taparsan orda,
Adi söz deməz ki, sevən-sevənə!
Özüm ay nuruna möhtac olsam da,
Günəşi hədiyyə verərəm sənə.

Cəmisi 24 misra məhəbbət…
Onun da yarısı hicran qorxusu.
Bütün bu şeirlər sənindir, fəqət,
Bütün sevənlərə göstər oxusun.

II

1
Yenə səni gördüm, dondum yerimdə,
Keçdin saymazyana qız ədasıyla.
Bu tale, bu yolla qayıtsa bir də
Uyumuş eşqimi oyadasıyam.

Laləsi gecikən dağ çəmənisən,
Gəzirsən ilk bahar iddiasıyla.
Fikrini dəyişib geriyə dönsən,
Sönmüş bir arzuma qayıdasıyam.

2
Sənin gözlərində soyuq bir sükut,
Mənim gözlərimdə səssiz bir fəryad.
Sənin ürəyində «gecikdin, unut!»
Mənim ürəyimdə «diriltdin, yaşat!»

Fəqət, yaşatmadın məhəbbətimi,
Soldu ömrümüzün yaşıl illəri.
Sən yenə gözəlsən ondakı kimi,
Uzalı qalıbdır sənə əllərim.

3
Könlümün xatirə küçələrində
Bir zəlzələ qopdu səni görəndə.
Sönmüş eşqimizin ocaq yerində,
Ümidimi tapdım səni görəndə.

Dedim «ayaq saxla» heç baxmadın da,
Döndün xəzəl olmuş bir xatirəmə.
Hissimin tufanı söndü bir anda,
Tapılmış ümidim qırıldı yenə.

III

1
Onda iradəm də məhəbbətim tək
Qırılmazdı, gülüm, əyilməmişdim.
İndi qəlbim sınıq, ümidim kövrək,
Yenə səni gördüm, sevdaya düşdüm.

Onda məğrur idim, bir acı kəlmən
Soyutmuşdu məni bir qərib axşam.
İndi ondakından daha əzizsən,
Səni itirmişəm, sonra tapmışam.

2
«Əbədi sevgi»dən qorxmuşdum onda,
Bu haqlı suala indi nə deyim.
Bir yorğun ürəkdə sevgi oyadan
Əbədiyyətimdir, səni görməyim.

Dünənim xatirə, sabahım ümid,
Gəl bunları yetir biri-birinə.
Ya qaytar xatirə dünənimi, get,
Ya getmə, sabahkı ümid ol mənə.

3
Sakit dənizimə niyə daş atdın,
Səni qərq etməzmi tufanım, indi?!
Bu yatmış bəxtimi niyə oyatdın,
Təkcə sənə qalıb gümanım indi.

Yelkənsiz tərəddüd qayığınla sən,
Sahilimə yanaş, əlindən tutum.
Ya da birdəfəlik çıx ürəyimdən,
Bir zərrə də qalma, səni unudum.

Bakı, 1967

DAŞ, AĞAC – İNSAN

I

Əvvəl dünyaya daş gəlib,
Təbiət səxavətlə səpələyib,
Dağlara, çöllərə, çaylara daşları.
Haçaqsa ovulub tökülüb Yerə,
Kainatın göy qurşağı –
Ağ, mavi, yaşıl, sarı.
Cürbəcür boyda,
Cürbəcür biçimdə,
Cürbəcür yaşda.
Dünyanı tutub daşlar,
Kövrəyi də var içində,
sərti də.
Mərdi də, namərdi də.
Daş var – daşa qənim,
Daş var – daşa qəhmər.
İşıqlısı çaxmaq daşı,
Soyuğu mərmər.
Daş var – ulduzdan düşüb qalıb,
Daş da var buzdan düşüb qalıb –
Dünyanı gəzən piyada daş, atlı daş.
Dağdan qopan qanadlı daş,
Yumrudaş, sivri daş, çay daşı, çınqıl;
Lovğa daş, sadə daş, qıyımlı, paxıl;
Topa daş da var, yalqız daş da var,
Dünyanı başına götürüb daşlar.
Daş var – asılıb başı üstə,
Daş var – çıxıb daş üstə,
Qaya daş var,
Dağ da var daşlaşıb başdan-başa.

II

Sonra ağac gəldi dünyaya,
Daş ağacı görüb dondu, daşlaşdı.
Hər yerdə bitdi ağac,
Lap daşın üstündə də…
Körpü oldu daşla insan arasında.
Kim bilir ilk ağac cücərib
dünyanın harasında?
Ağacın vətəni olur, yurdu olur,
Ağac sərgərdan deyil.

Pöhrələnir, körpələnir, gövdə tutur,
Qol-budaq atır, yarpaq açır, bar yetirir.
Sonra da qocalır, ölür ağac…
Meyvəsini budaqlarına görə bölür ağac,
Nə üçün yaşadığını bilir ağac.
Həsrəti, kədəri sarı yarpaqlarında,
Sevinci, fərəhi yaşıl yarpaqlarında,
Sinə gərir tufanlara,
Meşə olur, əl-ələ verib dolanır,
Biri-birinə arxa…

III

Axırda insan gəldi…
Sərtliyi, kövrəkliyi daşdan aldı,
Çiçəklənməyi, solmağı ağacdan.
Dözümü, vüqarı daşdan öyrəndi,
Göyərməyi, qocalmağı ağacdan.
Yalqızlığı, susmağı daşdandır,
Birləşməyi, danışmağı ağacdan,
Xasiyyəti daşdandır.
Yaşamağı ağacdan,
Daşı unutmadı, sığındı qayalara,
Daşdan ev də ucaltdı sonralar,
Ağacı unutmadı meyvəsilə dolandı,
Oduncağından ocaq da çatdı sonralar.
İnsan daşı yaşatdı,
Ağacı yaşatdı,
Daş da, ağac da insanı…

VI

İndi bir ömründə
Üç ömür yaşayır insan.
Daş ömrü,
Ağac ömrü,
Bir də öz ömrünü.
Üç yerə bölünüb hər günü,
Kainat təqvimində
Bu ömürlərin üçü bir yerdə.
Üç ilə bərabərdir…
Bəlkə ilanboğan
çağıdır insanın?!
Bu daşlaşmış, ağaclaşmış,
insanlaşmış dünyanın.

Peredelkino, 1977

MAĞARA – BALIQ – İNSAN

I

Türkan.
Çimərlik.
İrigözlü bir uşaq.
Üç şəkil çəkib,
Qumda yana-yana –
Mağara, balıq, insan.
Qəribə gəlir
yaxından baxana.

Mağara eynən
balığa oxşayır.
Balıq da insana.
«Əmilər, xalalar!
Yığışın başıma,
Baxmayın mənim
uşaq yaşıma.
Yığışın başıma,
Sizə nağıl danışım.
Əvvəllər, lap əvvəllər,
Bu dünyada
Dağda, qayada
Xeyli mağara olub.
İllərlə, yüzillərlə
Bu daş evlər, kahalar
boş qalıb.
Günlərin bir günü
Ayaq açıb yeriyiblər.
«Yerdə durduğumuz bəsdir», deyiblər.
İki bir, üç bir, beş bir, tək-tək,
Dayana-dayana, yüyürərək,
Böyrü üstə, dizin-dizin,
Yıxıla-yıxıla axışıblar
Çaylara, dənizlərə.
Balığa dönüblər.
Bacalarına su dolub,
Bir cüt göz olub.
Mağaranın ağzı
Balığa ağız olub.
Daş evlərin,

Kələ-kötür divarları
Pul-pul dəri olub.
Daşdandönmə balıqların
Yuxusu çox dərin olub.
Yola salıblar,
yüz illəri, min illəri
lal-dinməz yaşayıblar.
Elə hey çaylara
kürü daşıyıblar.
Sonra balıqlar
cana doyub, durublar üzə,
üzə-üzə
gəldikləri sahillərə sürünüblər,
Gah orda, gah burda görünüblər.
Dərilərinin pulunu çırpıb,
Ürəklərində təpər tapıb
Dönüb olublar insan.
Nəfəs almaq da olub asan.
Hava da ki, havayı.
Dil açıb danışıblar,
Biliblər ətin dadını,
Ayırıblar otdan buğdanı.

Daş mağaralar dada çatıb,
Daşlar yada düşüb,
Ev tikiblər,
Şəhər salıblar.
Yol çəkiblər,
təkər kəşf eləyiblər,
gəzib dolanıblar dünyanı.

İndi də Göyə
göz dikiblər.
İndi də
quş olmaq istəyirlər,
ulduza dönmək istəyirlər bu dəfə».

Uşaq susur…
Nağıl burda sona çatır.

Birdən
qəzəbli bir pəncə atıb,
qarışdırır şəkilləri.
Uşaq yenə, şəkil çəkir,
qazıq-qazıq edir yeri.
Biri-birinə sıxılır
minillik qum zərrələri.
«Bu – mağara!»
«Bu – balıq!»
«Bu – insan!»
Bu mağaranın ağzı!
Bu balığın ağzı!
Bu da insanın ağzı!

«Əmilər, xalalar!
Yığışın başıma,
Baxmayın mənim
uşaq yaşıma.
Yığışın başıma,
Sizə nağıl danışım».

Bakı, 1982

QARLI ŞEİRLƏR

I

Qar yağır çiçək-çiçək,
Qar yağır qu tükü tək.
Qar sapa da bənzəyir,
Ağ saplar torpaqdakı
Kələ-kötür yerləri
Zərif-zərif közəyir.

II

Elə kövrəkdir ki, qar,
Tutsan əriyər, solar.
Bu nədəndir, görəsən?
Bir ovuc alıb əgər
Sıxsan buza çevrilər.
Bu nədəndir görəsən?

III

Birinci qar əriyər…
İkinci qar əriyər…
Torpağı soyudunca
Əriyər onuncu da.
Qurban gedər buludlar,
Ölər birinci dəstə.
İnad-inad yağan qar,
Sonradan rahat-rahat
Enər torpağın üstə.

IV

Küçə qarla döşəndi,
Necə gəzəsən indi,
Qarın şaxı sınmaya?
Ayaq altında çiçək,
Yerisən əziləcək.
Təbiətin haqqı yox
İnsanları qınaya.

Axı, torpağın altda
Əzizlərimiz yatır,
İnciməz qar da bizdən.
Qar yağır yerə dən-dən,
Qar yağır yerə bir-bir,
Qar da insan üçündür.

V

Cilaladı külək qarı,
Sürüşdü bir zərif qarı,
Daş kimiydi qarın üstü.
Həmin yerdə bir uşaq da,
Dəydi yerə, quş tək qalxdı,
Qu tüküydü qarın üstü.

VI

Günəş yarıb buludu
Bir anlığa göründü.
Qar ağ nura boyandı,
Qar günəşə büründü…
Oğrun təbəssümmüdür
Bunların bu görüşü.
Nə yaxşı ki, dünyada
Qar günəşlə görüşür.

VII

Qara baxıb
Qara demək
Ağ yalandır.
Daha ağı
Qara görmək
Qaralandı.

VIII

Şeir labirint deyil,
Hər döngədə çaşasan.
Məgər hökmdür, qara
Mübaligə qoşasan?

Qar şeiri aydın gərək,
Qar şeiri təmiz gərək,
Şeiri şişirtmək üçün
Qarı niyə şişirdək?

IX

Dalanı süpürdülər,
Səkidəki qarı da
Qazıyıb kürüdülər,
«Sürüşkəndir» – dedilər.
Qorxuram ki, şeirimin
Bəzi misraları da
Silinə nahaq yerə
Həmin bəhanə ilə.

Moskva,
dekabr, 1965

ANTİ-REKLAM VƏ YAXUD GÜZARANIMIZ

I

Bakının hər yerində –
Geniş küçələrində,
Meydanlarında, damlarında
Damağında siqaret,
başında şlyapa
bir «kavboy» baxır bizə –
düz gözümüzə.
Özü də bir az
müəmmalı baxır,
zəndlə baxır.
Bura Bakıdır, axı,
Texas deyil!
Amerika özü papiros çəkmir,
«Ziyandır» – deyir.
Adamın adam aldatdığını
Görmüşəm, bilirəm.
Ölkələr də demə
bir-birinə
fənd işlədirmiş, fənd.
Dünyanı dolanıb gəlir bizə –
«Malbro», «Konqres», «Kent».
Bəs niyə indiyədək
yer tapılmır
Koroğluya, Nəbiyə
heykəl qoyula?!
Amma kavboylar yaraşıq olub,
hər yol ayrıcına,
hər dörd yola!
Şəhəri bürüyüb tüstü,
Bəsdir, atam bəsdir!

II

Kimə gərəkdir
Bu qədər al-əlvan
Neon lampalarıynan
göz vuran əcnəbi adlar?!
Bir-bir yanıb sönürlər,
hərəsində bir illət var.
Bakılı nə bilsin ki,

«Şop» nədir, «market» nədir?
Dilimizin başı üstə
Onda rus qapazı vardı.
Dükanın adı əvvəl
rusca yazılardı,
sonra öz dilimizcə.
İndi də yad sözlər,
Üstələyib dilimizi.
Yenə bir ovuc işbaz
bağlayıb əlimizi.
Kimi bizi Qərbə çəkir,
Kimi də Şərqə.
Kimi də Qərb ilə
Şərq arasındakı fərqə.

Burda bir super-market,
Orda bir super-market.
Burda sil, süpür, var get!
Orda sil, süpür, var get!
Aldat qara camaatı,
Var, get öz işinə!
Güldən ağır bir söz deyən
Tapılmaz sənə.

III

«Gör beni», «Sar beni», «Albeni»!
Axı nəynən alım səni?
Sən baha – maaşım az.
Gözbağlıca zamanıdı,
Yaşamaq oyun olub,
Yaşayan da oyunbaz.
Bu boyda oyun olmaz!
Günü-gündən bahalaşır
Çörək, dərman, nəqliyyat.
Cənnətdə yaşasam da,
Cəhənnəm olub həyat.
Dördnala çapır atını
Üstümüzə bahalıq.
Hara çatır, qiymət artır.
«Qaç, at basdı, millət!»
Vallah, çaş-başdı millət.
Baxıram bazar olub
Küçələr başdan-başa.
Pulluya bazar olub,

Pulu olmayana –
Sərgi, muzey, tamaşa.

IV

Hər həyət təndirxana,
Hər döngə qəssabxana,
Çörəyin dadı yoxdur,
Ət də nuş olmur cana.
Bu yandan da xəbər çıxıb –
Qudurub ingilis əti.
Belə getsə qudurmuşlar
Qırıb-çatacaq milləti.
Dəmir, kağız Rusiyadan,
Duz, saqqız İrandan,
Un, yağ Türkiyədən
Gəlsin nədən?..
Məgər bunlar səndə yoxdur,
A başıbəlalı Vətən?!
Düşmən qonşularının,
Nankor balalarının,
Satqın övladlarının
Əliylə parçalanan,
Talanan, hər cürə sərvəti bol,
Neməti bol, qarnı ac,
Özü yoxsul Vətən!
İstəyirsən deyim sənə
Sözlərin ən düzünü,
Nə qədər ki, hər kəs
Güdəcək özünü,
Alıb-satacaq qonşu
Ölkənin duzunu
Öz duzun olmayacaq.
Bir söz də qəlbimi deşir,
Onu da gərək deyim.
Xalqı dolandırmasa
Vətənin öz çörəyi,
Bu tək-təklər, dəstələr,
Millət olmasa əgər,
Elə-belə olacaq!
Millət unsuz qalacaq!

Aprel, 1996

QƏSİDƏNİN TƏRİFİ

Xəbər verin çapara, xəbər verin qasidə,
Yaysınlar bu xəbəri, hələ sağdır qəsidə.

Bir zamanlar sorağı tutmuşdu bu dünyanı,
Şah vüqarı, duruşu, siqləti də, səsi də.

Onda taxt-tac üstdə, cah-cəlal üçrə idi,
Təmtəraq idi onun adi təntənəsi də.

Dövranlar dövr eləyib dəyişsə də, oxşayıb
Qəsidə babasına qəsidə nəvəsi də.

Bir azca sadələşib, zər libası çit olub,
Amma, görkəmi qalıb, öyrətmək həvəsi də.

Qalıbdı şairlərə şeir yazmaq öyrədə,
Mehri-məhəbbətiylə könülləri isidə.

Ərəbcədən, farscadan qəliz sözlər azalıb,
Qəsidə yazmaq üçün türkcəmiz də bəs edər.

Böyük Nəvai çoxdan sübut elədi ərzə –
Var dünyanın mötəbər türkdilli «Xəmsə»si də.

Bir fövqəlmübaliğə ulduzları mat qoyar,
Bir tutarlı təşbehdən sınar göy qübbəsi də.

Eyham, təlmih, məcazlar biri-birindən arif,
Cinas, rədif, qafiyə durub yan-yörəsində.

Çətin mətləblər açar, quru sözlərdən qaçar,
Daşda hikmət göyərdər dağında, dərəsində.

Hər əli qələm tutan qəsidə yaza bilməz,
Böyük bir həqiqət var, kiçik umu-küsüdə.

Qəsidə yazan şair elmli olsun gərək,
Min bir məna gizlətsin gərək hər kəlməsində.

Söz boxçasında sözü dolu olanlar gəlsin,
Boş sözdən səs çıxmaz ki, ha cingillət, ha səslət!

Qabında nə vardısa üzə çıxacaq orda,
Ha özünü cır-dağıt, ha istəmə, ha istə.

Qəsidə yazmaq üçün şair olasan gərək,
Əruzun ləpiriylə sözün düşə üst-üstə.

Sentyabr, 2006

RUBAİNİN TƏRİFİ

Gedib gəzib Dubayı,
Gəlib yazıb rübai.
Lap Məkkəni gəzsə də,
Havayıdır havayı.

Görməklə iş tam olmaz,
Hər kəsdə ilham olmaz,
El – hamı şeir yazır,
Hər yazan Xəyyam olmaz.

Eşit, ay evi bərbad,
Rubai nədir? Həyat!
Dörd misradan boylanır,
Abu – Atəş, Xaku – Bad.

Hər misra birər – tale,
Dili – göylərin dili.
Sözlərə dərd bələyib,
Çərxi-fələyin əli.

Şəlalə dağdan gəlir,
Al lalə bağdan gəlir.
Rubai – göydən enir,
Rübai – Haqdan gəlir.
Rübai – dördbucaqdı,

Həm keçmiş, həm bu çağdı.
Ləkində hikmət bitən,
Dördləkli baxça-bağdı.

Rəqibdir Günlə, Ayla,
Süslənibdi duayla.
Burdakı hər kəlməyə
Zəmindi Allah-Təala.

Gecə-Gündüz, Xeyir-Şər
Gəlib burda görüşər.
Burda məskundur – Dünya,
Burda qaynaşır – Bəşər.

Rübaidə birlik var,
Birlik kişidə olar.
Burda – Yaz, yay, payız, qış
Bir yerdə tutub qərar.

Burda yüksüz söz – qəhət!
Yüklü sözə də var hədd.
Şimal, Cənub, Şərq, Qərb yox,
Burda mənadır – cəhət.

Rübaidə söz qıtdı,
Az söz, çox dərd dağıtdı.
Söz çox olsa göl olar,
Göl olsa şeir batdı.

Rübai bilməz – nadan,
Yalandan söz oynadan,
Yazıq nə götürüb ki,
Bu gör-götür dünyadan.

Rübai bilməz – naşı,
Əruzdan çıxmaz başı.
Onun üçün eynidir
Sevinc ilə göz yaşı.

O yandan sübhdən bəri,

At çapır bir süvari.
Çapıb başa çıxmayıb,
Yeddi qulacluq yeri.

Bu yanda bir məst-xumar
Fikrinə çəkib tumar.
Sərxoş, fırfıra başdan
Sərrast, ayıq söz umar.

Tutub əlində camı,
Deyir, gətir boxçamı.
Bəlkə orda gizlənib,
Sözlərin ən yığcamı.

Di, gəl aləmə bildir,
Şərab – «şerab» deyildir.
Gördün, sərməst sözlərin
Necə sındı, əyildi.

Hər baxçada dürr olmaz!
Hər işaran nur olmaz!
Şair azad deyilsə,
Yazdığı da hürr olmaz!

Gedib gəzib Dubayı,
Havayıdır havayı.
Şair – şair olmasa,
Yaza bilməz rübai.

Avqust-sentyabr, 2006

QƏZƏLİN TƏRİFİ

Qəzəl – Şərqin incisi!
Qərb inciyir, incisin!
Qərbin də soneti var,
Dərdi var, onda desin.

Qəzəlin tanrısı – eşq,
Əzabı-ağrısı – eşq,
Yarısı məhəbbətdir,
O biri yarısı – eşq.
Qəlbi hicranla dolu,

Göyə şükranla dolu.
Kövrək ürək kimidir,
Hiss-həyacanla dolu.

Qəzəl – şeirin daş-qaşı,
Yandırır dağı-daşı.
Bir beytində təbəssüm,
Bir beytində göz yaşı.

Orda yar-yardan ayrı,
Bülbül Bahardan ayrı.
Aşiq – Aşıq Qəribdir,
Doğma diyardan ayrı.

Orda insan – təbiət,
Bir-birinə olub bənd.
Hər sözü Aydan aydın,
Nə hiylə bilir, nə fənd.

Məcnunların dünyası,
Məhəbbətin aynası.
Ordakı sakinlərin
Yoxdur məkri, riyası.

Zərif xəyal var orda,
Gör nə cəlal var orda.
Cavabı – bir olan söz,
Min bir sual var orda.

Orda sirli-soraqlı,
Möhtəşəm, uca tağlı
Bir qala bürcü hörüb,
Müdrik insanın ağlı.

Qəzəl yaralı sevda,
Ağlı-qaralı sevda.
Sevdadan aralı yar,
Yardan aralı sevda.

Məqam-məqam ağrıyar,
Muğam-muğam ağlayar.
Qəlbindəki ağrını
Gözün yaşıyla yuyar.
Həsrət silsiləsidir,
Qərib ah-naləsidir,

Baba dağından gələn
Dərd-qəm şəlaləsidir.

Göyü Günəşli-Aylı,
Yeri vüsal haraylı.
Beyt-beyt pilləkan,
Hər pillə ahu-vaylı.

Qəzəlin ruhu incə,
Gedər üzü sevincə.
Tükün darağa gələr,
Sevincə, sevilincə.

Mübaliğəsi – hicran,
Təşbehi – can alan can.
Qərinələrdən keçib
Gəlib bu zamanacan.

Qəzəl – ərəbdən gəlir,
Ən yüksək təbdən gəlir,
Ən adi mərifətdən,
Fövqələdəbdən gəlir.

Butası göydən gəlir,
Yanıqlı neydən gəlir,
Həsənoğlu diliylə
Yara gileydən gəlir.

Qəzəl – umu-küsümü,
Ya mehrin meh əsimi?!
İlk görüşün qılığı,
Ayrılığın səsimi?..

Ey qəzələ kəc baxan,
Gör kimlərdi qəzəlxan.
Haqq söz deyib də, göyün
Haqq dərgahına qalxan.

Birər-birər aşiqlər,
Hər biri ər-aşiqlər,
Özləri gün parçası,
Sözləri zər aşiqlər.
Nizami – məşhur – cahan,
Xəqani – sözə xaqan.
Nəvai, Nabi, Hafiz,

Hərəsi bir məkandan.

Nəsimi – dəryayi-nur,
Adı çəkiləndə – dur!
Dünyada nə çox aşiq,
Haqq aşiqi tək – odur!

Təşbeh axtarma hədər,
Qəzəl – Füzuli-kədər!
Göyün – göy cadırından
Gələn qəzavü-qədər.

Qəzəl – könüllü dözüm,
Zənciri düzüm-düzüm.
Məcnunların biri də
Şirvanlı Seyid Əzim.

Həbibi, Sabir, Hadi,
Hər biri bir dünyadı.
Qəzəl – gözün nisgili,
Qəzəl – qəlbin fəryadı.

Söz bitmədi, hələ var,
Bahar, Azər, Şəhriyar,
Süleyman Rüstəm, Vahid,
Az da yazsa Bəxtiyar.

Qəzəl yazmaq çətindir,
Özəl yazmaq çətindir,
Babat yazmağa nə var,
Gözəl yazmaq çətindir.

Avqust-oktyabr, 2006

QIZIL DAĞLAR ÖLKƏSİ

Min ildən sonra

Dağlıq Altay ulu köçərilərin, cəsur ovçuların, hunların yurd yeridir. Qədim altaylı alaçıqda yaşayıb. Altay – başdan-başa ev olub ona. Gəzəri olub, köçəri olub. Çox görüb, çox götürüb. Yazılarını Biçiktu (Bitigtau) qayasına, Orxan daşlarına yazıb. Dağlarını, çaylarını, ocaqlarını və ən adi qaratikanını belə nağıla bələyib, əfsanələşdirib. Onlarca dastan hələ dildə-ağızda gəzir, qələmə alınmayıb. Kəndlərində canlı Homerlər yaşayır. Burda aşığa «Qayçı» deyirlər («qayçı» bəlkə «hayçı» deməkdir). Qayçı elin, Ana yurdun dar günündə, şad günündə hay-harayçısıdır. Onun yaddaşı – insan yaddaşının sonsuzluğuna sübutdur. İnsan yaddaşına bütöv bir kəhkəşan sığışarmış demə. Yoxsa qayçı bu boyda «Maday-Qara»nı bir nəfəsə oxumazdı («Manas»ı demirəm hələ).

Bu dastanlarda qaranlıq və şər tanrısı Yerlik bəy var ki, çoxdan zülmətə qarışıb. İşıq və xeyirxahlıq timsalı Maday-Qara var ki, hələ də yaşayır.

Altaylının girdə üzündə, qonur gözündə, tunc biləyində, mehr dolu ürəyində gördüm – onu. Bu dastanlarda küpəgirən qarı – Dibələk var ki, bütün küpəgirən qarılar onun yanında arı vızıltısıdır. Dibələk neçə-neçə yolçunu yoldan eləyib. Burda hər dağ-dərə, hər çay mənə tanışdır. Elə bil ki, haçaqsa bu yerlərdə olmuşam. Burda Dərdümar adlı açılıb-yumulan qayalar var ki, mənə «Odiseyya»dakı Ssilla və Xaribda qayalarını xatırlatdı. Eynən qara, uca, hiyləgər və zalım.

Burda hər dağın, hər ağacın, hər kolun, hətta hər daşın yiyəsi var. Burda yaxşı adamlar qocalanda ölmür, göyə çəkilib ulduz olur. Yeddi qardaş bürcü, Dan ulduzu belə yaranıb deyirlər. Burda ər-igidlər dağdan-dağa, qayadan-qayaya, çayın bu tayından o tayına atıla bilərmiş, deyirlər. Yaxşı-yaxşı baxsan, indi də qayaların şaxə-şaxə damarlarında, daşların al-əlvan naxışlarında görərsən o günləri. Vadilərdə eşidərsən at kişnərtisini.

1982

I. DOST PAYI

Bir ağır dağ ilə
ağırladılar xətrimi.
Bir ağır dağ bağışladılar
Altayda mənə,
Elə-beləcə dost payı.
Gücüm çatmazdı bütöv dağa –
iki qəlpə daş qoparıb,
gətirdim özümlə.
İki qəlpə çaxmaq daşı!
Dara düşsəm,
bir-birinə çaxacağam.
İldırım çaxacaq,
Dağlar, qayalar yeriyəcək
köməyimə Altaydan.
Belə bir sehr var
dost payında.

II. ÜÇ SÖZ

«Toxmaq», «tomaqavq», «tomraq».
Azərbaycanca, hinduca, altayca.
Dəstəkli balta-bıçaq.
Bir-birinə bu qədər yaxın,
bir-birindən bu qədər uzaq,
üç qardaş sözə bax!
Hünərin var
Di, tap görüm.
Kürən Erikdən qabaq,
Nəsrəddin Tusidən qabaq,
Xristofor Kolumbdan qabaq,
kim açıb Amerikanı
və haçaq?!

III. ALTAY

Altay, qızıl dağlar, qızılı dağlar!
Səni gördüm, ulu Qafqaz yada düşdü.
«Biçiktu» Pitikli dağ, yazılı dağlar.
Səni gördüm, Qobustan yada düşdü,
Gümüşsu – Arcan bulağı.
Səni gördüm, İstisu yada düşdü,
Bir parça aysan, Aygöl!
Səni gördüm, Göy göl yada düşdü,
Xatunsu – Bəysu qovuşduğu yerdə,
Arazla Kürü gördüm,
Suqovuşan yada düşdü.

Qoşağacdan o yana,
Üfüqün o tayında,
Orxan çayı axır dedilər,
Oğlum Orxan yada düşdü.

IV. «PERPETUM MOBİLE»

Bir köçəri – Altay kişi
Hələ tarixin imək̇ləyən çağında
Qurub-quraşdırıb bu mühərriki.
Dirsəkli oxun qütbü – iki:
Yaylaq, qışlaq.
Dörd bölümlü iş:
Yaz, yay, payız, qış.
Dağdan çölə,
çöldən dağa:
Otlaqdan otlağa!
Tanrının otu burda od yerindədir.
Mühərrik o çağdan
işləyir saat kimi.
Dözür günlərin, ayların
acısına, şirininə.
İllərin siqlətinə əyilmir,
Yorğunluq nədir bilmir.
Burda iş görən sürü,
çoban – sürücü!

Atsız keçinməsə də çoban,
at gücü kara gəlmir burda.
Bolluqla ölçülür
bu mühərrikin gücü.
İndiyədək bir dəfə də
təngiməyib nəfəsi.
hələ min illərlə
işləyəcək indən belə.
Köçəri bir çobanın möcüzəsi –
canlı «Perpetum mobile».

V. QOŞA ÇAYLAR – QOVUŞAN ÇAYLAR

Dəclə-Fərat,
Qanq-Camna,
Ceyhun-Seyhun,
Kür-Araz,
Bəy-Xatun,
Bir-birindən xəbərsiz
beş Leyli-Məcnun.

Hələ çox sadalamaq olar,
Dünyanın çox yerlərində qoşa çay var.

Qoşa çaylar –
bir cüt qaranquş,
bir cüt sevgili,
Bu çaylar bir-birinin dilini bilir.
Bəy-Xatun,
Kür-Araz,
Ceyhun-Seyhun,
Qanq-Camna,
Dəclə-Fərat.
Bu çayların yaxasında
ilkin gül açıb həyat.
Bu çayların qolları arasında
məskən salıb ilk məhəbbət.
Əzəldən insana gərək olub,
Su – yer!
Şum – yeri.

Bu çaylardan öyrənib sevməyi,
Dünyanın bütün sevgililəri.
Çaylar öyrədib insana
Bir-birinə qovuşmağı,
qoşalaşmağı,
inad olub dağlar aşmağı.
Çaylar öyrədib insana birləşməyi,
sel olmağı,
ulus olmağı,
el olmağı.
Məhəbbətlə suvarılıb ta əzəldən,
bu vadilər,
bu qobular.
Bir-birinə qovuşan çaylar
gələcəyə açılan qapılar.

VI. GƏLİN XATUN

Ağ geyinib
Üçtağlı Ağcadağdan
sallana-sallana gəlir
Gəlin Xatun[1].
Baxışları qayaları əridir,
yerişi xanım-xatın.

Səhərlər çölün sarısına,
gündüzlər tayqanın yaşılına,
axşamlar yamacların mavisinə,
gecələr dağların qarasına bürünür.

Gah elə axır ki,
deyirsən ay işığıdır.
Gah elə atılır ki,
deyirsən qartaldı, şığıdı…
gah sevincdən atılıb-düşür,
gah həsrətli görünür.
Yol boyunca dəfə-dəfə
dəyişir libasını,
Yüz donu var azı.

[1] Xatınsu – Altayda çay adıdır.

İşıq – kölgə donu var,
Ay – gün donu var,
Ulduz donu var.
Yazın-yayın öz donu,
Qışın-payızın öz donu var.
Çay da olsa qadındır, axı!
Qəmzə donu var, naz donu var,
Sidr, qaraşam, qovaq
yarpaqlarından
neçə-neçə boyunbağı
bəzəyir boynunu.
Ağ, sarı, mavi, yaşıl,
Al da yaraşır ona, şal da!
Yenə bəzənib-düzənib
görüşə tələsir Gəlin Xatun.
Bəy[1] gözləyir onu –
su qovuşanda.

VII. BİR ULDUZ AXDI

Göy Ana
təzə qoğal – ulduz yapacaqdı.
İntəhasız göy təndirə
əlləri əsdi,
üstü xaşxaşlı
qoğal – ulduz düşdü Yerə.

Bir qəlpə sal qayadan,
Bir topa günəş saçağından,
yoğrulmuşdu bu qoğal – Ulduz,
Sidr yarpağı ilə sığallanmışdı.
Göy Ana əlinin tini ilə qoğalın üstündə
qobular yaratmışdı,
dağlar ucaltmışdı.

Ay işığı axıtmışdı
əlini çəkdiyi dərələrə.
Əlləri əsdi
üstü sıra dağlı
qoğal – ulduz düşdü Yerə.
Oldu Altay!

[1] Bəysu – Altayda çay adıdır.

VIII. YİYƏ

Bu qaya göydəmir at,
Bu qaya keçi başlı,
Bu qaya qaraşamlı,
Bu qaya yalınqat.
Burda hər qayanın yiyəsi var,
Bu ağacın, bu yalın,
Bu kolun,
Bu yolun.
Burda Ulduzun, Günəşin,
Hətta, Ayın yiyəsi var.
Altay, sənə ərkim var,
Səndən yaxın kimim var?
Sənə bir söz deyəsiyəm,
Təkcə sənsən bu yurdun yiyəsi,
Qoru bu çayları, bu ağacları,
Qoru bu dağları, bu yamacları,
Qızıl adını qoru!

IX. DÖRD BAYATI

Bu ağ qaya kəhərdimi, ola?
Yastı beli yəhərdimi, ola?
Yalında par-par yanan o,
İncidirmi ola, gövhərdimi ola?

Bu ağac çay Ursumudu, ola?
Ağ üzü urzumudu, ola?
Uğur yola çıxanda
Axan uğurlu sumudu, ola?

Bu Ağcadağ gümüşdümü, ola?
Ağ zirvəsi üçdümü, ola?
Üç maral[1] baxdı göydən,
Dağa işıq düşdümü, ola?

[1] Üç maral – Altayca Orion bürcü

Bu qoca Rerixdimi[1], ola?
Ağ yalda darıxdımı, ola?
Göydəmir ata minib,
Göyü seyrə çıxdımı, ola?

X. YOLÇU YOLDA GƏRƏK

Bu dağın dalında qobu,
bu qobunun dalı da dağ.
o dağın da dalında qobu,
o qobunun da dalında dağ,
Beləcə getdik xeylaq…
Qayalar gördük,
ağappaq.
Qayalar gördük
Qapqara,
Gəlib çatdıq «Dərdümar»a.
«Dərdümar» –
açılıb-yumulan iki qaya.
Bu qayalar
düşmən kəsilib dünyaya.
Bu qayaların
iti dişləri,
üyüdüb zaman-zaman
neçə-neçə alp əri.
Bizi gördü.
Ha güc vurdu,
Tərpənmədi yerindən,
Vəhşi qayalar qorxdu
Dostların birliyindən,
Rus Oleq[2],
Litvalı Alfonsas[3],
Xakas Mixail Külçiçək,
Azərbaycanlı Fikrət,
Altaylı Arcan[4],
Keçdik «Dərdümar»dan.

[1] Nikolay Rerix – əsrimizin əvvəllərində yaşamış, Tibeti, Altayı, Monqolustanı gəzmiş rəssam.
[2] Oleq Şestinski – rus şairi.
[3] Alfonsas Maldonis – Litva şairi.
[4] Arcan Adarov – Altay şairi.

Çiyin-çiyinə,
əl-ələ,
qol-qola.
Məğrur, üzüağ.
Çıxdıq yenə
hamar yola,
düz yola.

XI. ÇAQI

Bu dağda bir çaqı var,
Çaqı – paya.
Yurd yerində
Yerə çaxılar.
Bu dağda bir çaqı var,
Çaqının kədər çağı var –
Onda ki, çaqı tək qalar, darıxar.

Çaqının sevinc çağı var –
Onda ki, qonaq gələr,
At bağlanar çaqıya.
Fərəhindən ucalar aya.
Çaqı gərək naxış-naxış ola,
Düymə-düymə yüyənlərə yaraşa,
Qızıl yəhərli atlara yaraşa.
Çaqı – gərək damar-damar yazıla,
Gərək kəsilə şan-şan,
Tab gətirə bir ilxı at bağlasan.
Çaqı – birlik ağacı,
Elini, obasını bir yerə yığan,
ağac – heykəl,
ağac – söz,
uzaq illərdən gələn ağac – insan!

XII. MADAY – QARANIN ÖLMƏZLİYİ

Açıb sözün düyməsini
gör nə deyir qədim dastan.
Dan ulduzundan enib Yerə,
altaylı –
yerin üstünü-altını
gəzib-dolanıb,
sevib-sevilib,
ölüb-dirilib,
qayıdıb ulduz olub yenə.

Ömür sürüb yəhər üstə,
şəhəri,
küçəsi,
daş evi olmayıb.
Alaçıqda yaşayıb,
yaylaqda-qışlaqda,
Yurd yerləri qalıb ancaq.
Bir də qalıb indiyədək görümünə, biçiminə, boyuna görə –
çaylara, qobulara, dağlara
verdiyi adlar.
«Uğursu», «Arcan-qobu», «Ağdağ»,
Mahnılarını, nağıllarını
ağaclara, axar sulara,
ayın üzünə yazıb.
Yaxşı-yaxşı baxsan
indi də
qayaların şaxə-şaxə damarlarında,
daşların al-əlvan naxışlarında
görərsən o günləri.
Vadilərdə
hələ də eşidərsən,
atların kişnərtisini.

Açıb sözün düyməsini
gör nə deyir qədim dastan.
Döyüşdə, yürüşdə, qocalıb öləndə altaylı –
dönüb ulduz olub yenə.

XIII. DASTAN ÇIĞIRLARI İLƏ

Az getdik, üz getdik,
dərə-təpə düz getdik.
Gecə yatdıq,
gündüz getdik.
«Cegedaman» gədiyində
Dibələyə rast gəldik.
Küpəgirən qarı – Dibələk,
Bizi görüb oldu mələk.
Başladı dil tökməyə,
Məndən Pasleyə[1] dedi,
Pasleydən mənə
Hey dedi.

Yorulmadı qoca çənə,
Tanıdıq Dibələyi,
baş tutmadı kələyi.
Ayıra bilmədi bizi.
Hirsindən qaraldı, qaraldı
tüstüyə döndü özü.

XIV. MİN İLDƏN SONRA

Mən Metenin
Min il əvvəl günbatana atdığı
Dəmir uclu qayım oxam,
Qayıtmışam baxım görüm,
Hanı mənim sadağım?!

Mən müqəddəs Ağqovağın
Min il əvvəl xəzəl olmuş yarpağıyam.
Qayıtmışam baxım görüm,
Hanı mənim budağım?!

[1] Pasley Samıx – Altay şairi.

Altıngöldən
Min il əvvəl su içmiş
Bir yağışın damlasıyam.
Qayıtmışam, baxım görüm,
Hanı mənim buludum?!

Mən dilimin dil açdığı
O çağları unutsam,
Onda gərək bəri daşdan
Soyadımı unudum.

1982

ATAMIN XATİRƏSİNƏ

I. O ÇOVĞUN BƏLKƏ DƏ ÇOVĞUN DEYİLDİ

Təbiətin üzü gör necə küldü,
O qopan qiyamət sənin üçünmüş.
O çovğun bəlkə də çovğun deyildi,
Səni yola salan vida köçünmüş…

Bir ox ki, atılıb – yerə düşəcək,
O yer ürəyincə, kamınca gərək.
Tənha bir otaqda, yalnız bir ürək
Həsrət ahı ilə səssiz keçinmiş.

Qoruya bilmədim səni ölümdən,
Özüm də aciz bir ölәriyəm mən.
Səni görməyimə aman verməyən
Ölüm zalım imiş, əcəl kəc imiş.

Dekabr, 1978

II. QƏLBİNDƏ O QƏDƏR İŞIQ VAR İDİ

Başının üstündə yastı bir təpə,
Dönüb qu tükünə balışın oldu.
Qəlbində o qədər işıq var idi,
Bir işıq dirəyi başdaşın oldu.

Soyuq daşlar durub çiyin-çiyinə,
Nə yaman çəkildin sükut evinə.
Bu qədər soyuqluq yaraşmır sənə,
Otların rişəsi sirdaşın oldu.

Dünyanı dolanıb, gəzib gəlmisən,
Yenə də Vətəni doğma bilmisən.
Niyə əsirgədin son kəlməni sən,
Son sözün bir gilə göz yaşın oldu…

Dekabr, 1978

III. ÜMİDƏ QARĞIŞ

Ümid yaman yerdə aldatdı məni,
Ümidin ümidi qırılsın görüm!
Ala gözlərini alıb apardı,
Əcəlin gözləri kor olsun görüm!

Bu son ayrılıqmı, necə bilmədim?
Quş olub yanına uça bilmədim,
Yetimlik əlindən qaça bilmədim,
Taleyin qapısı vurulsun görüm!

Sinəmə çəkilən ata dağıdır,
Təsəlli bir azca kədər dağıdır,
Hardan biləydim ki, vida çağıdır,
Ölümün öz yeri kor olsun görüm?!

Dekabr, 1978

IV. TƏSƏLLİ

Quru təsəlliyə təslimdir qəlbim,
Quru təsəlliyə möhtacam indi.
Köklü budaqlarım yaşıl qalsa da,
Kökünü sel yumuş ağacam indi.

Yoxsan, heç elə bil atam olmayıb,
Dünyada bu adda adam olmayıb,
Vaxtında dadına çatan olmayıb,
Ha çırpınam indi, ha qaçam indi.

Bükülüb möhkəmlik, yorulub dözüm,
Özümə təsəlli verirəm özüm.
Ata qayğısıyla tox idi gözüm,
Ata həsrətilə mən acam indi.

Dekabr, 1978

V. GƏZMƏYƏ QƏRİB ÖLKƏ, ÖLMƏYƏ VƏTƏN YAXŞI

Ata dağını da gördü gözlərim,
Dağlarımın başı duman, çən oldu,
Atalılar dedi: «Bu günümüz var»,
Atasızlar dedi: «Bizə tən oldu».

Bu yazını poza bilsəydim əgər,
Peşiman qəlbimi didir bəlkələr.
Gəzməyə yaxışıdır qərib ölkələr,
Ölməyə müqəddəs yer – Vətən oldu.

Bütün yaranmışın sonu qəbirdir,
Bu zülmət pərdədir, açılmaz sirdir.
İndən belə daha mənimçün birdir –
Bu nədən olmadı, bu nədən oldu?!

Dekabr, 1978

VI. PAXILLIĞIM TUTUR QOCA GÖRƏNDƏ

Paxıl olmamışam uşaq çağımdan,
Paxıllığım tutur qoca görəndə.
Ən böyük paxılmış təbiət özü,
Gödəldir özündən uca görəndə.

Bir yandan Balanı atadan edir,
Bir yandan mərhəmət, insaf öyrədir.
Dağıtma yuvanı, ah-nalədir,
Sındırma budağı haça görəndə.

Dünyanın günləri ağlı-qaralı,
Tutmaz hər gələnin burda qərarı.
Qəlbimin başını duman-qar alır,
Beşgünlük dünyanı bica görəndə.

Dekabr, 1978

VII. KÖHNƏ DƏYİRMANDI, DAŞLARI TƏZƏ

Özü qapqaradır, üzü ağ olsun,
Ürək ağrısını soyutdu torpaq.
Dönüb ağıçıya ağı söylədi,
Onu da, məni də ovutdu torpaq.

Bir nağıl uydurdu – ata ümidli,
Bir kitab bağladı – qaya cilidli.
Bir sığıncaq verdi – ağzı kilidli,
Hönkürən qəlbimi kiritdi torpaq.

Gərək insan oğlu daş ola, dözə,
Bu nə təsadüfdu, nə də möcüzə.
Köhnə dəyirmandı, daşları təzə,
Dağ boyda dağımı üyütdü torpaq.

Dekabr, 1978

ƏRƏBCƏDƏN DÖRD MƏŞHUR SÖZ

I. SƏMA

Göy – ərəbcə səma,
Əslində «Bəsmum-ma»,
Yəni, su mədəni,
Həyat mənbəyi.

Bir olan Allahın səltənəti –
O uca göylər.
Günəşin tüluu və qürub
etdiyi yer.
Bir də özləri fırlana-fırlana
Durduğu yerdə fırlanan –
Günəşin başına dolanan
səyyarələr.
Daim hərəkətdə olan çox uzaq aləmlər –
cazibə dünyası,
Bir də ki, mələklərin yurd-yuvası,
Ay və ulduzlar.
Bir də dünyanın ab-havası:
Yağış, dolu, qar.
Hərdən qulaq cingildədən sakitlik –
aydun, təmiz, üfüq,
Hərdən də tufan qoparan dəli külək.
Yorulmadan işləyən fələyin çarxı –
Çərxi-fələk.
Alın yazımız,
Qışımız, yazımız,
Acılı-şirinli günlərimiz,
Arzumuz-ruzimiz.
Uzanan əllərin,
Oxunan duaların –
Məbədi,
Müqəddəs, əbədi –
Səma.

II. DÜNYA

Dünya – dəni, yəni – zəlil,
Dünya – dəni sözündəndir.
Dünyanın aciz, vəfasız
Olmasına sözün nədir?

Dünya nədirsə – ərəblər,
Dünyanı o cür görüblər.
Odur ki, ona yaraşan –
Dəni adını veriblər.

III. ADƏM

Torpağın üst qatı – Adəm,
Torpaq olub ilkin adam.
Torpaq olub atam, anam,
Mən özüm də torpaqdanam.

Həmin o üst qatda, demə
On altı maddə cəm olub.
İlk insanın bədəni də
O maddələrdən yoğrulub.

Qadir Allahın əliylə
O çağdan həyat doğulub.
İlk dünya – bizim dünyamız,
İlk insan da Adəm olub.

Qulağında sırğa elə –
Torpağı borc verib torpaq!
Lap yüz il keçsə də, bir gün
Mütləq borcu qaytaracaq.

IV. İNSAN

«İnsan» – ərəb dilində
Sözə qulaq asmayan,
Ona edilən zülmü
Tez unudan,
Unutqan demək imiş.
Qadağana baş əyməyən,
Tapşırıqları eləməyən –
«İnsan» demək imiş.

Bunu biləndə gördüm ki,
Bu cür insanların cəmi,
Elə bizim millət imiş.
Bu sözün bir mənası da
Sən demə, ünsiyyət imiş.
Mehrilə-məhəbbət imiş.
O bizə gəlib çatmayıb,
Bizə çatanı yalnız – bu,
Bu şirin xəyal imiş.
Bir uzaq arzu imiş,
Bir əlçatmaz niyyət imiş.

Mart, 2007

KİÇİK POEMALAR

www.kitabxana.net



AYAMASI DÜZNƏQULU OLAN BİR QOCANIN «MİN BİR GECƏSİ»

I

Bu əhvalat çoxdan olub,
Ayaması Düznəqulu olan bir qoca
günlərin bir günü
cana doyub, yorulub,
deyib: «Bir şəhərin ki,
həkimi naşı,
hakimi zalım,
müəllimi nadan ola,
mən o şəhərdə qalmaram!»

II

Əlinə əsa alıb
Ayağına çarıq geyib,
Düşüb yolun ağına.
Nə qədər deyiblər ona, –
«Qoca, hər yer belədir».
Qulaq asmayıb, deyib –
İnanmaram, əsla!
Bu əsa əyilincə
Bu çarıq dağılınca
Gəzəcəyəm şəhər-şəhər.
Əgər başqa yerlərin də
həkimi naşı,
hakimi zalım,
müəllimi nadan olsa,
Məni gözləməyin,
Deyirəm sizə bəri başdan.
Qurd-quşa yem olaram, dağda-daşda,
Bir də qayıtmaram bura.

III

Az getdi, çox getdi,
ac getdi, tox getdi…
Dərələrdən keçdi,
təpələrdən aşdı,
çaylar addadı.

Gördü hər yerdə
naşı həkimlər,
zalım hakimlər,
nadan müəllimlər
xalqı aldadır.
Gedib dolandı
İranı, Turanı
Bitdə, bitdə…
Gördü burdakılar,
Ordakılardan betər.

Axır, yol gətirib çıxardı onu
Bağdada – müqəddəs şəhərə,
Xəlifənin yaşadığı yerə.

IV

Əvvəl gəldi xəstəxanaya,
Gördü burda bir həkim
Bir uşağın barmağın kəsir,
Dedi: «Allah amanı, əl saxla!
Bu ki, adi dolamadır, dolama.
Bir kəsdən gizli deyil bu sirr,
Bağa yarpağıdır bunun dərmanı.
Bir yarpağı dər, bağla,
Həm sənin canın rahat olsun,
Həm uşağın canı.
Buna baxanda
bizim həkimə min şükür.
Heç olmasa
yaradan başı çıxmayanda
yaranın üstünə üç dəfə tüpürür».

V

Qoca ordan
yollandı divanxanaya.
Gördü burda da bir hakim
bir yetimin qulağını kəsir,
Divan tutur bir kasıba.
Demə bu kasıb
bir xarabalıqdan
bir küp qızıl tapıbmış.

Bu gün son günüdür məhkəmənin,
«Cırıq çarıq geyən kəndçi,
Arpa cadı yeyən kəndçi,
Qızıl sənin harana yaraşır?
Sənə çatır bu küp, al, yaxşı saxla!
Küp diləkdir,
Bir də gördün sənə gərəkdir…»
Bizim hakimə min şükür!
Heç olmasa
bu qızılı bölərdi üç yerə.
bir pay özü üçün,
bir pay xəzinə üçün,
bir az da «itaparan olsun» –
deyib, verərdi kasıba.

VI

Qoca burdan gəldi məktəbə,
Gördü ana dili dərsidir.
Gördü burda da bir müəllim,
Sözlərin başını kəsir,
Danışır kəkələyə-kəkələyə.
Demə, müəllim ərəb deyil, gəlmədi,
Bu müəllimdən dərs alan oğul-uşaq
Ərəb dilini öyrənib,
Moltanıca danışacaq?!
Bizim müəllimə min şükür,
Heç olmasa özü türkdir.

***

Qoca baxdı əsasına,
gördü hələ yeyilməyib.
Qoca baxdı çarığına,
Gördü hələ dağılmayıb,
Elə bil heç geyilməyib,
Dedi: – nə ola, ola!
Üz tutdu yenə səhraya.

VII

Ayamast Düznəqulu olan
Bir qocanı
Sevindirməzmi bu qoca dünya?
Bir şəhər varmı ola –
Həkimi naşı olmaya?
Hakimi zalım olmaya?
Müəllimi nadan olmaya?

1986

DÜZNƏQULUNUN SƏHRADA AZMASI

I

«Qoca baxdı əsasına,
Gördü hələ yeyilməyib.
Qoca baxdı çarığına,
Elə bil heç geyilməyib».

Sonra durdu ta zənd ilə
Bir özünə baxdı,
Bir də baxdı yola.
Dedi: – nə ola, ola!
Üz tutdu səhraya sarı,
Ağır-ağır qalxdı-endi,
Daş asılmış ayaqları.

***

Az getdi, çox getdi,
Kiçildi, gözdən itdi.
Səhra uçsuz-bucaqsız,
Yanır odsuz-ocaqsız.
Hələ Nuh əyyamında
Yuxarı dəyirmanda
Üyüdülmüş, ələnmiş
Kəhrəba yağıb göydən,
Dörd bir tərəf dən-dən,
Göz-göz olmuş,
Narın közlərdi hey…
Göz işlədikcə,
Tutub düzü-dünyanı.

Tanrının da əlləri qarsıb deyirlər,
Hamarlayanda bu böyük səhranı.

***

«Yorğun qoca, təşnə qoca!
Var get, öz işinə qoca!
Bəri başdan, sən bunu bil,
Düznəqulu vaxtı deyil.
Nə işin var bu səhrada azasan?
Zaman o zamandır ki,
İş görmək çətindi,
Söz demək asan!»

***

Üzdəymiş qocanın bəxti,
birdən-birə,
axşam vaxtı,
uzaqda, hardasa
ilğım göründü gözünə,
fırlanırdı fırfıra tək
buludların arasında.
Gah sağda görünürdü,
Gah solda görünürdü.
Gizlənpac oynayırdı sanki,
Yorulmuş qoca ilə.
Gah göyə büləND olurdu,
Gah yerdə sürünürdü.

***

Heç nəyə baxmırdı qoca,
quma bata-bata,
yıxıla-yıxıla gedirdi.
Ayağının altında
geriyə qaçırdı səhra.
İnad qoca, yorğun qoca,
Az getdi, çox getdi,
İlğımı qova-qova
Gəlib çıxdı bir vahəyə.
«Bura cənnətmiş, ayə!
Bu zəm-zəm, bu da xurmalıq!»

III

Durdu, nəfəsini dərsin bir anlıq,
Dincəlsin bir hovur.
Ovuclayıb su çilədi,
Ürəyinin başına.
Zərrəcə əsər eləmədi,
qəlbinin atəşinə.
Söndürə bilmədi yanğısını.

***

Unutdu, hardan gəldiyini unutdu,
Unutdu, hara getdiyini unutdu,
Unutdu bu qoca dünyanı.
Bu dünya bir yanıqlı «aha» dəyməz,
Bəlkə də yazığı gələr Allahın,
Bu qərib səyyaha dəyməz.

***

Əyilib ayaqlarına baxdı
xəbərləşdi,
hal-əhval tutdu,
giley-güzar elədi.
Dedi: Ay öküzlər,
Hara gətiribsiz məni,
Bura haradı?
Bu səhra nə səhradı?
Ayaqlar durdular, şinidilər,
Qocanın üzünə şax baxdılar.
İkisi də birdən:
«Bizi bura sən gətirmisən!» –
Dedilər.
Sonra çəkildilər bir qırağa.
Baş endirdilər,
Bardaş qurub əyləşdilər
Qumun üstə.
Sızıldadılar sızım-sızım.
Qoca, guya eşitmədi,
Ayaqlarının sözünü.

***

Əllərinə tutdu üzünü,
Dedi: Boş-boşuna nə yellənirsiz,
Nə uzanırsınız ora-bura?
Bura haradır?
Bu səhra nə səhradır?
Əllər qalxdı-endi, əsə-əsə,
qocanın sözünü kəsə-kəsə:
«Bura elə sən dediyin,
o üzünə keçmək istədiyin
həmin səhradır» – dedilər.
Sonra da
qocanın üzünə baxıb,
susdu əllər.

***

Qoca durdu hirsli-hirsli,
Gəzişdi sağa-sola.
Bir qulağını bir əliylə tutub çəkdi.
«Sənin bu boyda olmağın müsibətdi,
görəcəkdi.
eşitmədinmi,
küləyin vıyıltısını?!»
«Eşitdik» – dedi qulaqlar.
«Amma, bizə nə?
Ayağın var, əlin var,
Onlar olan yerdə biz nəyik?
Qolubağlı qara quluq,
iki qara fəhləyik».

***

Qoca indi də
zənd ilə baxdı,
gözlərinin içinə.
«Sizi kor olasız!» – dedi.
«Görmədinizmi bu boyda səhranı?»
Gözlər dilləndi:
«Biz görmədik, görmədik,
Bəs sənin fəhmin hanı?!»
Qocanın xətrinə dəydi
gözlərin cavabı,
amma açıb-ağartmadı.

***

Baş başdadı,
Başını qaldırıb,
başını tapdı.
Gördü baş da, bu səhrada çaşbaş qalıb.
Dedi: «Min bir gecə» nağılını
elə əvvəldən mən başladım, mən.
Qoca sevindi:
Boynuna aldın ki, axır
Çoxdan bilirdim, axı!
Başıma nə gəlibsə elə başdan gəlib, başım!
Ağır-ağır, yavaş-yavaş
Tərpəndi baş.
«Yox-yox» – dedi, –
«Sən qoymadın
dinc yaşayım.
Eşit qoca!
Elə əvvəllər də
hər yerdə naşı həkimlər olub,
zalım hakimlər olub,
nadan müəllimlər olub,
yenə də olacaqlar.
Camaatı aldada-aldada
camaata qarışıb,
dolanacaqlar.
Qayıt evinə, kişi!
Tök ətəyindən daşı,
Sənəmi qalıb,
dünyanın işi?!»

***

«Gəzdin İranı, Turanı bitdə-bitdə,
Bağdadda oldun hətta.
Gördün burdakıları
ordakılardan betər».
Yol boyunca hər mahalda,
hər vilayətdə,
hər şəhərdə,
hər kənddə
istədiyini görmədin,
Daha da artdı dərdin.

Qayıt burdan, yoxsa sənə
havayı gəzmək qalacaq.
Bu səhra –
yanmış dünyaların külüdür.
Sənə bu səhrada azmaq qalacaq.
Dünya binnət olandan
Doğru danışanların
ya özləri azırlar axırda,
ya onları azdırırlar.
Budur, bizə gəlib çatan,
Elə ilğım kimidir
axtardığın – həqiqət.
Gah göydədir, gah yerdə,
Gah ordadır, gah burda.
Amma, heç harda yoxdur.
Özündən çıxma, dayan,
Dinc dur, sakit otur!
O nədirsə bitməz bu torpaqda.
Qapı-qapı düşüb
Gündüzün günorta çağı
Çıraqla da
Axtarsan tapmazsan.
Qayıt, öz elinə, obana, insan!»
Baş sözünü deyib, yana əyildi,
düşdü özü durduğu boyunun üstə.
Qoca kor-peşman
geriyə qayıtdı asta-asta.

IV

Bir də baxdı əsasına,
Gördü hələ yeyilməyib,
Bir də baxdı çarığına,
Elə bil heç geyilməyib!
Dedi: «Nə ola, ola!»
Yenə düzədi yola.

V

Hələ də yol gedir qoca,
Gedəcək, dünya durduqca.

2000-2004

DÜNYADAN QAÇAN ADAM

Bu adamın –
illərcə üstünə qəm daman,
səbr kasası aşdı-daşdı.
Bir səhər ayağıyalın, başıaçıq,
baş götürüb evdən qaçdı.
Bir loru söz var elarası –
yaşa ömrü başa çıx!
Bununku boşa çıxdı,
Ayağıyalın, başıaçıq
gəlmişdi bu dünyaya
yenə də elə
ayağıyalın, başıaçıqdı.

***

Qaçdı uzaqdan görünən,
ağ dumana bürünən
dağlara sarı.
Arxasınca dabanbasma
ata-ana,
bacı-qardaş.
qohum-qonşu,
bütün məhlə adamları.

***

Yerindən hövlanak qalxmışdı,
Qarayuxu görmüşdü, nədi?!
Durdu, bir kimsəyə baxmadı,
Bir kəslə bir kəlmə kəsmədi.

***

Yuxulu-yuxulu,
yıxıla-yıxıla
obaşdan qaçdı.
Başı daşdan-daşa dəyə-dəyə,
başına gələn bəlalardan,
qoruna-qoruna,
başını əyə-əyə,
dünyanı söyə-söyə qaçdı.

Dövrandan qaçdı,
Güzarandan qaçdı.
Yerin əzablarından
Cana doyub göyə qaçdı.
Həkimi naşı,
Hakimi zalım,
Müəllimi nadan olan
Zamandan qaçdı.
Yaxşını görmədi,
Yamandan qaçdı.
«Qaç canını qurtar» deyib atalar.
Bu canını qurtarmaqçün candan qaçdı.
Qaçdı, elə qaçdı ki,
lap qanad açdı.
Cana doymuş Tolstoy da
bu cür qaçmışdı evdən.
Daha kim qaçdı, hara qaçdı,
hardan qaçdı,
necə qaçdı,
nə bilim mən?!
Amma, az-çox bilirəm,
Haya-küyə düşdü çoxu.
Kimi xaricə qaçdı,
Kimi kəndə qaçdı.
Kimi kefindən qaçdı,
Kimi dara düşəndə qaçdı.

***

Kimi əsgərlikdən,
Kimi təklikdən,
Kimi həbsxanadan.
Bu adam dünyadan açdı,
Upuzun dəhşətli bir röyadan qaçdı.
Dünyanı başına götürən yalandan,
Ola-ola olmayandan,
Olmaya-olmaya olandan.
Sürünə-sürünə yarpaqlayandan,
Ayaq üstə solandan açdı.
Hamar yolda sağa dönən, sola dönən,
divarlara toxuna-toxuna,
burum-burum burulan,
əyim-əyim əyilən,
neçə-neçə kor dalandan qaçdı.

Gözünün ucuyla da baxmadı
bir varlı ona,
baxmadı bir zəngin ona,
baxmadı bir tox ona.
O, da toxdan qaçdı,
Aca əl tuta bilmədi,
baxa-baxa qaldı,
əlacı kəsildi,
dönüb acdan qaçdı.
«Var» var olsaydı,
O, da var olardı.
«Yox» var oldu ki,
O, da yoxdan qaçdı.
Ehtiyacdan qaçdı.
İndi qaçmışdı, bəyəm,
Əslində o, çoxdan qaçdı,
Evindən-eşiyindən,
İtindən-pişiyindən.
Oğul-uşaqdan qaçdı,
Yaxına yaxın düşə bilmədi,
uzaqda dayandı, uzaqdan qaçdı.
Qaçdı atadan-anadan,
Bacıdan-qardaşdan,
Nənədən-babadan,
Bütün qohum-əqrabadan.
Soyuq kürəkəndən, gəlindən,
Ögey obasından, elindən,
TV-lərin pəltək dilindən,
Düzü-dünyanı tutmuş şeir selindən,
bu qədər yalançı şair əlindən,
paxılların qeybətindən,
xəbislərin söz-söhbətindən qaçdı.

***

Azadlığın azadlığından,
Firqələrin çoxluğundan qaçdı.
Bu parça-parça olmuşlarda
Birliyin yoxluğundan qaçdı.
Ömrü-günü qaçhaqaçda keçsə də,
Ömür boyu astagəldi o,
xeyli astagəl,
bunları da üstə gəl!

Al lalədən, tər bənövşədən,
Sarı zəmidən, yaşıl meşədən.
Qarlı qışdan, barlı payızdan,
İsti yaydan, güllü yazdan,
Aylı-ulduzlu gecədən,
İşıqlı, nurlu gündüzdən,
Daşlı-kəsəkli küdrüdən,
Tikanlı, biyanlı düzdən qaçdı.
Başıçənli, sisli dağdan,
Üfüqsüz arandan qaçdı.
Heç nəyə baxmadı,
bir anda qaçdı.
İşıqlı dünyadan
kor zülmətə qaçdı.
Təbiətdən gəlmişdi, təbiətə qaçdı.
Kimi dərddən qaçdı,
Kimi dərsdən qaçdı,
Kimi əhd-peymandan, sözündən,
Kimi bədnəzər gözündən,
Kimi özündən qaçdı.
Bu dünya belə dünyadı,
Kimi ağlaya-ağlaya,
Kimi gülə-gülə qaçdı.
Kimi bilməyə-bilməyə,
Kimi bilə-bilə qaçdı.

***

Qaçdı qarşı qayalığa,
Sofi Həmid məzarlığı, – boyunca,
Qəbirlərin arasıyla
Əsdi külək kimi.
Naxışlı daşların
Lal-dinməz sırasıyla,
Keçdi güllə kimi.

***

Ayağıyalındı,
Yalın ayağı birdən
Yalın qılınc qəbzəsinə ilişdi.
Üzüqoylu yerə düşdü,
Qolları yana düşdü.

Bu qılıncı kim bilir, kim
Haçaq sancıbmış yerə,
Yaralayıbmış torpağı.
Sızım-sızım sızıldayır,
hələ də yarası.
Ana yurdun oyum-oyum, qəlbidağlı
Bir parçasıdır – burası.

***

Qalxdı hirslə o,
Bir uzun «hu» çəkdi.
Özü nə çəkdisə bir Allah bilir,
Əyildi, dartdı, çıxartdı
Qılıncı torpağın bağrından.
Torpağı qurtardı
O boyda ağrıdan.
Bu qılınc yüzillərcə,
elə-beləcə,
necə var
qalmışdı yerin altında.
Zərrəcə pas atmamışdı tiyəsi,
Burda qədim bir hikmət var:
Mərdin üzü pas atmaz,
Namərdin üzü pas atar,
Lap Taleyin özü imiş,
Bu qılıncın yiyəsi,
Çərxi-fələyin göy dəmirçixanasında,
Göy dəmirindən döyülüb,
Suvarılıb, ovxarlanıb,
naxışlanıb,
Göy daş-qaşlarıyla.

***

Bu adam əlindəki qılıncı
qaldırdı başından uca.
Yıxıla-dura,
qaça-qaça,
Gəlib çatdı Qobustana,
bundan oyanası bənzədi dastana,
Qəbzəsindən iki əliylə
bərk-bərk yapışıb,

göydən gələn
göydəmir qılıncı
zərblə endirdi
çopur bir qayaya.
Səsindən dağ-daş titrədi,
Qaya iki bölündü.
döndü iki parça Aya,
oldu iki Aypara.
Qaya bölündü tən ortadan
iki yerə,
oldu iki yarımkürə,
oxşadı bizim Yerə.
Sonrası oldu gözbağlıca –
bir göz qırpımındaca,
qapı kimi
kürələri aralayıb,
qeyb oldu qayanın içində.
Qayanın hər iki parçası,
bərabərdi, təndi.
Nə o qapı, nə bu qapı qürbət deyil,
Hər parası – Vətəndi.
Açıldı taybatay,
Örtüldü taybatay.
Yenə bütöv oldu Ay.
Birləşdi iki yarımkürə,
Döndü yenə bütöv Yerə.

***

İki parça qaya
açıldı iki qol kimi,
oğlunu basdı bağrına,
Ana torpaq – torpaq Ana.

Bəhram-Gür şahı da
elə-beləcə çağıra-çağıra,
çəkmişdi kamına
torpaq – mağara.

***

Arxasınca gələnlər
Gəlib çatdılar ona.
Ata-ana,
bacı-qardaş,

qohum-qonşu,
bütün məhlə adamları.
Haray-həşir saldılar,
daş götürüb,
Qaval daşı çaldılar.
«Çıx» – dedilər!
«Çıx» – dedilər!
Orda-burda dayanmış
Qara, çopur qayalar da
Qoşuldular insanlara
Dilə gəldi əks-səda
Qayalar da birər-birər
«Çıx» – dedilər!
«Çıx» – dedilər!

***

Daşdan çıxmadı səs-səmir,
Bəlkə bizi eşitmir,
bəlkə çıxmaq istəmir?!
Gələnlərin matı-qutu qurudu,
İnsanlar da,
qayalar da
mat-məəttəl qaldılar,
daş götürüb Qaval daşı çaldılar.
Qurğuşundan ağır anlar
silkələdi ürəkləri.
Peşman-peşman
qayıtdılar üzü bəri…
birdən kimsə: «Durun!» – dedi.
Açıq-aşkar, apaydın.
«Sözüm vardır, qayıdın!»
Səs uzaqdan gəlirdi,
Səs deyildi,
Boğuq bir qəhər idi.
Dedi: – Mənim şərtlərim var,
Əməl edin, qayıdaram.
Bəxtəvər ağlayanda,
Bədbəxt güləndə,
İnsan insanı insan biləndə,
İnsan ölə-ölə yaşamayanda,
Yaşayıb-yaşayıb öləndə, qayıdaram.

Qulaq asın, atam-anam,
bacım-qardaşım,
qohum-qonşum,
siz ey məhlə adamları!
Qoy eşitsin bilsin hamı,
Qış-qış kimi gələndə,
Yaz-yaz kimi gələndə,
Qəlblərdən çən çəkiləndə,
Gözlərdə dan söküləndə qayıdaram.
Dəli-dolu çaylarımız yox,
Sevincimiz aşıb-daşanda qayıdaram.
Qarabağlılar qayıdıb
doğmaca yurdlarında
yenə məskunlaşanda qayıdaram.
Dedilər: – Yox, yox!
Sən saydıqların,
Sadaladıqların
Hələm-hələm
düzələn deyil.
Dedi: – Onda, bu adam da
bu dünyaya gələn deyil!
Gəlməsəm də, qəm etməyin,
O dərdlərim ötən deyil!
O dərdlərim ölən deyil!
O dərdlərim diri qalır,
mən gedirəm.
Dedilər: – Dayan, rəhmə gəl,
Bu daşı tök ətəyindən.
Dedi: – Yaxşı-yaxşı baxın,
Ətəyimdə daş yoxdur ki,
Özüm daşın ətəyində –
başdan-başa daşam mən.
Siz də bilin, indən belə
Kiməsə qardaş deyiləm,
Kiməsə sirdaş deyiləm,
Kiməsə yoldaş deyiləm,
Hətta vətəndaş deyiləm.
İndi ruhlar arasında
Adi bir ruhdaşam mən!

Avqust, 2004

QITI

Boyat kəndində bir Qıtı vardı,
Ağıldan kəm idi bir az.
Dəli deməyə
kimsənin dili gəlməzdi ona,
elə-beləcə Qıtı deyərdilər adına.

***

Çəməndə solmuş bənövşə,
ləçəyi qırılmış lalə görəndə
ağlayardı hönkür-hönkür.
Dindirmək üçün
neçə piyadanı yoldan eləyərdi,
neçə atlını əyləyərdi hər gün.
Əlindən tutub qaldırardı,
sürüşüb yıxılanı.
Ayaqqabısını ayağıyalına verərdi,
özü qalardı ayağıyalın.
Uzaqdan tanıyırdı adamın toxunu, acını,
Uşağı, qocanı
körpüdən addadardı.
Boyat kəndində bir zamanlar
bu qırımda, bu nişanda
bir Qıtı vardı.

***

Günlərin bir günü
evləndirmək istədilər onu,
dedilər «bəlkə bir az həsliyə».
Elçi getdilər, kəndin dilbər qızı Əsliyə.
«El məni Qıtıya ad eləyir,
mənim üçün toy-bayramdı».
…Amma, Qıtı toyu aldadıb qaçdı.
Sarıqayada bir daş tapıb,
gedib durdu yanında.
Soruşdular: «Qıtı, bu nə daşdı?
Ay evi dağılmış, neylədiyindi?»
«Mənim istədiyim bu daşdı» – dedi.

Bərk-bərk qucaqladı daşı:
«Bunu alın mənə, bundan yaxşı
gəlin olmaz Dünyada.
Dönlügün hanı demir,
don istəmir,
su içmir, çörək yemir».

***

Qıtı belə Qıtı idi,
Onun qəlbi sirr dolu
qutu idi.

Ta ömrünün sonunadək
açılmadı bağlı qaldı.
Bu dünyaya çoxları gəlib-gedib,
Bir gün Qıtı da köçdü,
amma Qıtı nağılı qaldı.

1986

AĞ-QARA ŞEİRLƏR
(Ağı-poema)

Oğlum İlkinin xatirəsinə

I Bölüm

I. KÖRPƏMİ İLKİN GÖRƏNDƏ

Körpəmi ilkin görəndə –
İstədim bağrıma basım.
Buludlara, ulduzlara,
Günəşə göstərim.
Fəqət,
O, kövrək əllərivlə
Qaldırdı məni yerdən.
Elə bildim körpüyəm
Yerlə göy arasında.
Elə bildim körpəyəm,
Ömrümün yarısında.

Bakı,
23 iyun, 1963

II. NƏSİHƏT

Sabah üstündə gəzəcəyin torpağı,
Laləsini üzəcəyin çəməni.
Həsrətlə baxacağın göyləri
Verirəm sənə, oğlum.
Təəccüblənmə, qurbanın olum,
Bunları mənə də vermişdilər.
Elə-belə havayı,
Taleyimdən savayı.
Qalanını özüm qazandım.
Bir sönmüş arzumun
Payızında üşüdümsə,
Bir közərən ümidimin
Baharında qızındım.

Yaxşını pisdən ayırınca
çox keçdi,
Ürək – ürək olunca
çox keçdi.
Ömrümün günləri
Ölçüldü əməlimlə.
Ac-susuz
qalsam da günlərlə
Bir gün də yaşamadım arzusuz.
Məhəbbəti baha aldım,
Nifrəti ucuz.

***

Sabah üstündə gəzəcəyin torpaq,
Laləsini üzəcəyin çəmən,
Həsrətlə baxacağın göylər,
Əbədidir, oğlum,
İnsan köçəridir!
Elə indidən vərəqlərini
Əlinlə yazacağın
Ömrünün qədrini bil, oğlum!
Sevincli günlərin qoy çox olsun,
Kədərsiz olsun, oğlum!
Kədəri olsa da,
Qoy əziz olsun, oğlum!

Bakı, 1965

III. GÖY-GÖLDƏ

Qonur gözlərimə,
Qonur gözlərinin
Həsrəti, oğlum!
Göy-gölü dumanlı gördüm sənsiz,
Lalələri solğun!

Göy-göl, 1965

IV. TELEFON SÖHBƏTİ

Sən heç nə demədin, oğlum,
Körpəsən hələ,
Səsini eşitdim,
Elə səsin də bəs idi mənə.
İsti, odlu kəlmələrə
Döndü səsin, isindi hava.
O günü Günəşə qərq oldu
Şaxtalı Moskva,
Qarlı Moskva.

Moskva,
dekabr, 1965

V. NEYLƏYİM

Hicranlara dözümlüdür ürəyim,
Ata hicranına,
Ana hicranına,
Yar hicranına.
Övlad hicranına
Dözə bilmirəm, neyləyim?!

Moskva,
dekabr 1965

II Bölüm

(39 ildən sonra)

Anası Sevilə təsəlli üçün

I. POÇT QUTUSU

Beton evimizin
beton pillələrini
enib-qalxanda
baxıram poçt qutusuna.

Nola, bir də zəlzələ ola,
bu divar yarıla,
bu poçt qutusu sına!

Orda hərdənbir
sənin məktubun olardı.
Anasından küsmüş uşaq kimi,
üzü soyuq dəmirə söykənib
gözləyə-gözləyə qalardı
ta biz o məktubu görüncə.
O məktubda sən vardın!

II. LAYLA

Körpə olanda
bir layla qoşmuşdum ona,
Guya şəkər qatırdım
şirin yuxusuna.

«Bu balanı bala qatın,
Bu balanı qəndə qatın.
Əgər yatmaq istəməsə
Pəncərədən çölə atın».
Əvvəl, laylamdan qorxardı,
Sonra, mənə baxa-baxa
yatardı mışıl-mışıl.
Yuxusunda güllü-çiçəkli
dərin dərələr görərdi.

Uca, qarlı dağlar görərdi,
meşələr görərdi yaşıl-yaşıl.
Göydə Allah da gülərdi
bu layla – zarafata.
Hansı ata –
yatmadığına görə
körpəsini çölə atar?!

***

Sonra, oğlum böyüdü,
boya-başa çatdı.
Özü öz əlləriylə
özünü bilə-bilə
Dəşti-Qıpçaqdan da uzaq
bir çölə atdı.
Bizi saldı dağa-daşa.
18 il həsrət qaldı
Ana oğula,
bacı qardaşa.

***

Adam yatırmağa
Hər cürə laylamız var.
Görəsən,
bu dünyada
Elə bir layla varmı ola,
Yuxuya gedəni ayılda,
Yatmışı oyada?..

III. QATIQ SATAN QOCA ƏMİ

Onda hər gün
qatıq satan qoca əminin
«qatıq var, qaymaq var»
səsinə
yuxudan oyanardı
böyük şəhər.
Sən də oyanıb,
«qatıq var, qaymaq var»
qışqırır qoca əmi
deyərdin hər səhər.

İndi nə o, qatıq satan qoca var,
nə də o qatıq, o qaymaq.
İndi başqa bir qatıqçını
yamsılayır başqa bir uşaq.
İndi sən də yoxsan…

IV. YUXARIDAN GÖRÜNƏN MAŞINLAR

Gör nə düşdü yadıma,
qəribə bir adəti vardı –
Pəncərə qabağında
saatlarla dayanıb durardı.

***

Yuxarı mərtəbədən
maşınların damına baxıb,
bir ad qoyardı hərəsinə.
Yuxarıdan baxanda
hər şey görünür tərsinə.
Birinə «boranı» maşın deyərdi,
birinə «sandıq».
Hərdən ona gülərdik,
hərdən inanardıq.
Bu maşın «qışqıran» maşın idi,
bu maşın «buynuzlu»,
bu maşın «girdə»,
bu maşın «uzun».
Bunlara bənzər
Onlarca təzə söz
Uydurardı özündən.

***

Yalnız damlarını görərdi,
maşınların içərisindən,
içərisindəkilərdən
xəbəri yox idi.
Odur ki, böyüyəndə
adamları tanımadı.
Bilmədi ki,
adı bir cür olur,
zahiri bir cür olur adamların,
amma başqa cür olur əməlləri.
Hələ qabaqdaydı onun
Həyat məktəbi illəri.

V. AGİNSKİ POLONEZİ

Bir dəfə köhnə evimizdə
köhnə pianonun
çərxi-fələk kimi fırlanan
yumru sandalyasına
çırpdı özünü –
(İmtahandan kəsilmişdi).
Bizə heç nə demədi,
pianonun ağ-qara dillərinə
dedi sözünü.
Ömründə –
do, re, mi, fa, sol, lya, si,
nədir bilməyən,
əllərinin altında
inildədi birdən-birə
dünyanın ən yanıqlı polonezi.

***

(Bəstəkarın adında da
gizlənmişdi ağı sözü.
Başdan-başa ağı idi
Ağinksi polonezi).
Dilləndikcə pianonun
Ağ-qara günlərimizə bənzəyən
dilləri ağladı.
Əvvəl, ağlar ağladı,
sonra qaralar ağladı.
Ağladıqca daş ürəklərdə
yaralar açdı,
həmin yaralar ağladı.
Sonra qoşuldu ağlar, qaralara,
qoşa ağladılar.
Sonra tavan ağladı,
döşəmə ağladı,
sonra da ağladı divar.
Uzaqda Babadağın ətəyində
baba yurdunda
dərələr ağladı,
dağlar ağladı,
baxçalar ağladı,
bağlar ağladı.

Bayatılar ağladı,
ağılar ağladı.
Güllər, çiçəklər ağladı,
yarpaq-yarpaq,
buta-buta,
dən-dən.
Başdan-başa yas tutdu,
ağladı çəmən.
Ata-ana, bacı-qardaş, qohum-qonşu,
Hamı əlləri qoynunda,
mat-məəttəl,
məlul-mükəddər.
Dayandılar ayaq üstə,
Göz inanmırdı gördüyünə,
ağıl kəsərini itirmişdi.
Düşüncə əsir olmuşdu,
bu möcüzəyə.
Hamı hamıdan
gözləriylə soruşurdu:
«Nə olub görəsən?»
Bir qəlbin hönkürən fəryadı,
sığmırdı yerə-göyə.

***

Oğul, səndə bu qədər
ağrı hardan?
Bəlkə də bu günü
görürdün onda?!

VI. KİMİM GETDİ

Elə bilməyin ki,
Fikrətin təkcə
bir İlkin balası getdi.
Ahım ucaldı göyə,
Əslində –
bütün İlkinlərin babası getdi.
Bu adı mən gətirmişdim
bu ölkəyə.
İlkinlər İlkini İlkinim getdi…

Zalım çərxi-fələyin çarxı
elə fırlandı ki,
dünyanı elə qarışdırdı ki,
Heç bilmirəm bu dünyada
kimim qaldı, kimim getdi…

VII. İLİN HANSI FƏSLİDİR

Kim deyə bilər ki,
ilin hansı fəslidir?
Payızdı, qışdı, yaydı,
yoxsa, indi bahardır?
Günlər elə keçir ki,
günlər bir-birinə
elə bənzəyir ki,
təqvimə baxmasan
deyə bilməzsən
ilin hansı fəslidir.
Payızdı, qışdı, yaydı?
Yoxsa, indi bahardı?!
Amma, ilin
hansı fəsli olur-olsun
qürbətdə ölmək – intihardı.
Bunu təqvimə baxmasan da
deyə bilərsən.

VIII. QARDAŞ DƏRDİ

Qardaşın Orxanı
Rüsiyyətdən gələn hər xəbər
diksindirərdi.
Yalnız qardaş dərdi çəkən bilər.
Nə ağır dərdmiş
qardaş dərdi.

IX. NİYƏ AXI

Ağlın kəsə-kəsə,
Gözün görə-görə,
Necə dözdün axı,
Necə öyrəşdin axı,
18 il qürbətə?

Nə yaxşı ki, hələ
Gözüyumulu olsa da
Qayıtdın doğma Vətənə,
Qarışdın ana torpağa,
Qovuşdun əbədiyyətə.

X. BİR DAMLA GÖZ YAŞI

Son zəngləşmədə
Dedim: «Ağlını başına yığ,
qayıt vətənə, dön evə!»
Dinmədin… Ağladın
bəlkə də son dəfə.
Biz dünyanın bu başındayıq,
sən o başındasan.
Qürbətdə kövrək olur insan,
Gözündən bir damla düşdü.
Ağır olur qürbətin göz yaşı,
Düşdü, yandırdı dağı-daşı.
Düşdü, keçdi yerin təkinə,
İki yerə böldü Yeri,
bu üzdə ağlatdı bizləri.

XI. VİDA GECƏSİ

Başı bəlalı anan
baş ucunda bardaş qurmuşdu.
Gözü yaşlı bircə bacın
ayaqlarını qucaqlamışdı.
Mən – ortada tək qalmışdım…
Kənardan baxırdım
bu qəmli səhnəyə.

Nə ağlaya bilirdim,
nə bir söz tapırdım deyəm.
Kimsə dedi: –
«Nə yaman uzanmısan, bala?..»
«Əsgər atası» düşdü yadıma.

***

Bütün gecə,
Ta səhərəcən –
elə beləcə
vidalaşdı
ana – balasıyla, bacı – qardaşıyla…

Dəyirman daşı hərlənərdi,
Burda axıdılan göz yaşıyla…

XII. ÜMİD DƏ QIRILDI

Bu gün ona –
göndərdiyimiz
pul da qayıtdı.
Bu son zərbə məni ayıltdı,
Bildim ki, balam orda yoxdur,
Burda da yoxdur daha balam…
Son ümid də qırıldı,
Ordan qayıdan
bir kəlmə sözdən asılı idi,
ümidimin kövrək sapı.

Ay kor olmuş baxtım!
Gecə birdən-birə düşdü,
Sonra Ay batdı,
ulduzlar söndü.
Sonra da evim uçuldu,
çırpıldı qapım.
Ordan qayıdan pula
bacın Aysel,
böyük oğlun Zaura
Sənin adından bir qol saatı aldı…

Sən getdin –
səndən sonra,
səndən bizə
bu dünyada vaxt qaldı.
Dərdləri bitirən, biçən,
Ümidləri göyərdən, qıran,
Dünyanı quran, uçuran
Səbir kasamızı daşdıran,
Düyünləri bağlayıb-açan,
Dolaşdıran,
İnsanı yaşadan
və
çaşdıran Vaxt!

XIII. UÇURUM

Dünyaya gələn gündən
Taleyinə uçurum yazıldı, oğlum!
Dərdli günlərin çox oldu,
Fərəhli günlərin az oldu, oğlum!
Ömrü boyu bu dünyada
uçurum üstündə yaşadın.
Dünyadan köçəndə də məzarın
Uçurum üstündə qazıldı, oğlum!

XIV. ALIN YAZISI

Görünür yazı yazan belə yazıb,
belə yozub,
Amma nə olsun ki,
qoy asi desinlər mənə.
Kimsə sıranı pozub,
Bu sənin işindir, fələk!
Bu sənin oyunundur, ey qəzavü-qədər!
Bir qocaya çox deyilmi
bu ağırlıqda kədər?

Bəlkə də çaşıb mələklər,
Mən yaşda atanı burda qoyub,
Görüblər – sən yaşda oğulu.
Oğul, oğul, ay oğul!..
İndi ha döy başına,
ha yan-yaxıl!

Sən nə görmüşdün ki?..
Həyat dedikləri şirin bir nağıl!
Sən bu nağılı görmək üçün
baş götürüb dünyanı gəzdin.
Sən bu nağılın şirin dilinə uydun,
tilsiminə düşdün,
meşəsində azdın.
Bu aldanış –
gör bir sənə neylədi,
gör bir mənə neylədi…
Bəlkə göylərdə də
yerdəkilərə bənzər
məmurlar var.
Yoxsa, bu boyda –
müsibət olar,
zülüm olar,
dərd olar?..

Bakı,
oktyabr-noyabr-dekabr, 2003

III Bölüm

I. BALAM

Güclü pəhləvandın, yoxsa
Dəmirçiydin, nəydin, balam?!
Məni ikiqat qattadın.
Düz qəddimi əydin, balam!

Güləşmək nədi, ay nadan?
Taledir bizi oynadan.
Küsüb bu nahaqq dünyadan,
Haqq qapısın döydün, balam!

Bilə bilməzdin ki, niyə,
Asi oldun yerə-göyə,
Elə vətən deyə-deyə,
Qürbət donun geydin, balam!

Dünya zalım adam kimi,
Olur fağırın qənimi.
Kimdir suçlu? Mənmi, sənmi?
Sən – dünyanı söydün, balam!

(Bu gün sənin ad günün idi)

23.06.2004

II. ANALAR – BƏNÖVŞƏLƏR

…Başdan ağlar,
Ağlayan başdan ağlar.
Oğlu ölmüş analar,
Durub obaşdan ağlar.

(Bayatı)

Mən belə ana görməmişəm, anam!
Ona – bu dünya bir yana,
bu göylər bir yana,
Allah bir yana,
Övladı bir yana.

Dünyadan küsüb,
Göylərə asi –
qalıb əlləri qoynunda,
səssiz-səssiz,
Ağlaya-ağlaya
Yana-yana.

***

Günəş də obaşdan boylanar,
Nur saçar cahana.
Quşlar da obaşdan oyanar,
Civildəşər.

Qoy eşitsin cümlə-bəşər,
Qoy eşitsin bilsin göylər!
Günəşlər, Aylar, ulduzlar,
Ormanlar, dərələr, dağlar,
Oğlu ölmüş analar
Durub obaşdan ağlar!
Nə qədər ki, səhər, obaşdan
Oyanır təbiət,
Nə qədər ki, Günəş var,
Pozulmaz bu adət!

***

Burda, kövrək bənövşələr
Yada düşər…
İlk baharda, qarlı-
şaxtalı gecələrdə
Üzü bərk, sərt torpağı dəlib,
Ox kimi keçər daşdan.
Üzə çıxar obaşdan
Çəməndə, dağda, yamacda
Topa-topa,
Birər-birər,
Gözü yaşlı – Bənövşələr.
Dünyanın dərdini
Dünyaya gəlməmiş bilər,
Başına qara örtüb gələr,
Dünyaya gələn gündən yaslı – Bənövşələr.

Obaşdan ağlayanların
ən ilkini,
ən qədimi!
Hər səhər boynlarını büküb dururlar,
Obaşdan ağlayan analar kimi.

***

Qınamayın obaşdan ağlayanları!
Anaürəkli bənövşələri,
Bənövşəürəkli anaları!
Qoy doyunca ağlasınlar barı!

21.02.2004

III. KREML DİVARI YANINDA

Yadındamı, onda
sən əsgər libasında,
mən həsrət havasında.
Atamı 38-də,
Maqadana göndərən
Kreml divarı yanında,
yan-yana, əl-ələ
şəkil çəkdirmişdik.

Düşmən – qürbətdə.
Kor olmuşdu yaddaşımız,
Keçmişi unutmuşduq bilə-bilə.

***

Mənim lay divarımı uçurtdu,
öz divarı uçulsun!
Arzusu gözündə qalsın,
niyyəti puç olsun!
O (qızıl yox) qanlı –
Qırmızı meydannın
qəzəbinə gəldin sən də!
Hələ,
əsgər gedəndə
demişdin, «bəlkə qayıtmadım».
Bəzən son gününü
əvvəlcədən görür adam.

Dekabr, 2004

IV. TƏLQİN

Bəlkə İlkin hələ orda – qürbətdədir,
Bəlkə bizə göndərilən İlkin deyil?!
Bəs bu boyda ağrı nədir? Həsrət nədir?
Hər özünütəlqin hələ, təlqin deyil.

Bu dərd qana hopub axır damar boyu,
Tək qəlbi yox, yandıracaq dağı-daşı.
Göyüm-göyüm göynədəcək yeri-göyü,
Məzaradək kəsməyəcək gözüm yaşı.

Bu dərdimi dəyişmərəm təlqinə – mən,
Təlqin-xəyal! Olsa-olsa təsəllidir.
Dağ cüssəli övladımı itirmişəm,
Mənə – ilin dörd fəsli də dərd fəslidir!

09.01.2004

V. ŞÜBHƏ VƏ HƏQİQƏT

Bəlkə elə Rusiyətin bəlasına gəlib balam?!
Bilən bilir, hardan gəlir indiyədək mənim bəlam.

Bu bəlanın təməl daşı Gülüstanda qoyulubdu,
Bir Gülüstan – o zamandan oyum-oyum oyulubdu.

Bu bəladan gəlib bizim başımıza min bir bəla,
Bəlaların üstü ilə gəlib çatdıq istiqbala.

Dön, bir sən, o Yanvara bax, o dəhşətli qırğını gör!
Ana yurdun taleyinə otur ağla, hönkür-hönkür!

Dərdlərinin ən acısı – Qarabağı yadına sal!
Qarabağın öz xoşuna qayıtması hələ sual.

Vətən, sənin bir dərdin də dərdlər dərdi – qürbət dərdi,
Kor ehtiyac ucbatından övladların dərbədərdi.

Qürbət eldə günəş soyuq, qürbət eldə yollar daşlı,
Qəriblərin qəlbi kövrək, qəriblərin gözü yaşlı.

Orda – düşmən qapısında sevincdən yox əsər-ətər,
Ağ günlərin dumanında həftədə bir qara xəbər.

Özgə, «qara» millət bilib istəmirlər cümləmizi,
Təkləyirlər, dənləyirlər bilə-bilə, bir-bir bizi.

Ermənіyə arxa duran baxmır haqqa, ədalətə,
Bəlkə, İlkin övladım da qurban gedib ədavətə.

Vətənmi ya, qurbətmi ya, yoxsa mənəm bunda suçlu?
Bu sirr hələ açılmayıb, bu sirr hələ bizdən güclü!

Bir şübhəni əvvəl-axır bir həqiqət yenəcəkdir,
Bəlkə onda,
balamın da
Perik düşmüş qərib ruhu doğma yurda dönəcəkdir!

10.02.2004

VI. BİR RUHU KÜSKÜNƏ

(Oğlum İlkinə)

Bu sirri-mübhəmi bir Allah açar,
Mən aciz bəndəyəm, açа bilmərəm.
Dünyalararası yalnız ruh uçar,
Mən hələ insanam, uça bilmərəm.

Ey kimsəsiz qərib, ey ruhu küskün!
Ey qəlbi niskilli, taleyi miskin!
Ey hər gün üstünə göydən dərd yağan,
Ey gecəsi hüzün, gündüzü çiskin!

Ay-ulduz söndümü, gün tutuldumu?
Əzablı günlərin unuduldumu?
Qürbətdən Vətənə necə gəldiyin
Sərgərdan ruhuna əyan oldumu?!

Gavahın toxundu daşa, əyildi,
Bu insan, bu qədər yaşaya bildi.
Mən alın yazısı demirəm buna,
Bu başqa dərd idi, tale deyildi.

Şimalda, darısqal qürbət küncündə,
Yaşadın tək-tənha yadlar içində,
Neçin, bir az əvvəl özün gəlmədin,
Min ağrı cəmlənib, bu bir «neçin»də.

Səsim sənə çatmaz qışqırsam belə,
Ruhlar danışırlar sükut diliylə.
Sənin doğma yurda qayıtdığını,
Sən bilə bildinmi, bilmirəm hələ.

Ərşə büləndoldu fikrim, xəyalım,
Göylərə dirəndi ağır sualım.
Bilə bilmədim ki, bildin-bilmədin,
Yoxsa ömür boyu nigaran qalım?!

Bunda nə hikmət var, görəsən nədən –
Elə Vətən deyir qürbətə gedən?!
Hər qürbətə gedən qürbətdə qalsa,
Azalar torpağı, kiçilər Vətən.

Deyirlər, dünyada iki dünya var,
Guya bitişikdi həmin dünyalar.
Necə bitişikdi, ordan xəbər yox,
Kim burdan o yana ismarıc yollar?

Bu dünya nurlu bir güman içində,
O dünya bəyaz bir duman içində,
Amma, ümidini kəsmə, səbr elə,
Buğda dənəsi var saman içində.

Əgər iki dünya varsa dünyada –
Bu dünya əfzəldir, demə nəbadə.
O dünya üçün də burda yaşa ki,
Orda düşməyəcək bu dünya yada.

«Bu dünya – haqq dünya!» – deyənlər də var,
«O dünya – haqq dünya!» – deyənlər də var.
Əgər ikisi də haqq dünyadırsa.
Bəs niyə arada gizli pərdə var?!

Bu dünya səs-küylü, cismani, fani!
O dünya göylərdə, səssiz, ruhani!
Bu səsli dünyanın bircə gününə
Bütöv dəyişərdim o lal dünyanı!

Bakı,
2003-2004

VII. GECƏ TAKSİSİ

Hərdənbir… Gecə…
Evimizin qabağında,
Taksi dayananda,
oyanıram əyləcə.
Əyləcin paslı qıcırtısına,
çırpılan qapı səsinə,
diksinirəm, oğlum!
Az qalır mənimlə bahəm,
ev də diksinə.

***

Sən də həmişə…
Gecə qatarından düşüb,
elə-beləcə gələrdin…
ölkələri basa-basa,
sərhədləri keçə-keçə.
İndi həsrətəm sənə…

Oktyabr, 2004

KİRİLDƏN LATINA

Əvvəllər nəşr olunmuş kitablardan seçilmiş şeirlər

www.kitabxana.net



CIĞIR

Dərə keçib, dağ aşıram,
Yamaclara dırmaşıram.
Bir tərəfim çay, uçurum,
Bir tərəfim qalın meşə.
İllər boyu təkmi durum?
Fikirliyəm mən həmişə.
Mən ot basmış bir cığıram,
İnsan üçün darıxıram.

Yorğun gözüm yolda qalıb,
Dörd yanımı tikan alıb.
İstəmirəm itim-batım,
Unudulmuş cığır kimi.
Nəyə lazım bu həyatım,
Qıracaqsa ümidimi?!
Mən ot bitmiş bir cığıram,
İnsan üçün darıxıram.

Ey insanlar, dəstə-dəstə
Gəlin çıxın sinəm üstə!
Mən də gülüm bu dünyada,
İstəyimcə görüm sizi,
Addım ürək ağrıtsa da,
Həyatımdır ayaq izi.
Mən ot basmış bir cığıram,
İnsan üçün darıxıram.

Şamaxı,
1959

DAŞLAR

Yerin altında qalan,
Qaya olan,
Dağlara, dərələrə, düzlərə
Yuvarlanan
Daşların dərdi
Sığmır yerə-göyə.

«Niyə bizi görmürlər, niyə?»
«Niyə o biri daşlar kimi
Bizi də,
Divara,
Qalaya,
Körpüyə
Hörmurlər niyə?
Razıyıq, döşəsinlər
Lap ayaq altına.
Razıyıq, bünövrə olaq,
Düşək yerin ən alt qatına –
Təki yaşayaq».
Yaşayıb, heç bir şeyə
Gərək olmamaq dərdi
Ölümdən də betərdi!

Çuxuryurd,
1961

HƏYAT EŞQİ

Yaşıl yarpaqda
Noxud boyda sarı ləkə var,
Üç gündür baxıram…
Bu üç gündə solub
Qonşu budaqlardakı bütün yarpaqlar.
Srağagün ləkə noxud boyda idi,
Dünən də.
Bu gün bir az böyüyüb,
Lap az,
İynə ucu qədər.
Düşünürəm belə getsə
Bu yarpaq solmaz,
Payız ona
Toxunmamış keçib-gedir.

Yarpaqsız ağacda
Yaşamaq istəyir sonuncu yarpaq.
Tək əliylə bərk-bərk
Yapışıb budaqdan,
Tək əldə gücə bax!

Çuxuryurd,
1962

VƏLƏS

Meşədə durmaqdan yoruldu vələs,
Bir ayaq üstündə çox durmaq olmaz.
«Odunçu, amandır, gəl məni də kəs!
Uzanım torpağa, dincəlim bir az».

Meşəni yuxudan oyatdı balta,
Vələsi kəsdilər, doğradılar da.
«Nə qədər ağactək yaşamaq olar?
Odun olmağın da öz aləmi var».

Odunçu odundan bir-bir hər axşam,
Sobada yandırdı, ocağa atdı.
Vələsi yenə də yaşatdı inam –
«Yanmağın özü də başqa həyatdı».

İndi yazıq vələs odun da deyil,
Bir topa tüstüdür, bir ovuc da kül.

Meşənin üstüylə süründü tüstü,
Yaşıl vələsləri görəndə küsdü.
Küsdü taleyindən, küsdü bəxtindən:
«Bir zaman nə idim, indi nəyəm mən».

1956

ŞAHDAĞ

Bu dağlar şahının öz aləmi var,
Onun sevinci var, onun qəmi var.
Qışda fikrə dalır, çatılır qaşı,
Ağarır daha da ağarmış başı.
Yaz gələndə yalı, yamacı gülür,
Üstünə güllərdən şabaş tökülür.
Öpür ayağını bənövşə, lalə,
Sinəsindən axır neçə şəlalə,
Çağlayır qəlbində sərin bulaqlar.
Onu ata sayır özünə dağlar,
Ətəyi Bahardır, zirvəsi Qışdır,
Yaxın gəl, daş alnı qırış-qırışdır.

Kim bilir o dağın neçə yaşı var,
Kim bilir, kim bilir üstündəki qar
Hansı qərinənin yadigarıdır?!
Bəlkə də dünyanın ən ilk qarıdır.
Baxanda adama elə gəlir ki,
Dünyanın özündən qocadır Şahdağ.
Gözümdə o qədər o yüksəlir ki,
Deyirəm, hər dağdan ucadır Şahdağ.

1956

MƏN ELƏ BİLİRDİM MÜƏLLİM ÖLMƏZ

Yenə kəndimizə qayıtdım bu il,
Dolandım başına pərvanə kimi.
Yaxşı ki, bu yerlər vəfasız deyil,
Saxlayıb hələ də ayaq izimi.

«Muğan» bulağından yenə su içdim,
Bulaq o bulaqdı, dərə o dərə.
Çaydan ayaqyalın addayıb keçdim,
Özümü yetirdim çəmənliklərə.

Necə də yaraşır dağlara lalə,
Qüzeylər yamyaşıl, güneylər əlvan.
Yenə həmin yerdən axır şəlalə,
Fərəh eşidirəm hər addımımdan.

Dolaşıb, baş çəkdim qəbristana da,
Ora da kənd qədər mənə doğmadır.
O soyuq torpaqda, o yaş torpaqda
Neçə dostum yatır, qohumum yatır.

Saxladı önündə bir məzar məni,
Uşaqlıq çağlarım yadıma düşdü.
Aldı qanadına xəyallar məni,
Ötən günlərimlə bir-bir görüşdüm.

Mən elə bilirdim müəllim ölməz,
İlk müəllimimin məzarıdır bu.
Üsyana çevrildi qəlbimdə bir səs,
Odlu bir «ah» isə təsəllim oldu.

Mənim gəlməyimi görən bildimi?
Səsimi, sözümü eşidəydi kaş!
Geniş ürəyinə dar deyildimi,
Bir ovuc görünən bu torpaq, bu daş?

Zərif çiçəklərdən dəstə bağladım,
(Bunların adını o, yazdırardı).
Güllərə, məzara baxıb ağladım.
Birinci sinfə çəkib apardı
Təsginlik gətirən xəyallar məni,
Saxladı önündə bir məzar məni.

Şamaxı,
1957

ADSIZ ŞEİR - I

Sel deyir: – Gəlin gedək!
Torpaq dinmir.
Daş düşünür.
Çiçək başını bulayır.

Duman deyir: – Gəlin gedək!
Dərə dinmir.
Dağ düşünür,
Çəmən başını bulayır.

Tufan deyir: – Gəlin gedək!
Meşə dinmir.
Ağac düşünür,
Budaq başını bulayır.

Hicran deyir: – Gəlin gedək!
Ürək dinmir.
İnsan düşünür,
Məhəbbət başını bulayır.

1958

ƏBƏDİYYATIN YAZDIĞI KİTAB

Göylərin də təşbehi dəyişir zaman-zaman,
Kim göyləri tale, kimi müqəddəs məkan,
kimi də bəzək sayır.
(hərənin öz fikri var).
Göylər mavi varaqlı, göylər ulduz yazılı,
göylər Günəş istili,
kitaba da oxşayır.
Burdakı sonsuz, dərin,
işıqlı fikirlərin
əsiridir insanlar.
Kitabda sətir-sətir oddan hikmət yazılıb,
Gözə güclə görünən bir solğun səyyarədə
odlu, sulu, insanlı,
Bir aləm həkk olunub, bir təbiət yazılıb.
Günəşi söz yerində, ulduzu söz yerində
işlədib əbədiyyət.
Hər sətri öz yerində, hər sözü öz yerində
gizlədib əbədiyyət.
Əlifbası qədimdir, kainat kimi qədim,
Dünyadan çox-çox əvvəl, insandan çox-çox əvvəl,
yazılmış sətirləri
kim oxuya bilər, kim?
Ulduz sıralarıdır kitabın hər cümləsi,
Dili səma dilidir, çətindir tərcüməsi.
Sözləri bir-birindən uzaq düşübdür, uzaq,
Yaxın yazılsaydılar, görən boş qalmazdımı,
ucsuz-bucaqsız varaq?
Hər kəlmənin üstünə çöküb qatı dumanlıq,
Hər cümlənin üstündə donub qalıb qaranlıq.
İndi-indi güvənib inadcıl zəkasına
bir zamanlar qorxduğu,
həsrət-həsrət baxdığı
Ulduzlar dünyasına uçmaq istəyir insan.
Zülmət və od məskəni kainatı oxumaq,
Əbədi əlifbanın
Pas atmış qıfılını açmaq istəyir insan.

Bakı,
1959

QÖVSİ-QÜZEH
(Göy qurşağı)

Hər buludda dağ seli var,
Hər buludda şəlalə var,
Bir topası birdən-birə
düşsə yerə
ağır olar,
Çiçəklərin çatmaz gücü.
Ona görə
bilə-bilə
gilə-gilə
Yağdı yağış,
Nərgiz üçün, lalə üçün.

Yarpaqların üstündə şeh,
Ləçəklərin üstündə şeh,
İnci-inci kürələri,
İncə-incə kürələri
Atıb-tutub oynatdı meh.
Birdən doğdu qövsi-qüzeh.
Bilmədim ki,
Göydən doğdu qövsi-qüzeh,
Yerdən doğdu qövsi-qüzeh?
Buludların qulağından
Bir aypara sırğa kimi
asıldı o.
Çəmənlikdən dağa kimi
yol saldı o,
Naxış-naxış zərrələrdən,
Donub qaldım yerimdə mən,
Yaratdığı möcüzəni
Bəlkə görmür qövsi-qüzeh,
Bəlkə görür qövsi-qüzeh?
Bir lalədən
Bir laləyə
Nurlu körpü qövsi-qüzeh.
Səma rəngli,
Torpaq rəngli qövsi-qüzeh,
Çörək rəngli,
Yarpaq rəngli qövsi-qüzeh,

Yeddi rəngli qövsi-qüzeh,
Nur çələngli qövsi-qüzeh.
Elə bil ki, doğma, əziz,
Yer kürəmiz,
bir fincandır
büllür qulpu,
qövsi-qüzeh.
Arzu dolu,
Qayğı dolu,
sevinc dolu
bu fincanı
Günəş tutub əllərində.
Bir udum da mən içdim, mən
O arzudan,
O qayğıdan,
O sevincdən.

Nə yaxşı ki, yağdı yağış,
Neçə-neçə hikmət gördüm,
Şəffaf suyun bölündüyü
yeddi rəngdə,
xəfif mehdə,
inci şehdə.
Ağır-ağır buludların
Qoruduğu gözəllikdə.

Bakı, 1961

DAĞLAR

Dağlar, qayalı dağlar!
Dağlar, meşəli dağlar!
Nə doydum, nə yoruldum,
Baxdıqca heyran oldum.
Bu səfalı yerlərə
Yolum düşəli dağlar!
Anamın ayağına
düşüb öpdüyüm kimi,
öpdüm ətəyinizdən,
şehli çəmən, yaş torpaq
isindirdi qəlbimi,
sizə nə deyim sizdən.
Dərdli sərhəd dağları,

Sinəsi dağlı dağlar!
Cığırları tikanlı,
Yolları bağlı dağlar!
İnciməyin bir azca
Varsa gileyim sizdən.
Bu gözəl yerlər gərək
Kədərli olmayaydı.
Güneydəki bənövşə
Qüzeydəki lalənin
Həsrətini çəkərək
Saralıb-solmayaydı.
O yanda ürəyimin
Yaralı parçası var.
«Necədir o yan, dağlar!»
Güclə ayrı salınan
Qardaşımın halına
alış dağlar, yan dağlar!
Görürəm vüqarlıdır,
Sənin hər qayan, dağlar!
Sənin hər qalan, dağlar!
Əzab olarmı bunca?
Vətəni ayırınca
Odlara qalan, dağlar!
Silkələn, uçul, dağıl,
Zalımların başına!
Sənmi həsrət qoymusan
Qardaşı qardaşına?
Dərdli sərhəd dağları,
Sinəsi dağlı dağlar!
Cığırları tikanlı,
Yolları bağlı dağlar!

Astara, 1961

BOYAT KƏNDİ

Şamaxıda haçaqsa bir Boyat kəndi vardı

Haçaqsa çadır-çadır,
alaçıq-alaçıq
boy atdın.
Haçaqsa dirilik bulağıydın,
Ab-həyatdın.
İndi kor çeşməsən, Boyatım!

Haçaqsa çəpər-çəpər,
həyət-həyət,
böyüdün.
Kim bilir ağır banlı
necə ev idin,
İndi yurddan gen düşmüsən, Böyatım!

Üstündən qırmanc-qırmanc,
şırımlar çəkildi.
Şırımlar şitil-şitil, kol-kol əkildi,
Zolaq-zolaqsan, eşmə-eşməsən, Boyatım!

Bir vaxt Boyat idin.
indi boyat olmusan.
Bir vaxt layla idin,
indi fəryad olmusan,
Bayatı olub dilimdə bitdin,
dilimdən düşməzsən, Boyatım!

Şamaxı,
1962

QİBTƏ

Hələ dan sökülməmiş
Quşlar verir səs-səsə.
Hər kim səhərə bu qədər ümid dolu
Bir nəğmə bəstələsə,
Dünya durduqca yaşar,
Qibtə edirəm sizə, quşlar!

EHTİYATLI OLUN HA

Səhər açılır, quşlar,
Oyanın!
Özünüzə də, balalarınıza da
Yem axtarın!
Çənə düşün,
Dumandan keçin,
Buludları yarın!
Yerdə dən də, su da var,
Amma, ehtiyatlı olun ha.

Tora düşmək,
Qayıtmamaq,
Bir namərdin əliylə
Yaralanmaq qorxusu da var.

1962

BAKI

Evləri pillə-pillə qalxır…
Küçələri dənizə axır…
Gecəsi kəhkəşanın bir parçası,
İstər Günəş nur saçsın,
istər saçmasın,
öz oduna sığınır.
Torpağın yandığı olub,
bunun suyu da yanır.
Qızları ürəkləri ram edib,
oğlanları Xəzəri.
Qərib deyil qürubu,
Dənizlə Günəşin vüsalıdır səhəri.

A mənim ümidlərimin, arzularımın şəhəri,
A mənim Xəzərim!
Oturmuşam, xatirələrimi varaqlayıram,
Şəhərlər içində sənə tay gəzirəm!

Bakı,
1965

TƏYYARƏYƏ TOXUNMAZMI GÖRƏN

Qüllələrin üstündə
qadağan rəngi yanır al qırmızı:
Bu – xəbərdarlıqdır
alçaqdan uçan təyyarəyə.
Qadağan rənginə
boyaya bilmədiyim fikirlərimi
hər gün uçurduram göyə.
Təyyarəyə toxunmazmı görən?

1965

III SİMFONİYANI DİNLƏRKƏN

Görkəmli bəstəkar
Qara Qarayevə həsr edirəm

Bir ağız Osvensim fəryadı,
Bir tutam yaslı bulud,
Sonra Günəşin addım səsləri,
Sonra tufanqabağı süküt.
Dalğaların parçalanması,
Qayaların ovulması,
Bir də Dədə Qorqud,
Sonra Kərəm yanğısı,
Sonra çilik-çilik sınan su.
Tanış çiçək qoxusu,
doğma yurd.
Sonra da bir sual:
Saçları qarışmış dünyamızı
Raket ucları darayacaqmı,
Yoxsa kotan dişləri?
Sonra Rodenin fikirli insanı,
nigarançılıq.
Sonra da sonuncu akkord –
ümid!

Bakı,
1967

GÖZLƏRİN SÖZLÜYÜ

I

Sənə min göz baxıb, alışa-yana…
Bir cütü yadında qalıbmı görən?
Hamıya bir gözlə baxma, sonala,
Axı, onlar kimi baxmamışam mən.

Bu göz tünlüyündə qarışıq düşüb,
Gözünə dəyməyib gözlərim, yəqin.
Gözündən könlümə bir işıq düşüb,
Sönüncə yolunu gözlərəm sənin.

II

Saralıb hicrandan gözümün kökü,
Yoxsa gözə gəldin, gözə görün bir!
Üstümə bir həsrət dumanı çöküb,
Gözümə bu boyda dünya görünmür.

Gözüm yolda qalıb, yol intizarda…
Gəl məni sevindir, yol kama çatsın.
Bir gözün bir gözə hökmü çatar da,
Bir soyuq ürəkdə sevgi oyatsın.

III

Bir an olmamısan gözümdən iraq,
Sənə səndən yaxşı göz olub eşqim.
Göz görüb bəyənsə, ürək susacaq,
Gözə yazılanı dəyişməz heç kim.

Gözündən könlümə nur sapı düşüb,
Onu yığıb-yığıb taparam səni.
Bircə arzum qalıb bir də görüşüb,
Sevda dünyamıza aparım səni.

Bakı, 1967

ADİLİK

Oyanmaq ümidilə
yatıram hər gecə.
Oyanmamaq da olar
elə-beləcə…
Amma, oyanıram…
əhdim var.
Sıxıram dan ulduzunun əlini,
Səhər küləyi
Küçədən-küçəyə,
avtobusdan-avtobusa
atır məni,
iş yerinə qədər.
Salam, Səhər!
Salam, Günəş!
Bir də görüşdük…
Əlim işdə, fikrim işdə,
Bəs xəyalım?!
Xəyalımı saçaq-saçaq
Yolda itirdim,
toplamağa yoxdur macalım.
«Görəsən süd aldımı anam
nəvələri üçün?»
«Vyetnamdan nə xəbər, görəsən?»
«Kennedinin qatilini tapdılarmı?»
«Avtobusda adam çox idi».
«Qış elə birdən-birə düşdü,
yaman soyuqdu…»
«Konduktor necə acıdildi».
«Nə yaxşı rast gəldim köhnə dostuma,
çoxdan
görüşməmişdik».
«…Biz də beşgünlüyə keçdik».
«İlkinə oyuncaq maşın almalıyam,
Orxana köynək…»
«Maaş gecikəcəkmi görən?»
«Evə zəng elə beşdə»,
Əlim işdə, fikrim işdə…
Oyanmaq ümidilə
Yatıram hər gecə,

Oyanmamaq da olar
elə-beləcə.
Amma, oyanıram, əhdim var.
Oyadır hər səhər
Məni qayğılar.

Bakı, 1967

BU ÇAYIN ÇINQILI

Bu çayın çınqılı hamar…
Topalanar damar-damar.
Qaytar sürünü, quzuçu!
Ürəyimə qorxu damar.
Axşam düşür, su çoxalıb,
yolu kəsər.
Quzuların ayağını
çınqıl əzər.

***

Bu çayın çınqılı ağdır…
O tayı çiçəkli dağdır.
Qayıt, ümidim, tez qayıt!
Ayrılıq çox uzun axdı.
Axşam düşür, su çoxalıb,
yolu kəsər.
Quzuların ayağını
çınqıl əzər.

***

Bu çayın çınqılı xallı…
Çay boyu gedərlər «Yallı».
Xəyalımı su apardı
Gözlərim o tayda qalıb.
Axşam düşür, su çoxalıb,
yolu kəsər.
Quzuların ayağını
çınqıl əzər.

***

Bu çayın çınqılı xırda…
Çınqıllar danışır burda.
Bu qədər ki, həsrətliyəm
Çınqıl ollam mən axırda.
Axşam düşür, su çoxalıb,
yolu kəsər.
Quzuların ayağını
çınqıl əzər.

1970

ADSIZ ŞEİR – II

Bir gecə istədim ki,
ana olum.
Oyaq qalım səhərədək,
Körpəmiz ağladıqca ovudum.
Səhərə yaxın
kipriklərimdən daş asıldı,
oyana bilmədim.
Bir ömür boyu ana olur analar,
Mən bir gecə ola bilmədim.

Bakı, 1968

ƏLLƏR – QANADLAR

Dənizdən quruya sürünəndən
Dənizə bənzəyən
göyə uçdular quşlar.
Yaman gətirdi onların bəxti…
Göyə can atdı insanlar da.
Fəqət, zəhmətə alışdıqca
Qabarlı əllərdən yox oldu qanadlar,
Pöhrə atmamış yolundu qanadlar.

İnsan uça bilmədi…
Quşlar çox da sevinməsin,
Qayalarda çəkilən şəkillərdə,
Misir ehramlarında,
Fidinin heykəllərində,
Füzulinin qəzəllərində
Qayıtdı insanların qanadları.

1968

NATÜRMORT

Pəncərə taybatay açıq.
Səhər küləyi qırıb
pərdənin birini,
O biri yernən sürünür.
Uzaqda görünür
mavi, mahud örtüklü stol.
Üstündə suyu yarıyacan
içilmiş qrafin,
iki ağır fincan.
Papiros kötükləriylə
dolu külqabı,
Çiçəkləri solmuş güldan.
Kitablar, kağızlar qarmaqarışıq…
Bir az dumana oxşayan kölgə,
Bir az ümidə bənzəyən işıq.
Çənələrə söykənmiş dirsəklərin
Mahuda hopmuş yorğunluğu.
Varaqlanmış səhifələrdə
barmaqların hərarəti.
Bir də inadı qırılmış yuxu.
Elə-burdaca qalmış
imtahanqabağı qorxu.

1968

DƏNİZDƏ SƏHƏR

Yağışa bax! Yağışa bax!
Şıdırğı yağdı bu sabah.
Yağdı göyü isladınca,
Mavi rəng yerə damınca.

Süzüldü mavilik yerə,
Axdı qara üfüqlərə.
Axdı şırım açа-açа,
Buluddan ta torpağacan.

Bir yandan da əsdi külək,
O yerdə ki, qırıldı rəng.
Qapıb dəniz dalğasını,
Həmin yerə çırpdı onu.

Göy dalğalar axdı göyə,
Qarışdı mavi maviyə.
Ağardı qorxudan qara,
Hava oldu alatoran.

Qovub yerdən qaranlığı,
Nəfəs dərib bir anlığa,
Dondu səmada rəng seli,
Kimsə yoruldu elə bil.

Səhəri açan rəngsazın,
Düşdü əlindən fırçası –
Qızıl saçaqlı fırçası,
Yandı göyün bir parçası.

1969

ADSIZ ŞEİR – III

Səni sevməmişəm, bir dəfə ancaq
Gözümə göründün ilahə kimi.
Bir arzu oyandı qəlbimdə bu vaxt,
Qəlbimi danladım sabaha kimi.

Yarımçıq şeirimi tamamlamışdım,
Könlüm uçunurdu fərəhdən o gün.
Səni sevməmişəm fəqət, bağışla,
Səni elə gözəl gördüyüm üçün.

Bakı, 1969

BATILİMAN

Qarşı dağdan külək əsdi,
Təpələri sardı duman.
Qoca, yorğun bir qayığam,
Gizlət məni, Batıliman!

Qaradəniz coşub yenə,
İstəyirəm səndən aman.
Daşlarına sığınmışam,
Qoru məni, Batıliman!

Səni deyib gəlmişəm mən,
Qalmayıb bir kəsə güman.
Kəpənəkcə çəkim olmaz,
Saxla məni, Batıliman!

Nəfəs qərib duraram ta,
Yatar dəniz, susar tufan.
Əgər geri qayıtmasam,
Qovma məni, Batıliman!

Bağla məni bir qayana,
Qayğıma qal zaman-zaman.
Beşiyində yırğalanım,
Ovut məni, Batıliman!

Sən bir təbib, sən bir loğman,
Mənəm səndən şəfa uman.
Qarışım ağ sularına
Yaşat məni, Batıliman!

Krım, Yalta,
1979

AĞ BƏNÖVŞƏ

Bahar, səndə nə adətdir,
Göy çəməndə mor bənövşə bitirirsən.
Göy zəmidə ağ bənövşə,
rəngə dolmaz,
zəngin olmaz,
O çiçək ki, üzərinə kölgə düşə.

***

Amma, bunun təkcə özü ağ deyilmiş,
qoxusu ağ,
yuxusu ağ
sünbüllərin ayağına sığınanın
çoxusu ağ.

***

Bəlkə özü bilə-bilə əl çəkibdir,
nur payından,
su payından.
Təki, təki çörək olsun,
Çiçək çoxdur, tapar insan.

***

Aman Allah!
Çiçəyə bax!
Ürəyə bax!

1963

ÇÖRƏK

A qızıl sünbülüm, ağırlaş, saral!
Kəhrəba rənginlə boya zəmini.
Sən olmaayn yerdə arzular solar,
Dən-dən ol, tel-tel ol, baxım, sevinim.

Torpağın cövhəri, günəşin nuru.
Buludun göz yaşı qarışıb sənə.
Səni görməsəydim dayanıb, durub
Nə çölə baxardım, nə göy çəmənə.

Sən qoca Zərdüştdən qalıbsan bəlkə?..
Şirvanın, Muğanın bərəkətisən.
Bir ovuc mirvari versələr əgər –
Bir ovuc buğdaya dəyişmərəm mən.

A çölüm-çəmənim, sünbüllə bəzən,
Vətənin çörəyi bol olsun gərək.
Dostdan ayıb deyil, adamı bəzən –
Düşmən qapısına aparır çörək.

Kövrək saman çöpü olsa da gövdən,
Söykənib çiyninə bu Yer kürəsi.
Əziz saxlayırlar səni hər evdə,
Əziz saxlayırsan sən də hər kəsi.

Odu bağlayıblar Prometeylə,
Çörəyi ilk dəfə kəşf edib insan.
Od yerə Olimpdən gəlib deyirlər,
Çörəyi tapıblar Ana torpaqdan.

Vətən çörəyinə yad kimi baxma,
Təkcə yaşamaqçın çörək yeyilmir!
Yeddi dağ aşırır tək bircə loxma,
Bu, doğma torpağın gücü deyilmi?!

1963-64

NÖVBƏ DAŞLARI

Hələ də durur
küçəmizdəki çörək dükanı.
Yanında çoxdan
«daşqalaq» olmuş
daş qalağı var.
Yaxşı-yaxşı bax, tanı!
Bunlar adi daş deyil,
Növbə daşlarıdı!

Hərənin bir daşı vardı onda.
Getmək istəyəndə bir yana
daş qoyardı öz yerinə.
Ana övladını,
bacı qardaşını
tanıyan kimi –
tanıyırdı hər kişti öz daşını;
kimisi daşa adını yazmışdı,
kimisi həsrətini həkk
eləmişdi.
Kimisi axıtmışdı göz yaşını,
Kimisi üstəgəl çəkmişdi,
Kimisi çevrə.
Hərə bir cür vurmuşdu möhrə.

Böyüklərin daşı böyük olurdu,
sərt olurdu,
ağır olurdu.
Uşaqların daşı
əl boydaca,
yüngül,
kövrək.
Elə bir əlcə olardı onların
aldığı çörək.

Daşlar növbə çəkərdi
yaşlı qarıların,
dərdli qocaların əvəzinə,
yorğun anaların,
nisgilli bacıların əvəzinə.

Daşlar növbə çəkərdi
Ac uşaqların əvəzinə.
Bir-birinin həvəsinə
çovğunda, qarda,
zülmət gecələrdə
«yatmazdılar» səhərədək,
Təki yatsın uşaqlar.

Qara gündə qara çörək
Düzgün bölünsün gərək.
Gecə gizlicə
daşını irəli çəkən də olurdu,
daşlar «başa düşməzdi» bunu.
Çörək gələndə
daşından əl çəkən də olurdu.
Çörək gələndə
tapdalanardı daşlar,
ovulardı ovum-ovum,
əzilərdi xıncım-xıncım –
ta çörək satılıb qurtarınca.
«Çörək yemir» daşlar,
«Başa düşməzdilər» bu dərdi,
dözərdilər.

Axşamlar adamlar gələr,
yaralı daşları yenə
Əzizləyə-əzizləyə
növbəyə düzərdilər.

«Növbə görməyən» daşlar
Daşqalaq edib indi
«növbəyə duran» daşları.
O daşları bir yerə yığın, barı.
Bir hasar çəkin,
yaddaş hasarı!

Uzaqdan, yaxından
qoy görsün hamı
bu daş xatirəni,
bu daş hasarı!..

Leninqrad – Bakı,
Fevral, 1978

AYIB

Ərinib çağrılan yerə gəlməyən,
Ozanı saymayan ozana ayıb!
Beş çərək təpəni aşa bilməyən,
Beş kəlmə quru söz yazana ayıb!

Dostun var gününə baxıb darılan,
Dostun dar günündə gendə var olan,
Yolun yarısında bezib yorulan
İlqarı, ülfəti pozana ayıb!

Min kərə demişəm, təzə nə deyim,
Üzdən utanmayan üzə nə deyim,
Sözün canı yoxdur, sözə nə deyim?!
Düz sözü əyriyə yozana ayıb!

1978

NƏFSİNİ ÖLDÜR

Paxıllıq dəryası dərindir, girmə,
Sahilə çıxarmaz bu nəfəs səni.
Çalış ta indidən nəfsini öldür,
Yoxsa öldürəcək bu nəfs səni.

Ömürdür hər günə, aya darılma,
Toyuna çal-oyna, vaya darılma!
Qismətinə düşən paya darılma,
El-oba sevməyib paydan küsəni!

Qoy hər gün qəlbinə bir sirdaş artsın,
Qoyma bir qapıya kimsə daş atsın.
Təmiz ürəkli ol, təki yaşatsın,
Təmiz çörək səni, təmiz su səni.

1979

ÖMRƏ BEL BAĞLAMA

Ömrə bel bağlama, ömür əzəldən
Amana bənd olub, aman, ay aman!
Ölüm qaşnan-gözün arasındadır,
Yaxşıya yaxşı ol, yamana yaman.

Danma el-obanı, danma nəslini,
Tutsun Kərəm kimi gözün Əslini.
Ayır astarından sözün əslini,
Gətirmə heç vədə gümana güman.

Yaşa bu dünyada sən comərdyana,
Qəlbinin odunda gərək dərd yana.
Sadə ol, məğrur ol, axma dörd yana,
Dağa dağ deyiblər, dumana duman.

1979

YEY İDİ

Adəm ata behiştdəki almanı,
Dərdiyindən dərməsəydi yey idi.
Fələk mənə bu dünyanı, bu canı,
Verdiyindən verməsəydi yey idi.

Pis adamdan bəri başdan həzər et!
Nə sultan ol, nə Peyğəmbər, nə Həzrət.
Ağız dişə, göz ağıza nəzərət,
Göz nə gördü, görməsəydi yey idi.

Öz başıma bəla olub öz dilim,
Öz körpümü yumaqdadır öz selim.
Öz qalamı yıxmaq istər öz əlim,
Ta əzəldən hörməsəydi yey idi.

1979

ƏLLİ YAŞIM

Xoş gəlmisən, əlli yaşım,
Kiminə çox görünən,
Kiminə az görünən,
Özümə təsəlli yaşım.

Gözümü yumub açdım,
Ötüb keçdi dəli yaşım.
Yoruldu tufanlı yaşım,
Duruldu selli yaşım.

Yerdə ayaq tutan kimi,
Bu dağ mənim, o dağ sənin.
Yeridi ayaqlı yaşım,
Dünyanın gün yumağından
Bir sapı ağ, biri qara,
Ömür hördü əlli yaşım.

Gündə düyün vura-vura,
Sağ əl solu tələsdirib,
Sol əl sağı tələsdirib.
Ömrümə də tələs deyib,
İndi yaşı bəlli yaşım.

Gəldi ömrün xəzan fəsli,
Harda qaldı yaşıl yaşım,
O çiçəkli-güllü yaşım?!
Bundan o yana başlayır
Mənim uşaq dilli yaşım.

Ana yurda səpələnib
Aranlı-dağlı günlərim.
Yollara tökülü yaşım,
Kəndçi yaşım, çöllü yaşım.

Bir zaman işıqçı olub,
Yaşanıb şəhərli yaşım.
Lap zülmətin özünə də
İşıq çəkib telli yaşım.

Bir zaman müəllim olub,
Balalara dil öyrədib.
Nağıllı, bayatılı,
İsimli, felli yaşım.

Söz gəzirəm özüm indi,
Söz seçirəm söz içindən.
Dağa-daşa salıb məni,
İndi də şeirli yaşım.

Bakı, 1980

TEATR GEYİMLƏRİNİN KİRAYƏ MƏNTƏQƏSİNDƏ

– Bir dəst paltar tap mənə!
– Uzun olsun, yoxsa gödək?
– Nə uzun, nə gödək – əynimə!
– Yun olsun, yoxsa ipək?
– İpəyi neynirəm, ə?!
– Sənəti nəçi olsun,
xasiyyəti nə olsun?
– Paltar adamdır məgər?
– Adam deyil, bə nədir?
Bu şahdır, bu da nökər,
bu qəhrəman, bu əsgər.
bu qorxaq, bu yalançı.
Yalançı dəbdədir ha!
– Olmuşam!
– Bu yerlibaz, bu yaltaq.
Yaltaq da dəbdədir ha!
– Köhnəlib ta, keç ondan.
– Bu yarımçıq, bu nadan,
bu xəsisdi, bu paxıl,
bu namərddi, bu mərddi.
Bu rəf apaydın nağıl,
bu rəf qapqara dərddi.
Bu rəf ümid…
– Ə, qurtar,
Nadan, xəsis, paxıl, namərd.
Bunlar keçilmiş «etap»dır,
bunlar oxunmuş kitabdır.

Yerdə qaldı,
nağıl-filan,
bir də ümid…
Ümiddən bir qəpik fərzdir.
Şirin nağıl yetər, bəsdir…
Dərddən də keç, kətdim!
Dərddən mənə nə?
Bir kefimi dəyişmərəm,
min insanın dərdinə.
– Bir de,
paltarın cibi olsunmu?
– Qoşa-qoşa, quyu-quyu…
Bu dünyada
indi bütün günahları pul yuyur.
– Yaxası necə?
– Olmasın!
– Əlbəyaxa olsam əgər,
yaxam keçməsin ələ!
– Ətəyi olsunmu?
– Yox!
– Niyə?
– Elə-belə!
«Əl mənim, ətək sənin» deyənlərin
qoy kəsilsin ümidi.
– Bunu da bildim.
Amma, o paltara toxunma,
Çirkləndirmə o yazığın
astarını, üzünü.
Bu tərəfə bax,
bu rəfə bax,
burda axtar özünü.
– Olarmı ki, bu rəfi
elə bütün-bütünə
geyinim gedim?
– Olmaz, qardaş!
– Pulunu verərəm.
– Olmaz, dedim.
Sənin paltarın
tikilməyib hələ.
Sənin kimisi səhnəmizə də gəlməyib hələ.

(Sifarişçi acıq eləyib gedir. Kirayəçi
məntəqəni bağlayıb onun ardınca qaçır). –
Dayan!
– Nə olub, ə!
– Bir dəstə öz paltarından
məntəqəyə göndərsənə!
– Bİrcə o qalıb, ə!

1981

«ƏLİN QUBARI» ŞEİRİNDƏN

…Dünyaya insan əllərinin
Qabarı bəsdir.
Göyərsə bu qabardan
göyərəcək –
Gələcək.

1981

«XANIM BÖCƏYİ» ŞEİRİNDƏN

…Uç, nənəm uç!
Gözlərin bir qətrədi,
baxa bilmirəm.
Əllərin elə zəfidir ki,
sıxa bilmirəm.
Özün elə kövrəksən ki,
bağrıma basa bilmirəm.
Amma, səni görəndə
sevincimdən susa bilmirəm.
Uç qoçaq! Uç qoçaq!
Anama xəbər apar,
Bu il yarpaq bol olacaq!

1981

ƏGƏR

Dən-dən taxıl qaçıran
Sərçələri qırdılar.
Sünbülqıran taxıla
Divan tutdu o ki var.

Qurdları qovdular ki,
Maral gələr zavala.
Arxayınlıq dərd oldu,
Qırğın düşdü marala.

Köçürtdülər meşədən,
Qarışqa yuvasını.
Bayatılar car çəkdi
Ağacların yasını.

Belə getsə əbədi,
Müvazinət pozular.
Dəyişər xislətini
Təbiət ögey olar.

Paltaryuyan toz gördüm,
«Planet» idi adı.
Bu acı kinayədən
Qəlbim od tutub yandı.

Planeti kor qoyan
Demə «Planet» imiş.
Öz durduğu budağı
Kəsmək elə Adəmdən
Qalma bir adət imiş.

Görən acı suları
Kim yönəltdi dənizə?
O tozun bir damlası
Axıb getdi dənizə.
Zəhərlədi günahsız
Körpəcə bir balığı.
Kiminsə köynəyinin
Bərq vurur yaxalığı.

Demirəm ki, qayıdaq
Gülabıya, sabuna.
Köynəyi ağartmayaq
Dənizin hesabına.

Almanın yarpaqları
Günəşdən allanmasa,
Günəş bizdən inciyər.
Qarpız öz tağı üstə
Yatıb xumarlanmasa
Torpaq bizə nə deyər?

Zavod bacalarından
İlan kimi qıvrılıb
Burum-burum burulub,
Uçub-uçub yorulub,
Ağacı sarar tüstü.
Bir hovur dincəlincə
Bir ömrü yorar tüstü.

İnsanların çoxluğu,
Ağırlıq salmaz Yerə.
Amma dünya əyilər
Əl boyda tüstülərə.

Kəsilir qələm-qələm,
Meşələr kağız olur.
Bu qədər ağ kağıza
Görəsən nə yazılır?

Dağ olar kağızları
Yığasan qalaq-qalaq.
Amma kağız dağından
Bahadır bircə yarpaq.

Azalıb düzdə ceyran,
Çayda xəşəm azalıb.
Qayada kəklikotu,
Dağda yemşan azalıb.

Tamah ki, var – qayanı
İki bölən görmüşəm,
Qarağac meşəsini
Birdən ölən görmüşəm.

İndi qoca dünyanın
«Qırmızı kitabı»[1] var.
İndən belə dünyanı
Qoruyacaq insanlar.

Təkcə insanın deyil.
Hamınındır bu dünya.
Adi bir cücünün də
Haqqı var yaşamağa.

Adicə çiçəyin də
Burnunu qanatmayaq!
Torpaq yaşadır bizi,
Nankor övladıq məgər
Torpağı yaşatmayaq?!

Peredelkino, 1976

TALEYİN ACIĞINA

Tale ki, var o sənsən,
Çatdır işini sona.
Əgər gücün çatmırsa
Yalnız özünü qına.

Tale qulaq yastığı –
Baş qoyub uyma ona.
Par-par yanan xəncər ol,
Çəkilmə heç vaxt qına.

Tükcə büdrəsən əgər,
Çəkər səni kamına.
Bir namərd dostdur tale,
Dara düşəndə sına.

Tale sənə yar olsa,
Salsa öz cızığına.
Dönəcəksən dünyanın
Taleli yazığına.

[1] İngilis təbiət alimi Piter Skott tərəfindən təklif edilib. Nadir bitki və heyvan adları bu kitaba yazılır.

Bəsdir, heyifin gəlsin,
Ömrünün bu çağına.
Sən taleyi yarıb keç,
Taleyin acığına.

1977

ATİLLANI QINAMAYIN

(Rəvayət)

Atlılar yorğun idi,
Atlılar susuz idi.
Kimsə dedi:
«Bu çöllər güllü-çiçəkli,
Bu torpaqlar gələcəkli…
Gəlin burda dayanaq!»
Bu sözləri deyən qoca –
Qocaman ər.
Onun təşnə niyyətini
Sıra boyu ötürdülər,
Atillaya çatdı xəbər.
Atillanın harayından
Göy titrədi,
Yer titrədi,
Üfüqlərin qulaqları cingildədi.
Dedi: – Qoca, sözün doğru!
Varmı görən bəyəndiyin bu yerlərdə
Bir göz bulaq,
Bir damcı su?
Bilirəm ki, yorulmusuz,
Səfər uzun, atlar susuz…
And içirəm,
Qarşımıza çıxan ilkin çayı
Bir cam su tək sizə içirəm.
Əgər bir göz qırpımında
Yenə dolsa o çayın məcrası,
qoy sahili –
son düşərgə olsun,
son dayanacaq,
son çay!

O ilkin çay Dunay oldu,
Dunay qəribə çay oldu.
Dunayın sərin suları
Dunayın şirin suları
Atlıları sehirlədi.
Atillanın qəzəbini soyutdu,
Yorğunluğunu çay aşağı axıtdı.
Susuzluğu yudu,
O ilkin çay Dunay oldu,
Dunay həsrət yuyan oldu.
Çay olanda nə olar ki,
Ürəklərin nisgilini duyan oldu.
Dunay gəzəri bir elə
Vətən oldu,
Dünya oldu.
Dunay yorğun atlıları
Əylənməyə vadar etdi.
Əkinçi oldu atlılar,
maldar oldu,
döyüşçülər evdar oldu.
Kim bilir olubmu bu?
Görən görüb, gözünü yumub,
Eşidən eşidib, dünyadan köçüb!
Nağıllaşmış həqiqətdi,
Bu bir şirin rəvayətdi,
«Gördüm» – deyə bilməz bir adam.

Bəlkə, bəlkə
Nə o qoca döyüşçü olubmuş,
Nə atlılar yorulubmuş.
Nə Atilla qəzəbliymiş,
Nə də atlar susayıbmış?!
Amma, bircə bu doğrudur,
Qoca ər də,
atlılar da,
Atilla da
Gözəlliyə susayıbmış.

1980

ÜMİD MƏNDƏN ÜZ DÖNDƏRSƏ

Ümid məndən üz döndərsə,
Pəncərəmi döysə qorxu,
Bir əlimdən qopuz tutar,
Bir əlimdən Dədə Qorqud!

Qərib olsam yad ellərdə,
Qəribsəsəm Qərib kimi.
Ağ atında uçub gələr
Köməyimə Xıdır Nəbi.

Dar macalda dara düşsəm,
Bilinməzsə yalan-doğru.
Tez göndərər Xan Eyvazı,
Harayıma Qoç Koroğlu.

Ömür acı olsa belə,
Xəyal edər onu şirin.
Şirin-şirin nağıllarda
Arxası var hər şairin.

1983

MƏRMƏRDƏ DONMUŞ TƏBİƏT

Bu şeir təmirdən əvvəl yazılıb

«Bakı soveti»
metro dayanacağında
qəribə bir sərgi var.
Mərmərə çəkilmiş
yüzlərcə soyuq mənzərə
divarları bəzəyib.
Rəngli şəkillərə
bənzəyir
bu lövhələr.

Tələsməyin,
yeraltı qatarlara
ayaq saxlayın bir an,
nəfəs dərin bir az,
Baxın,
dünyanın körpəlik çağına.
Baxın,
o uzaq dövrün
buluduna, dərəsinə, dağına.
Bir ora bax!
Mərmərdə buludlar,
damar-damar,
təmiz, ağappaq.
Burda yağış çəkilib,
orda qar.
Hələ otlar bir qarışdı,
Ağaclar kol boyda.
Hələlik su azdı bu çayda.
Həyat dənizdə üzürdü hələ,
Yerin yetim çağı,
kimsəsiz çağı,
çiçəksiz,
ağacsız,
insansız çağı,
mərmərdə daşlaşıb,
matdım-matdım sənə baxır,
Bu günə baxır.

Su, Külək, bir də Günəş
Çəkib bu şəkilləri.
Su ovub,
Külək cızıb,
Günəş yandırıb
Burdakı işıq-kölgə telləri.
Üçü bir yerdə
Mərmərə həkk edib
Bir parça göyü,
Bir parça yeri.

Burda bir dağ var,
Baba dağıdır sanki.
Orda bir göl var,
Göygöldür deyəsən.

Bir mağara qaralır – Azıx,
Bir qayalıq ucalır – Qobustan,
Bir qoşa çay axır Kür-Araz.
Bir dəniz də var, bəlkə Xəzərdi,
Mərmərdə dönmüş təbiət,
soyuq da olsa gözəldir.
Gözəldir,
anamız torpağın
insanaqədərki çağı.
Tələsməyin
yeraltı qatarlara
ayaq saxlayın bir an,
nəfəs dərin bir az,
baxın,
dünyanın körpəlik çağına,
baxın
buluduna, dərəsinə, dağına.

1984

ƏSGƏR ATASI

Deyirlər,
gürcü filmindəki
Əsgər atasına
bənzyirəm bir az.
Əsgər atası olanda
bildim bunu.

***

Atanın pisi olmaz,
amma, sərti var.
Ən soyuq ata belə
Əsgər atası olanda yumşalar.
Uşaq xasiyyəti
görünər onda.
Yeri gəldi-gəlmədi
ağız dolu danışar.
Bu boy-buxunda
Bu yaşda,
Bu adda
Bir oğlum var – deyər,
indi əsgərdir.

***

Ayrılıq
daşda da məhəbbət göyərdir.
Gürcü filmindəki
əsgər atasına
bənzəyirəm bir az,
Əsgər atası olanda
bildim bunu.

1984

MƏHƏMMƏD HADİYƏ

«Ey ol vaxtı görən məsud, unutma bizləri yad et,
…Məzarım üzrə gəl, dur qəmli-qəmli ağla, fəryad et».

M.Hadi

Soraq vermək istədim bu gündən sənə, şair,
Məzarını aradım.
Tapmadım, gözlərimdə qaldı arzum, muradım.
Ömrünün son günləri Gəncədəydin, deyirlər,
Gedib Gəncəni gəzdim.
Dilimdə, ürəyimdə – bir ağlar qəlbdən qopub
Milyon qəlbi ağladan o yanıqlı şeirlər.
Hər yerdə səni gəzdim.
Qarış-qarış dolandım qoca Şirvanı, şair!
Məzarın hanı, şair?..
Şəlalədən soruşdum, şəlalə axdı keçdi,
İldırımdan soruşdum, ildırım çaxdı keçdi.
Lalədən, bənövşədən, yasəməndən soruşdum,
Dağdan, daşdan, qayadan, göy çəməndən soruşdum,
Dedilər ki, bir zaman o bizə baxdı keçdi.
Gəzdim hər yanı, şair,
Məzarın hanı, şair?..
Bir qocadan soruşdum, dedi: – Axtarma bala,
Özünü yorma, bala.
O ki, elə yanırdı,
Ya gərək əriyəydi, ya gərək kül olaydı.
Ana yurdun dərdinə, el-obanın dərdinə
Elə yanmadı ki, o, məzarı da qalaydı!

Bakı, 1961

MİRZƏ CƏLİLƏ

Kiminin səbri bir kasalıqdı,
Kimininki bir çimdik,
Onunku bir dənizdi –
O da daşdı.
Bir nəslin düşüncəsi
bu daşqında yuyundu,
aydınlaşdı.
Kiminin hünəri bir atımlıqdı,
Kiminki dörddə bir atımlıq.
O ömrü boyu barışmadı
əsarətlə,
Az dedi,
amma dedi cəsarətlə.
Kimi millət adından
qopardı haray,
Kimi yalandan eylədi ah-vay.
O susdu təmkinlə –
Tufanqabağı sükutdu
onun sükutu.
Dinəndə
səsi dünyanı tutdu.
Kimi qorxağa ürək-dirək verdi,
Kimi çolağa qoltuq ağacı.
O dilləndirdi «Lal»ı,
Düşündürdü «Ölülər»i,
Güldürüb-ağlatdı acı-acı.
Kimi eşq kitabını yazdı,
Kimi haqq-hesab.
O yazdı «Anamın kitabı»nı,
Göstərdi dərd necə olur,
Nə rəngdə olu əzab.
Kimi ulduz tapdı,
Kimi ada.
O tapdı Sabiri.
Ulduz axa bilər,
ada bata bilər,
Amma Sabiri kim unuda bilər?!
Mirzə Cəlili kim unuda bilər?!

1973

SABİR OLMASA

Böyük Sabiri dərsliklərdən
çıxarmaq istəyənlərə

Sabiri bəyənməyən varsa,
Qiyamət günüdür şerimizin.
Sabir olmasa,
Yalan ayaq tutub yeriyər.
Hörməti olmaz doğru sözün.

Sabir olmasa,
Şeirimizdə durum olar.
Sıra dağlardan bir zirvə əskilər.
Yeri uçurum olar.

Sabir olmasa,
Şeir çəmənimizdə tikan bitər,
Gərəkli şeir göyərməz.
Yüz min gopgopnamə
Bir «Hophopnamə»yə dəyməz.

QORXURAM

Böyük Sabirin «Qorxuram»
şeirini bir də oxudum

Həmişə qoçaq olmaq çətindir bu dünyada,
Hərdən bir də qorxaq olur adam.
Bu gün mənə qorxaq deyiblər,
Qorxaqlığı boynuma alıram.

Düzünü desəm,
elə bu dünyaya gələndə qorxmuşam.
Ağ-qara, isti-soyuq, acı-şirin
sözlərinin dadını biləndə qorxmuşam.
Bəri başdan ağlayacağımı bilib,
bir az çox güləndə qorxmuşam.
Bir nankorun söz yarasından öləndə
qorxmuşam.

İndi də qorxuram,
üzü yuxarı enişə gedən yoldan,
özü sağ ikən solaxay soldan.
Yaxşını pisdən,
qızılı misdən
ayıra bilməyən,
gözü görə-görə kor olandan qorxuram.
Özünə gərəkli sözləri eşidən,
qalan vaxtda kar olandan qorxuram.
Qara böhtandan,
qırmızı tərifdən,
ağ yalandan qorxuram.

Bir zaman yenilik olan,
çıraq ilə axtarılan,
İndi dərdə çevrilən,
hər köhnə dərddən qorxuram.
Sülhlə müharibə,
Yaxşılıqla yamanlıq
arasındakı tükcə sərhəddən qorxuram.
Doğruya çəkilən çəpərdən,
yalana qoyulmayan həddən qorxuram.
Mərdi qova-qova namərd eləyən
namərddən qorxuram.

Həmişə qoçaq olmaq çətindir, bu dünyada,
Hərdən bir də qorxaq olur adam.
Bu gün mənə qorxaq deyiblər,
Qorxaqlığı boynuma alıram.

1986

DÜNYA ÖZ İŞİNDƏDİR

(Ümidimin yolayrıcında)

Dünyaya iki dəfə gəlib Orxanım –
Bir martın 21-ində,
bir də on yeddi ildən sonra –
martın 15-ində.
Bəzən bir insan
Bir ayda iki dəfə doğulur.
Dünyada nə desən olur,
Dünyanın nə vecinə, dünya öz işində!

İlin ən əziz axşamı
Bəxtimin güneyində novruzgülü açmışdı
birinci gəlişində.
Kədərlərin ən acısını dadmışdım
ikinci gəlişində.
Dünyada nə desən olur,
Dünyanın nə vecinə, dünya öz işində!

Görən deyir: «Ovsanaya düşüb bir loxman».
Ümidimin yolayrıcında
Uğuruma çıxdı Mirzəxan-Loğman.
Dayandı yolumun üstündə taletək;
Bahar qanad gərdi, günəş çətir tutdu,
Dirilik saçan barmaqlarına onun.
Tərsinə fırlandı çərxi-fələk,
Yarıda kəsildi qara oyun.
Burda əli var Baharın da,
Razılığı var Günəşin də!
Dünyada nə desən olur,
Dünyanın nə vecinə, dünya öz işində!

Sınandı bir daha qohum-qardaş,
Dost-düşmən.
Bu qədər qollu-budaqlı ikən,
Birdən-birə qürbətə düşdüm mən.
Qaldım dərdimlə baş-başa,
İnandım salamların quruluğuna.
Vəfasını gördüm, dilucu xoş-beşin də.

Dünyada nə desən olur:
Dünyanın nə vecinə, dünya öz işində!
Dünyaya iki dəfə gəlib Orxanım –
Bir martın 21-ində,
bir də on yeddi ildən sonra –
martın 15-ində.
Bəzən bir insan
Bir ayda iki dəfə doğulur.
Dünyada nə desən olur,
Dünyanın nə vecinə, dünya öz işində!

1983

MONOLOQ

Günəşin bir zərrəsiyəm,
İşıqdan gəlmişəm, gəlirəm, gələcəyəm.
Dünənəm, Bügünəm, Gələcəyəm,
Milyard illərdir yoldayam,
Yolda ulduz, daş, ağac,
insan olmuşam.
Yolda, qətrə, çay, dəniz,
ümman olmuşam.
Kainatı iki bölüb gəlmişəm,
Neçə dəfə ölüb – gəlmişəm.

***

Günəşdən qopub
torpağa qarışdığımı
insan olanda bilmişəm.
İnsan olanda bilmişəm
işığın qədrini.
Torpağın qaranlığı
qorxutmur məni.
Ox kimi sancılıb
Yerin o üzündən çıxacağam.
İşığa dönmək üçün
yenə göyə qalxacağam.

1987

QOY BAŞINI ÇİYNİMƏ, GÜLÜM

Qoy başını çiynimə, gülüm,
Qoy uzansın bu qatarın yolu.
Çiynimdə daş daşıdığım olub,
dərd daşıdığım olub,
Bu da qismətimdə varmış,
Çiynimdə gözəllik də daşımalıyammış!
Qoy başını çiynimə, gülüm.
Qoy uzansın bu qatarın yolu.

1986

YAXŞILIQ

Yaxşılıq eləməkçün gəlib dünyaya insan,
Bu məqamda bilinir, bizim fərqimiz daşdan.
Gördüyün bu gözəllik, bu naz-nemət, bu həyat,
Göylərin özü belə göyərib yaxşılıqdan.

Yaxşılığın qapısı həmişə açıq ola,
Yaxşılar çox olarsa, yaxşılıq da çox olar.
Ölüm ilə ayrılıq haqq olsa da dünyada,
Acıqca yamanlığın ayağına çıxılar.

Yaxşılıqla qurtara təki bütün gümanlar,
Yaxşılıqdan su içə qəlbimizə damanlar.
Mizan-tərəziyə bax, bu da yaxşılıqdır ki,
Yaxşıların üzünə çörək tapır yamanlar.

Yaxşı gündüz xəyallı, yaman gecə fikirli,
Yaxşı necə qılıqlı, yaman necə məkirli.
Yaxşılıqla yamanlıq bir-birini qovdu ki,
Təbiətdə nə varsa, dönüb oldu ikili.

Günəş də yaxşılıqdır, o boyda, o biçimdə,
Özü boyda mehr var Günəşin də içində.
Günəşdəndir dünyaya dünyaların gəlişi,
Günəşdəndir dünyadan dünyaların köçü də.

Bakı, 1987

QAPI GÖZLÜYÜ

Dar günümdə getdim dost qapısına,
Hirslə yanıb-söndü qapı gözlüyü.
Qırdı ümidimi, kəsdi yolumu,
Yolkəsənə döndü qapı gözlüyü.

Zəng haray qopardı, dost diksinmədi,
Təsəlli istədim, qəlb isinmədi.
Ev dolu adamdı, kimsə dinmədi,
Eyham ilə dindi qapı gözlüyü.

Ürək dostluğunu çətində sına,
Bir himə bənddi ki, şüşətək sına.
Bir göz qırpımında dost arasına
Pərdə olub endi qapı gözlüyü.

Yoxmuş korolmuşda insaf əsəri,
Gözümə tor gəldi, görmədim yeri.
Dünya zülmət oldu, qayıtdım geri,
Yoxsa, duman-çəndi qapı gözlüyü.

Yalançı dostluğun yoxdu axırı,
Çıxar əvvəl-axır üzə paxırı,
Mən elə bilirdim yada baxılır,
Demə, dost üçündü qapı gözlüyü.

Bakı, 1987

DOĞMALARIMIN ÇİYNİNDƏ

Məni ölü göstərməyin,
Yalançı dostlarımın heç birinə.
Açıq sevinməyə ürək eləməsələr də,
Kimsə ürəyində sevinər.

Dörd övladım yapışsın
Tabutumun dörd küncündən.
Yada inanmıram daha,
Doğmalarımın çiynində gedim mən.

1989

YENİDƏNQURMA

Hər kəs özündən başlasın, özündən,
Başlasın işindən, sözündən.
Yalan danışmasın, rüşvət almasın,
Nəfsini saxlasın, paxıl olmasın.
Yersiz yerə yerliçilik eləməsin,
Bütövü çilik-çilik eləməsin.

1986

AYDIN QARADAĞLIYA AĞI

(Epitafiya)

Ömrümün şüşəsinə daş atdı zalım fələk,
Çiliklənmiş səsimdən yer də, göy də titrədi.
Səsim qaldı dünyada soyuq bir təsəlli tək,
Səsim qaldı bəsimdir, insan gəldi-gedərdi.

1989

BUTAFOR

Divarda asılmış xalça – butafor,
Mizin üstündəki dolça – butafor.

Xalçaya çəkilmiş buta – butafor,
Dolçaya tökülmüş su da – butafor.

(Bunlar səhnədədir, həyatda da sən,
Hər addım başında yalan görərsən).

Gözə kül üfürən əda – butafor,
Boş daqqadan çıxan səda – butafor.

İşıqdan bərq vuran odun – butafor,
Boşluğa atılan addım – butafor.

Yaşamaq çətindir olsan – butafor,
Yaşaya bilməyən insan – butafor.

1987

KİTAB SATILMAZ

Hər bir təzə kitab təzə bir çiçək,
Yaxşı kitabın da carçısı gərək.
Yoxsa ki, gərəksiz yetim malı tək,
Küncə atılanda – kitab satılmaz.

Tapılmır iş yeri, qəhətdir ruzi,
Kitab almayanın qaradır üzü.
Qoy bu sözüm olsun atalar sözü,
Çörək qıt olanda – kitab satılmaz.

Çörəklə sınağa çəkiblər xalqı,
Qarışıq salıblar haqnan nahaqqı.
Bu yazıq camaat neyləsin axı,
Vətən satılanda – kitab satılmaz.

Dekabr, 1997

PULUN BAŞINA DAŞ DÜŞSÜN

Hər ay gəlir ev pulu,
İşıq pulu, qaz pulu.
Necə bölüm, ay Allah,
Bu dərdlərə az pulu.

Vallah, qalmışam çaşbaş,
Çatmır bir aya, qardaş!
Nə təqaüd, nə maaş,
Nə nəzir-niyaz pulu.

Ehtiyac – kor kahadır,
Ümidim – Allahadır.
Məhəbbətdən bahadır
Qəmzə pulu, naz pulu.

Yox edəcək yoxsulu,
Çörək pulu, su pulu.
Neyləyirəm bu pulu,
Bu cibdə durmaz pulu?!

Çox başları əyib bu,
Çox karvanlar yeyib bu,
Kim icad eləyib bu
Suçu yuyulmaz pulu?!

Bakı, 1997

GƏTİR

Ay İrandan mal gətirən,
Nə bilim nə şirkəti!
Dovşan bu tayda da var,
Gətirirsən şir gətir!

Dünyanın o başından,
İri-xırda maşınnan,
Gecə-gündüz daşınan,
Lap haray-həşir gətir.

Amma, tiryək gətirmə!
İblis-mələk gətirmə!
Saxta ürək gətirmə!
Ondansa səbir gətir!

Özün seç, özün bəyən,
Plastmass suçiləyən,
Dolça, aftafa, ləyən,
Mal qıtlığıdır bəyəm?
Bir az da xəlbir gətir!

Köhnə saqqız, şirin duz,
Tez paslanan çuvalduz,
Guya satılır ucuz,
Şıdırğı gedir-gətir.

Boş yapışqanlı başmaq,
Yalançı gül, təmtəraq,
Zəri tökülən daraq,
Nə xeyirlidir gətir!

Baş vur daha dərinə,
Baş işlət öz xeyrinə,
Baş dərmanı yerinə
Adi təbaşir gətir.

Qapı-qapı düşüb tap,
Gözsüz iynə, çürük sap,
Çürüt bizimlə hesab,
Gətirhagətir – gətir.

Sən türkü söyə-söyə,
Yol verdin ermәniyə,
Bircə bu qalıb, ayə,
Məscidə kafir gətir.

Əlində bezardı yol,
Tacirsənsə tacir ol!
Sənə kim deyib, oğul,
Sirr aparıb, sirr gətir.

«Haqq-hesab»da haqqa bax!
Başda yazılıbdı haqq:
Haqsız söz demə, qoçaq,
Sözünü bişir gətir.
Dovşan bu tayda da var,
Gətirirsən şir gətir.

Bakı,
aprel, 1997

ƏNVƏR PAŞANIN, NURU PAŞANIN VƏ ŞƏHİD TÜRK ƏSGƏRLƏRİNİN RUHUNA

Bizdən ötrü şəhid oldunuz,
Göylərdə sərgərdandı ruhunuz.
70 il susmuşuq,
danışa bilməmişik.
10 il də müstəqillik
hələ özümüzə gəlməmişik.
Əhd eləmişik ən gözəl parklarda, bağlarda,
meydanlarda
əsgərlərin şəhid olduğu yerlərdə,
ucaldaq birər-birər abidənizi.
Hələlik başımız qarışıqdır,
Əhf eləyin bizi, bağışlayın bizi!

Avqust, 2000

MİRCƏ ƏLİ MÖCÜZ ŞƏBÜSTƏRİYƏ

(Sərbəst nəzirə)

«A Şəbüstərli dadaşlar,
Sizə mən neyləmişəm?!»

Görməsəm də bir mehrini, mən Şirvanın övladıyam,
Şirvan – Şirinimdir mənim, mən də onun Fərhadıyam.
Özümə görə şairəm, nə Sabirəm, nə Hadiyəm.
Bilən bilir, indiyədək beş-üç doğru söz demişəm,
A Şamaxılı dadaşlar, sizə mən neyləmişəm?!

Şairlərin durduğu yer firqələrin fövqündədir,
Ayə, bəs onda bu əda, bu ayrıseçkilik nədir?
Sayım elədiklərimi istəyirsən sənə bir-bir,
Dost qəlbini sevindirib, düşmən bağrın teyləmişəm,
A Şamaxılı dadaşlar, sizə mən neyləmişəm?!

İmarətlər ucaltmısız özünüz üçün göylərə,
Fəxrimiz Sabirə fəqət, ucaltmamısız məqbərə,
Şirvanlıya soyuqqanlı demirlər ki, nahaq yerə,
Mən də bu doğru sözü bir də təkrar eyləmişəm,
A Şamaxılı dadaşlar, sizə mən neyləmişəm?!

Şirvan – torpaq, ana yurddu, torpağın nə günahı var?!
Müqəddəsdi, məkr bilməz ormanlar, dərələr, dağlar.
Adamlardı bu Aləmi biri-birinə qatanlar.
Mən də babam Sabir kimi gördüyümü söyləmişəm,
Dünən, srağagün, bu gün və həmişə və həmişə,
Nadana nadan demişəm, namərdə namərd demişəm,
A Şamaxılı dadaşlar, sizə mən neyləmişəm?!

Bakı,
Dekabr, 2000

ŞEİR YAZIR

Mən sayım, sən sadala,
Gör kimlər şeir yazır.
Mühəndislər, polislər,
Həkimlər şeir yazır.

Bunu bildim, tanıdım,
Ta kimlər şeir yazır?!
Deputatlar, vəkillər,
Hakimlər şeir yazır.

Uşaq bağçasından ta
Ali məktəbə qədər,
Şeir yazır uşaqlar,
Şagirdlər, tələbələr.

Elmdən yorulanda
Alim də şeir yazır.
Qanı qara olanda,
Müəllim də şeir yazır.

Şeir yazır hacılar,
Məşədilər, mollalar.
Evin tikilsin, millət,
Bu qədər şair olar?!

Adlayıb bəmdən zilə,
Şeir yazır naz ilə.
Yalançı bəstəçilər,
Yalançı müğənnilər.

Nazir də şeir yazır,
Hətta lap qapıçı da.
Naşir də şeir yazır,
Mürəttib də, çapçı da.

Tacirlər, satıcılar,
Şorsatanlar, südçülər,
Cavan qızlar, gəlinlər,
Qoca təqaüdçülər.

Savadsız jurnalistlər,
Səbatsız qəzetçilər,
Sonra da daha kimlər,
Sonra daha nəçilər.

Kimisinə əyləncə,
Kimisinə şan-şöhrət,
Bunların hamısını,
Çaş-baş salıbdı «sənət».

Dərdi başından aşan,
Köçkün də şeir yazır.
Fatmanisə qarı da
Üç gündür şeir yazır.

Özəl kitablar çıxır,
«Gözəl» kitablar çıxır,
Sarı, sarı, sapsarı,
Xəzəl kitablar çıxır.

Kitabın üzünə yox,
Varaqla, içinə bax!
İçi hədyanla dolu,
Ədasına, fikir ver.
Yalana bax, sən Allah,
Özü-özüyçün deyir:
«Görkəmli, dahi, ulu».
Bəlkə də dərd yarıydı,
O yalançı şeirlər,
Şeirə oxşasaydılar,
Heç olmasa tük qədər.

Kim necə gəldi yazır,
Əruz, heca bilmədən.
Rüsvay edir özünü,
Lap birinci kəlmədən.

Zol-zol olub varaq da,
Zara gəlib qələm də,
Bu nadanlar əlində,
Bu naşılar əlində.

Kitab oxuyan yoxdur,
Kitab yazandı hamı.
Pulnan satın alırlar,
İndi şeiri, ilhamı.

Əsl şairlər susur,
Şeirə qiymət azalıb.
Elin dili – şairə
Layiq hörmət azalıb.

Zavod yox, iş yeri yox,
Fəhlə də şeir yazır.
Kənddə torpaqsız qalıb
Kəndli də şeir yazır.

Əli də şeir yazır,
Vəli də şeir yazır.
Nəşriyyat çox olanda
Dəli də şeir yazır.

Bir zaman deyərdilər:
«Əli də qəlyan çəkir,
Vəli də qəlyan çəkir.
Tənbəki bol olanda
Ölü də qəlyan çəkir».

Bu hay-küyə, hop-gopa,
Görəsən səbəb nədir?
Bu ağılla, bu başla,
Bu millət hara gedir?

Xəbər olsun yadlara,
Xəbər olsun dostlara.
Şeir yazır Lənkəran,
Salyan, Lerik, Astara.
Şeir yazır Ordubad,
Culfa, Şahbuz, Naxçıvan.
Şəki, Gəncə, Mil, Muğan,
Bakı, Şamaxı, Şirvan.
Şeir yazır Qarabağ,
Tovuz, Yevlax, Qazax, Qax.

Dəvəçi, Xaçmaz, Quba
Şeir yazır şıdırğı.
Bütün kəndlər, şəhərlər
Başdan-başa el-oba.

Bir kəlmə, söz müxtəsər,
Can, ay can, bir də ay can!
Şeir yazır sərasər
Bu boyda Azərbaycan!

Aprel, 2000

SOYUQ MEHR

Şamaxının qışı – uzun, sərt, soyuq,
Soyuq – burdan bitişibdi adına.
Şamaxının qanına qar qarışıb,
Əriyəmməz, ha tut, insaf oduna.

Torpağına göydən qarğış tökülüb,
Tarlasına çürük buğda əkilib.
Mürüvvəti yerdən ərşə çəkilib,
Dörd yan meşə, həsrət qalıb oduna.

Burda hər kəs ya xandı, ya yüzbaşı,
«Biz, arifik» – söyləyirlər söz başı,
Varlıların öz əlidir, öz başı,
Allah çatsın fağırların dadına.

Kimi Vətən üçün candan keçibdi,
Kimi küsüb doğma yurddan köçübdü.
Kimi yalan əkib, qızıl biçibdi,
Kimi möhtac qarğıdalı cadına.

Bəxtin gülsə – sənə məəttəl qalarlar,
Od tutarsan – baxıb da həzz alarlar,
Ucalarsan – başına daş salarlar,
Yıxılarsan – tikan batar buduna.

Şeirə, sözə başlarını qatdılar,
Həqiqətdə tamam başqa zatdılar,
Bir-birinə düşməndilər, yaddılar,
Qonşu nədir, qohum düşməz yadına.

Əl çəkmirlər qəsidədən, qəzəldən,
Zövq alırlar təbiətdən, gözəldən.
Təbəh-təbəh bölünübdür əzəldən,
Bilmirlər ki, birləşməyin dadı nə?!

El dərdini ürəyinə salsan da,
Əzab çəkib, yaş töküb, saç yolsan da,
Başqa kənddə lap peyğəmbər olsan da,
Gedəcəksən özününkünün badına.

Müdrik olsan – səndən uzaq gəzərlər,
Düz danışsan – sənə dodaq büzərlər,
Böhtan atıb, eyham-eyham bəzərlər,
Lənət olsun böhtançının zatına!

Çərxi-fələk çarxını tərs hərlədən,
Sabirləri, Hadiləri çərlədən,
Suçu yoxsa, dəbəribdi Yer nədən,
Neçə dəfə batıbdı yer altına?

Bu zülmətdə yenə çıraq yandırır,
Xalqa haqqı-ədaləti qandırır.
Amma, təbi-zərifləri dondurur,
Soyuq mehri-möhür vurub adına.

Oktyabr, 2006

RUH

Körpə doğuldumu, hazır dayanıb,
Cana İlahidən calaq olur ruh.
Bədən dediyimiz zindana düşür,
Bir ömür boyunca dustaq olur ruh.

Göydən gəldiyindən yerlə barışmaz,
Yiyəsi neyləsə görər, qarışmaz.
Yumular-açılar, amma danışmaz,
Qeybətdən, tənədən uzaq olur ruh.

İnsan təbiətən azaddı – mərddi,
Amma azadlığı saxlamaq dərddi.
Yiyəsi comərdsə – ruh da comərddi,
Yiyəsi qorxaqsa – qorxaq olur ruh.

Ruhsuz qara daşdı dünyada xilqət,
Ruh – qanad, ruh – həyat, eşq-məhəbbət.
Ruhu olmayana kar eləməz dərd,
Yaxşıya, yamana ortaq olur ruh.

İnsan nədir – ruhla can qarışığı,
Ruhdur gözün nuru, qəlbin işığı.
Ruhdur sözümüzün yar-yaraşığı,
Arzuya, ümidə çıraq olur ruh.

Görən bəs nə üçün enibdir göydən?
İnsanı küfürdən qorumur nədən?
Vədəsi gələndə suçlu bədəndən,
Baş götürüb qaçır, qaçaq olur ruh.

Ruh göyə qayıdır, göydə qorunur,
Billur buludlardan keçib yuyunur.
Nur idi, təzədən dönüb olur nur,
Günəşdən sallanan saçaq olur ruh.

Noyabr, 1996

İKİ MƏLƏK

İki çiynimizdə iki mələk var,
Bir mələk suç yazır, bir mələk savab.
Üst-üstə qalanır suç da, savab da,
Qiyamət günündə çəkilir hesab.

Daş da yuvarlansa, olar daş təkər,
İnsan ömrü boyu əziyyət çəkər.
Bu yanda bir mələk dayanıb bekar,
O yanda bir mələk bağlayıb kitab.

Suçu savabından çoxdur insanın,
Əzəldən qaradır üzü dünyanın,
Külli-kainatı gəzin, dolanın,
Görün harda vardır bu boyda əzab?!

Daşıma boş yerə aranı dağa,
Haqlısı kölədir, haqsızı ağa.
Yerdə hökm sürən bu haqsızlığa,
Yenə insan oğlu tab gətirər, tab.

Suçlu adam var ki, qınamıram mən,
Ehtiyacdı onu suça sövq edən.
Savab gözləyirsə suçu törədən,
Yemlik seçilmirsə acı tərədən,
Di, gəl bu dünyada həqiqəti tap!

O suç yazan mələk olsaydı insan,
Onun da gözünü tutardı meydan.
O da yaşamaqçün düşərdi heydən,
Çətin suallara tapmazdı cavab.

Dekabr, 1997

ƏLİFBANI BİLMƏYƏN NƏNƏMİN ƏLYAZMASI

MİN BİR BUTA

İçərişəhərdə xalça muzeyimiz var

I

XALÇA naxış-naxışdı,
Bu bulud, bu yağışdı.
Yeri canlı bahardı,
Köbəsi qarlı qışdı.

XALÇANIN gülünə bax,
İlmənin dilinə bax.
O yanda ocağına,
Bu yanda külünə bax!

XALÇAYA bax, xalçaya,
Bənzəyir axar çaya,
Sahilləri bələnib
Çiçək açmış alçaya.

XALÇANI buta bəzər,
Buta buluda bənzər.
Bu yandan qırqovula,
O yandan oda bənzər.

XALÇADA tağ gürmüşəm,
Tağda çıraq görmüşəm.
Aydımı, ya qaşdımı,
Yoxsa oraq görmüşəm?!

XALÇADAN dünəni sor,
Torpağa dönəni sor!
Gün təki alışanı,
Ay təki sönəni sor!

II

Xalça – qədim xəritə, hikmətlə dolu şeir,
Burda zərrəcə nöqtə bir kitablıq söz deyir.

Xalça – uzaq dünənin bu günə gül xonçası,
Min bir əfsanə söylər hər gülü, hər qönçəsi.

Əlifbanı bilməyən nənəmin əlyazması,
Bir gülünə həkk olub həm özü, həm dünyası.

Bu xətt onun ümidi, bu sədd onun imkanı,
Sevinci – dağ laləsi, kədəri – çöl tikanı.

Hər ilməsi – bir hərf, hər düyünü – kəlmədi,
Gözümü bir anlığa yana çəkə bilmədim.

Bu gül oxdur, bu kaman, bu şəhər, bu da qala,
Bu gül çəndir, bu duman, bu da gərək dağ ola.

Bu yumru gül çarx imiş, «çərxi-fələk»miş demə,
Bu «su» qoşa arx imiş, «gölə» gərəkmiş demə.

Bu gül Babadağdır, bu gül Şirvan düzüdür,
Bu gül gözdür, bu gül qaş, bu gül yarın üzüdür.

Bu qılcıq sünbüldür ha, bu top da topraq imiş,
Bu şaxələr xan çinar, bu ləçək yarpaq imiş.

Savalanın qaşına təzə yağmış qara bax,
Zəncir boyunbağıda dənələnmiş nara bax!

Burda üstəgəl – günəş, burda üçbucaq çadır,
Bu qanad Qırat imiş, bu uzun zolaq – cıdır.

Bu xətt «pişikayağı», bu rəng «narçiçəyidir»,
Bu günəşin saçağı bu ulduz ləçəyidir.

«Siçandişi» naxışlar mirvari düzümüdür,
Salxım-salxım ləçəklər Abşeron üzümüdür.

Bu lalə – odlu halə, bu nərgiz – ulduz yolu,
Bu qızılgül – sevgili, bu sarmaşıq – yar qolu.

Bu buta – «yalqız buta», bu da – «bəlalı buta»,
Bu da küsülü buta, başı bəlalı buta.

Bu aynəbəndli evdən, bu alaçıqdan gəlib.
Bu Lahıcda toxunub, bu Qalacıqdan gəlib.

Bu xalça pul-pul yanır, üzündə «balıq» üzər,
Yeləni xan Arazdır, sinəsi mavi Xəzər.

Yağdır «bulud» xalçanı, yağsın xeyir-bərəkət,
Yandır «lampa» xəlçanı, alışıb-yansın heyrət.

Güllü dağ ətəyidir bu xalçanın çeşnisi,
Xonçasında qaynayır ab-həyat çeşməsi.

Bu «göl» – Göygölə bənzər, bu xonça şəlalədi,
«Xəyal görünməz» deyən, gəl gör ki, xəyal nədir!

Bu Babəkdən nişanə, bu Xətaidən qalıb,
Bu rəngdə, bu nəqşədə o vaxtkı Vətən qalıb.

Kürlə haşiyələnmiş Günəş parçasıdır bu,
Dədə Qorqud qopuzlu Qazax xalçasıdır bu!

Naxçıvan naxışları Əcəmidən yadigar,
Bu xəzəlli xətt – payız, bu yarpaqlı xətt – bahar.

Nüşabədən söz açır, Bərdədən gələn xalça,
Tovuzquşudur sanki, az qalır qanad aça.

Bu xalçanı bir zaman görüb Sultan Məhəmməd,
Gör nə danışır naxış, gör nə deyir sınıq xətt.

Bu qürbətdən qayıdıb, qovuşub doğma yurda,
Bunun adı yazılıb, özü görünmür burda.

«Qoca» didərgin düşüb, «Şeyx Səfi» pərişan,
Dönən yoxdur Vətənə Topqapıdan, Luvrdan.

III

Bu xalça «Muğan»dımı?
Ulduz olub yandımı?
Çəmən çəmənə baxıb
Özündən utandımı?

Bu xalça «Qımıl»dımı?,
Qönçədi, yumuldumu?
Qışın oğlan çağında,
Ondan gül umuldumu?

Bu xalça «Təbriz»dimi?
Əsrləri gəzdimi?
Uçuq, naxış körpülər,
Ayrılıqdan izdimi?

Bu xalça «Quba»dımı?
Gülü el-obadımı?
Bir butası dünyaya
Tanıtdımı adımı?

Bu xalça «Şirvan» olar!
Naxışı rəvan olar!
Bu xalçaya baxanın
Günü firavan olar!

Bu xalça «Gəncə» olar,
Naxışı incə olar!
Yeri gül, xonçası gül,
Köbəsi qönçə olar.

«Qaraqaşlı»dımı bu?
Buruqsaçaqlıdımı bu?!
Hər ilməsi ayrılıq,
Gözü yaşlıdımı bu?!

«Qolu-Çiçi»dimi bu?
Yaylaq köçüdümü bu?
Ürəyin qanadımı,
Əlin gücüdümü bu?

«Qarabağ» – bu xalçadır,
Boyu tavana çatır.
Hər düyünün ucunda
Ümman bayatı yatır.

Bu xalça «Qobustan»dı,
Hər gülü bir dastandı.
Ağ sapı toydan qalıb,
Qara sapı yasdandı.

Bu xalça «Pirəbədil»,
Nağıldı, xalça deyil,
Şoğu üzümü qarsır –
Çıraq deyil, bu nədir?

Bu xalça «Xilə-buta»,
Qarışıb gülə buta.
Yüz mənası açılıb,
Sirrdir hələ buta.

Bakı, 1980

PAYIZ DÜŞÜNCƏLƏRİ

(Lirik miniatürlər poeması)

Dünya, bir də yoxla məni,
Dünya, bir də sına məni!
Yazığam, möhtac eləmə
Alın yazısına məni.

Gözbağlıca vaxtı keçib,
Aldatma ovsuna məni.
Bu payız – ömrün payızı,
Vermə div yuxusuna məni.
Dünya, bir də sına məni!

***

Meşəyə açılır pəncərəm…
Dünənki xəzan yağışı
yuyub ağacları bir neçə kərə.
Yarpaqların yaşılı
göz qamaşdırır.
Budaqlar boylanır
pəncərəmdən içəri.
Qaçmaq istəyirlər
qapının ağzını kəsən payızdan.
Bir dəli şeytan deyir
yığ bu meşəni
otağında gizlə!

***

Bulud, səndən bir umacağım,
Bulud, sənə bir andım var.
Yağışından salla məni,
Göy üzünə qaldır məni.
Gəzdir meşənin üstüylə,
Quru ağac görən kimi
Qorxma, yerə tulla məni,
Yağış bilib yağdır məni,
O ağaca gərək ollam!

***

O dünənki yağış,
oyatdı bu xatirəni.
Əli Kərim dayanmışdı
bir ağacın dalında –
başıaçıq, plaşsız.
İnstitut illərindən
«boylanırmış» demə.
Elə beləcə qalıbmış
yağışın xəyalında.

***

Payız, mən səni görürəm,
ağac görmür.
Payız, mən sənin qəsdini bilirəm,
ağac bilmir.
Sən dünyanın, Allah bilir
neçənci payızısan,
Mənim payızım, yeganə payızımdır,
Dəymə mənim payızıma!
Meşədə solası ağac çoxdur,
Onların taleyini mənə yazma!

***

Gör,
nə gur
yağır başıma
xəzəl yağışı.
Örtür ağ saçlarımı
yarpaqların qızılı.
Sönmüş saçlarım,
solmuş yarpaqların
soyuğunda qızınır.

***

Qayınlardan ən çox
ağcaqayından xoşum gəlir.
Qaməti ağ şirmayıdan
yonulub elə bil.
Bir az mehr ilə baxsan,
yola düşüb yeriyəcək.

Sanki gözəl bir qızdır ağcaqayın – ağac deyil.
İllah da ki, yağışlı gündə
Meh sığallaya islanmış saçlarını.
Ağcaqayın dəli edib, vallah,
meşənin bütün ağaclarını.

***

Birbaşa qəlbimə yağdı
dünənki yağış.
Yuyub apardı qəmi, nisgili, qayğını.
Yuya bilmədi amma,
ürəyə daman payızı,
yaxınlaşan qocalığı.

***

Yamyaşıl çəməndir meşənin içi,
Ot dizəcən.
Üç gün, üç gecədir ki,
yağır payız yağışı.
Birinci gün şərbət içir,
İkinci gün doyub, yığışır.
Üçüncü gün qərq olur suda –
boğulur, ölür otlar.

***

Meşə yolunda
bomboş bir skamya!
Yağış altında qalmış
Sehirli bir dünya.
Sevgililərin görüş yeri, gəncliyi,
Qocaların, qarıların dincliyi.

Sevgililərin görüş sevincini,
Qocaların yalqızlıq həsrətini,
Üst-üstə gəlib ikiyə bölsən,
Payız alacaqsan.

***

Yağışdan sonra
orda-burda
baş qaldırdı xeyli göbələk –
boyları bir qarış.

Baş alıb göyə ucalan
Şama bax,
göbələyə bax!
Yağma yağış!
Sən allah, bu qədər yağma!
Şam hara,
Göbələk hara.

***

Yağışlı gündə
Meşə nəfəsini qısır.
Quşlar susur,
Dələlər qaçmır.
Ağacdələnlər ağac dəlmir,
Amma bu təyyarələrlə heç kəs bacara bilmir.
Yalnız təyyarə pozur
Yağışlı meşənin sükutunu.

***

Payız buludları
tək-tək gəzmir.
Sürünürlər onu bir yerdə,
yüzü bir yerdə.
Hər bulud –
bombasını hara gəldi boşaldan
təyyarə təki,
yağışını yağdırıb qaçır,
Nə deyəsən bu «namərdə»?!

***

Bir cam doldurub
udum-udum içdim yağışdan.
Bəzən yağış suyuna da qəribsəyirmiş insan.

Bir az Kür daddı bu yağış,
Bir az Araz, bir az Xəzər.

Öz yağışım, öz başıma,
yağıbmış demə.
Bu dünyada möcüzə
varmış, hələ də.

***

Soruşdum: –
Günəş, sənindəmi payız çağındır,
nədir göndərdiyin soyuq şüalar?
Dedi: –
Sənin payızından sonra qış gəlir,
Mənim payızımdan yaza körpü var.

***

Çoxdanışan adam kimidir,
bu nüzul yağış.
Bilmir üyütdüyünü
buğdadır, darıdır, ya düyüdür.
elə hey üyüdür.
Uzandıqca uzanır,
bu uzun yağış.
Başını tut, qaç!
Hara qaçacaqsan, ay yazıq?
Hər yerdə payız var.

***

Bahar – qızdır,
Yay – oğlan,
Payız – ata-anadır.

Şıltaq Baharnan
Dəliqanlı Yay bir yanadır,
Mehriban Payız bir yanadır.

Payız – qayğı çəkən,
bar yetirən,
ağlayıb-gülən fəslidir dünyanın.
Payız son zirvəsidir,
sevginin, dözümün, inamın.
Qış – qoca – qarıdır,
əli əsalı bir babadır.
Beləcə bütöv bir ömür,
dörd fəsilli, dörd tinli,
bitkin bir rübaidir.

***

Dünya, bunlar sənin işindir,
Dörd əlin var sənin,
Dördü də uzun, dünya!
Dörddür sənin üzün, dünya!
Yaz əlinlə gətirirsən,
Yay əlinlə nur ələyirsən,
Qış əlinlə qar.
Nədir buna sözün, dünya?!
Payızında ağlayır yazın, dünya!

***

İki cürdür meşədə yarpaqlar,
Solanı var,
solmayanı var.
Solanlara baxa-baxa qalıb,
solmayanlar.
Başlarını aşağı salıb,
ağlayırlar için-için,
Xəzəl olmuş yoldaşlarının dalınca.
Bu da sənin işindir, Dünya!

***

Meşə bütöv idi,
Meşəni böldülər.
Bu ağac mənim,
O ağac sənin.
Burda çəpər,
Orda çəpər.

***

Çəpəri aşa bilmədi,
Birləşmək dərdi.
Yenə bütöv olmaq ümidi,
Dilsiz-ağızsız ağac həsrəti.
Ağacları bir-birindən
ayırdı
İnsanın meşəyə olan
məhəbbəti.

***

Ən uzun gecənin də
sonu olur.
Yağış da yoruldu.
Hamıdan tez sevinən
bülbül oldu.
Cəh-cəh vurdu bir ağız.
Payız günəşi
bulud – ələkdən keçib
meşəyə töküldü.
Çox çəkmədi amma,
gözü götürmədi yağışın.
Yağdı yenə bülbülün səsinə,
Yağdı yenə yarpaqların üstündəki
günəş zərrələrinə.

***

Yağış gecə kəsdi.
Gecə heç kəs görmədi
buludun ölümünü.
Gecə bunu qəsdən
eləmişdi, qəsdən.
Qorxusu yox idi bir kəsdən.
Amma yenə istəmirdi ki,
Görsünlər ölən buludu,
Gecədən işıq gözləmə,
Gecənin işi budur.

***

Açıldı göy üzü,
Çəkildi ayrılıq buludları.
Ağaclar ulduzlara boylandı,
Ulduzlar ağaclara.
Hər ağacın üstündə
bir ulduz!
Başlandı gecəyarı
payızdan giley-güzar.
«Yeddi qardaş» gözünü zillədi,
Yeddi bacı – ağcaqayına.
Bir-birlərinə heç baxmadılar da
Gələcəyin bacanaqları.
Hər kəsənin öz aləmi,
öz dünyası,
öz yarı.

***

Əhəd Muxtara

Bizdən əvvəlkilər yazıb payızdan,
Yazacaqlar bizdən sonrakılar da.
Çünki hər şairin başqa payızı,
Hər təzə payızın öz hüsnü vardır.

Bir daha «payızdan nə qaldı» – demə,
Bircə yarpağından yazmışam hələ.
Bu il payız mənə daha əzizdir,
Kəsişib ömrümün payızı ilə.

***

Səhər mehi,
səni and verirəm
Dan ulduzuna!
Asfalta tökülən xəzəlləri
süpür tök torpağa.
meşənin içinə asfalt çəkilib,
torpağı da çox görüblər,
solmuş yarpağa.

***

Aman Allah,
Ağac necə gözəl ölərmiş…
Bir yarpağı yaşıl,
Bir yarpağı sarı.
Bir yarpağın bir saçağı yaşıl,
Bir saçağı sarı.
Yaşıl – sarı,
Yaşıl – sarı.
Yaşılla sarının bütün çalarları.
Dünyanın mahir rəssamları
Yığışıb gəlsə, belə
çəkə bilməz bu
yaşıl – sarı fəryadı.

***

İlin payızı
onsuz da gələcək.
Ağacın payızı
onsuz da olacaq.
Ömrün də payızından qaçmaq olmaz.
Dünyanın payızı olmasın ancaq!
Qoy dünya həmişəbahar olsun,
«Biz gəldi-gedərik,
dünya var olsun!»

***

Dünya, bir də düçar elə,
Xəzan yağışına məni.
Yarpaq bilib, qoparıb at,
Lap qarlı qışına məni.

Göstər mənə sərt üzünü,
Tuş et qarğışına məni.
Təki yarı yolda qoyma,
Çatdır mənzil başına məni.

Peredelkino,
1-13 sentyabr, 1980

HEKAYƏLƏR



www.kitabxana.net



XIRDACA GƏLİN

Yol yoldaşım məndən əvvəl kupeyə gəlmişdi. Şoğu azalmış, kömürü qaragözlü, ağ üzü soluxmuş xırdaca bir gəlindi. Gözünün ucu ilə də olsun pəncərəyə baxmırdı.

Sonra bildim ki, əhd eləyibmiş, qatarda ilk gördüyü adamı bağrına basıb, qucaqlasın. Amma iki həftənin intizarı, on dörd günün iztirabı qollarının taqətini alıbmış. Üstəlik qatar gecikdiyindən bir az da ürəyi sancıb, gözləmə zalından tibb məntəqəsinə, ordan da şəfqət bacısının qolunda kupeyə gəlibmiş.

Bu zərif çiçəklə iki adamlıq kupedə, iki gün, iki gecə yol gedəcəyimi xəyalıma belə gətirə bilmədim.

Məni ötürməyə gələn tələbəlik dostum perronda dayanmışdı. Qatar yola düşəndə başı ilə qonşuma işarə eləyib, mənə göz vurdu, uğur arzuladı.

Gəlin əvvəlcə bir az darıxdı. Bələdçini çağırdı. Nəsə demək istədi. Demədi. Bələdçi çiynini çəkib getdi.

Mən tutuldum. Saçımı yığmaq bəhanəsilə gözümün altından gəlinə baxdım. Gördüm sınayıcı-qayçı baxışlarla başdan-ayağa məni süzür. Əllərimə çatanda gözlərini dikdi barmaqlarıma. Baxışları yumşaldı, məxmər oldu. Duydum bu parıltını. Ürəkdən su içən baxışların gizlənpaç oyununu izlədim. Bu sınağın ən işıqlı çağında fürsət tapıb ona «sən» dedim. O da mənə «sən» dedi. Bu nə qəribə doğmalıq idi? Ərk eləyib ona «sən» demişdim. Məndən 7-8 yaş kiçik olardı. Bəlkə buna görə? Amma, yox! Bu təsadüfün hökmü imiş. Sən demə, bu gün ona «səndə xərçəng yoxdur» – demişdilər.

Bu gün onun xəyalında, gözündə yad, uzaq heç nə yox idi. Dünya da, kainat da, ən uzaq ulduzlar belə onun üçün «sən» idi bu saat. Hər şey ona doğma idi, yaxın idi. Bu qatar da, bu kupe də, mən də. Bütün bunları qabaqca duymuşdu elə bil, ürəyinə dammışdı.

Heç kimə, heç nə deməyib. Bu gün xəstəxanadan çıxıb, bu gün də evə qayıdır. Xəbərsiz-zadsız. Oğlu var doqquz yaşında. Ona qlobus almışdı. «Kim bilir, bəlkə dünyadan köçəsi idim. Köçmədim. Oğluma indi dünya aparıram. Tapança istəmişdi, tapmadım. Ürəyimcə deyildi gördüklərim. Bu on dörd gündə ölümə elə nifrət eləmişəm ki, uşaqların yalançı davalarından da qorxuram».

Bakıda həkimlər şübhələniblərmiş. İndi aydan, sudan arıdır, tərtəmizdi onun ciyəri. Ümidsiz gedib, ümidlə qayıdırdı. Amma ürəyi hələ səksəkədə idi, hərdən diksinirdi.

Çay gətirməyə getdim. Gəlib gördüm ki, kupedəki kiçik yemək stolunda əsl çay dəstgahı qurulub. Lumu elə kəsilib ki, elə bil çıgara kağızdır. Üzüağ nəməkdan süfrənin tən ortasında üzümə baxıb gülür. Kəsilmiş çörəkdən sünbül ətri yayılıb kupeyə.

Çaydanı məndən aldı. Əli əsə-əsə əvvəl mənə, sonra özünə çay süzdü. Əlləri dümağ idi. Şəffaf barmaqlarının qanı qaçmışdı. Qorxdum çaydanı yerə sala.

Qatar Kurskdan keçirdi. Tankların şahə qalxdığı Kursk qövsü! Qələbəmizin ümid işığı bu qövsdən alışdı. Düşmənin inadı qırıldı bu yerdə.

Soruşdum:

– Bu saat ürəyindən nə keçir?

Dedi:

– Dənizin uğultusunu eşitmək. Qızıl lalələri görmək. Bir də oğlumu bağrıma basmaq!

İndi bu üç arzunun heç birinə qovuşdura bilməzdim onu. Acizliyimdən utandım. Gəlin bunu duydu. Baxışlarımız qarşılaşdı. Yanaqlarına qızartı çökdü. Aman allah. Necə yaraşarmış ağ yanağa al qızartı. Ağ çiçək qana doldu, cana gəldi.

Yavaş-yavaş kupedə işıq azaldı. Bir azdan gur işığı söndürəcəkdilər. Soruşdum:

– İşığı söndürümmü?

Dedi:

– Qoy bircəciyi yansın, qaranlıqdan qorxuram. Ürəyimdə izi qalıb hələ o şübhənin. Şübhə işıqdan qorxur bilirəm.

Durub kupedən çıxdım ki, gəlin yerinə uzansın. Heç üç dəqiqə keçməmişdi ki, məni çağırdı: «Tək qala bilmirəm», – dedi.

Uzanmışdı yan çarpayıda, lapar-lapar gül naxışlı ədyal sinəsi üstə səliqə ilə çirmələnmişdi. Boynu-boğazı açıq idi. Bu halında lapar-lapar gül naxışlı selafana bükülmüş qızılgül dəstəsinə bənzəyirdi.

Kupedəki kiçik yemək stolunun üstündə cib bıçağım bayaqdan bəri unudulub açıq qalıbmış. Bir də baxıb gördüm cib bıçağım siyirmə qılınca dönüb, düşüb aramıza. Ortada çay kimi işıldayır.

Bir nağıl düşdü yadıma. Layla olsun dedim, bu nağılım, uyusun xırdaca gəlinim xumarlana-xumarlana.

«Biri vardı, biri yoxdu… Dirilik suyu dalınca göndərilmiş bir igid vardı… Nağıl dili yüyrək olur. Bu igid az gedir, üz gedir, dərə-təpə düz gedir, yorulur. Bir cəzirədə gecələməli olur. Uzaqda bir qalaca görür. Özünü yetirir o qalacaya. Görür bunun darvazası, qapısı yoxdur. Asma körpüləri də çoxdan qaldırılıb. Kəmənd atır qalacanın bir bürcünə. Bacadan düşür bəzəkli bir otağa. Nə görsə yaxşıdır? Burda bir pəri uzanıb yataqda. Yemə-içmə, bunun xətti-xalına, gül camalına tamaşa elə.

Qız səsə oyanır:

– Oğlan, kimsən, nəkarəsən? Hardan gəlib, hara gedirsən? Şah babam bilsə səni öldürər, keşikçilər gəlsə səni doğrayar.

İgid deyir:

– Qəribəm, yuxum qurğuşun olub, asılıb gözlərimdən. Bir gecəliyə mənə sığınacaq ver. Sübhgözü, obaşdan gəldiyim yolla da geri qayıdaram.

Qız deyir:

– Kişi olmayan evdə qonaq özü qalmasın gərək. Amma indi ki, ürək eləyib gəlmisən, budur, mənim çarpayımdaca uzan, yat! Gözlərinin çimirini al, allah sənə yar olsun!

İgid vəziyyəti belə görəndə qılıncını sıyırıb, çarpayının tən ortasına qoyub: – Əgər sənə baxsam, qılıncıma sancılım, – dedi».

Qatar dayanmışdı. Xırdaca gəlin su istədi. «Ürəyim yenə qövr eləyir, bir az su çiləyim üstünə. Bəlkə bu sonuncu ağrıdır, son göynəmdir, son qordur qopur közün üstündən?!»

Sağ qolu üstə dirsəklənib suyu udum-udum içirdi. Özüm də bilmədən gördüm ki, susamış adam kimi həsrətlə baxıram gəlinin su içməyinə. Aramıza düşən siyirmə qılınc baxışlarımı kəsdi. Xırdaca gəlinin təşnə dodaqları soyuduqca, mən od tutub yandım, daha da susadım.

Qatar yola düşdü. Vaqon nənni kimi yırgalandı, xırdaca gəlinə layla çaldı. On dörd gündən sonra ilk dəfə idi ki, o, belə məsum, mışıl-mışıl yatırdı. Yəqin ki, yuxuda dənizin uğultusunu eşidirdi, qızıl lalələri görürdü, oğlunu bağrına basırdı.

Bu intizar dolu, sevinc və kədər qarışıq, işıq və kölgə yüklü ilkin gecəni belə başa vurduq.

Mən oyaq qaldım. Siyirmə qılınc ayıq-sayıq keşik çəkdi, bərq vurdu, aramızda ay işığı kimi.

Bu qəribə səfərin ikinci günü başladı. Günəş də sıyrıldı buluddan. Xırdaca gəlin də oyandı:

– Bir bax, – dedi, – Nəbzim düz vurur bu gün.

Əlini uzatdı mənə. Mən də siyirmə qılıncın üstündən tutdum nəbzini. Heç nə saya bilmədim. Heç nə başa düşmədim. Onun qanından mənim qanıma sevinc hopdu.

– Əllərin elə kobuddur ki!..

Amma «kobud» sözünü elə dedi ki, yer üzündə heç kəs, heç bir zaman, indiyədək bu sözü belə incə deməmişdi.

Dedim:

– Əllərimin əvəzindən üzr istəyirəm, bəlkə incidib biləyini.

Bələdçi qadın çay gətirdi. Bizi tamam oyatdı. Bu təsadüfün ikinci günü idi. Onun ikinci ömrünün ikinci aydın səhəri! Gözlərindəki nigarançılığı inamı silmişdi. Ürəyindəki şübhə gecəyə qarışıb ərimişdi. Üzündə qızartı artmışdı. Solğun yanaqlarında indi dan sökülürdü. Avazımış dodaqları nar içmişdi.

Qalxıb güzgüdə bir az özünə tamaşa elədi, saçlarına sığal çəkdi. Sonra bir az minnətdar, bir az da məğrur qız baxışları ilə mənə baxdı. Bilmədim, niyə belə baxırdı? Nə deyirdi?

Yol yoldaşıyıq biz. Səhraya düşsəydik belə, qızmar qumlar üstündə gecələməli olsaydıq, yenə siyirmə qılınc aramızda keşikçi olacaqdı. Yol yoldaşlığının yazılmamış sərt qanunları var.

Harda idim onun kədəri tüğyan edəndə, xəstəliyinin qara buludları onu bürüyəndə?! Mən onda yad idim. Elə indi də yadam. Sevinci yadla bölmək olur, kədəri yox!..

Dərdi, qüssəni yaxın adama ust olarlar. Keşkə, bu xırdaca gəlinin kədərini də bölüşməyə ərkim çataydı…

Əcəl doğrudurmu görəsən? Əgər doğrudursa əcəli necə aldatmaq olar? Bir nəfər öləsidi deynən, bir təyyarə qəzaya uğrasınmı? Bəlkə qəzaya uğrayacaq adamları, əcəl əvvəlcədən yığıb bir yerə? Bəs ölümə məhkum olmuşların arasından necə qayıtdı xırdaca gəlin? Əcələ inanmıram!

Hər şey hesablanıb təbiətdə. Bəzən təbiət hissə qapılır, adamların sayı düz olsun deynən törədib, artırır, sonra saf-çürük eləyir. Yaxşını-pisi seçir. Amma bu, əcəl deyil – həyatdır.

Soruşdu:

– Tez-tezmi gedirsən ezamiyyətə?

Dedim:

– Bunlar əbədi ayrılığın sınaq məşqləridir. Olsun ki, səfərlərin birindən evə qayıtmadım. Qoy evdəkilər indidən öyrəşsinlər.

Xırdaca gəlinin gözləri doldu. Peşman oldum. Söhbəti dəyişdim.

Dedim: – Bilirsənmi təlqin nədir? Ömründə heç özünütəlqin eşitmisənmi?

Bildiyinə inandırmaq üçün dedi:

– Təlqin – «Vnuşeniye». Özünütəlqin – «Samovnuşeniye» deməkdir.

Ürəyimdə dolandı onun təlqinli günləri: «Mən biləni həkimlərdən əvvəl sən özün-özünə təlqin etmisən ki, səndə xərçəng yoxdur. On dörd gün, on dörd gecə Oraq-Ay bədr olanadək özünütəlqinlə yaşamısan. Böyük şəhərin işıqlı xəstəxanasında on dörd qaranlıq günü təlqin ümidləri gödəldib, on dörd başlı əjdaha-xərçəngi özünütəlqin Məlikmmədləri xıncım-xıncım doğrayıb, yerlə-yeksan eləyib. On dörd gün dənizin uğultusunu eşitmək, qızıl lalələri görmək, oğlunu bağrına basmaq istəmisən. Təki yalan olsun o xəbər demisən. Dağılsın şübhələr, dəyişsin rentgen işığı, dəyişdirsin bütün yazıları, pozsun bu qəzavü-qədəri».

Gəlin ürəyimdə dolandırdığım bu uzun-uzadı sözləri eşidirdi elə bil. Birdən şirin bir səslə fikrimi dağıtdı. O, ürəyindən keçənləri kəlmə-kəlmə danışdı mənə:

– Mən yenidən doğuldum. Yenidən dünyaya gəldim. Bəlkə yenə də sevə bilərəm. Yeniyetmə bir qızam. Dünənki gəlin deyiləm. Yenə sevib-sevilmək istəyirəm. Əhdim vardı, axı!

Sən cavan deyilsən. Görürəm dümağdır saçların. Qoy olsun, nə eybi var?! Yepyeni kövrək məhəbbətimin ovsunları ilə qaytararam gəncliyini. Əvvəl dəyişmək istədim yerimi. Nə çoxdur qadınlı kupe. Baxdım dönə-dönə, baxdım sənə. Gözlərində yalnız və yalnız iki şəffaf nur çeşməsi qyanayıb-qarışıb, aşıb-daşırdı. Mənə bu uzun yolda həmdərd, həmsöhbət gərəkdi. Dözümlü, həssas, qayğıkeş bir adama möhtac idim. O adam elə sən idin. Qadın dözməzdi bu nazıma. Qadın duymazdı bu sevincimi. Dedim, qoy kişi olsun qonşum. Onda adam qorxmur. Odur ki, qaldım sənin yanında. Əllərinə baxdım. Barmaqlarının bükümlərində, cizgilərində, düzümündə çox şey oxudum sənin! Əllər – ürəyin fəhlələridir. İnsanın tərcümeyi-halıdır əllər. Sən də fəhlə olmusan haçaqsa. Amanda olduğumu bildim. Əmin oldum. Qılıq qatdın, yorğunluğumu qovdun. Doğmalaşdın bir anda.

Qınayan olmasaydı əhdimə əməl edərdim – sarılardım sənin boynuna.

Niyə tək qayıdıram? Heç nə gəlməsin ürəyinə. Evə tələsirdim. Gözlənilmədən qayıtmağı xoşlayıram: leysan yağış kimi, ilkin yağan qar kimi. Başqa bir səbəb yoxdur. İki-üç gün qalıb evdən adam gözləməyə ümman səbr gərək. Mənim səbrim bir damladı. Sən səbrli adamsan. Mənim də səbrimə bir cüt qanad tax. Mənim ölməyəcəyimə məndən çox sən sevindin. Çox adam görmüşəm ömrümdə, amma sənin kimisinə rast gəlməmişəm. Kim bilir, bəlkə bu bəxtimdi mənim?!

Mən susub qulaq asırdım. Donub qalmışdım yerimdəcə.

Yol boyunca meşə zolaqları uzanırdı, müharibədən sonra salınmışdı bu meşələr. Ucaboy, qamətli sidr ağacları şəhidlərin yerinə bitmişdilər elə bil. Ağac olublar vətən uğrunda qurban gedən əsgərlər. İndi də yolları acı küləklərdən qoruyurlar.

Xırdaca gəlinin əli-ayağı çox sifayi idi. Barmaqlarına şirmayı çəkilmişdi, nurla minalanmışdı. İşıqlı barmaqları çörəyi necə də zərif kəsirdi. Fikir verirdim, gəlin dünənkindən daha möhkəm tutmuşdu bıçağı. Bu gün dünənkindən daha iştaha ilə yedim xırdaca gəlinin düzəltdiyi yaxmacaları.

Kiçik kupemiz laləzara çevrilmişdi. Kobud fəhlə əllərimin qarışdırdığı qəzetlər, səliqəsini pozduğu kitablar bir göz qırpımında sahmana düşürdü. Kupemiz bəzək otağını xatırladırdı.

Qatar gedirdi. Bəzən qatarda olduğumu hiss eləmirdim. Elə bilirdim dünyada heç kəs yoxdur. Elə ikimizik. Heç hara getmirik. Heç bu qatar da yoxdur. Vaxt da dayanıb. Elə iki nəfərin güclə sığacağı bu kiçik hücrədə, bu iki çarpayılıq və siyirməqılınclıq dünyada yapyalnızıq. Lal olmuşuq fərəhdən. Amma gözlərimiz danışır. Mən baxanda, o gözlərini dikir yerə, o baxanda mən. Sevgi axır

gözlərimizdən. Amma sevinc göz açmağa qoymur bu sevgini. Gözümüzdə gözü yumulu yatır sevgimiz. Sonu ayrılıqla bitən bir nağıldır bu. Körpəni yatıra bilməyən bir layladır bu. Qafiyəsi cinas olmayan bir bayatıdır bu. Bizim bu təsadüfü görüşümüz!

Birdən qatarda olduğumu apaydın görürəm. Divarlara toxunub, bilirəm ki, gördüyüm yuxu deyil. Doğrudan da mən varam. Xırdaca gəlin də qarşımda əyləşib mənə baxır.

Qatar ağır-ağır gedirdi. Bilsə idi ürəyi quş kimi irəli uçan xırdaca gəlin var kupelərin birində – qanad açardı yəqin, kəsərdi yolun damarını.

Uzaqdan Beştau göründü. Beştau – Beş dağ! Şimali Qafqazdan keçirik. Qafqaz! Dahiləri öz gözəlliyinə dönə-dönə diz çökdürən əbədi, məğrur, sıra dağlar! İlham məskəni, şeir səltənəti!

– Şeiri sevirsənmi? – soruşdum xırdaca gəlindən.

– Gözlərimi yumub, əbədi şeir dinləyərəm, – dedi.

Əlimin altında Bella Axmadulinanın «Şam» kitabı vardı. İndi də bu şamın işığında yol gedirik, bir şeir oxudum. Aman Allah, bizim deyə bilmədiklərimizi birər-birər dedi bu şeir! O da gözü yumulu, mütəəssir qulaq asdı, dediyi kimi. Kitabı örtdüm. «Şam»ı söndürdüm. Bələdçi də işıqları azaltdı.

İkinci gecə birincidən uzun çəkdi. Dünyanın ən uzun gecəsi oldu bu gecə.

Yenə də yuxum ərşə çəkilmişdi. Xırdaca gəlin yuxuda gülümsəyirdi. Bilmirəm niyə gülümsəyirdi. Yol yoldaşlığımız ürəyincə idimi, yoxsa yox? Bircə bunu bilirəm ki, onun qara gözlərində ağ razılıq parıltıları vardı. Bu da mənim bəsimdir. Onu yenidən həyata qaytaran tale iki daşın arasında ona yol yoldaşı da tapmışdı.

Beləcə ağlı-qaralı xəyallarla axır ki, yuxuya getdim…

Səhər yuxudan duran kimi lalələrdən söz açdı. Çox sevirdi çiçəkləri. Haçaqça Şamaxıya gedibmiş, mayın axırında. Başdanbaşa lalə döşənmiş bir yamac görüb uzaqda, uşaq kimi qışqırıb: «Baxın, baxın, lalələr dağa çıxır!».

Sonra bir az yağışlardan danışdıq. Bu ilin yazı-yayı yağmurlu keçir. Çox yerdə yaz gecikib, çox yerdə yay gecikib. Qatar da bunlara baxıb gecikib, yoxsa?! Çox yerdə leysan yağışları körpüləri uçurub aparıb.

Xırdaca gəlinin də sevinc seli aşdı-daşdı, məni boğacaqdı az qala. Nə yaxşı ki, çox tufana düşmüşəm. Özümü qorudum, sel də sovuşdu.

– Uçan boşqablardan nə bilirsən, danış mənə.

– Əgər uçan boşqabdırsa, inanmıram, – dedim, – onun uçmağına. Boş qab uça bilməz, axı! Qonşuluğumuzda insanlı bir planet yoxdur. Günəşin ən ərköyün, ən mavi, ən yaşıl övladı elə bizim

Yerdir. Bu da bir xoşbəxt təsadüfdür ki, yalnız Yerdə həyat var. Uzaq qalaktikalardan gəlsələr, mütləq bizimlə dil taparlar. Biz dil tapıb danışdığımız kimi.

Amma nə yerinə düşdü bu bənzətmə. Doğrudan da, sabah ayrılacağıq. Hərə öz qalaktikasına, öz orbitinə çəkiləcək, öz dünyasına qayıdacaq. Bu kəsdiyimiz çörək də unudulacaq, isnişdiyimiz, öyrəşdiyimiz mehr-ülfət də.

Mahaçqala! Pəncərədən dəniz boylandı. Xırdaca gəlin quş kimi pəncərəyə sıçradı. «Dəniz!» – deyib, qiyyə çəkdi. Bu qiyyə fəlakətə uğramış gəmidən sağ qalmış yeganə dənizçinin sahili görəndə çəkdiyi «Torpaq!» fəryadı boyda idi.

«Sən dənizi belə sevirsənmiş?! Dəniz də əvəzində səni həyata qaytardı. On dörd gün nədir ki, amma dənizi əbədi görməmək dərdi ağırdır».

– Di, gəl, qulaq as dənizin uğultusuna! İndi bilirəm ki, xırdaca gəlin bayaq niyə balıq yemədi.

Çox olub səfərlərim, bu heç birinə bənzəməz! Çox olub səfərlərim, çoxdan unudulub çoxu. Bu unudulmaz!

Qatar Bakıya yaxınlaşırdı. Kupedən çıxdım ki, xırdaca gəlin geyinsin. Çox çəkdimi geyinməyi, bilmirəm, ya mənə elə gəldi. Dəli bir darıxma sardı qəlbimi. Qapını çəkdim açılmadı. Nigarançılıq ilə pərtlik arasında utanıb qaldım. Gözləməli oldum.

Qapı açıldı. Bayaqkı xırdaca gəlin hanı bəs? Qarşımda ucaboylu dağ laləsi bitmişdi. Gözlərimə inanmadım.

– Yaşa, – dedim, – həyat eşqi!

Saxlaya bilmədim özümü. Düz gözlərinin içinə baxdım. Çınqı qopdu elə bil, şimşək çaxdı baxışımdan, qara gözlərin kömürü cızıldadı. Saxlaya bilmədim özümü. Gözəlliyə baş əydim. Əyilib əlindən öpdüm. Dodağım alışdı-yandı.

– Nə yaxşı ki, üçüncü gecə olmadı.

Qatar perronda dayandı.

Biz ayrıldıq. Relslərin üzərində qurulu bir otaq qaldı. Bizim kupemiz. Divarlarına indiyədək görülməmiş bir sevginin işığı hopmuş, gəzəri bir dünya. Bizim üçün düyünlü qalmış xatirə boxçası. Kimlərinsə üzünə güləcək sevda ocağı.

Görən o günlərə bizim odumuzdan heç olmasa bir qığılcım qalacaqmı?..

Bakı, 1978

DAŞ BALKON

Bu hekayəni Aysel quraşdırdı, mən yazdım. Bu hekayəni Aysel danışdı öz uşaq diliylə, mən dilmanc oldum. Deyərlər ki, lalın dilini ata-anası bilər.

Bir dəfə uzağa getmişdim. Aysel bərk darıxıbmış məndən ötrü. Anasından, qardaşlarından, gelib-gedəndən hey məni soruşarmış…

Balaca qızlar yamanca şeytan olur. Həm özlərini atalarına çox istədirlər, həm də özləri atalarını çox istəyirlər.

Ayselin beş yaşı ola-olmaya.

Bu, qəmli hekayədir. Amma insana gərəkdir belə hekayə. Həyat özü yazıb bu hekayəni. Qoy bütün uşaqlar Ayselin dərdinə ortaq olsunlar. Böyüklər də inansınlar ki, ürək hiss eləyir kədəri. İstər uşaq olsun, istər böyük – ürəyə damır acı xəbər.

Kədər uşaq ürəyinə daha tez yol tapır. Yumruq boyda, ləkəsiz bir almadır, tərtəmizdir uşaq ürəyi. İynə ucu boyda da qurd düşməsin gərək bu almaya.

Aysel yandırdı bu ocağı, odunu mən gətirdim. Aysel açdı bu bulağın gözünü, suyunu mən yönəltdim. Aysel tapdı bu ulduzu, mən gördüm. Gördüyümü yazmaya bilməzdim. Eşitdiyimi danışmaq istədim hamıya.

Mən uzaqda olanda qoca, xəstə atam ürək ağrısından keçinibmiş. Bir gecəlik qonaq imiş atam bizim evdə. Əbədi ayrılığın bu son gecəsində bacılarım ağı deyib ağlayırmış.

Aysel də tez-tez tabutu tərpədib, «dur ayağa, bəsdir gizlənpaç oynadın» – deyibmiş. Nə qədər onu başa salıblar ki, orda heç kim yoxdur, inanmayıb, deyib, «onda bəs atam hanı?»

Mən uzaqdan qayıtdım. Özümü son ayrılıq saatına yetirdim. Evdə adam çox idi. Aysel məni görmədi. Adamlar yığışdı. Qohumlar, dostlar tabutu qaldırıb maşına qoydular.

Evə qayıdanda Aysel məni gördü. Mən də onu gördüm. Amma dindirə bilmədim. Dayanıb uzaqdan matdım-matdım mənə baxırdı. Gözlərindən təsəlli yağırdı. Qəhər boğurdu məni. Birdən ox kimi üstümə atıldı. Dizlərimi qucaqlayıb səssizcə ağladı. Sonra için-için: «Bir də gizlənpaç oynama!» – dedi.

Dedim: – Yaxşı, qızım, oynamaram, sən get oyna!

Dedi: – Harda oynayım, axı? Görmürsən adamları?

Onu heç cür ovundura bilmədim.

Birdən bir addım geri çəkildi. Əlinin dalıynan yanağındakı göz yaşını sildi. Düz gözlərimin içinə baxıb dedi: – Ata, uzağa getmə, səndən küsərəm.

Dedim: – Getmərəm, qızım!

Sonralar hər dəfə evdən bir yana gedəndə Aysel məni yola salardı. Dayanardı pilləkənin başında əl eləyərdi, nigaran-nigaran baxardı, susardı həmişə.

Hərdən bir lap liftin qapısınadək ötürərdi məni.

Bir dəfə də əliylə işarə elədi ki, əyilim. Əyildim. Pıçıltıyla dedi:

– Daha liftə minmə, yaxşı?!

Dedim: – Yaxşı!

Dedi: – Liftə minəndə birdən yox olursan. Gizlənpaç oynayırsan mənimlə elə bil!

Dedim: – Yaxşı, gizlənpaç oynamaram, liftə də minmərəm.

Ayselin hardan yadına düşdü bu lift? Demə, gizlənpaçdan gözü elə qorxubmuş ki, liftin qapıları bağlananda «atam gizləndi» deyərdi hər dəfə.

Günlər keçdi. Get-gedə adamlar seyrəldi. Yalnız qohumlar qalldı. Onlar da azaldı. Uzaq qohumlar da getdilər. Qalanlarını Aysel tanıyırdı. Bir-bir baxırdı adamların üzünə. Xiffət eləyirdi. Kimisə axtarırdı.

Bir gün məndən soruşdu:

– Ata, bəs babam hanı?

Dedim: – Uzağa gedib, gələcək.

Dedi: – Baba uzağa getməsin!

Dedim: – Deyərəm ona, qızım.

Dedi: – Bəlkə o, liftə minib?

Dedim: – Yox, qızım.

Dedi: – O da liftə minməsin.

Dedim: – Yaxşı, qızım, deyərəm liftə minməsin.

Çox-çox sonralar bir dəfə qəbiristanlığa – babanın məzarını ziyarətə getmişdik. Evdə heç kəs olmadığından Ayseli də özümüzlə aparmalı olduq.

Məzarın dövrəsinə daş məhəccər çəkilmişdi. Daş məhəccərin bu üzündə dövrə vurub durmuşduq. Kimsə için-için ağlayırdı. Aysel bir-bir hamıya baxdı. Sonra ağlamsına-ağlamsına məndən soruşdu:

– Bu daş balkon kimindir?

Dedim: – Bir adamın.

Dedi: – Bilirəm bir adam kimdir.

Dedim: – Kimdir?

Dedi: – Babam!

Dedim: – Bunu sənə kim deyib?

Dedi: – Elə, özüm bilirəm. Baba onda gizlənpaç oynamışdı ha, gəlib sonra burda gizlənib.

Bu yaşda baba itirməklə Aysel ən yaxın sirdaşını, oyun yoldaşını, etibarlı dostunu, üstəlik yüzlərlə təzə nağıl itirdi…

Bir cüt mehriban, qabarlı əl yoxdur indi. o əllər ki, daraq olardı, Ayselin saçlarını qarışdırardı, sonra da darayardı, sığal çəkərdi…

Baba o «daş balkon»dan boylana bilməz bir də. Bunu balaca Aysel başa düşmüşdü.

Burda bitir bu qəmli hekayə – Ayselin hekayəsi.

Bakı, 1979-1980

KİNOMEXANİKİN BACISI

(İlk məhəbbət haqqında daha bir hekayə)

Bu hekayəni itirmişdim. Əlyazması belə tapılmadı. Bu günlərdə köhnə kağızlarımın arasından çıxdı. Mənə dünyanı bağışladılar, elə bil. İstəyirəm bir də işıq üzü görsün bu hekayəm.

***

Haftalana getmişdim. Gözlərimə inanmadım. O vaxtkı yastıyapalaq evlər hanı? Hanı mənim qaldığım fəhlə yataqxanası? Hanı iş yerim – Neft kəşfiyyatı İdarəsi? Hanı o işıq direkləri, hanı çəkdiyim məftillər? Hanı işığa dönmüş günlərim, aylarım. İllərim? Hanı mənim on yeddi yaşım?

Yalnız bir neçə qoca gördüm o günlərdən qalma. O da kurortun parkında. Bir də birmərtəbəli ev qalmışdı o günlərdən. Mənimlə yaşıd olardı. Sızım-sızım sızıldayırdı. O evin işığını mən çəkmişdim. O aşıqları mən vurmuşdum divara işıq xəttini divarın küncündə döndərmək üçün. Eləcə də qalıblar o küncdə… Yorğun, yetim, bir az da kədərli, bir qədər də solğun, solmuş-saralmış… Çünki işsiz idilər. İndi təzə suvağın altı ilə təzə işıq xətti çəkilmişdi. Gözə görünmürdü xətt.

Sonra gəzib-dolandım o doğma yerləri addım-addım, küçəküçə. Yaşıllığa qərq olmuş beşmərtəbəli, doqquzmərtəbəli evlər gördüm. Düzülmüşdülər yan-yana sıra dağlar kimi. Heç kəs də məni tanımırdı. 35 il əvvəl burda işıqçı işləyən qərib, yetim – yeniyetmə bir gənc kimin yadında qalardı ki?! Bir evə dəyməliydim. Gəlməyimdə məqsədim fəhlə dostum İmranı görmək idi. O, burda qardaşıgildə yaşayırdı. Soraq-soraq tapdım o evi. Beşmərtəbəli müasir daş evdi. Aşağıda lap pilləkanın ayağında bir qadın dayanmışdı. Tez-tez yuxarı baxıb kimisə çağırırdı. Bazardan gəlirdi. Yanında iri, ağır bir səbət vardı. Axtardığım adamı soruşdum, dedi – burda olur, ya dörddə, ya beşdə.

Sonra dedim: «Bacı, verin səbəti mən aparım». Dedi: «Çox sağ olun, zəhmət çəkməyin, qızı çağırmışam…». «O gələnəcən, mən kömək eləyərəm» – deyib, ərklə səbəti götürüb yuxarı qalxdım. Mən qabaqda gedirdim. Qadın da birayaq-birayaq: «Heç yaxşı olmadı» – deyə-deyə arxadan gəlirdi. 3-cü qata çataçatda bir qızla üz-üzə gəldim. Səbət əlimdən düşəcəkdi az qala. Özümü güclə saxladım. Surahıya söykəndim ki, yıxılmayım. Aman Allah, bu qız Rəbiyyədir!

– Əmi, səbət bizimdir?

Dinmədim. Bir daha baxdım, bir də dönüb aşağı baxdım. Əsl Rəbiyyə aşağıda idi. Görün necə də dəyişib. Ah!.. Zalım dünya! Mən də qocalmışdım, dəyişmişdim, o qədər yox. Amma o!.. Mən onu tanımadım, o da məni tanımadı. Görünür, bu da yazılıbmış alnımıza.

Bu qız onun qızıdır. Bu gözəllikdə, bu yaşda elə bu boy-buxunda idi onda… bir alma iki yerə bölünüb elə bil, bir parası solub-saralıb, bir parası necə vardısa eləcə də qalıb. Səbəti ikicə pillə qaldıra bildim. Qollarım sustaldı. Qoydum yerə. Arxaya baxmadan tez-tələsik iki bir, üç bir pillələri bir baş yuxarı yüyürdüm.

Yaramın közü qopdu. Yaddaşım oyandı. Gör nə düşdü yadıma.

«İlk məhəbbət kor olur» deyirlər. Amma mənim ilk məhəbbətim həm kor idi, həm də lal. Rəbiyyəni sevəndə mənim vur-tut on yeddi yaşım olardı. O, yeddinci sinifdə oxuyurdu, mən oxumurdum. Qəsəbə montyoru idim. İşıqçı idim. Fəhlə idim.

Bir dəfə yuxarı məhəllənin işığı dolaşmışdı. İşığı söndürüb qapı-qapı, həyət-həyət, küçə-küçə gəzməli oldum. Onda görmüşdüm Rəbiyyəni. Elə baxa-baxa qalmışdım ona.

– Oğlan, kimi axtarırsan? Oğlan, lalsan?

Tərs kimi işıq onların həyətində dolaşmışdı. Montyor kəmərimi bağladım belimə, qarmaqları ayağıma keçirdim. Amma dirəyə qalxa bilmədim. Gözümü zillədim qızın gözlərinə.

Həyət sükuta qərq olmuşdu. Buludlar göyə yapışmışdı elə bil. Nəfəs dərmədən üz-üzə dayanıb, bir-birimizə baxırdıq. Axırda qız çiynini çəkib naz ilə dedi: «Heç bu boy-buxunda montyor olar, ay camaat?!» Sonra da gözlərini istehza ilə süzdürüb evə girdi. Ay buludun arxasında gizləndi. Gözlərimi sildim. Bir də eyvana baxdım.

Birdən-birə həyəti səs bürüdü, hardasa uzaqda Murov dağın ətəklərində buludlar guruldadı. Külək əsdi, yarpaqlar xışıldadı. Aman tapıb dirəyə qalxdım, dolaşmış məftili açdım. Məftil boşalmışdı. Çəkib bərk-bərk bağladım aşığa. Elə tarım çəkdim ki, tar siminə bənzədi. Mizrab vuran olsaydı, səslənərdi. İlk məhəbbət üstə köklənmişdi bu məftil.

Yerə endim. Kəmərimi açdım, qarmaqları tərsinə çevirib, birbirinə vurdum. Bu işıqçı dilində «iş qurtardı, vəssalam!» işarəsi idi. Qız yenə eyvanda göründü. Acıqlı-acıqlı ona baxdım, düşündüm: «Sizin ucbatınızdan iki saatdır ki, qəsəbə işıqsız qalıb. Hələ qardaşı da kinomexanikdir. Görmür ki, məftil sallanıb, dolaşıb…» Danışmaq istədim, dinə bilmədim. Amma yenə gözlərim qamaşdı, dilim tutuldu. İmtahan idi elə bil.

Qız soruşdu: «Oğlan, işıq yanacaq?» Qız yəqin ki, məni ələ salırdı. Axı, necə olur ki, mənim dilim bir kəlmə söz tutmur. Bu qız dil-dil ötür. Ürəyimdən keçən bütün sözlər elə ürəyimdəcə qalır. Qapalı bir çevrədə dövr eləyir, səsə çevrilmirdi. Odur ki, dinməz-söyləməz üst-başımı çırpıb həyətdən çıxdım.

Heç on dəqiqə keçməmişdi ki, qəsəbə işığa qərq oldu. Nəhayət, dilləndim, mən sözümü dedim. Görəsən, Rəbiyyə bildimi bu eyhamı, üç dəfə yandırıb-söndürdüyüm «işıq salamı»mı başa düşdümü? İstəsəydi dünyanın bütün işıqlarını onların həyətində yandırardım. Təki, Rəbiyyə elə kənarda durub baxaydı.

O ilk görüşdən sonra tez-tez bu həyətə gələr, məftilləri yoxlamaq bəhanəsilə Rəbiyyəni görərdim. Görərdim… Amma kəlmə kəsməzdim. Rəbiyyə nəsə soruşardı. Mən susardım. Durub baxardım. Çıxıb gedərdin. Yaxınlaşmağa cəsarətim çatmırdı. Mən həyətin aşağı başında durardım, Rəbiyyə eyvanda. Yuxarı başda. İlk məhəbbətin adətidir. Yüksəkdə durur həmişə. Görürsən gözünün qabağındadır, əl uzatsan əlin çatar deyirsən, amma əlin çatmır. Məğmunsan elə bil. Bu minvalla çox keçdi.

Bir axşam Rəbiyyəni istədi ürəyim. Ürəyimə nə qədər dedim ki, bu vaxt evləri doludur adamla. Sabahadək döz! Ürəyim: «yox!» dedi ki, «yox!». Gərək elə bu axşam onu görəm, görməsəm partlayaram. Bilmədim ki, neyləyim. Bəxtim onda gətirmişdi ki, mən işıqçıyam. Qəsəbənin bütün oğlanları Rəbiyyəyə vurulmuşdu, amma heç biri onun həndəvərinə gələ bilmirdi. Rəbiyyə ev qızı idi, başı aşağı məktəbə gedər, evə qayıdardı. Çox zaman böyük bacısı ilə gedib-gələrdi. Rəbiyyənin qardaşı Nazim dəliqanlı bir cavan idi. Qəsəbədəki davaların hamısında olmasa da, yarısında onun əli vardı.

Hə, mənim ürəyim çırpınıb yerindən çıxırdı. Rəbiyyənin ürəyi daşa dönərdi, bu vaxt heç gözünün ucu ilə də mənə baxmazdı. Nə kökə düşərdim onda?! Bu vaxt, şər qarışan çağı evə, həyətə getmək olmaz, axı! Yadıma düşdü ki, bu gün klubda «Hind sərdabəsi» kinosunu göstərəcəklər. Bu gün özü də birinci gündür. Kino yaxşı olanda Nazim öz qohumlarını da çağırardı. Ata-anası, böyük bacısını zalda əyləşdirərdi. Rəbiyyədən başqa. Rəbiyyəni öz yanında «kinobudka»da saxlayardı. Rəbiyyə iki saat kiçik pəncərədən baxırdı kinoya, cınqırı belə çıxmırdı.

Mən qəsəbə klubunun qabağına gəldim. Meydanda köhnə kətilin üstünə qoyulmuş ucadandanışan bar-bar bağırırdı. Kinoya çağırırdı adamları. Rəbiyyəgildən bir kimsəni görmədim. Qanım qaraldı. Ürəyimə nə deyim indi. Kinonun başlanmasına beş dəqiqə qalır. Bilet alıb zala girdim. Beş dəqiqə skamyalara göz gəzdirdim. Kino

başlanar-başlanmaz zaldan çıxdım. Hirsimdən kino biletini tikə-tikə elədim, səpələdim yerə. Getdim yataqxanaya. Elə çarpayıya uzanmaq istəyirdim ki, dostum Təvəkkül gəldi. «Fərid, Rəbiyyəni gördüm, kinodadır» – dedi (dostlarımdan hansı Rəbiyyəni harda görsə mütləq mənə deməli idi).

Diksindim, yerimdən dik durdum. Bircə bundan qorxurdum. Rəbiyyə «kinobudka»dadır. «Yaxşı, mən indi necə gedim ora?! Nazim deməz ki, nə var, bala?!» Kino göstərəndə Nazim ora heç kəsi buraxmazdı. Papiros kötüyü atılsa, ya kibrit çəkilsə yanğın törəyər. O zamanların kinolenti oda yamanca həssas idi. İynə ucu boyda qığılcımdan od tutub alışardı. Ürək özü görmək istəyir Rəbiyyəni, necə görməyi də özü öyrətdi mənə. «Bir çarə, bir əlac, bir yol var ancaq! Heç olmasa onca dəqiqəliyə qəsəbənin işıqlarını söndürüm gərək! Qoruyucu yanır bəhanəsi ilə gəlib budkanı yoxlayım. Eşidənbilən məni qınasa da, Nazimin acığına gərək elə belə də eləyim. Kinonun şirin yerində işıqlar sönəndə hamı Nazimə «pinəçi» (sapojnik) deyə qışqıracaqlar, qoy qışqırsınlar, təki mən Rəbiyyəni görüm».

İlk məhəbbətin bu ilk məkridir. Bu ilk müqəddəs yalandır – məhəbbət naminə. Bu ilk şıltaq addımdır məhəbbət naminə. Bu ilk günahdır – məhəbbət naminə. Bütün qəsəbəni qaranlıqda qoymağa əlim gəlmədi. Yalnız kluba gedən xətti açdım. Yataqxanalar da bu xəttin üstündə idi. «Eybi yoxdur. Uşaqlar inciməzlər, bilərlər ki, ərk eləyirəm».

Nazim qaça-qaça gəldi: «Ə, Fərid, işığı yandır, camaat klubu dağıdır». Dedim: «Kinobudkaya baxmalıyam». Dedi: «Ora heç dədəmi də qoymaram!» Dedim: «Onda qal qaranlıqda». Dedi: «Yaxşı, Fərid, yadında saxla!»

İlk məhəbbət ilk acısını içirtdi mənə. Hələ bu harasıdır, oğlan!..

Mənim anam yaman tərs arvad idi. Tərsliyindən bir az da mənə vermişdi. Dedim: «Nazim qoruyucu dözmür, yanır. Başa düş, mən mütləq kinobudkaya baxmalıyam». Dedi: «Fərid, Fərid, sən yaman tərs adamsan. Yaxşı, gedək! Bir şey tapmasan, özündən küs!»

Getdim kinobudkaya kinogöstərən aparatları, gücləndiriciləri, açarları yoxladım. Budkada köhnə otuzluq lampa yandırmışdılar. Bu lampa işığında Rəbiyyənin gözlərinə baxa bilmirdim, yana-yana qalmışdım. Əcəb işdir, səni görmək üçün işığı söndürmüşəm. İşığı söndürüb, səni görmürəm. Az qala işığı söndürməyimə peşman olmuşdum.

Rəbiyyə onsuz da hər şeyi başa düşmüşdü. Gözlərindən razılıq yağırdı. Mən görürdüm bu parıltını, o da razı idi, mən də. Gözümdolusu gördüm Rəbiyyəni. Rəbiyyə bir küncə qısılmışdı, hürkmüş ceyran kimi oğrun-oğrun baxırdı mənə. Əllərim yalandan nəyi isə axtarırdı, gözlərim doğrudan da istədiyini tapmışdı. Ürəyim arzusuna çatmışdı, elə arxayın döyünürdü ki, guya, bu görüş əbədi olacaq.

Rəbiyyə gözucu Nazimə də baxırdı ki, görəsən o, bu oyunu başa düşübmü? Bəlkə Nazimin də ürəyinə nəsə dammışdı. Amma özünü o yerə qoymurdu. Mən özümü doğrudan da işıqçı kimi aparırdım. Hətta, Nazim bir anlığa kinobudkadan çıxdı, tez də qayıtdı. Bəlkə eşidib bilmək istəyirdi ki, biz bir-birimizlə danışırıqmı?! Onsuz da mən Rəbiyyəni görəndə dilim tutulurdu. Rəbiyyə də burda susurdu. Nazim bu lal məhəbbəti bilsəydi qiyamət qoparardı. Ürəyimdə tutduğum vaxt gəlib çatdı. Bir şey tapmadım. Kinobudkadan çıxdım.

Nazim ürəkləndi: «Fərid, gördün ki, məndə heç nə yoxdur! Get başqa yerdə axtar dolaşığı!»

***

İşıqlar yandı. Zal sevincindən uğuldadı. Əl çaldılar, «ura» qışqırdılar. «Hind sərdabəsi» tamaşıçıların başını qatdı. Heç kəs bilmədi ki, bu on dəqiqə qaranlıq hardan çökmüşdü? Niyə çökmüşdü? Bunu bir mən bilirdim, bir Rəbiyyə. Bir də bizim ilk, bu kor, bu kar, bu lal, bu yazıq məhəbbətimiz. Bir də dostum Təvəkkül bilirdi bu işi. O gün işıqlar sönəndə – sonralar zərbi-məsəl olmuş bu sözləri Təvəkkül demişdi: «İşiniz olmasın, bu Fəridin ilk məhəbbətidir, «göz vurur!».

Bakı, 1982

I

MƏQALƏLƏR

Mənim yazdıqlarım



www.kitabxana.n



«QARŞI» SÖZÜNƏ QARŞI

(Replika)

Onun qəlbində Vətənə qarşı məhəbbət vardı. Bu cür deyilməz. Bu cümlə sadəcə «qarşı»sız deyilməliydi.

Onun qəlbində Vətənə (qarşısız-zadsız) məhəbbət vardı. İstəsən, hədsiz-hüdudsuz sözlərini qarşının əvəzinə işlət, istəməzsən, işlətmə.

İndinin, ilin-günün bu çağında dilimizin bütün qadağalardan azad olduğu vaxtda, savadlı-savadsız – bütün jurnalistlər, radio və televiziya aparıcıları, bütün müsahibəçilər, hətta, yazıçılar, şairlər belə, bəlkə də – hamı qarşı sözünü yerli-yersiz işlədir. Bu cümlələrdə yersiz deyilmişlər, yerində deyilmişlərdən çoxdur. Əlliyə qarşı yüz çoxdur demək olmaz! Canım, gözüm!

Əlliyə nisbətən və ya görə yüz çoxdur. Lap əllidən yüz çoxdur.

Türk dillərinin çoxunda «qarşı» sözü var.

Qarşı dağdan külək əsdi,

Qarşıma çıxdı,

Qarşı-qarşıya gəldilər və s.

Minlərcə misal çəkmək olar.

Yoxsa yüz sentnerə qarşı yüz on sentner taxıl almışdır. Yanlışdır!

«Qarşı» sözü kimi dilimizdə yerində işlənməyən xeyli təzə söz peyda olub. Dilçilərimiz susurlar. Torpağımızı qoruya bilmədik, heç olmasa dilimizi qoruyaq ki, gələcəyə üzü ağ çıxaq. «Qarşı» sözü qarşıma tez-tez çıxdığından özümü saxlaya bilmədim, dilləndim. Çox zaman qarşı sözü rus dilindəki «protiv» sözünün tərcüməsi kimi işlədilir. Deməli, bu səhv «protiv»dən gəlir. Dilimizi qarşıduran sözün hardan gəldiyi tapıldı. Ayıq olun!

Qarşı sözünü öz yerində işlədin!

Üzbəüz – mənasında. Qarşını «protiv» yerinə işlədənlər «protiv» gedənlərdir.

Vəssalam, şüttamam!

«Ədəbiyyat» qəzeti,
30 aprel, 2004

BİR DAHA «QARŞI» SÖZÜNƏ QARŞI

Söz də adam kimidir. Ağıllısı var, dəlisi var. Yerlisi var, gəlməsi var. Yerlisi var, yersizi var. Sözün də halal-haramı, çölü-içi var.

Sözə ehtiyatla yanaşmaq, sözü yerində işlətmək, düzgün tələffüz etmək gərək, yoxsa söz səndən inciyər. Kim düz danışa bilmirsə öz savadsızlığını, nadanlığını büruzə vermək istəmirsə qoy danışmasın, ağzına su alıb, otursun evdə.

Danışan kimi özünü satacaq. Söz – onu ifşa edəcək.

***

Yerində deyilən söz, düzgün tələffüz edilən söz, adamı kamillik mərtəbəsinə qaldırır. O «kəlam» əvəzinə «kələm» deməyəcək. Amma yersiz deyilən, təhrif edilən söz adamı quyunun dibinə salır.

Söz – baş ucaldandır. Azərbaycan türkcəsi – Azərbaycan türklərinin, Azərbaycan Respublikasının dövlət dilidir. Əgər dilin əvvəlinə dövlət sözü yazılıbsa deməli, dil də dövlətdir. Biz də bu dövlətin sahibiyik. Bu dövləti qoruyub saxlamalıyıq. Dil xəzinədir, biz xəzinədarıq. Bədxərclik, ya qənaət eləməyə haqqımız yoxdur. Bu sərvəti yerində və ən vacib məqsədlər üçün sərf eləmək – bu dili olduğu kimi işlətmək, onun kəpənək qanadlarındakı tozu dağıtmamaq şərtilə qorumaq, onun zərif ləçəklərinə ehmalca toxunmaqla gözəlliyini saxlamaq bizim gündəlik işimizdir.

***

Ta qədimdən, tarixin əvvəlindən çiyin-çiyinə, əl-ələ üzü bəri gələn türk dövlətlərinin dilləri içərisində ən zəngin, ən zərif, ən geniş imkanlı, ən kamil dillərdən biri bizim Azərbaycan türkcəmizdir. Bu dildə ən incə mətləbləri açmaq, ən mürəkkəb hadisələri izah etmək olur. Bu dil yüksək bədii imkanlar və heyrətamiz elmi kəşflər dilidir. İşləndikcə daha da parlaq olur.

Di, gəl bu son illərdə dilimizdə bir hərc-mərclik, səliqəsizlik, çaşbaşlıq yaranıb. Savadsızlıq ayaq tutub yeriyir. Bu çaşqınlığa səbəb nədir? Qəzetlərin, çoxluğumu, yoxsa senzuranın yoxluğumu? Nəyə görə dildə dərəbəylik yaranıb?

Özəl nəşriyyatların öz dili, radio və tele-kanalların öz dili, hər qəzetin öz dili, məktəblərin, idarələrin, şirkətlərin öz dili, dilimizi şikəst eləyən reklamların da öz dili var. Bu qədər dili olan bir dilin özgələşməyinə nə qalır ki?!

Qardaş, başa düşmürəm, Avropa şurası bizim qəzetlərin adlarına niyə qarışır? Niyə qəzetlərimizin çoxunun adı əcnəbi dillərdən götürülüb: «Ekspress», «Kompas», «Kredo», «Kokteyl», «Palitra» və s. Məgər öz dilimizdə qəzet adına yaraşan sözlər yoxdur?! Biz bir dəfə (bu çoxdan olub) «Kredo»nun adını özlüyümüzdə dəyişib «Humay» qoyduq. Amma hələ də «Kredo»dur ki, «Kredo».

Radio və telekanalların adları üçün də müvaffiq sözlər tapılmayıb görünür. Bu kanalların da, məktəblərin də, baxçaların da, idarələrin də, şirkətlərin də adları bizə yaddır. İçimiz bir başqadır, qabığımız bir başqa. Bəlkə də Avropa şurasının bundan xəbəri yoxdur, bəlkə də var. Bəlkə də elə özümüz o tərəfə meyilliyik. Restoranların, barların, şadlıq saraylarının adları üçün də bir-birindən gözəl, gözqamaşdırıcı sözlər seçilib, gərək yanında lüğət kitabı gəzdirəsən ki, bunları başa düşəsən! «Neolit», «Planet», «Oazis», «Flaminqo» və onlarca belə adlar. Göydəki bütün ulduzların adları, qlobal (kürəvi) adlar.

Ağ işığın parçalanması (spektr) ilə yaranan rəngbərəng, çilçıraqlı lövhələr bəzəyir bu binaların damlarını. İstər-istəməz, Ana dilindən, hesabdan «iki» alan, nəğmə dərsində nəğmə oxuyan – o uşaq yada düşür.

«Dərsdən iki ala-ala,
Necə oxudun, bala!»

O uşaq indi böyüyüb, ancaq xasiyyəti, vərdişi hələ də qalıb.

Bir-iki ay bundan əvvəl «Ədəbiyyat» qəzetində «Qarşı sözünə qarşı» adlanan çox kiçik bir yazı dərc elətdirdim. Bu «qarşı» sözünün qarşılarına gələn hər sözə qoşub yersiz işlədənlərə bir xəbərdarlıq idi. Mən elə bilirdim ki, kimsə bu atmacanı oxuyub, nəticə çıxardar və indən belə «qarşı» sözünü öz yerində işlədərlər. Amma təəssüflər və heyiflər olsun ki. belə olmadı. Heç kəs nə radio, nə televiziya aparıcıları, nə qəzetçilər, nə də yazıçılar o atmacanı oxumayıblar. Ya oxuyublar, elə biliblər ki, bu bir zarafatdır. Yenə də öz bildiklərindən əl çəkməyiblər hətta, öz səhvlərinin sayını daha da çoxaldıblar. Ya, bu minvalla açıq-açığına «qarşı» sözünə qarşı çıxmaq istəmirlər, ya elə açıqca belə danışırlar.

«Qarşı» sözü – «qarşı dağlar»da, «qarşı-qarşıya gəldim» və üzbəüz qarşılaşmaqdan xəbər verir. Əksər hallarda bu söz əvəzinə, yerinə, rus dilindəki «protiv» mənasında işlənir.

«100 t. qarşı 150 t. çuğundur yığılmışdır» yox, burda «100 t. əvəzinə 150 t. çuğundur yığılmışdır» deyilməlidir. Yaxud, «vətənə qarşı məhəbbətim var». Burda da qarşı sözü artıqdır. «Vətənə məhəbbətim var» deyilməlidir. Bu qisim məna təhriflərinə tez-tez və çox yerdə rast gəlirik. Lap möhürə çevrilib, hara gəldi vururlar.

***

Dilimizi təkcə «qarşı» qarışdırmır. Gör bir nələr olur. Hər gün telekanallarda dişin minasından (vurğuya fikir ver) danışılır. Amma mina (dişin emalı) deyəndə çaşıb mina (partlayıcı qurğu) deyirlər. Vurğunu düz vurmurlar, adamın ağzında mina partlayır. Eləcə səhvən də Sima (üz mənasında) sözünü, Sima (ad mənasında) kimi tələffüz eləyirlər. Esse sözü də həmçinin. Ya İngiltərə əvəzinə İngiltərə deyirlər. Vurğunu sonuncu ə-nin üzərinə vurmaq lazımdır.

Sonra oxuyuram, «canlı yayım», «canlı yayım» olmaz, canım! «Canlı yayım» olursa, «cansız yayım» da olmalıdır onda. Burda «birbaşa yayım» daha dəqiq, daha düzgün olardı. Hərdən bir bu ifadəni ANS-də görürəm.

Ya oxuyuram, «burda məktəb ləvazimatları satılır». Əgər ləvazimat sözündə «at» şəkilçisi varsa («at» ərəbcə cəm çəkilçisidir) onda «lar» – cəm çəkilçisinə ehtiyac yoxdur. Bir sözdə iki cəm şəkilçisi olmaz. Telekanallarda bəzən əlaqə əvəzinə alaqa, ərazi əvəzinə, arazi deyirlər, bəzən də Müşfiq əvəzinə Müşviq yazırlar.

***

Əvvəllər diktorlar və aparıcılar vaxtaşırı orfoepiyadan (sözün deyilişi) imtahan verirdilər. İndi bu gözəl adət unudulub. Əvvəllər bu sənətlərə filfakı bitirən ya jurnalist ixtisasına yiyələnən adamları cəlb eləyirdilər. İndi kim gəldi işə götürürlər, hətta üç aylıq jurnalist kurslarını bitirənləri də! Deyirlər ki, demokratiyadır. Bir də görürsən aparıcı «qəlb» sözünü deyə bilmir, deyir «ğəlb». «Qəşəng» deyə bilmir, deyir «ğəşəng». Qənaətə – ğənaət, qələbəyə ğələbə deyir. Bu cür aparıcıya nə deyəsən?! Dilimizi hara aparır görəsən?!

Bu adam türk dilini bilmirsə, qoy gedib başqa dillərdə danışsın, bildiyi dillərdə aparıcı olsun.

Bir də görürsən «8 xətt 3» (8/3) demək istəyir, deyir «8 drob 3». Bizim lüğətimizdə «drob» sözü yoxdur.

«Mesaj» sözü başına götürüb aləmi, telekanalları, qəzetləri. Bu sözün lüğəti mənası sifariş deyilmi? Ya da bu sözün ən sadə, ən loru deyimi «ismarıc»dır.

«Şarm» – deyəsən, heyrət və təəccüb bildirir. Heyrət və təəccüb varımızdırsa «şarm»ı neynirik.

«Eksklyuziv» – məxsusi deməkdir. «Şans» – bəxt, tale, bu qədər yad sözləri niyə işlədirik. Guya bu sözləri işlədəndə biz savadlı oluruq? Əsla, yox! «Qatılmaq», yoxsa «qoşulmaq»? Əhməd də bu dəstəyə qatıldı, yoxsa qoşuldu. Bizcə naxıra qatılmaq məqbuldur.

***

İndiyədək işlətdiyimiz «güşə» sözünü («Arağı tök şüşəyə, çək özünü güşəyə», yəni bir küncə) atıb, «köşə» sözünü niyə gətiririk. Bəs, onda köşə çarığı neyləyək?!

Güşə sözü ilə bağlı idiomalar, xalq deyimləri, hətta qarğışlar necə olsun bəs? Onları da unudaqmı?

O köşələrdə (burda səhifənin küncündə) dərc olunan yazıların bir çoxu, bir köhnə çarığ tayına belə dəyməz. Əgər belədirsə, sözümüzü niyə dəyişirik?

Bir dəfə Kiprdə bir xanım qız, axşamüstü bizə «bay-bay» deyib getdi. Səhər dedim: «Qızım, «bay-bay» ingilis sözüdür. Türkcə gecəniz xeyrə qalsın demək olar». Dedi: «Bilirəm, amma bu sözə öyrəşmişik».

***

Yad sözə öyrəşməyin! Sözlər xasiyyətimizi də dəyişə bilər. Şəhərə çıxıram. Minlərcə dükan lövhələri hamısı əcnəbi dillərdə: ingilis, rus, fransız, alman və s. Küçələrdəki minlərcə ofis, idarə, şirkət adlarını Avropa şurası qoyub bəyəm?

Reklamların dili lap biabırçılıqdır. «Susuzluğuna güvən», «dərmanların yeni nəsli», «dadlı paltar yuyan toz» və bu cür onlarca reklam. Eşidəndə adamı od götürür. Dilimizin adi qayda-qanunları da pozulur, məna da!

İngiliscəni, ruscaya, ruscanı almancaya, almacanı fransızcaya qatıb, bütün bunlara türk libası geyindirib efirə buraxırlar.

Bu bizim qərbə baxıb, qərbləşməyimizin yoxsa, qəribələşməyimizin təzahürüdür.

Cümlələrin xəbəri, mübtədası bilinmir. Malı bu dillə təriflməzlər, balam!

Ey dəni sünbül edən,
Ey xəmiri acıdan!
Qurtar bizi bu nadan,
Yarımçıq reklamçıdan.

***

Allah qurtarsın bizi, bu super market, mini market, şopların əlindən. Ana dilimizdə dükan adları görək, ürəyimiz açılsın. Moltanı, dilində yox, öz dilimizdə aydın, rəvan reklamlar eşidək.

Bir neçə kəlmə də telekanallarda göstərilən (dublyaj) filmlərinin dili haqqında. Telekanallarda göstərilən tərcümə filmlərinin dili əksər hallarda hərfi (söz-söz) tərcümədən uzağa getmir. Fikir və

məna təhrif olunur. Məsələn, nümunə kimi bir misal çəkirəm, «on dokladıval» – ifadəsini, «o, məruzə elədi» tərcümə eləyiblər. Bu doklad, o dokladdan deyil, burda «o, dedi» və yaxud «o, xəbər verdi», «o məlumat verdi» demək olardı. Bu üsulla mətndə «on v poezde exal zayçom» – cümləsi varsa, «o qatarda dovşanla birlikdə gedirdi» – tərcümə olunacaqdı. Amma bilmək gərəkdir ki, bu ifadə rus dilində idiomadır. Xalq deyimidir. Yəni, o, «biletsiz minib qatara», «biletsiz sərnişin» deməkdir bu ifadə. Bunu da bilmək üçün rus dilini bilmək gərək, səbr, vaxt və savad gərək! Sonra da tərcüməyə girişmək gərək!

Amma son illərdə yalnız «Klon» teleserialın tərcüməsi təqdirəlayiqdir. Burada ədəbi dilimizin və folklorumuzun imkanlarından müəyyən miqdarda bəhrələnmişlər. Azərbaycan türkcəsinin şəhdi bir az qorunub saxlanmışdır.

***

Səni 70 il əsarətdə saxlayan qırmızı imperiya belə sənin qəzetlərinin və dükanlarının adlarını rusca yazdırmırdı. Onda «sovet xalqı» idi. Nə istəsə eləyə bilərdi, amma eləmədi. İndi sən müstəqilsən, azadsan. Müstəqil və azad ola-ola bu qədər asılı olmaq nədən?

«Asılı olmaq» yazdım. «Asılılıq» yazmadım. «Asılılıq» sözündəki «lılıq» şəkilçisi sözü bulandırır, ağırlaşdırır.

Adam öz dilini, millətini və nəhayət, dövlətinin dilini gözünün bəbəyi kimi qorumalıdır.

Məndən deməkdir, səndən eşitmək. Göz sənindir, istəyirsən qoru, istəyirsən qoruma! Amma söz – hamımızındır, təkcə sənin deyil. Sən də sözü elə de ki, qulağımız cingildəməsin. Deyə bilmirsənsə kənara çəkil! Qoy başqası desin! Qoy sözü bilən desin! Qoy sözü bilib, deyə bilən desin!

«Ədəbiyyat» qəzeti,
01 oktyabr, 2004

ÜÇÜNCÜ KƏRƏ «QARŞI» SÖZÜNƏ QARŞI» VƏ BAŞQA DƏRDLƏR

Hələ XX əsrin əvvəllərində böyük Cəfər Cabbarlı demişdi:

«…Söyləmişəm bu sözü məxluqa mən,
Ay Babacan, bir, iki, üç kərə.
Anlamayır ta, deməsəm bir sözü
Allah aman, bir, iki, üç kərə…»

İndi də mən bu «qarşı sözünə qarşını» üçüncü kərədir yazıram. Əgər qarşı tərəf bu yazını da qarşısına qoyub, oxumasa, hər qarşısına çıxan «mənim sənə qarşı məhəbbətim var», deyəcəksə…

Onda böyük Cəfər Cabbarlı haqlı imiş. Bu haqda ilk yazım 30 aprel 2004-cü ildə «Ədəbiyyat» qəzetində çıxıb, indiyədək bir tük qədər də irəliləyiş yoxdur. Əksinə, təhriflər daha da çoxalıb. Əvvəllər dilçi alimlərimiz dözməzdilər. Amma indi susurlar. İndi əsrin, ilin, günün bu çağında dilimizin bütün qadağalardan azad olduğu vaxtda. Savadlı-savadsız bütün jurnalistlər, radio-televiziya aparıcıları, sinxron tərcüməçilər, reklamçılar, hətta yazıçılar da qəzet və jurnallarda, telekanallarda «qarşı» sözünü yersiz yerə işlədirlər. Misal çəkirəm: «Əlliyə qarşı yüz çoxdur» – deyilməz. Əlliyə nisbətən yüz çoxdur və ya ən sadəsi – «əllidən yüz çoxdur» – deyərlər.

Türk dillərinin əksəriyyətində «qarşı» sözü var. Qarşı dağdan külək əsdi, qarşıma çıxdı və s. Yoxsa « hər hektardan 80 sentnerə qarşı yüz sentner taxıl götürülmüşdür» – yanlışdır! Burdakı «qarşı» rus dilindəki, «protiv»dən gəlir. Dilimizi elə bu cür gəlmə sözlər korlayır.

Torpağımızı qoruya bilmədik. Heç olmasa dilimizi qoruyaq ki, gələcəyə üzü ağ gedək. «Qatara qarşı gedirəm» – deyilməz. «Qatarı qarşılamağa gedirəm», «qatarın qabağına çıxıram» – deyərlər, amma demirlər!

1 oktyabr 2004-cü ildə yenə «Ədəbiyyat» qəzetində ikinci yazım dərc olundu. Bir də təkrar edirəm. «Söz baş ucaldandı! Azərbaycan türkcəsi Azərbaycan Respublikasının dövlət dilidir. Əgər dilin əvvəlində dövlət sözü yazılıbsa, deməli, dil də dövlətdir. Biz – bu dövlətin sahibiyik! Biz bu dövləti qoruyub saxlamalıyıq! Dil – xəzinədir! Bədxərclik və ya yersiz qənaət etməyə haqqımız yoxdur. Bu sərvəti biz yerində və ən vacib məqsədlər üçün sərf etməliyik.

Amma olduğu kimi sadə və aydın. Dil – işləndikcə cilalanır, gözəlləşir. Dili olduğu kimi işlətmək, onun kəpənək qanadlarındakı zəri dağıtmamaq şərtilə qorumaq – onun zərif ləçəklərinə ehmalca toxunmaqla gözəlliyini saxlamaq – bizim gündəlik işimiz olmalıdır».

Son illərdə dilimizdə bir hərc-mərclik, səliqəsizlik, çaşqınlıq yaranıb. Savadsızlıq ayaq tutub yeriyir. Bu çaşqınlığa səbəb nədir? Qəzetlərin çoxluğumu, yoxsa senzuranın yoxluğumu? Nəyə görə dildə dərəbəylik hökm sürür. Özəl nəşriyyatların öz dili. Telekanalların öz dili. Məktəblərin, şirkətlərin, idarələrin öz dili. Dilimizi şikəst eləyən reklamların da öz dili! Bu qədər dili olan bir dilin özgələşməyinə nə qalır ki?!

İmkanlı adamlar elə bilirlər ki, dili də pul ilə aldadıb, qul eləmək olar.

Dil – əyilməz! Dil ər oğlu ərdir! Şan-şöhrətə aldanmaz! Dil – mərddir! Dil – Dədə Qorquddur, Füzulidir, Sabirdir.

Dil – Metedir, Atilladır, Babəkdir.

Dil – Ox-yaydır, qılıncdır, güllədir.

***

Mən – ucsuz-bucaqsız bir dənizin sahilində dayanmışam. Dənizə xırda-xırda daş atıram. Dənizin üzündəki su dairə-dairə, çevrə-çevrə, halə-halə böyüyür. Deyirəm, qoy böyüsün bu çevrələr, bu sahildən o sahilə çatsın. Qoy bu çevrələri o sahildəkilər də görsün!

***

Dil də dəniz kimidir. Ona axan çaylar da onun qollarıdır, onun ləhcələridir. Hər yerdən, hər səmtdən axıb tökülür dənizə.

Dəniz qurumadığına görə dil də qurumur.

Dil – dənizdir! Təbii, geniş, ucsuz-bucaqsız, sahillərinə sığmayan, aşıb-daşan, təzə çaylardan, bulaqlardan su içən, təzələşən, yeniləşən, köhnə sularını da öz dibində əzizləyib saxlayan, yaddaşına həkk eləyib qoruyan. Hərdən coşan, hərdən sakitləşən – Dəniz!

Dalğa-dalğa bölünən, zərrə-zərrə səpələnən, sonra yenə bütövləşən, birləşən – Dəniz!

Üstünə atılan zibilləri – yad sözləri götürməyən, özünə yaraşdırmayan, kobud və pis səslənən sözləri seçib, dənizi zibilləyənlərin üzünə çırpan – əbədi, möhtəşəm, mötəbər – türkün özü kimi fırtınalı, coşqun, aşqın-daşqın – Dəniz!

Dalğalarıyla, qollarıyla, bütün sularıyla bir yerdə olan və bir olan Dəniz!

Bu Dil – dənizi, dəniz – dili biz qorumasaq, kim qoruyacaq? Yoxsa, Avropa? Ya Avropada təhsil alıb gələn xristianlaşmış türk törəmələri?

Pulu, alveri, biznesi – millətdən üstün tutan kosmopolitlər nə bilir dilin qədrini?!

«Gecən xeyrə qalsın» yerinə «bay-bay» – işlədən bu qoçaqlar bay-bay eləyib, yatsalar yaxşıdır.

Onlara görə – Dəniz dil ola bilməz. Dəniz, o adamlara yalnız gəlir mənbəyidir. Balıqdır, neftdir, yosundur, gəmidir, plyajdır. Dəniz necə dildir ki, danışmır.

Dəniz danışır, cənablar!

Hörmətli əfəndim, paşam, ağam, bəyim, xanım, gözüm, canım – dəniz danışır. Sən – eşitmirsən. Sən başa düşmürsən dənizin dilini. Bu səbəbdən dənizin dili olduğuna inanmazsan!

***

İndi də bir-iki addım quruya qayıdaq! Quruda bəlkə də hər şey öz qaydasındadır – görünür. Doğrudan da ancaq görünür. Quruda haqq söz qalıb quruya-quruya, işə keçmir.

Nahaqq söz – hər yerdə meydan oxuyur. Kitab çoxdur, qəzet çoxdur, telekanal çoxdur, amma haqq yoxdur. Nahaqq haqqı boğub. Özünü haqq kimi aparır. Bu ikiləşmədən hər şey ikiləşib.

Xeyir – şərə, gecə – gündüzə qarışıb. Di, gəl bunları bir-birindən ayır görüm!

Mən bir qəzet müxbirinə: «ölkədə demokratiya yoxdur» – dedim. Dedi: Var! Onda mən də dedim ki, demokratiya dağa yağan qar kimidir. Uca yerlərdə uzaqdan görünür. Uca yerlər, var-dövlət, mal-pul, iş sahibləri timsalındadır. Amma dərə-təpə, uçurum və yarqanlarda qar adda-budda gözə çarpır. Bütün bu kələ-kötür yerlər qara camaat kimidir.

***

İndi avqust ayıdır. Gün başımızı deşir. Soyuq ayran tapılmır. Tapılsa da çox bahadır. 200 qramlıq ayran, iki çörəyin, hətta dörd çörəyin pulunadır. Su da od qiymətinədir. Əvvəllər iki qəpiyə, sonralar beş qəpiyə satılan su indi bir manatadır. Bəzi yerlərdə lap bahadır. «Su – ehsandır» demişlər, satılmaz! Amma satılır. Su satılmasa bəs işbazlar bu qəsrlərini hansı pulla ucaldarlar. Şamaxıda böyük şair Mirzə Ələkbər Sabirin qəbrinin üstünü götürmək, 70 il ərzində nə sovet hökümətinin, nə də sonrakı bu illərdə bir kimsənin yadına düşmədi. Doğru deyiblər ki, «El üçün ağlayan gözsüz qalar».

***

İnsanlar bu nəfslərini yenməyincə, haqq öz yerinə dönməyincə, elə-belə olacaq.

Bu yazının da xeyri olmayacaq. «Qarşı» sözü də harda gəldi işlənəcək. Dil qarışacaq.

«Qarşı» da bəhanədir. Dil – elə qarışıb ki, qarşı bu qarışıqda toya-bayrama getməlidir.

Küçələrdə «Flaminqo», «Pinqvin» və s. quş adları ilə xeyli bar, kafe restoran var. Məgər öz quş adlarımız yoxdur ki, bu əcayib adları başqa dillərdən gətiririk küçələrimizə. Turac, kəklik, qumru, torağay, göyərçin, qızıl qaz. Bunların nəyi pinqvindən əskikdir?! Məgər öz dilimizdə şəlalə adları yoxdur?! Şəlalə sözünün elə özü bir ad deyilmi?!

Ordan-burdan, xəritələrdə şəlalə adları axtarırlar. Doğma Vətənində Qaşaltı, Daşaltı, Təngəaltı o qədərdir ki! gəzib-görüb, götürmək lazımdır. Krımda – orda da türklər yaşayır. Krım tatarlarının dili ilə bizim dilimiz ikiyə bölünmüş bir damcı su kimidir. Krımda – şəlaləyə «Uçansu» deyirlər. Necə də şairanə addır! Götür qoy restoranına! Bu şəlalə Baxçasaray şəhərinin altındadır. Uca, sıldırım bir qayadan – «Qaragölün» gözü qabağında özünü dərəyə atır. Baxırsan doğrudan da su uçur.

Uçansu – budur! Yoxsa ki, Niyaqara?!

Niyə qara axı? Bu ki, lap ağ oldu. Gör, Kanadada yaxud Amerikada «Göygöl» adlı restoran varmı? Telekanallar bir-birinə aman vermədən bar-bar bağırırlar ki: «Pompey» adında bir restoran peyda olub. Pompey kimdir? İstilaçı Roma sərkərdəsi. İkinci mənada bədbəxt bir şəhər. Vuzuvi vulkanı püskürəndə lava altında qalmış, qocalarıyla, uşaqlarıyla, bütün sakinləriylə bir yerdə məhv olmuş bir şəhər.

Burda şadlıq eləyənlər o şəhəri yada salırlarmı, görən?

Biri də var – Giləvar. Hamı bilir ki, giləvar külək adıdır. Amma, efirdə iddia edilir ki, bu tarixi abidədir. Tarixi abidə Qız qalasıdır, Çıraqqaladır. Giləvar qurudan əsən küləkdir. Bu cür qoyma adların və adqoymaların ən qəribəsi – Titanikdir. Titanik faciə sözünün sinonimidir. Nəhəng bir gəmi, nəhəng bir okeanda batıb. Yüzlərcə adamı da özü ilə bərabər soyuq sularda batırıb. Bunun adını əbədiləşdirmək üçün muzey yaradarlar. Yoxsa ki, restoran? Əgər o bina möhtəşəmdirsə elə yalxı Titan ola bilərdi.

Bu da dilimizə tərcümədə Nəhəng, Azman deməkdir. Əsli qədim yunan əsatirlərindən gəlir. Hələ Neolit, Atlant və bunlara bənzəyən onlarca ünvanın adını çəkmirəm.

Bilmirəm bu adları bizə Avropa qəsdən sırıyır, yoxsa özümüz könüllü olaraq bu adlara sırınırıq. Hər ikisi ola bilər.

Qardaş, bir vaxt İstanbuldan böyük türk şairi Tofiq Fikrətin:

Zülmün topu var, gülləsi var, qalası varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.
Göz yumma Günəşdən nə qədər üzü qaralsa,
Sönməz əbada hər gecənin gündüzü vardır!

– misraları gəlirdi bu taya! Amma indi şarm, şans, mesaj sözləri gəlir. Bu sözlər Parisdən İstanbula gəlib, İstanbulda o qədər işlənib ki, sürçək olublar. İndi də gəlib çıxıblar bizim telekanallara. Ən çox işlənən gəlmələrə çevriliblər. Şarm – həya, abır; şans – qismət, bəxt, qaraçuxa; mesaj – ismarıc, sifariş deməkdir. Bizim sözlər heç də o sözlərdən pis səslənmir. Bəs, niyə səsləndirmirlər?!

Aparıcı əlimizdən tutub bizi aparır. Amma, hara?! Ən çətin sual da elə budur!

Aparıcı sözdən danışır. Böyük Füzulinin söz rədifli məşhur şeirindən misal çəkir:

Xalqa ağzın sirrini hərdəm qılır izhaar söz,
Bu nə sözdür kim olur, hər ləhzə yoxdan vaar söz.

Amma, aparıcı əruzu bilmədiyindən «izhar söz», «var söz» deyir. Sözdən danışan sözü təhrif eləyir.

Bir də görürsən aparıcı qəsdən, bilə-bilə (bəlkə də bilməyə-bilməyə) koral baseyn – deyir efirdə. Dilimizdə «koral» və «baseyn» – sözləri yoxdur. «Koral» – mərcan, «baseyn» – hovuz deməkdir. Aparıcı bu sözləri bilmirsə, onu aparın həmin o hovuza çimsin, sərinlənsin.

Deyir ki, sənə qarşı laqeyd deyiləm. Sənə laqeyd deyiləm – deyərlər, «qarşı» artıqdır.

Yaxud deyir ki, «qaba maye qoydular» – maye qoyulmaz. Maye ya axıdılar, ya tökülər.

Deyir ki, (özü də gündə yüz dəfə) 34-45 nömrəsinə mesaj göndərin. Belə deyilməz – 35-45 nömrəli telefona ismarıc göndərin – deyərlər.

Ab – kövsər – cənnətdə bulaqdır. Bunun mənasını Kamertonda açıb deyə bilmədilər.

Aparıcı reklamda (reklam başımızın bəlasıdır) dönə-dönə Brılant deyir. Biz bu sözü «Briliant» şəklində işlədirik.

Evin yıxılsın mərdimazar!

Nə qədər olar giley-güzar?!

Huruley, huruley, huruley, huruley!

Təhrif nə qədər olar, ey!

Bu dil bizim dil deyil, bu təkrir də bizim təkrir deyil.

Bir də eşidirsən ki, «ayağımızın altını qazan var» – demək istəyir, amma, «ayağımızı qazan var» – deyir.

Titrlarda «canlı yayım» yazılır, indi də «isti xətt» – dəbə düşüb. Hər iki ifadə ruscadan hərfən tərcümədir. Əslində «birbaşa yayım» və «birbaşa xətt» yazılmalıdır, deyilməlidir.

Bunu da eşitmişik – «8 drob 2».

«Drob» rus sözüdür. «8 təqsim 2», «8 kəsir altda 2», «8 kəsir üstdə 2» – deyərlər.

Mahnı var – «Gözlər baldı, bal!» göz bal olsa kipriklər yapışar, açılmaz. Dil bal ola bilər!

Sözlərin üstündəki vurğunu düz vurmurlar. Sima – sifət, üz. Sima – qız adı, Mina – dişin emalı, mina – partlayıcı qurğu. Vurğu düz vurulmayanda söz mənasını dəyişir. Hətta «əlamət» sözünü, «alamat», «rəvan» sözünü «ravan» deyənlər də var. Şəhəri tanımayan, küçələrin adını bilməyən adam taksi sürücüsü ola bilməz. Bəs, sözləri bilməyən adamı niyə aparıcı işinə götürürlər, başa düşmürəm?! Dilə münasibət meşəyə münasibət kimi olmasın gərək. Meşədə ağac çoxdur, kol çoxdur. Bir budağı əyilsə, bir çubuğu sınsa qiyamət qopmaz. Amma dildə sözün qol-qabırğasını sındırmaq, sözü baş-ayaq demək olmaz! Meşə də qorunmalıdır, meşə də dil kimi el malıdır. Ağacların da, dilin də taleyi insanların əlindədir.

Uşaq verilişlərində uşaqların adlarını əzizləmə xatirinə qısaldıb – Cəbiş, İbiş, Fatış, Fatı, Eloş, Qaloş, Əliş, Vəliş, Dinoş şəklində deyirlər. Bu səbəbdəndir ki, yaş kağızı və ya şəxsiyyət vəsiqəsi alanda uşağın adını yazdırırlar – İbiş Məhiş oğlu Cəbişov. Gülməlidir, yoxsa ağlamalı?

Aparıcı əksər hallarda «əksər» deyə bilmir, deyir «əsgər». «Acınacaqlı» deyə bilmir, deyir «açınacaqlı».

Hətta «Allah-təala» sözünü «Allah-tala» kimi tələffüz eləyənlər də var. Dəfələrlə eşitmişəm.

Hardasa, hansı bir ölkədəsə «güclü yağışlar yağır» əvəzinə «böyük yağışlar yağır» – deyir (bolşiye dojdi).

«Təsdiq» sözünü «təstiq» kimi işlədir. «Beş il müddətinə həbsə layiq görülüb» – layiq «ləyaqət» sözündəndir. Lorusu, ona «beş il iş kəsilib», ya da «beş il müddətinə həbs olunub» – deyərlər. Bir daha say haqqında. Sıra sayının sualı nədir? Neçənci! Cavabı da bu olar ki, 5-ci məktəb, yoxsa 5 saylı məktəb. «Saylı» yerində deyil. Ya da elə qoy əvvəlki kimi «5 nömrəli məktəb» deyilsin, sadə və aydın. Amerikanın bir çox şəhərlərində küçələr bu minvalla sıralanıb. 1-ci küçə, 36-cı küçə, 5-ci döngə, dalan və s.

Bu «qarşı» məni çox uzaqlara aparır, qarşıma nə çıxırsa ondan danışıram – deyəsən.

Əvvəl, yaxından başlayaq. Baxıb, görürəm ki, bu dükan adları da gəlmədir. Hətta, dükan sözü tamamilə unudulub. Yox, yox, unudulmayıb, sıxışdırılıb. Market, şop, makdonalts, ramstor olub. Hətta, böyük-kiçikliyinə görə «super» və ya «mini» əlavə edilir, həmin sözlərin əvvəlinə.

Məşədi İbad dirilib gəlsəydi bu adları görüb dəli olardı.

Avropadan gələn hər yeni ad özüylə bərabər Avropa ticarətinin bir fırıldağını da gətirir ölkəmizə. Vay, alıcının halına! Adam çaşır. Saqqız almaq üçün ət dükanına. Ət almaq üçün ətriyyat dükanına girir, ya da tərsinə.

Bu anası göyçək qərbin ucbatındandır. Bir zamanlar biz «sovet xalqı» idik. Amma, indi bilmək olmur ki, biz kimik? Deyəsən, Avropalıyıq, Avropa xalqıyıq.

Avropanın başmağını geyinmişik. Amma yerişini yeriyə bilmirik. Küçədən keçəndə gördüm. Ağ kisələrin üstündə latın əlifbası ilə «Karmen» yazılmışdı. Soruşdum: «Nədir bu?» Dedilər: «Un». Biz eşidib-bilmişik, görmüşük ki, «Karmen» – ispaniyalıdır. Fransız yazıçısı Prosper Merimenin məşhur novellasının baş qəhrəmanıdır. Sonralar fransız bəstəkarı Bize bu novelladan çox məşhur «Karmen» operasını yaratmışdır. Mən Karmenin un olduğunu bilmirdim. Özü də ağappaq un! Karmen deyəsən bir az qarayanız idi. Bu – fikirləşmədən ad qoymağa bariz bir misaldır. Yox, deyəsən birini də bir vaxt görmüşdüm. Ət dükanının adı «Solmaz» idi. Soruşdum, dedi: «Satdığım ət təzədir. Ona görə». Təzə də əvvəl-axır solur, axı?! Demə, başqa bir səbəb də varmış. O dükandarın məşuqəsinin adı Solmaz imiş.

Addan ki, söz düşdü, çır-çırpıya köz düşdü. Bu qəzet, jurnal, nəşriyyat adları lap ağ eləyiblər. Nə qədər başa düşmədiyimiz söz var, lüğətlərdən tapıb gətirib qəzetlərinə ad eləyiblər. «Akt», «Fakt», «Kontakt», «Kontrakt», «Kompas», «Reytinq», «R.S.», «Proqnoz», «Versiya», «Ekvator», «Paralel», «Meridian», «Sensasiya» – siyahı çox uzundur. Mən yüzdən birini sadaladım. Mənə elə gəlir bütün bu adları, hər kəsin başa düşəcəyi adlarla dəyişmək vaxtı gəlib çatıb. Mən bir redaktordan soruşub öyrənmişəm ki, qəzetin adı Azərbaycan türkcəsində olanda onun təsdiqi ləngidilir. Öz dilimizə balta çalan eşitmişdim. Amma, bunu bilmirdim. Dünya gör-götür dünyasıdır. Gördüm, amma götürə bilmədim. Guya qəzetin adı Avropa dillərində olsa o qəzet alınar, oxunaqlı olar. Bu da Avropanın bizə güzəşti. Mən ağlım kəsəndən bu qitələri bölən adamı axtarıram ki, ona deyəm, mən Asiyalıyam. Azərbaycan –

Asiyadadır. Bəşəriyyətin ilkin beşiyi – Asiya? Günəş də, mədəniyyət də, döyüş sənəti də, mərifət də, şeir-sənət də əvvəl Asiyada doğulub, sonra Avropaya keçib. İndi onlar bizə ağıl öyrədir. Di, gəl, bunu Avropalıya sübut elə!

***

Bir qədər də telekanallarda göstərilən filmlər barədə. Oğru-polis filmləri dünyanı başına götürüb. Bütün kanallar gecə-gündüz Amerikanın basmaqəlib, ucuz filmlərini fırladırlar. Öz filmlərimiz yox dərəcəsindədir. O bəyənmədiyimiz SSRİ vaxtı çəkilən filmlərdə insan vardı. Bizə indi robot göstərirlər. Deyirlər insanlı filmlər bahadır. O filmlərə baxan da insandır axı! O da bahadır. Niyə tamaşaçını qorumursuz?! Bu filmlərə baxa-baxa biz ya oğru oluruq, ya polis. «Hollivud filmləri zövqləri korlayır» sözləri bütün dünyada zərbülməsəldir. Bu filmlərin sinxron tərcümələrinin çoxu moltanıcadır. Başa düşülmür. Telekanalların ən zəif yeri dublyaj, tərcümə işi və reklam roliklərıdir. Bir də telequmar. Telekanallar açıq-aşkar camaatla qumar oynayır. Lotolar, Sim-simlər, SMS-lər və b. bunlara bənzər hər cür tele-oyunlar birər-birər qumardır. Hətta, iş o yerə çatıb ki, «Yeni ulduz» müsabiqələrinin qaliblərini də qumarla müəyyən eləyirlər. Səsinə, bacarığına görə yox. Məhz, kimə çox səs (mesaj) verilibsə onun səsi də var deyirlər.

Bu telefon-telequmarda ancaq pulnan danışasan gərək ki, sənin az olan pulun daha da azalsın. Onun çox olan pulu daha da çoxalsın.

Əgər, telefon pulunu gecikdirsən dərhal telefonunu kəsəcəklər. Maşın sürə bilməyən – maşın sürür. Şeir yaza bilməyən – şeir yazır. Ağzı söz tuta bilməyən – aparıcı olur.

Səsi olmayan – «yeni ulduz» olur, müğənni olur.

Qumar olan yerdə sənət ölür. Bu millət plastilin deyil, qardaş! sən istədiyin şeyi yapasan millətdən (bu yapasan sözü nə yerinə düşdü). Millət mum deyil ki, əlində oynadasan, əl-ayaq düzəldəsən, burun-qulaq yeri oyasan, qaş-göz qoyasan. Sonra da gözünə kül üfürəsən, aldadasan atasan!..

Bir az da telekanallardakı mahnı və rəqslərdən danışaq. Əvvəlcə bəri başdan deyim ki, bu rəqslər içində bizim dədə-baba, milli rəqslərimiz çox azdır. Hərçənd ki, telekanallar özlərini milli sayırlar, amma milli-zad deyillər. Başdan-ayağa milsizdirlər.

Dünyanın mahnı və rəqs ulduzlarını göstərsinlər. Eybi yoxdur. Biz də baxıb bir şey öyrənək.

Amma telekanallarda çox zaman bayağı (bu sözdən çox zəhləm gedir, amma işlətməyə məcburam) rəqslər göstərirlər. Qoy

bir də deyim ki, bu rəqslər doğrudan da bayağıdır ki, bayağı. Hərəkətləri də, musiqisi də, mahnısı da yad, ögey, soyuq, uzaq, bayağı. Oğul-uşaq yanında adam baxmağa utanır.

Bir dəfə zəng eləyib soruşdum bu nədir göstərirsiniz, dedilər demokratiyadır, baba, baxmaq istəmirsən, efiri söndür, baxma! Gərək söndürəsən!

Afrikanın və qərbin şəhvani hisslərini təbliğ eləyən bu cür mahnı və rəqsləri bilmirəm hardan alıblar. Bu qədər dərdi olan milləti bu havalara oynatmaq kimin ağlına gəlib, görəsən? Hanı o ağır, şərqliyə yaraşan həya və abır çərçivəsində, hikmət və məna, sevgi və mehri-məhəbbətlə dolu rəqslər. Hanı «Yallı»lar, «Cəngi»lər, «Tərəkəm»lər?.. Kim gətirdi bu şou-biznesi bura? Şou-sözünə fikir verin, oyun sözünə oxşayır. Deyəsən, mənası da oyundur elə! Oyundur ki, oyun!

Mədəniyyətdə, sənətdə, ədəbiyyatda təzə bir oyundur. Bu qəribə Qərbə baxıb, basmaqəlib kliplər çəkirlər. Bunun da əxlaqımıza, gəncliyimizə və klipçəkənlərimizə çox pis təsiri var. Əvvəllər basmaqəlib üsulu ilə kiçik baş yaylıqları – kəlağayılar istehsal edirdilər. Bu artellər – «şirpotreb» adlanırdı. Burda kəlağayı Basqalda rəngbərəng ipək saplarla toxunan kimi toxunmurdu. Burda hazır ipək parçanın üstünə gül, naxış qəlibləri vura-vura yalançı kəlağayı düzəldirdilər. İndi də bu klipçəkənlər, eynən bu üsulla rəngli filmlər çəkirlər. Rəng var, lent var. Mahnı və musiqi şikəst. Müğənni də kukla. Orda durma, burda dur! Bu minvalla bir də görürsən ki, meydana elə müğənnilər çıxıb ki, adam inana bilmir: haçansa bu millətin Seyid, Mirzə Məhəmməd Həsən, Bülbül, Xan, Şövkət və Sara xanım kimi sənətkarları olub.

Elə yazıçılar çıxıb ki, adam yazıçı olmağa utanır.

Elə jurnalistlər gəlib ki, Həsənbəy Zərdabiyə, Mİrzə Cəlilə, Üzeyir bəyə, yazıqlar olsun ki, bu cür xələfləri var.

Min təəssüf! Milyon təəssüf!

***

İndi də keçirəm şəxsiyyət vəsiqəsinə. Bu mövzuda mən iki dəfə məqalə dərc elətdirmişəm. «Adını de, səni tanıyım», «Ədəbiyyat» qəzeti, 5 may 1989-cu il və «Məqaləyə aydınlıq (Adını de, səni tanıyım)», «Azadlıq» qəzeti, 16 aprel 2002-ci il. Hər iki məqalədə «ov»dan necə xilas olmaq və yeni soyad şəkilçilərindən danışılır.

Daha qırmızı pasport işə keçməyəcək. Qırmızının başına daş düşsün! Qırmızı – həyasız rəngdir. (Adam utananda qızarır, bu kov deyil). El içində bəzi adamlara «bu adam qırmızı adamdı» – deyir-

lər. Qırmızı pasportlardan canımız qurtarır. Amma, hələ «ov»dan əl çəkə bilmirik. Qoymurlar. Pasport rus pasportu idi. «Ov» da rusun fikri idi. Bu «ov» qırmızı imperiyanın bizim kürəyimizə vurduğu damğadır. Şəxsiyyət vəsiqələri verilməzdən əvvəl «ov» və «zadə» ləğv edilməliydi. Özü də Milli Məclisin qərarı ilə. Pasport qeydiyyatı və vətəndaşlıq aktları qeydiyyatı idarələrinə gərək tapşırılaydı ki, familiya sonluğu, soyadı şəkilçisi vətəndaşların arzusu ilə dəyişdirilməlidir. Hər bir azad ölkədə bu qaydalar gözlənilir. Onda heç bir hərcmərclik olmazdı. Millət özü başa düşüb ki, bu «ov» başımızın üstündə rus qapazıdır.

Mən xaricə gedib ölkəmizin adını və bayrağımızı ucaldan idmançıları bağrıma basıb öpürəm. Onlar hamıdan əvvəl bunu başa düşdülər. Çünki, rus İvanov sayadıyla. Azərbaycan türkü də İmanov soyadıyla qapışır, güləşir. Soruşurlar ki, sən də russan? Deyir, yox! Bəs, onda familiyandakı bu «ov» nədir? Deyir, bilmirəm.

Amma, yarışdan vətənə qayıdan kimi bir neçə idmançı dərhal soyadlarını dəqiqləşdirdilər. Biri Fərid Əhmədov idi. İndi olub – Fərid Əhməd. «Ov»u götürüb atıb. İndən belə onu xaricdə rusnan qarışıq salmayacaqlar. Tək-təklər çoxalsın, cəm olsun. İdman nazirliyi bu işdə onlara köməyini əsirgəməsin.

Elə bil, bizim qonşularımızın əsrlər boyu bizim ölkəmizdə gözəlri qalıb. Hərəsi torpağımızda bir şey gizlədib, biri «xaç», biri «ov» və «zadə». İndi də şəxsiyyət vəsiqələri şıdırğı verilir. «Amma, köhnə soyadı ilə, yenə «ov» və «zadə» ilə. Deyəndə familiyamı dəyişmək istəyirəm. Deyirlər, get, yaş kağızını yerində dəyiş gətir, sonra dəyişək. Axı, yaş kağızını da Sovet hökuməti verib. Onu təzələməmirlər. Bilə-bilə adamları get-gələ salırlar. Əvvəl-axır haqq gəlib öz yerini tutacaq. Haqq gəlincə, nahaqq bizim axırımıza çıxacaq. Çox incidəcək bizi.

Bu vəsiqəni alan adamların əksəriyyəti həmin vəsiqələri bir də dəyişəcəklər. Və öz istədikləri soyadı şəkilçilərindən birini seçib, türk olacaqlar. Son zamanlar bir qism ziyalı bu qənaətə gəlib ki, elə birdəfəlik «ov»u atsınlar.

Soyadı şəkilçisiz-zadsız qalsın. Məs: Əhməd Hüseyn oğlu Cavadov istəyir olsun Əhməd Hüseyn Cavad. Burda Əhməd – öz adı, Hüseyn – atasının adı, Cavad da – soyadıdır, nəslin adıdır. Babasının, ulu əcdadının adıdır.

Azərbaycan türkcəsində soyadı şəkilçisinə çox yaraşan, mənim fikrimcə öz sadəliyi və mənasına görə seçilən «gil» – soyadı şəkilçisindən geniş istifadə etmək olar. Bu şəkilçi Azərbaycan türklərinin məxsusi soyadı şəkilçisi olar. Və heç bir millətin hətta, türk millətlərinin də soyadı şəkilçilərinə qarışmaz. Məs: bibimgil, babamgil, əmimgil varsa, niyə Əhmədgil, Əligil, Camalgil olmasın? Məs:

Akif Əli oğlu Əhmədgil. Çox gözəl səslənir. Diləyatımlıdır. Hallanır. Sonra 4 cür yazılan li, lı, lü, lu, – şəkilçiləri gəlir ki, bunlardan da soyadı düzəltmək olar. Məs: Əli Cəfər oğlu Səmədli, Səkinə Səfər qızı Cümşüdlü.

Bir çox millətlərdə soyadı düzəltməkdə cəm şəkilçisindən istifadə edirlər. Məs: Petrovix – Petrovlar deməkdir. Elə, «ov» da cəm şəkilçisi idi.

Biz də «lar, lər» cəm şəkilçiləriylə soyad düzəldə bilərik. Məs: İskəndər Əhməd oğlu Cəlallar və ya Cəlal İskəndər oğlu Əhmədlər. Burda Cəlallar və Əhmədlər Cəlal və Əhmədə işarədir ki, nəsil onlara mənsubdur.

Amma, daha yaxşı olar ki, həmin soyadlarını ikili soyadı şəkilçiləriylə düzəldək.

Məs: İskəndər Əhməd oğlu Cəlallılar və ya Cəlal İskəndər oğlu Əhmədlilər.

Burda da adamların Cəlallılar və Əhmədlilər nəsillərinə mənsubiyyəti daha qabarıq, daha aydındır. Dilimizin soyadı düzəltmək imkanları çox genişdir. Məs: Uşaq sözünü babanın adına qoşmaqla Əliuşağı, Hüseynuşağı soyadı düzəltmək olar. «Zadə» sözü bizə yaddır, «zadə»si olan soyadı qüsurludur. «Zadə» fars dilində oğlu deməkdir. Məs: Hüseyn Əli oğlu Vəlizadə. Belə çıxır ki, Hüseyn Əli oğlu Vəli oğlu. Belə soyad olmaz ki?!

***

Başqa dərdlərimiz də var. Dövlət atributlarımızdan biri – gerbimiz məni çox düşündürür. Müstəqil və azad dövlətin müstəqil və azad dövlət atributları olmalıdır. Bizim üçrəngli mavi, al, yaşıl bayrağımız çox məşhurdur. Çox ölkələrdə qaldırılıb. Adımızı, dövlətimizi təmsil edib. Azərbaycan Respublikasının adına layiqdir. Rəmzləri də aydındır. Türkçülük, Mübarizə, İslam. Bütün bunlar bizim qanımızdadır. Bayrağımız – bizim qanımız, canımız – Azərbaycanımızdır.

Amma, gerbimiz haqqında bu sözləri demək olmaz. Gerbimiz bizə yaraşmır, bəsit və zövqsüzdür. Üstündə alovlanan tonqala bənzəyən Alov dilləri, köhnə – pioner döş nişanlarına oxşayır. Bir vaxt istədilər ki, gerbi dəyişsinlər. Hətta, müsabiqə də elan etdilər. Çox gözəl nümunələr də çəkilmişdi. Amma, həyata keçmədi. Bütün ölkələrin, hətta kiçik Afrika ölkələrinin də özlərinə yaraşan gerbləri var. Amma bizim gerbimiz yox kimidir. Heç müsavat parlamenti də bu gerbi bəyənməyibmiş, heç təsdiq də etməyibmiş. Qoy bizim yeni gerbimizdə torpaqlarımızdan Qarabağ və bütöv Azərbaycan

görünsün. Lap məni qınamasalar deyərəm, Azərbaycan Respublikasının SSRİ-dəki gerbi heç də pis deyildi.

Gerbimizdə Ay-ulduz olmalıdır. Özü də gerbin ən görkəmli yerində. İndiki gerbdə gerb boyda səkkizguşəli ulduz var. Burda simmetriya gözlənilməyib. Ulduz bütün gerbi tutub. Halbuki, gerbə yalxı ulduz yox, Ay-ulduz çəkilməlidir. Müstəqil Azərbacanımızın gerbinə Ay-ulduz yaraşır.

Ay-ulduz – türklüyün rəmzidir. Türklərin Göyə və Tanrıya yaxınlıqlarına işarədir.

Eramızdan yüzillərlə əvvəllərdən türk dövlətlərinin bayraqlarına Aypara çəkilib. Bütöv Ayın dörddə biri. Türklər o qədər təvazö sahibi olublar ki, bütöv Ayı bayraqlarına çəkməyiblər. Çox olublar, tayfa-tayfa, qəbilə-qəbilə, dövlət-dövlət və para-para. Bundan da Aypara doğur. Nə Oğuz, nə Mete, nə Atilla, nə Osman, nə Atatürk bayraqlarına bütöv Ay çəkməyib. Bütöv Ay bütün türklərin birləşməsindən sonra çəkiləcək bayrağımıza. Hələ ki, Ayparalar yaşadır bizi. Bəzi qüdrətli dövlətlərə paxıllığım tutur. Məs: Yaponiya. Onların bayrağında bütöv Günəş çəkilib. Bəlkə orda millət də, dövlət lə bütövdür. Bizim kimi dağınıq deyildir.

Bizi Ayparalar aparır zəfərdən zəfərə, yüzillikdən yüzilliyə. Gün o gün olsun ki, türklər öz minillik arzularına çatsınlar. Onda Ayparamız bədirlənmiş Ay olar. İnşaallah!

***

Bir neçə kəlmə də himnimiz haqqında. Mən bu fikirlərimi biliciləri dilləndirmək üçün deyirəm. Bu məsələyə aid ziyalılarımızın fikri nədir görəsən?

Əhməd Cavad dövrünün ən qüdrətli şairlərindəndir. Burda nəsə dolaşıq düşüb. Qarışıb. Bəlkə də bu mətn heç onun deyil. Çünki, bu şeir bəstəkarlar arasında çox yayılmış «bolvanka»ya bənzəyir. Qaldı himnin musiqisi. Şərqin ən böyük bəstəkarı Üzeyir bəyindir. Xüsusi olaraq himn üçün yazılmışdır.

Haçaqsa gələcəkdə müsabiqə yolu ilə himnin yeni sözləri yazılacaqsa, onda yeni himnin, yeni sözləri Üzeyir bəyin «Koroğlu» operasının üverturası üstə köklənsə, bütün dünya bu himnin əzəmətinə heyran qalar. Hal-hazırda yeni himn yazmağa qadir olan şairlərimiz var. Yeni himn – yeni, Azad Azərbaycanı dünyaya tanıdacaq qüdrətində olmalıdır. Qardaş Türkiyənin İstiqlal marşı kimi. Bu gələcəkdə görüləsi ən vacib işlərdən biridir.

İndiki zamanda hər şey özəlləşir. Azad ölkəmizdə günü-gündən dəyişən, yeniləşən bütün münasibətlərdə, gündəlik qayğılarımızda bəzi köhnəlmiş adət-ənənələr və ya haçaqsa qəbul edilmiş

və qəbul etdirilmiş qaydalar əl-ayağa dolaşır, hətta bəzən adamı çaşdırır da. Bu mənada həftə günlərinin və ayların adları dəqiqləşdirilməli və aydınlaşdırılmalıdır. Fəsillərin adları: Yaz, yay, payız, qış – məğbuldur, dilimizə yatır, türkcədir, türkcəmizə yaraşır, mənim də ürəyimcədir.

Həftə günlərinin adları hal-hazırda belə adlanır (həftə sözünün özü də dəyişilməlidir). Bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə, bazar. Fikir verin! Burda çərşənbə, cümə, şənbə, bazar sözləri bizə yaddır. Günlərin sıralanmasında da bir dolaşıqlıq var.

«Həftə şənbədən başlayır» – deyirlər. İndi baxın! Şənbə, bazar, bazar ertəsi və çərşənbə axşamı mənasına görə çərşənbə axşamı – şəşənbədir. Yəni üçüncü gündür. Amma burada dördüncü gündür. Bazar ertəsindən saysaq ikinci gündür. Axı, niyə günlərimiz dolaşıq düşüb?! Niyə bu dolaşıq düyünü indiyədək açmayıbdır. Əvvəllər, yadımdadır, günlərin adları təkhecalı sözlərdən ibarət idi. Tək, süd, duz və s. Hanı bu adlar, hanı bu sözlər? Kimin yadında qalıbsa, qoy «Ədəbiyyat» qəzetinə mənim adıma məktub yazsınlar.

Fars dilində həftənin adları belədir. Həftə də fars sözüdür. Yekşənbə, düşənbə, şəşənbə, caharşənbə, pəncşənbə, şənbə, bazar. Bizim həftə günlərimizdə vaxtilə salı, adna sözləri də var idi. İndi bunlar unudulub.

Türkiyədə günlərin adı belədir – cuma, cuma ertəsi, pazar, pazar ertəsi, salı, şərşənbə, perşənbə. Elə burda da gün adlarının əksəriyyətini gəlmə sözlər təşkil edir. Və burda da günlərin sırası gözlənilməyib.

Eyni dərddəyik.

Günlərin adlarının dəyişilməsi üçün mənim bir neçə təklifim var. İndi buna layihə deyirlər.

Birincisi budur ki, mütləq həftə sözü **Yeddigün** sözü ilə dəyişdirilsin. Günlərin adları belə sıralansın:

Günbir, güniki, günüç, gündörd, günbeş, günaltı, günyeddi. Bu bir layihə!

Və yaxud bərəkətə görə:

Arpa, buğda, sünbül, xərmən, dəyirman, təndir, çörək. Bu da ikinci!

Ya da rənglərə görə günlərin adları:

Boz, qırmızı, narıncı, göy, yaşıl, mavi, ağ.

Ya da təkhecalı sözlərdən düzələn adlar:

Duz, od, su, yer, göy, süd, ay – günləri!

Hallananda belə olacaq:
Yeddigünün **Gün**birində;
Yeddigünün **Arpa** günündə;
Yeddigünün **Boz** günündə;
Yeddigünün **Duz** günündə.

Əlbəttə, bu Yeddigünlərdən birini seçmək gərək! Oxucuların da fikirlərinə möhtacam. Bu iş bir adamın işi deyil. Ümumxalq işidir. Bu cür təsnifatı Ayların adları ilə də aparaq. Köhnəlmiş Ay adlarından yorulmuşuq. Deyərlər, bütün dünya qloballaşdığı halda, bu nə şıltaqlıqdır?! Bu nə millətçilikdir. Bu nə şıltaqlıqdı, nə də millətçilik. Sadəcə olaraq, bu adlar bizə yaddır. Çar Rusiyasının və qırmızı imperiyanın güclə bizə verdiyi adlardır. Azad ölkənin Ay adları da azad olmalıdır. Heç bir millətdən asılı olmamalıdır.

Ay adlarını sadalayaq: Yanvar, fevral, mart, aprel, may, iyun, iyul, avqust, sentyabr, oktyabr, noyabr, dekabr. Gör, bu sözlərin içində sənin dilindən bircə kəlmə söz varmı?! Gəlin bu adları dəyişək.

Martdan başlayaq! Bizim Yeni ilimiz Novruz bayramından başlayır. Mart olsun – İlkyaz, aprel – Yağış, may – Qızılgül, iyun – Bülbül, iyul – Gün-Ay, avqust – Qorabişirən, sentyabr – Yarpaq, oktyabr – Əkin, noyabr – Çiskin, dekabr – Qırov, yanvar – Qar-boran, fevral – Sis-duman.

Türk təqvimində ayların adı belədir: Yanvar – Ocaq, fevral – Şubat, mart – Mart, aprel – Nisan, may – Mayis, iyun – Həziran, iyul – Temmuz, avqust – Ağustos, sentyabr – Eylul, oktyabr – Əkim, noyabr – Kasim, dekabr – Aralıq. Türkiyə türkcəsində də ayların adları ordan-burdan gəlmədir, bərbaddır, qarışıqdır.

Bu adları da milliləşdirmək lazımdır!

***

Yenə də qayıdaq «qarşı»ya. Mən «qarşı» sözünə qarşı çıxmıram. Mən «qarşı» sözünün yerini tapmayanlara qarşı çıxıram. Qarşıda qarşıdan da çətin sözlər var. Bu gün «qarşı» sözünü yerində işlətməyən aparıcı, qəzetçi, yazıçı, jurnalist sabah rast gələcəyi haqq və ədalət sözlərini işlədəndə çaşmayacaq ki, görəsən? Yoxsa, onlara o qədər azadlıq və demokratiya verilib ki, haqq və ədaləti unuda bilərlər. Bu da bu günün aynasıdır. Soruşarlar ki, nə tutmusan bu «qarşı»nın yaxasından? Yorulmadın, dadaş? Əl çək bu «qarşı»dan! Əl çəkmərəm, qarşı tərəfi razı salmaq üçün «qarşı»nı yerində işlətmək gərək! Bu söz şeirdə daha tez gözə dəyir. Yerində işlənib-işlənməməsindən bilinir ki, bu şairin qabında nə var. Şairdir, yoxsa yox.

Bu yazıları yazmağa başlayandan öyrəndim ki, Türkiyə türkcəsi ilə Azərbaycan türkcəsinin dərdləri də eynidir, uğurları da! Çünki eyni bir dildə danışırıq! Bir millətin övladlarıyıq! Rişələri, kökləri birdir bu millətin, budaqları ayrı-ayrı.

İndi zaman bu budaqları lap baş-başa çatıb, daha da yaxınlaşdırıb.

Yeri gəlib, burda bir neçə kəlmə də ortaq dil və ortaq əlifba haqqında düşündüklərimi də sizinlə bölüşüm. Əlbəttə, fərqli düşünənlər də var. Qoy olsun! Həqiqət mübahisələrdə meydana çıxır. Son illərin yaxınlığı zamanın işi olduğu üçün bilməliyik ki, nə qədər uzaqlaşmışıqsa, o qədər də yaxınlaşmalıyıq. Bütöv dilimizin qollara ayrılmasına nə qədər vaxt sərf olunubsa, bütövləşməsinə də o qədər, (o qədər də olmasa) çox vaxt lazımdır.

Bu gün XXI əsrin astanasında Türkiyə türkcəsini İstinad nöqtəsi götürüb, tarixə, keçmişə, geriyə addım-addım qayıtsaq. Əsr-əsr zaman kəsiyində Azərbaycan türklərini, Krım tatarlarını, qaqauz və kərkük türklərini lap yaxında, sonra türkmən, özbək, qazax və qırğızları, daha sonra Altay türkləri, tatar və başqırdları, bir az da o yana orta əsrlərdə çuvaş, Tuva və yaqutları, lap uzaqda bəşər tarixinin ilkin çağlarında – türk tarixinin əvvəllərində Babilistanda yaşayan Şumer türklərini görürük. Bütün bunlar bir dövlətdə, bir sərhəd çərçivəsində, bir vahid Turanda olsaydı, bunların arasında bu qədər fərq olmazdı.

Haçaqsa bir yerdə idilər, bütün türklər bütün türkləri başa düşürdü. Əvvəllər, tayfalar rəşadətinə görə bir-birlərindən seçilirdi. Sonrakı əsrlərdə çöl mədəniyyəti bu millətləri birləşdirmişdi. Sonra əlifba. Dil, şeir və sənət bu işi gördü. Ortaq ədəbi dil yaranmışdı. Füzulini Orta Asiyada, Əlişir Nəvaini İraqda, Türkiyədə, Yunis İmrəni Azərbaycanda tanıyırdılar, oxuyurdular. Elə indi də! Bu yaxınlıqda bir zamanlar Ərəb əlifbasının da xidməti olub. Sözlər saitsiz yazıldığına görə hər xalq yazılanı öz ləhcəsində oxuyurdu.

Sonralar qapı-pəncərə bağlandı. İmperiyalar zəbt elədiyi torpaqlardakı xalqları bir-birindən uzaqlaşdırmaq üçün Babil qülləsini tikənlərin başına gətirilən işi bunların da başına gətirdilər. Orda dilləri qarışdırdılar ki, bənnalar biri-birini başa düşməsin və qülləni tikib başa çıxmasınlar. Guya Allaha çatmaq istəyirlər. Burda isə türk millətini parça-parça böldülər. Hər vilayətə, hər ölkəyə, hər bölgəyə təzə ad verdilər. Başqa-başqa adlarda onlarca belə toplumlar yaradıldı. Babil qülləsi əfsanə idi, rəvayət idi. Bunların gördüyü iş göz qabağındadır. Həqiqətdir. Bir bütövü on yerə, yüz yerə bölüblər. Mənim fikrimcə, ortaq dil üçün ən böyük maneə elə sərhədlərdir. Sözə nə var ki, söz sərhəddin üstündən aşıb keçər. Amma, bu həyasız sözdür. Gəlmə söz bir yerdə qərar tutmur. Ordan-bura, bur-

dan da başqa yerə keçir, gəzəyəndir. Bizə – dilin alt qatında, sandığında saxlanılan sözlər gərəkdir. Bu sözlər biri-birindən qiymətlidir.

O qədim sözlər, idiomalar, atalar sözləri, nağıllar, bayatılar, hamımızındır. Babilistandan tutmuş Kamçatkaya, Qafqazdan Çin səddinə, Dərbənddən İran körfəzinə, Altaydan dəşti-Qıpçağa, Macarıstana, Norveçə qədər dünyanın yarısına səpələnmiş türklər – bizik! Hətta Altaydan buzun üstü ilə Alyaskaya, Kanadaya, Amerikaya köçmüş və ya köçürülmüş, sürgün edilmiş, səhvən hindu adlandırılmış Hindu türkləri də bizik! Abidələrdə, qayaüstü, qəbirüstü yazılarda, kitablarda, nağıllarda, əlifbalarda, yaddaşlarda qalan bu dil bizimdir! Sərhədlər olmasa, ya şəffaf olsa adamlar gedib-gələr, alver eləyər, şeir söyləyər, birgə körpü salarlar, kəhriz çəkərlər, yer şumlayarlar. Qohumdurlar, daha yaxın qohum olarlar. Bir-birinə qız verib, qız alarlar. Bir-birilə ünsiyyətdə olarlar. Danışarlar. Bunun dilindəki kobud sözlər, onun dilindəki zərif sözlərə qarışıb sərtləşəcək, qayım olacaq. Beləcə, iki dil yenidən bir dil olacaq.

Hər ləhcə ən yaxşı sözlərini qoruyub saxlayacaq. Yaxşı sözlər qalacaq dildə. Gəlmə sözlər gəldikləri kimi də çıxıb gedəcəklər.

Millətlərin yaddaşı dəniz kimi aşıb-daşacaq və dərinliklərdən incilər çıxacaq üzə. Bu sonra olacaq. Hələlik Türkiyə türkcəsindən istifadə etmək olar. Bu hələ ortaq dil deyil. Ortaq dilə əlifbadan keçib gəlmək lazımdır. Belə bir əlifba yaranarsa iki dil arasında əsl körpü olar. İki dil arasında yeni bir Bosfor keçidi olar. Belə bir əlifba olsa hər iki tərəf bundan ürəklə istifadə edə bilər. Həm Türkiyə türkləri, həm Azərbaycan türkləri biri-birilərinin kitablarını oxuyarlar, biri-birilərinin dərdlərinə şərik olarlar. Sevincləri ilə sevinərlər. Ortaq əlifba yaratmaq üçün hər iki tərəf biri-birinə güzəştə getməlidir. Mənim bir neçə təklifim var.

Birincisi budur ki:

Hər iki əlifbada olan «Ç» hərfi ilə «C» hərfinin yerləri və adları dəyişdirilsin. C və Ç kimi sıralansın. Odur ki, «quyruq» ikinci də olmalıdır. Eynən «S» hərfi ilə «Ş» hərfi olan kimi. Belə olanda əlifbada hərflər arasında paralellik yaranacaq. Əlifba sistemə düşəcək, gözəlləşəcək.

İkinci budur ki:

Ortaq əlifbada «E» hərfi ilə bərabər «Ə» hərfi də olmalıdır. Hal-hazırda birində «Ə» var, birində yoxdur. Hər iki dildə «ə» hərfi ilə başlanan və içərisində «ə» olan minlərcə söz var. Əgər «ə» yoxdursa, sözlərin qəsdən «e»ləşməsinə gətirib çıxarır. «Ə» – hərfi dünya əlifbalarının bir çoxunda var. Ən çox işlənən, ən zəif, ən incə saitdir. İçərisində «ə» olan bütün sözlərə yaraşır.

Üçüncüsü budur ki:

Ortaq əlifba üçün «X» hərfi də gərəklidir. Əgər hər iki dildə, əsasən xarici dillərdən keçmə onlarca sözə görə «j» hərfi varsa və hər iki dildə «x» hərfi ilə yüzlərcə söz varsa, niyə onda «x» hərfi olmasın?

Dördüncüsü budur ki:

«K» ilə «Ka» ayrılmalıdır. «K» ilə kənd, kəsək, «Ka» ilə konsul, komissar sözləri yazılır. Bir hərfdə iki səs var. Halbuki, bir hərfdə bir səs olsa yaxşıdır. Bir yuvada iki müxtəlif quş yaşaya bilməz. Birinci «K» əvvəlki kimi yazılsın, bütün milli sözləri (kənd, kəsək, kərpic) yazmaq üçün işlənsin. İkinci «Ka»nın üstünə qövs çəkilsin, bax belə «K k». «Ğğ»ˇhərfində olduğu kimi burda hərflər arasında paralellik yaranacaq, simmetriya gözləniləcək. Bu naxışlar əlifba xalça butalarına bənzəyəcək. Bu bölmənin bir məziyyəti də budur ki, əvvəllər «Qq» ilə yazılan bütün sözlər də indən belə qövslü «Ka» ilə yazılacaq. Əlifba bir az da yüngülləşəcək. Gəlmə sözlər: konsul, komitə, komissar – ilə bərabər, qız, qəşəng, qarış, qarışqa – sözləri də bu hərflərlə yazılacaq.

Demək əlifbada:
«C» hərfi ilə «Ç»,
«S» hərfi ilə «Ş».

Bir cüt qoşa, ekiz buta. Bu hərflər bir-birlərindən «quyruq»la ayrılacaqlar.

«K» hərfi ilə «Ǩ» hərfi.
«G» hərfi ilə «Ğ» hərfi.

Bir cüt qoşa ekiz buta. Ba hərflər bir-birlərindən qövslə ayrılacaqlar. Eləcə də «O» hərfi ilə «Ö» hərfi, «U» hərfi ilə «Ü» hərfi də bir cüt qoşa, ekiz butadır. Bu cütlüklər də bir-birindən «iki nöqtə» ilə fərqlənəcəkdir.

Bütövlükdə bütün bu «quyruq»lu, «qövs»lü, «iki nöqtəli» hərflər – alt cüt buta. Həmin əlifba – xalçanın naxışları olacaq.

1. Türk əlifbası:

Aa, Bb, Cc, Çç, Dd, Ee, Ff, Gg, Ğğ, Hh, Iı, İi, Jj, Kk, Ll,
Mm, Nn, Oo, Öö, Pp, Rr, Ss, Şş, Tt, Uu, Üü, Vv, Yy, Zz.

(29 hərf, 30 səs)

2. Azərbaycan əlifbası:

Aa, Bb, Cc, Çç, Dd, Ee, Əə, Ff, Gg, Ğğ, Hh, Xx, Iı, İi, Jj,Kk,
Qq, Ll, Mm, Nn, Oo, Öö, Pp, Rr, Ss, Şş, Tt, Uu, Üü, Vv, Yy, Zz.

(32 hərf, 33 səs)

3. Ortaq əlifba:
Aa, Bb, Cc, Çç, Dd, Ee, Əə, Ff, Gg, Ğğ, Hh, Xx, Iı, İi, Jj, Kk (kənd), ĸĸ (konsul), Ll, Mm, Nn, Oo, Öö, Pp, Rr, Ss, Şş, Tt, Uu, Üü, Vv, Yy, Zz.

(32 hərf, 32 səs)

P.S. Bu əlifbada A, B-dən sonra gələn birinci hərf c=cı-dır (quyruqsuz). İkinci hərf ç=çı-dır (quyruqlu).

***

XX sərin 40-cı illərində Şamaxıya getmişdim. Çarhan kəndinə baş çəkəcəkdim. Gəldim yol ayrıcına. Gördüm, yaşlı bir kişi arabayla keçir. Qışqırdım: «Arabaçı, saxla minim!» arabaçı saxladı. Mən də mindim. Soruşdum: «Çarhana gedirsən?» Başı ilə ilə «hə» dedi. Sonra dedi: «Övlad, eşit, qulaq as! Arabanı saxlamazlar, arabanı əyləyərlər. Adam arabaya minməz. Ata minər. Adam arabaya qalxar».

Yol boyu Tofiq Fikrətdən, Rza Tofiqdən, Orxan Seyfi Orxandan şeirlər dedi. Şirin dilindən doymadım. Sonra dedi: «1918-ci ildə gəlmişdim. İndi Mərəzədə yaşayıram. Bir Şirvan gözəli məni burda saxladı».

Yol boyunca hələ çox ibrətli sözlər dedi. O, baba idi, mən nəvə. Mənə nəsihət idi bu sözləri. Çarhana çatdıq. Dedim: «Arabanı əylə, düşüm». Yenə hirsləndi. «Əylə»ni düz demişdim, «saxla» demədim. Amma o: «Yahu, övlad! Daş düşər, adam düşməz, adam enər» – dedi.

Dedim: «Baba, bağışla. Arabanı əylə, enim». Dedi: «Bu, doğru!» Sonra soruşdu: «Adın nədir?» Dedim: «Fikrət. Deyirlər mənim adımı şamaxılı Soltan Məcid müəllim qoyub. Şamaxılılar ona Soltan Məcid Əfəndi deyərdilər». Dedi: «Onda Tofiq Fikrətdən dediyim şeirlər lap yerinə düşüb ki!»

***

Bir müddətdən sonra Çarhana bir də gəldim. Müharibə qurtarmışdı. İnsanların qırışığı bir az açılmışdı. Soruşdum: «Mərəzədə yaşayan o qoca türk durumu ola?!» Dedilər: «Bu qış dünyadan köçüb». Dünyadan köçsə də mənim qəlbimdən köçməyib. O, mənim gözümü açdı. Türkü mənə tanıtdı. Türk şeirini mənə sevdirdi. Pəltək sözlərimi düzəltdi. Türkün arabaçısı budursa gör, bunun şairi, müəllimi, alimi nə mərtəbə ucadır.

***

«Türklər bir irq və bir millət olmaq etibarilə yer üzünün ən şərəfli insanlarıdır».

Lamartin

***

«Nə xoşbəxtdir türkəm, deyən!»

Mustafa Kamal Atatürk

Müdrik qoca! Allah, sənə qəni-qəni rəhmət eləsin, ömrümün səhərində mənə rast gəlib, məni bu günümə göndərdin! Öz ömrünü qardaşının azadlığına qurban verdin.

Qürbətdə yaşadın, amma qərib olmadın. Şamaxı sənə Ana Vətən oldu. Burda sevib-sevildin. Burda övladların gəldi dünyaya. Millətə qarışdı. İndi heç birini, bir-birindən ayırmaq olmur. Budur türk yurdsevərliyi, millətsevərliyi, azadlıqsevərliyi və comərdliyi!

***

«Azadlıq – türkün həyatıdır!»

Mustafa Kamal Atatürk

***

Türk dili təkhecalı sözləriylə zəngindir. Ay, su, od, gün və s. Bu dilin çox qədimliyinə dəlalət edir. Türk dilində səs təqlidi ilə yaranan sözlər də çoxdur: su şırıltısı, yarpaq xışıltısı və s. Səs təqlidi ilə yaranan sözlərin də çoxluğu dilin çox qədimliyinə sübutdur.

***

«Herodotun Taryunaus, Tövratın Taqarıma adlandırıb, haqqında danışdığı türk – bu tarixdən və bu müqəddəs kitabdan daha çox qədim əsrlərin tanıdığı bir millətdir».

Hammer

Türk dili – dünya dillərinin ilkinlərindən biridir. Qədim türk əlifbası da dünyada yaranan əlifbaların ilkinlərindəndir. Türk dili – aqlyutinativ – iltisaqi dillər qrupuna daxildir. Dünya dillərinin çoxu iltisaqi dillərdir. Burda söz yaratmaq imkanı çox genişdir. Sözdüzəldici şəkilçilərin köməyi ilə yeni-yeni düzəltmə sözlər və yaxud bir-iki

sözün birləşməsi ilə yeni-yeni mürəkkəb sözlər yaranır. Şəkilçi qoşmaqla bir sözdən beş, yeddi və daha çox söz düzəltmək olur. Məs: Qorx, qorxu, qorxut, qorxaq, qorxudan, qorxan, qorxudulan, qorxulu, qorxunc, qorxa-qorxa.

Bu ki, lap doqquza-ona çatdı.

Başımızı ucaltdı!

Güldan, nəməkdan və bunlara bənzər xeyli söz fars dilindən birbaşa dilimizə qarışıb. Biz bu sözləri gülqabı, duzqabı kimi də işlədirik, sözlər daha da doğmalaşır. Fars dilindən abru (üzün suyu) sözünü alıb, abır eləmişik. Dilimizdə bu cür düzəldilən öz sözlərimiz ümmancadır. Məs: İstiot. Çox sərrast deyilib. Dilin kəşfidir bu! Bu cür sözlər hesabına dilimiz də daha da zənginləşəcək, Ortaq dilin lüğət tərkibi günü-gündən artacaq. Dilimizdə elə sözlər də var ki, elə bil türkcə-farsca lüğətdən qopub, düşüb. Məs: Uığ – cəm, uzundıraz. Bu sözlərin bir hissəsi türkcə, bir hissəsi farscadır. Bu cür qarışıq sözlər çox azdır. Barmaqla saymaq olar.

Öz mürəkkəb sözlərimiz çoxəhatəlidir, çoxmənalıdır. Genişliyi və rəngarəngliyi ilə seçilir. Məs: Qaraçuxa, çalpapaq, çirkətab, dəvədabanı, ayağıyalın, dəymə-düşər, Göygöl, doxsan, səksən, tükürpədici, xoruzquyruğu (çay), dördbucaqlı, gecəqondu və minlərcə biri-birindən gözəl – adı mürəkkəb, özü sadə və aydın olan sözlər.

İkicə kəlmə də türk dilinin feilləri barədə! Bu feillər birər-birər qəhrəmanlardır.

Heç bir dilə əyilməyib. Məğrur-məğrur durublar. Yeriyirlər, gəzirlər, gülürlər, ağlayırlar. Dilimizdə bir dənə də olsun başqa dildən keçmə – feil yoxdur. Milli sözü təkcə bunlara yaraşır.

Bir də görürsən, bölgənin birində gözəl səslənən, mənalı bir söz, başqa bir bölgənin dilində pis səslənir və mənasızdır. Məs: Özbək dilində böyük sözü – ələngə kimi işlədilir. Ələngə – bizdə iri sümüyə deyirlər. Elə sözlər var ki, özbək deyəndə azərbaycanlı utanır, azərbaycanlı deyəndə özbək utanır. Türkiyə türkcəsində pıçıldamaq əvəzinə fısıldamaq işlənir. Pıçıldamaq «pıçıltı» sözündən yaranıb. Pıç-pıç danışmaq nəşvü-nüma tapıb. Amma fısıldamaq pıçıltını vermir. İlan fısıldayar. Ya kök adam fıs-fıs nəfəs alar.

Başqa bir söz! Türkiyə türkcəsində mırıldamaq sözü var. Bizə görə it mırıldayar, ya pişik. İnsan zümzümə edər, mızıldayar. Ortaq dil olanda bu cür sözlər mürur – zamanla öz-özünə dəyişəcək, cilalanacaq, hamarlanacaq, dəqiqləşəcək, təbii seçmə qanunu ilə iki sözdən biri qalacaq. Hər iki tərəfin işlətdiyi sözə çevriləcək. Ortaq dil – hər iki dili təmizləyəcək. Bəzi sözləri biz «Y» hərfi ilə yazırıq. Məs: Yaponiya. Türkiyə türkləri isə «J» ilə – Japoniya yazırlar.

Biz «geoloji» yazırıq, onlar «jeoloji». Ayrı cür, fərqli yazılan bu sözlər də ortaq dil olanda bir cür yazılacaq.

Türkiyə türkcəsində əvvəllər «salam» əvəzinə «gün aydın» işlənərdi. Bizim böyük sənətkarımız Cəfər Cabbarlının pyeslərindəki adamlar (surətlər) bir-birilərilə «gün aydın»la salamlaşırdılar. Nədənsə indi Türkiyədə «salam» əvəzinə «mərhəba» işlədirlər. «Mərhəba» – ərəbcə «xoş gəldiniz» deməkdir. Bu söz ən çox «əhsən» və ya «afərin» əvəzində işlədilir. Bu salamların içində bizə ən doğma olanı, ən aydını elə «gün aydın»dır. Gün aydın! Gözəl səslənir! «Gün aydın»a qayıtmaq lazımdır!

***

Bu işi elm və sənət adamları, şair və nasirlər, ədəbiyyatşünaslar, dilçilər, jurnalistlər, siyasətçilər, tele və radio aparıcıları, kəndçi və fəhlələr görəcəklər. Amma ən ağır yük yenə qara camAatın, sadə xalqın çiyninə düşəcək. Çünki, dilin sadəliyi və kamilliyi ümumxalq işidir. Xalq kimdir? Elə bu sadə adamlar.

***

Şərqdə türk dilini hünər dili adlandırırlar. Qərbdə alman dili komanda dili olduğu kimi. Bu günlərdə Yazıçılar Birliyinin Natəvan klubunda böyük türk şairi, istiqlal marşının müəllifi Məhməd Akif Ərsoyun 100 illik yubileyi keçirilirdi.

Türkiyənin dövlət himni – istiqlal marşı oxundu. Hamı ayaq üstə idi, fərağat durmuşdular. Əzəmətlə səslənən himnin akkordları altında hamı özünü əsgər bilirdi. Əmr olunsaydı elə burdan bir başa Qarabağı azad etmək üçün yollanardıq. Sözlərin zəhmi, siqləti, həcmi, tutumu zalı bürüdü. Səs aşıb-daşdı açıq pəncərələrdən çölə atıldı, küçə dolusu axaraq dənizə qarışdı. Biz görməsək də bildik ki, dənizi də oynatdı, qaynatdı. Sim kimi tarıma çəkilən səs dalğaları – dənizi də dalğalandırdı. Vətən gəlib keçdi göz önündən, türk döyüş tarixi vərəq-vərəq oxundu. Çanaqqala şəhidləri ayağa qalxdılar sanki. Məhməd Akif Ərsöy göründü gözümüzə. Zalda bir ukraynalı jurnalist qadın var idi. Türk dilini bilməyə-bilməyə bilənlərin ağzından alıb, bizimlə bərabər himnin sözlərini təkrar edirdi.

Səhərisi gəldi şair Abbas Abdullanın yanına, gəlib təəssüratını danışdı. Dünənki günün böyüklüyündən, o himnin sözlərində ox-yay, qılınc, güllə səsləri eşitdiyini dedi. Himnin çoxdan yazıldığına baxmayaraq, hələ qocalmadığını bildirdi. Türk dilinin səfərbərlik və sirayətedicilik qüdrətindən danışdı. İlk dəfə idi ki, bir slavyan qadının türk dilinə bu boyda məhəbbət bəslədiyini gördüm. Bir daha

inandım ki, türk Allahın Yerə göndərmiş olduğu əsgəridir. Haqq və ədalət qoruyucusudur.

***

«Hunlar fırtına kimi görünür və uçan quşlar kimi yox olurdular. Tanrının dövlət günəşini türk bürclərindən doğurmuş olduğunu və onların mülkləri üzərində göylərin bütün qatlarını saxladığını gördüm. Zəmanəmizin xaqanlarını onların arasından çıxardı».

Qaşqarlı Mahmud

***

«(Yerin) altını üstünə çevirən, qırıb-tökən, silib-süpürən, qasırğanı səhər yeli ilə yumşaltmaq olarmı? Qorxunc daşları qabarda-qabarda yürüyən bir dənizi dərhal sakitləşdirmək mümkündürmü?! İldırımı külə çevirmək imkanı vardırmı?!

İnsanlar və hətta təbiət «yox, yox, yox» deməkdə tərəddüd etməz, deyilmi?! Halbuki, mən qasırğaların səhər yelinə, coşmuş dənizin sevimli bir gölə, ildırımın külə çevrildiyini gördüm.

Türkdən bəhs edirəm. Düşmənə hücum edərkən qorxunc bir dənizə və (amansız) bir ildırıma bənzəyən türkdən».

Torkvato Tasso

***

Azərbaycan – dünya türkləri evinin qonaq otağıdır, desəm yerinə düşər. Təbiətinə, sərvətinə, qüdrətinə, keçmişinə, bu gününə, mərifətinə, mədəniyyətinə, sənətinə və gözəlliyinə görə bu təşbeh ona yaraşır.

Babilistandan gəlib Altaya və Sibirə gedənlər, Azərbaycandan keçib gediblər. Bu ölkə Şərqin qapısı olduğu üsün qonşular arası kəsilmədən bu qapını döyüblər. İndi də döyürlər. Ərəblər, farslar, ruslar, ermənilər, bu torpağa həmişə pis niyyətlə baxıblar. Müstəmləkə gözündə görüblər bu cənnət torpağı. Biz qapımızı dost üzünə açmışıq. Düşmənlə qılıncla danışmışıq. Bu məmləkət böyük Turanın bir parçasıdır.

Dağlarıyla, çaylarıyla, düzləriylə türkə layiq bir ölkədir. Bu ölkədə yaşayan türklər də bu torpağa layiqdirlər. İndən belə də bu torpaqla bağrıbadaş olacaqlar… Torpaqla xalqın bu məhəbbəti dünya xalqlarına görkdür, nümunədir.

Azərbaycan – türk üzüyünün gövhər qaşıdır.

Azərbaycan – türk ağacının şah budaqlarından biridir.

***

Bir az da tərcümədən danışaq.

Dilimizdə xeyli qələti-məşhurlar var. Gün çıxıb. Gün batıb, un üyünüb, ölü ölüb və s.

Amma indi qəsdən rus dilindən hərfi tərcümə yolu ilə elə sözlər uydururlar ki, adam lap məəttəl qalır. Qələti məşhurlar bu qələti eləməzlər. Məs: «Oddan təhlükəlidir» – «oqneopasno» sözündən əmələ gəlib. Bilmək olmur ki, «təhlükəli» nəyə aiddir?! Benzin sisternasına, qaz balonuna yaxud onlardakı mayelərə, yoxsa toxunduğu nəyəsə?! Bu sözü aydınlaşdırmaq lazımdır!

Oddan qoru! Odda yanan. Odahəssas. Odqapan. Oddanalışan. Oda həris. Oda mütamail. Hansını istəyirsən seç, götür. «Oddan təhlükəlidir» demə. Dünyada ən qorxulu fəlakət elə oddur. Odur ki, «oddan təhlükəlidir» ifadəsi səhvdir. Burda söhbət oddan qorxmaqdan gedir. «Oddanqoru» daha dəqiq olardı.

***

Bir neçə kəlmə də yer adları barədə.

Bir alim İstanbul sözünün mənşəyini tapıbmış kimi danışırdı, deyirdi ki, İstanbul, guya «stan» və «bul» sözlərinin birləşməsindən əmələ gəlib. «Stan» – yer, «bul» – tap deməkdir. Yəni yer + tap, qədim bir şəhərin adı Yertap ola bilməz. İstanbul Konstantinapol sözünün təhrif olunmuş, türk dilində eroziyaya uğramış, sadələşdirilmiş, türkcələşdirilmiş variantıdır. Bu ad göydən düşməyib. Bu şəhər Bizans imperiyasının paytaxtı Konstantinapol adlanırdı. Soltan Mehmət Fateh bu yeri tapmayıb. 1453-cü ildə qurbanlar bahasına fəth eləyib. Konstantinapol dönüb olub İstanbul.

«Kürdəmir» sözünü də bir vaxt «Kürə dəymir» kimi başa düşürdülər. Dilimizdə Kürdəmir, Kürdmaşı, Kürdəxanı yer adları da var. Bu sözlərin mənası elə adlarının üstündədir. Sözləri hecalara ayırıb bir sözdən başqa sözlər yaratmaq olmaz. Kürdəmir elə Kürdəmirdir. «Kürə dəymir» – uydurmadır. Bu cür yer adı olmaz ki?!

***

Yenə tərcüməyə qayıdıram. ASE-də işləyirdim. Coğrafiya şöbəsindən mənə çaylar haqqında məqalələr gəlirdi. Burda çayın adı, eni, uzunluğu, dərinliyi, gəmi üçün yararlılığı və bir də axırda rusca «lesasplav» sözü yazılardı. Mənim gözəl ensiklopediyadaşlarım bu son sözü «meşə axıdılır» tərcümə etmişdilər. Meşə də axar?! Meşə – bitən, ayaq üstə dayanan ağaclar toplusuna deyərlər. Bəs çayda axıdılan nədir? Taxta-şalbandır (kəsilmiş ağacdır).

Taxta-şalban biri-birinə dəmir qarmaqlarla bərkidilir, sal kimi çay boyu üzü aşağı axıdılır.

***

Və yenə həmin şöbədən mənə bir məqalə gəlmişdi, təəccüb elədim. Yolun çiyni! (Şosse yolunun çiyni var – guya). Dedim, bu söz hardandır? Dedilər, rus ensiklopediyasından. Bəlkə də orada «pleço doroqi» – sözü işləyir. Bizdə işləməz. Yolun köbəsi, zehi, qırağı, ortası olar, amma çiyni olmaz. Mən bu sözdən bir lətifə də düzəltmişdim.

Bir gün işə gecikmişdim. Həmkarlar komitəsinin sədri (elə coğrafiya şöbəsinin müdiri o idi) məndən soruşdu ki, niyə gecikmisən? Mən özümü itirmədim, dedim, işə gəlirdim, bir də gördüm asfalt yol qalxıb, durub ayaq üstə. Dedim: Yat aşağı, keçim gedim. Dedi: Yatmaram! Dedim: Adam-zadsan bəyəm, niyə ayağa durmusan? Dedi: Yolun çiyni varsa, mən onda adamam.

Şöbə müdiri arif adam idi. Eyhamı göydə tutdu, başa düşdü. Gecikməyimi mənə bağışladı.

***

Bir əhvalat da fikrimdən çıxmır. «Gənclik» nəşriyyatında tərcümə şöbəsində işləyirdim. Bir gün nəşriyyatın direktoru mənim yanıma bir gənc qız göndərdi. Dedi ki, bu qızın bacarığını yoxla. Böyük adamın qızıdır. Soruşdum hansı dili bilir. Dedi, rus dilini. Gəldi, dedim, bir səhifəlik mətn verəcəyəm, tərcümə elə, baxaq. Dedi, müəllim çoxdur. Dedim, yaxşı, onda yarım səhifəlik yazı verəcəyəm. Dedi, bu da çoxdur. Yadıma düşdü ki, böyük adamın qızıdır. Dedim, yaxşı onda sənə tək bir söz verəcəyəm. İki saat da vaxt. Hətta istəyirsən lüğətlərə də bax. Dedi, lüğətlər lazım deyil. Söz verdiyim sözü verdim. «Neprislonyatsya». Dedim, bu mürəkkəb sözü tərcümə elə. Dedi, yaxşı. Kağız gələm istədi, verdim. İki saat keçdi. Durdu mənə yaxınlaşdı. Yazdığı vərəqi mənə verdi. Oxudum. Məni ildırım vurdu. Dedim, qəşəng qız, sən Axundov adına rus dili institutunu bitirmisən. Beş il oxumusan. Bir sözü tərcümə etməkdə çətinlik çəkirsən.

Bir də oxudum tərcüməni: «Fil yanında durmamaqlıq». Dedim, bərəkallah, qızım! Bunu sənə kim öyrədib? Dedi, müəllimim deyib ki, rus dilindən cümləni və ya sözü azərbaycan dilinə çevirəndə axırdakı sözü və ya hərfi əvvələ gətir. Mən də elə elədim. «Ne» ayrı çastitsadır. Qoy hələ burda qalsın. Sonra gəlir «slon» – fil, sonra gəlir «pri» – yanında, sonra da gəlir «yatsya» – bu da inkar bildi-

rən mamaq-məmək şəkilçisidir. Yuxarıdakı «ne» – çastitsasını sözə qoşanda olur «fil yanında durmamaqlıq!»

***

Bu da bir əhvalat. Yenə həmin şöbədə işləyirdim. Gördüm bir tərcüməçi yazıb ki, «Durna su içmək üçün quyunun dibinə enib-qalxırdı». Söhbət rus kəndlərində su quyularının üstündə quraşdırılmış mancanaqdan gedir. Bu mancanaq bir ayağı üstündə dayanan durnaya oxşadığından «juravel» – deyirlər. Doğrudan da durna deməkdir. Amma quyuya enib-qalxan durna deyil. Su qabıdır və zəncirdi.

Keçən yazımda «dovşanı qoltuğuna vurub qatarda gedən adam»dan yazmışdım. Rus dilində «on poexal zayçom» – o deməkdir ki, o biletsiz sərnişindir. Yəni, dovşan kimi qorxa-qorxa vaqonun bir küncündə gizlənib gedir. Bu söz – idiomadır. Bunu hərfi tərcümə eləmək olmaz. Gərək qarşılığını tapasan.

***

Bu qədər bəsdir, gələn yazı üçün də qoy bir az söz qalsın.

Dil bilməyən aparıcını işə götürürlər. Əvvəllər belə deyildi. İşə girmək istəyəni imtahan eləyərdilər, sınağa çəkərdilər. İndi baxır qırımına, durumuna, qohumuna, dost-tanışına, bəlkə də lap puluna! Odur ki, bu adam dili bilməyə-bilməyə dil-dil ötür. Di, gəl buna dil yetir. Sözün düzünü desən işin bitir.

Yenə qayıdıram «qarşı» sözünü yersiz yerə işlədənlərin üstünə. Özünüz bilin, siz nə qədər səhvlərinizi təkrar ertsəniz, mən də bu sözləri tapıb təkrar-təkrar sizə deyəcəyəm. Siz təkrarı sevirsiniz, görürəm. Mən də! İkimiz də təkrarı sevirik. Amma, fərqli.

Bir bu qədər dərdi, mən bir yerə necə yığdım, bunu bir Allah bilir, bir də «qarşı» sözü! Keşkə, sabah qəzetlər də, telekanallar da «qarşı» sözünü yerində işlədəydilər. Onda mən nəyi bəhanə edib, dördüncü məqaləmi yazacaqdım, bilmirəm.

İyul-avqust, 2005

BU YER MƏŞĞULDUR
(Replika)

Çox işlənən bir sual-cavabdı bu!

Səndən soruşuram ki, bu yerdə oturmaq olar? Cavab verirsən ki, «bu yer məşğuldur». Canım, gözüm! Yer nə karadı ki, məşğul ola? Yer nəynən məşğul olar, necə məşğul olar? Yer cansızdır axı?

Məşğuliyyət canlıya aid sifətdir. Yer ya boş olar, ya dolu olar. Ya tutular, ya tutulmaz. Əlbəttə, söhbət elə bu yerdən gedir. (Torpaq yerdən getmir).

Bunun əsl cavabı da budur. Soruşsalar: «bu yerdə oturmaq olar?» De ki: «Bu yer tutulub».

Bəs, «bu yer məşğuldur» hardan gəlib? Rus dilindəki «Eto mesto zanyato» ifadəsindən.

Eşit, bil, qonşularına da de, bu yanlışdır! Bu ifadə üz çıxaran qara kağızla köçürülüb, guya çevrilib. Amma olduğu kimi qalıb, üzümüzü qara eləyib. Ola bilsin ki, onun dilində «yer məşğul ola» bilər. Amma sənin dilində məşğul ola bilməz.

Çox-çox əvvəllər «qarşı» sözünü yerində işlətməyənlərə qarşı 3 dəfə yazı yazdım. Sonra baxıb gördüm ki, 3 dəfə yox, 30 dəfə də yazsam bu millət elə öz dediyini deyəcək. «Bu uşağın ana-ya qarşı məhəbbəti var», «Mənim sənə qarşı sözüm var» və s. Bu cümlələrdə «qarşı» sözünə ehtiyac yoxdur. Amma hamı bu sözü işlədir. Məni təəccübləndirən budur ki, bu səhvi ən çox müəllimlər, ziyalılar, şairlər, aparıcılar eləyirlər.

Ona görə sən öz bildiyin dildə danış! Avropadan, Asiyadan, lar elə qonşun Rusiyadan sərhədi icazəsiz keçib bu taya axışan həyasız sözləri işlətmə! Onda sən dünyada dünyaca məşhur olan öz ana dilində danışacaqsan.

Sənin ana dilin dəniz kimi ucsuz-bucaqsızdı, dərindi.

Dünyada elə bir mətləb yoxdur ki, bu dilə sığmasın. Sənin ana dilin ən kamil bədii təşbehləri, ən çətin elmi istilahları özündə ehtiva edir. Bu dil, dünyanın ən zəngin dillərindən biridir. Dünyanın tən yarısında başa düşülür. Bu zənginlikdə, dilin ola-ola, sən niyə yad dillərdən söz götürürsən? Bu boyda xəzinəsi olan yadların qəpik-quruşuna qalıb məgər?!

Sənə lazım olan bütün sözlər öz dilində var. Sadəcə zəhmət çək, axtar!

«525-ci qəzet»,
6 noyabr, 2007

MÜŞVİQ, YOXSA MÜŞFİQ, ƏHMƏDDƏ, YOXSA ƏHMƏD DƏ VƏ YOXSA İLƏ İKİ TOPONİM

Müşviq yoxsa Müşfiq?

Sevimli şairimiz Mikayıl Müşfiqi kim tanımır ki? Di, gəl, bu başı bəlalı şairin adını aparıcılar, qəzetçilər, hətta müəllimlər də düz demir.

Müşfiqabad qəsəbəsinin girəcəyindəki lövhədə də Müşviqabad yazılıb.

Müşviq yoxsa Müşfiq?

Kar da eşidib ki, Müşviq yox, Müşfiqdir. Kor da baxıb görür ki, şəfəq sözündəndir.

Tez-tez təkrar olunan bu hərf səhvi məşhur şairimizin ruhunu incitmirmi? Onun vaxtında bir nəfər də onun adını təhrif etməzdi. Çünki, onda adamlar sözləri bilirdilər. Sözün hardan gəldiyindən, necə tələffüz edildiyindən xəbərləri var idi. İndiki nəsil eşitdiyi sözün mənasını bilmir. Biri səhv eləyəndə o biri də ona baxıb səhv eləyir. Dilimizdə işlənən sözləri tanımaq lazımdır. Tanımadığın sözü işlətmə!

Məs: «Azadlıq» qəzetindən bir xəbər (6 may, 2009) «Müşviqabadda həkim xəstəni şikəst elədi». Bu xəbəri yazan müxbirə mən də deyirəm ki: «Sən də ən əziz bir sözü şikəst elədin!»

Heç yatanda yuxuma da girməzdi ki, bu təhrifi Yazıçılar Birliyinin divarında da görə bilərəm. Mikayıl Müşfiqin şəklinin altında «Müşviq» yazılmışdı.

Əhməddə, yoxsa Əhməd də?

Bir var ismin yerlik halındakı da, də şəkilçiləri, bir də var da, də bağlayıcıları.

Son illərdə (deyəsən Azadlığa çıxandan sonra) nədənsə hamı bu iki kateqoriyanı qarışdırır. Bu təhrif çox yayılıb. Yazıçılar, qəzetçilər, aparıcılar, tələbələr, şagirdlər də çaşıb «Əhməd də dəstəyə qoşuldu» deməli ikən, «Əhməddə dəstəyə qoşuldu» deyir (qoşuldu ha, qatıldı yox!). Yaxud «Əhməddə qələm var» deməli ikən, «Əhməd də qələm var» deyirlər. Bu səhv əsasən kompüterlərdən, telekanallardakı «qaçan sətir»lərdən gəlir. SMS-lərdə təkrar-təkrar səslənir. Savadsız müəllimləri olan məktəbdən, testdən gəlir. Bəlkə də lap qəsdən gəlir. Kimsə (ya kimsələr) bizim işlətdiyimiz türkcəni gözdən salmaq istəyir, dolaşdırır.

Əvvəllər 3 dəfə «Qarşı» sözünə qarşı» yazdım. Bir dəfə də «Bu yer məşğuldur» deyilməz dedim. Rus dilindən gələn bu tərcü-

məni açıb-ağartdım. İndi də, «da», «də»! bunlar xırda qüsurlar deyil. «Böyük səhvlər xırda qüsurlardan doğulur» – demişlər!

Dilini qoruyan elini qoruyar.

Elini qoruyan dilini qoruyar!

Bu yerdə «Speys» telekanalında bir qəribə ifadə eşitdim. Aparıcı deyir ki, «bu parçanı (musiqi parçasını) eşitmək istəyənlər 009 nömrəsinə zəng vursunlar». Canım, gözüm, «nömrəsinə» deyilməz, «nömrəsi» sözündə mənsubiyyət var (kiminsə, nəyinsə). Bizim demək istədiyimiz telefon nömrəsi xüsusi deyil, ümumidir, adidir, bəzək-düzəksizdir. Ya sadəcə demək lazımdır ki, 009-a zəng vurun! Ya da 009 nömrəli telefona zəng vurun! Bazarda, siyasətdə, ticarətdə, vergilərdə xalqa doqquz gəlmək bəs deyilmiş, indi də başlayıblar dilimizə doqquz gəlməyə.

Dil – toxunulmazdır.

Dil – müqəddəsdir.

Dil bilməsən – lalsan.

Səhv danışsan – pəltəksən.

Ana laylasının sözlərini tay-dəyişik salmaq, unutmaq nankorluqdur. Dilə etinasızlıq – anaya, Ana yurda etinasızlıqdır.

İKİ TOPONİM

Baba Zənan, yoxsa Baba Sənan? Salyan rayonunun yaxınlığında Baba Zənan adlı bir dağ var. Bu adı tərcümə eləyəndə Baba Zənan təxminən «Qadın Baba» dağı olur. Baba qadın olmaz ki? Bəs, bu nə deməkdir? Bir bunun mənasını açmaq istəyən yoxdur, bəyəm? Baba Zənan yer adı bu vaxta qədər nəşr olunan bütün xəritələrdə bu şəkildə yazılıb. Bütün Azərbaycan və rus coğrafiya dərsliklərində də eynən bu cür öyrədilir.

Yalnız M.B.Baharlının kitabında həmin bu dağ Baba Sənan adlandırılmışdır. O yazır ki, «Salyanlı qocalarla söhbət etdik, onlar dedilər ki, bəli, orda (bir) pir vardı. Baba Sənan piri. Elə ona görə də bizlər o dağa Baba Sənan deyirik. O adı xəritəyə salan şəxs dili bilmədiyindən Sənanın yerinə Zənan yazmışdır və bu təhriflə ədəbiyyata daxil olmuşdur». («Azərbaycanın bəzi coğrafi adları» kitabı. Maarif nəşriyyatı, 1972, səh. 57). Bu kitabı yazanlar 1954-cü ildən bu suala cavab axtarırlar. O vaxtdan 55 il keçir. 55 ildir ki, alimlər nigaran qalıblar. Halbuki, cavab o sözün özündədir. Amma bu təhrifi nə bu adı xəritəyə salan şəxsin, nə də Salyan qocalarının adlarına çıxmayın. Onların zərrə qədər də suçları yoxdur.

Bu təhrif – bir deyim xətasıdır. Əvvəl, bunu deyirəm ki, Salyan yaxınlığında, Xəzərə yaxın yerdə bir yox, iki dağ var. Birinə Baba Zənan, o birinə Kənizədağ deyirlər. Sözlərə fikir verin! İndi də gedib salyanlı qocalardan soruşsaq, deyəcəklər ki, «Bu Baba Zənandır, bu da Kənizədağ!» Çünki, salyanlı qocalar, hətta şair Oqtay Rza da tut bağına – tutabağ, tatar məhləsinə – tataraməhlə, motalpapağa – motalapapaq deyir. Tut, tatar, motal sözlərinə mütləq «a» hərfini artırırlar. Elə bu adətlə də hər gün gördükləri dağlara Baba Zənan və Kənizədağ deyiblər.

Baba Zənan və Kənizədağ sözlərindəki – Babadakı ikinci «a», Kənizədağdakı kənizdən sonrakı «ə» əlavədir, qoşulmadır. Bu cür «a», «ə»lər indiki halda ləhcə fərqidir. Qonşulardan keçmədir, (qıza, əkilə) filoloji məsələdir. Başqa bir məqalənin mövzusudur bu.

Mətləbdən uzaq düşməyək. Gəlin, Babadan ikinci «a»nı ataq. Qalır «Bab». «Bab» – ərəbcə qapıdır. Bab Zənan – zənan qapısı deməkdir.

Babnan başlayan daha bir məşhur coğrafi toponim var. Babəlməndab boğazı – yəni göz yaşları (Aralıq dənizindədir) boğazı.

İkinci dağdakı Kəniz sözündən sonra yazılan «ə»ni atanda Kənizdağ qalır.

İstər-istəməz bir sual çıxır meydana. Axı, niyə bu dağlara Zənan qapısı və Kənizdağı deyiblər. Çünki, bu dağlar az qala üzbəüz dayanıblar. Uçatağlı qala divarlarına bənzəyirlər. Bu nəhəng alaqapının o üzündə Xəzər çırpınırdı. Tələtümlü, tufanlı Xəzər! Orta əsrlərdə elə bu sahildəcə Bəndər var idi (Bəndər farsca liman). O zamanlar əsir götürülmüş azərbaycan qız və gəlinlərini bu bəndərdə gəmilərə doldurub Ərəbistana. İraqa, İrana, Türkiyəyə aparırdılar. Bu əsir qızları ərəb xəlifələrinə, İran şahlarına, Türkiyə sultanlarına kəniz göndərirdilər. Sinədağlı anaların, qolubağlı ataların ah və nalələrindən bu dağlar belə adlandırılmışdır. İndən belə bu toponimləri xəritələrdə öz adları ilə göstərmək, yazmaq lazımdır. Bab-Zənan və Kəniz dağı. Qoy, tarixçilərimiz bir də qayıdıb, bir daha dərdlərimizi bitdə-bitdə araşdırsınlar. Bu dağlar – tarixi yaddaşımızdır, ibrət dərsidir bizim üçün.

Dünya millətləri içərisində ən dəqiq, ən yaşarı, ən qayım, ən bədii toponimlər türklərə məxsusdur. Babilistandan tutmuş Kamçatkaya, Qafqazdan Çin səddinə qədər, Dərbənddən İran körfəzlərinədək, Altaydan Dəşti-Qıpçağa, Macarıstanacan səpələnib bu toponimlər.

Minlərcə Ağsu, Göygöl, Hammardabanlar var yer üzündə. Bütün bu adların üstündə, ətrafında və içində qələbə ilə bitən yürüşlərin, hərbi səfərlərin, sevinc ilə kədərin, acılı-şirinli günlərin ruhu

yaşayır. Hər yer adının əks-sədası var. Hər yer adında millətin kodu var.

Toponim – «tapa bil» sözünə bənzəyir. Bu yer adlarını coğrafiya alimləri dilçilərlə, tarixçilərlə birgə tapmalıdırlar. Bu yer adlarını yüz ölçüb-bir biçmək gərək! Nə qədər yer adı var ki, hələ də mənası tapılmayıb.

Çay qayaların altı ilə axırsa, gün işığı görmürsə ya Qaraçaydır, ya da Qarasu. Əgər çay qayaların gündüşən tərəfindən axırsa ya Ağçaydı, ya da Ağsu.

Toponimii tətqiq eləyən alim mütləq dili, ədəbiyyatı, folkloru bilməlidir. Toponimlər hərf-hərf, heca-heca sökülüb, yenidən yığılmalıdır. Ta başa düşülüncə. Toponimlər dilimizdir, yaddaşımızdır, tariximizdir. Millətin doğma yerlərə vurduğu möhürdür, nişanədir. İşarədir.

Yer adlarını qoruyub saxlamaq, yeri qorumaq, Ana yurdu qorumaqdır!

«525-ci qəzet»,
24 sentyabr, 2009

ÜÇ QAT QALA DİVARI

Nəcib Fazil Qısakürək

Türk dünyasının bu görkəmli şairinin adını ilk dəfə mən 60-cı illərdə «Sovremennaya tureçskaya poeziya» kitabında gördüm. Şeirlər hətta rus dilində də öz türklüyünü, sadəliyini, hecalığını və məxsusiliyini qoruyub saxlamışdı.

Sonra Rəsul Rzanın «Sülh və dostluq» adı ilə işıq üzünə çıxartdığı bir müntəxabatda gördüm onun adını. Burda cəmi-cümlətanı ikicə şeiri var idi («Sayıqlama» və «Otel odalarında»). Bu iki şeir – iki dünya, iki aləm, iki başqa göz idi, iki yeni söz idi bizim üçün.

Çox sonra «1500 il Oğuz şeiri» antologiyasında bir daha şairlə görüşdüm. Çox-çox sonralar «Çilə»ni gördüm. Ömrüm boyu çox-çox çilə görmüşdüm, amma belə çilə görməmişdim. Keşkə görməseydim!

Türkiyə türkcəsində Azərbaycan türkcəsinə şeir çevirmək böyük Sabir demişkən «hənək»dir. Bu cür çevrilmə sözü baş-ayaq çevirməyə bənzəyir. Əgər başa düşülməyən beş-altı ləhcə və ya məhəlli söz varsa, onları sıra ilə düzmək, qarşılığını tapıb, qarşısında yazmaq gərək! Vəssalam-şüttamam!

Burda yadıma bir əhvalat düşür. Çox-çox əvvəllər, azı 20 il bundan əvvəl «Ədəbiyyat və İncəsənət» qəzetində türk yazıçısı Səid Faiqin bir hekayəsi dərc olunmuşdu. Dönə-dönə oxudum, gördüm ki, bu tərcümə dil təhrifləri ilə doludur. Dedim, bəlkə tərcümədən tərcümə olunub?! Zəng elədim türkşünas Qədir İsmayıla. Soruşdum, Qədir, o Səid Faiq var ha?! Onun təxəllüsü nə idi? Dedi, Əbasıyanıq. Dedim, Biz onun atasını yandırdıq. Dedi, Nə olub, axı? Dedim, Bəs, tərcümə belə!

Bizim nəsil türk şeirlərinin dadını, duzunu onda kommunist Nazim Hikmətdən öyrənirdi. Necə ki, XX əsrin əvvəllərində ata-babalarımız Tofiq Fikrəti əzbər bilirdi. Bizə şərq ədəbiyyatını öyrənməyi qadağan etmişdilər.

Dəmir pərdə, bizi ərəb ədəbiyyatından, fars ədəbiyyatından və bizə çox doğma olan türk ədəbiyyatından ayırmışdı.

Krıma gedərdik. Qara dənizin üstü ilə maneəsiz axıb gələn radio dalğalarında türklərə qulaq asırdıq. Şeirlər dinləyirdik. Bu minvalla «Sacayağı» tanıdıq. Orxan Vəli, Oqtay Rifat, Məlik Cövdət, sonra Fazil Hüsnü Dağlarca. Sonra kimlər, kimlər… Gül-çiçəkli, rəng-

bərəng dərələrcə, vadilərcə, qayalarca, dağlarca uca, sərt, məğrur, zirvə-zirvə şairlər. Nəcib Fazil Qısakürək də onlardan biri idi.

Qısakürək – şairin soyadı, ya təxəllüsüdür, qoy olsun! Amma o şeirləri yazan adamın kürəyi qısa ola bilməz. O adam enlikürək idi.

Cəsur, mərd, ər, döyüşçü idi.

O, Şərqin və Qərbin dərdə sinə gərmək imkanlarını öyrənib bizi də dözümlü olmağa çağıran bir şair idi. Ümidini söz-söz paylaşırdı bizimlə. O, ümid şairi idi.

Bütün şairlər dərddən yazıbdır. Amma bu şair ən çox sevdiyi kitabının adını elə «Çilə» – dərd, qəm qoyub, əzab qoyub. Dərddən-qəmdən yazıb, əzabdan yazıb.

Şeirlərində yeni-yeni kəşflər eləyərdi. O, hecanın – heç kəsin ağlına gəlməyən yeni-yeni şəkillərini yaratmışdı, onun əlində gəraylı, qəsidə, eləcə də modern fransız, ingilis, Amerika şeiri bir-birinə qarışıb, yeni şeir olurdu. Bu yeni şeir köklərilə gedib, Yunis Əmrəyə bağlanırdı.

XX əsr dünyaca məşhur şairləriylə tanınır. Bu şairlərin içərisində Nəcib Fazil Qısakürək də var. Onun beş-üç şeiri 60-cı illərdə bizim gənc şairlərin qibləsi idi.

Bir mərhəmətdir yanan darısqal odaların,
Hisli lampalarında, hisli lampalarında.

«Otel odalarında»

Ayağımın altında pişiyim uyumaqda,
Sarıyıb iplik kimi sükutu bir yumaqda.

«Sayıqlama»

Burda heca əruzdan uca səslənir. Bu ucalığı şair özü kamil mənimsədiyindəndir ki, onun sirrlərini, əsl şeir yazmağı özündən sonra gələn şairlərə öyrədirdi. «Poetika» dərsi verirdi. Şeirin libası zaman-zaman təzələnməlidir. Bunu da zaman-zaman doğulmuş ustad sənətkarlar eləmişlər. Nəcib Fazil Qısakürək belə şairlərdəndir.

Burda babamız Füzulinin müdrik kəlamı bir daha doğru çıxır:

«Elmsiz şeir – əsası yox divar kimidir».

İtələsən uçular. Amma Nəcib Fazil Qısakürəkin şeirləri uçulmaz. Çünki, bu şeirlər üç qat qala divarları arxasındadır. Bu qala divarları tale və əbədiyyətlə əhatələnib və abidə kimi qorunur.

Birinci divar – Nəcibdən gəlir. Nəcabət, nəciblik, zəriflik və gözəllik hopmuş daşlarla nəcib-nəcib və gözəl hörülmüş bu qala divarı!

İkinci divar – Fazildən gəlir. Fəzilət, elm və biliklə yoğrulmuş palçıqla daşları bir-birinə rəbt edilmiş, ağılla ucaldılmış bu qala divarı!

Üçüncü divar – Qısakürəkdən gəlir. Sivri, yalçın, sərt, bütöv bir qayaya bənzəyir bu qala divarı! Bu daş kürək!

Bu kürək çox dözümlü kürəkdir. Şair bu kürəyini el dərdinin altına verib, ürəyini də el dərdiylə yandırıb. Hər şair hələm-hələm gəlib, yüz ili haqlamaz ki…

Noyabr, 2004
«Ədəbiyyat» qəzeti, 3 dekabr, 2004

İSTANBULDA BİR UŞAQ

Şair Arif Abdullazadənin xatirəsinə

Arif! Sən dünyadan köçəndən az sonra «Beynəlxalq Rəsul Rza mükafatı laureatının şeir antologiyası»nı gördüm. Aldım, baxdım. Burdakıların hamısı mənə doğma adamlardı. Birdən sənin bir şeirinə rast gəldim. Bu şeiri mən əvvəllər görməmişdim. «İstanbulda bir uşaq» adın altında mötərizədə **«lövhə»** yazılmışdı. Lövhə cansız şəkildir. Burada həyat aşıb-daşır. Odur ki, bu şeirin adının altında mötərizəsiz-zadsız **«həyat»** yazılmalıydı. Bugünkü dünya üçün çox aktual olan bu şeir bütöv bir dastana dəyər.

Keşkə, bu şeiri sən – dünyada olanda görəydim, Arif! Onda bu yazının adı «Bu şeirin təəssüratı» olardı, amma indi mən bu yazının adını «Mərsiyə» qoydum.

***

Uşaq öz aləmində, öz işindədir. Əlindəki malları atıb-tutur, tərifləyir, müştəri çağırır:

…Altın qaz çaxmaqları,
Sultanlıq toxmaqları.
…Qolbaq kimi qəndillər,
Məndədir, əfəndilər!

– Adın nədir, a bala?

Uşaq adını demir. Uşaq susur. Onun bu sükutu Sokratanadır. Uşaq – filosofdur. Bir müddət keçir. Uşaq deyir:

…Adımı neynirsən,
Bir şey al, ağabəy sən.
Pulun olsa dünyada
Adsız da keçinərsən.

– Bəs, qazancın nə qədər?

Uşaq – ağıllıdır. Cavab verir ki:

…Sənin verdiyin qədər,
Onun verdiyi qədər.
Allahın da verdiyi,
Bir candır, o da yetər,
Yetər ölənə qədər.

Uşaq – müdrikdir. Güclü müşahidəsi var. Dünya gör-götür dünyasıdır. Uşaq görüb-götürdüklərindən bilir ki:

…Pulun olsa dünyada
Ad-san da özü gələr.

Uşaq başından böyük danışmır,
Uşaq yaşından böyük danışır.
Elə bilirsən ki, böyük danışır.
Bazar, dükan, alver onu bu həyat girdabına atıb.

Bu şeirdə çox şey var. Soyulduqca soğan kimi qat-qat soyulur. Lap spektrə bənzəyir. Oxunduqca, rənglərə bölünür; yaşıl, narıncı, göy, qırmızı, mavi, sarı, bənövşəyi – yeddi rəng!

Bu rənglər bir də birləşəndə yenə də yenidən qayıdıb ağ olur. Elə bu rənglərin bir yerdə birləşməsi dönüb o, uşaq olur.

Bu şeirdə eyhamla tarixə qayıdış, adət-ənənəyə sədaqət, keçmişə hörmət var.

Bayramlıq hədiyyələr
Müdrik Ramazanlıq, –
Oğlunuza düyünlük,
Qızınıza nişanlıq.

«Nişanlıq» – sözündən sonra deyilən «gəlin, gəlin aparın» misrası başdan-başa cinasdır, həm «gəlin, gəlin aparın!» (yəni, gəlin, alın, aparın!), həm də «gəlin, gəlin aparın!» (yəni, nişanlıq alırsınızsa, nişandan sonra qız gəlin getməlidir. Gəlin, gəlin aparın!) – deməkdir.

Bu söz oyununu şair Arif uydurmayıb. Uşaq özü düzüb-qoşub.

Uşaq – şairdir. «Günəş yoruldu» – deyir. Özü yorulub, günəşi bəhanə eləyir. Evə əliboş getmək istəmir. Odur ki, «Yetişin, axşam oldu» – deyir.

Küçə alverçisinin ən yaxın dostu elə günəşdir. O, günəşlə bir oyanır, bütün günü qızmar günəşin altında ayaq üstə qalır, günəş batanda o da yatır.

Yeddiliklə yazılmış otuz üç misralıq bu şeir bir misra kimi oxunur. Vahid, geniş, dəniz kimi intəhasız, göylər qədər dərin bir misra! Bayaq deməliydim bu sözü, indi deyirəm.

Otuz üç misra, misra-misra mismarlanıb bir-birinə. Bu şeirdən bir vergülü də qoparıb ata bilməzsən, gücün çatmaz.

Bu şeir İstanbulun küçələrindən yığılmış, xırda daşlardan hörülmüş mozaik bir pannodur. Bu şeirin bütün misralarından həqiqət bar-bar bağırır.

Uşağın yaşı, gözü-qaşı, üst-başı istidən, susuzluqdan, bəlkə də aclıqdan qurumuş, çatlamış dili-dodağı göz qabağındadır.

Uşaq satdığı malların adlarını və qoşduğu bəzəmələri o qədər ustalıqla tələffüz edir ki, adam məəttəl qalır.

Ən kamil ədəbiyyat müəllimi də, ən yaxşı bədii qiraət ustası da bu sözləri eşitsəydi, ona həsəd aparardı. Dili çox şirin, aydın və rəvandır. Sözləri oxumuş adam kimi deyirdi. Halbuki, küçəyə çıxandan məktəbə getməmişdi. Onun məktəbi – bazar idi. Uşaq öz ana dilini gözəl bilirdi. Üstəlik, bu dildə işlənən ərəb, fars sözlərini də çox asan üyüdürdü. Sözlərlə bahəm özü də üyünürdü.

Ən ali qanunlar, ən gözəl kitablar, ən qüdrətli şeirlər bir qəpiyə dəyməz – əgər, bir uşaq səhərdən axşamadək bir qarın çörək üçün, beş-üç qəpik-quruş xatirinə ömrünü çürüdəcəksə!

Bu uşaq Vətən övladıdır, axı! Bu uşaq millətin gələcəyidir.

Ona sual verənlər küçədən keçən adi adamlar deyil, onlar bəlkə də heç adam deyillər, qəzavü-qədərdirlər, taledirlər. Onu dilləndirirlər, çətin suallar verirlər. Uşaq həmin çətin suallara asanlıqla cavab tapır. Axırda, məlum olur ki, Allah ona bir can verib, sonra da peşman olub, bu cür suallarla onun canını alır.

Arif! Sən də hardasa o uşağa bənzəyirsən. İstəmədən doğulan, bəxtinə şairlik düşən, söz bazarı kəsad olan, yalan söz alınır, doğru söz alınmır deyən, günəşin altında o uşaq kimi yorulan, alnına əzablı bir ömür yazılan sənin – o uşağa çox bənzərin var. Sən də «adın nədir?», «qazancın nədir?» suallarına o uşaq kimi müdrikcəsinə cavab vermisən:

…Fələk taleyimi içindən oydu,
Ömür tabutuma tərsinə qoydu.
Gəlişim matəmdi, gedişim toydu,
Tövbə, ömür adlı kəlməyə tövbə!
Tövbə, bu dünyaya gəlməyə tövbə!

Bu cürə ömrü heç kəsə qıymıram. Mən sənin tənhalığını görmüşəm. Taleyinin fəryadını eşitmişəm. Sənin evinə gəlin gəlmədi. Sənin evindən uşaq səsi eşidilmədi. Sənin evin qəm-qüssə güşəsi idi. Soyuq idi. Qış donub qalmışdı orda elə bil.

Sən Şəkidə doğuldun. Bakıya gəldin, şair oldun. Sonra İstanbula getdin, özünə bənzəyən o uşağı gördün.

O, məmləkət üçün lazım olan gərəkli şeylər satırdı.

Sən də həyat üçün lazım olan gərəkli şeirlər yazırdın.

O, dolana bilmirdi. Uşaq ağlı ilə üsyan eləyirdi, güzəranından narazı idi.

Sən də dolana bilmirdin. Şair ağlınla dünyanın min bir tapmacası qarşısında aciz qalmışdın.

Arif! Yazdığın bu kiçik şeir bir həyat hekayəsidir. Bir ibrət dərsidir. Bəlkə də çərxi-fələkdir. Bu çərxi-fələkdə, sadəliyi və təmizliyi ilə o uşaq – bir mələkdir. Onun mələk gözündə bu dünya ələk-vələkdir.

Onsuz da bu dünya nəhəng ələkdir. Binnət olandan insanları ələyir. Yaxşısını pisindən ayırır.

Unu un üstə yığır, kəpəyi kəpək üstə. Hələ bu un əvvəl dən olub, sünbül olub, xırmanda döyülüb, dəyirmanda üyünüb, sonra gəlib, un olub, ələnib.

Sənin İstanbuldan gördüyün o uşaq – o, ələnmiş unun bir zərrəsidir. Bir zərrə un – bir zərrə qum kimidir. Külək onu qapıb, hara istəsə çırpacaq.

Şeir qaldı ancaq! Şeir qalacaq! Şerin axırında 1972-1975-ci illər yazılıb. Şeir üç ilə yazılmayıb. Şair gördüyünü üç il başında gəzdirib, ölçüb-biçib və bir gün oturub, birnəfəsə yazıb.

Bu şeirin böyüklüyü də elə bundadır.

Bu şeir İstanbulun küçələrində görünmüş, görünən və görünəcək, dünənin, bu günün və gələcəyin uşaqlarına uçulmaz bir abidədir.

«Ədəbiyyat» qəzeti,
30 senyabr, 2005

BAŞI BƏLALI «AZƏRBAYCAN»

Böyük Azərbaycan şairi Seyid Məhəmmədhüseyn Şəhriyarın bədii irsinin xeyli hissəsi farsca olsa da, onun doğma ana dilində – türkcə qələmə aldığı əsərlər də, özünün yüksək poetik məziyyətlərinə görə, misilsiz sənət nümunələridir. Son 50 ilin qəti şəkildə təsdiqlənmiş həqiqətlərindən biri budur ki, Şəhriyar təkcə Azərbaycan, İran və şərq poeziyasının deyil, ümumilikdə dünya ədəbiyyatının görkəmli simalarındandır. Amma bu da danılmaz həqiqətdir ki, Şəhriyar vətəndaşı olduğu ölkənin – İranın təəssübünü nə qədər çəksə də, farsdilli şeirin gözəl nümunələrini yaratsa da, soykökünü bir an unutmayıb, ömrü boyu ürəyində sonsuz Azərbaycan eşqi, türk dili sevdası daşıyıb. Hətta İranda irticanın ən amansız dövründə, şərin, şovinizmin meydan suladığı zamanlarda da Şəhriyar mənsub olduğu xalqa, Azərbaycana bəslədiyi əzəli-əbədi sevgini dilə gətirməkdən, Ana vətənini tərənnüm etməkdən çəkinməyib. Məhz, bu tükənməz sevginin məhsulu kimi Şəhriyar qələmindən Azərbaycan yanğılı poetik nümunələr çıxıb, türkdilli poeziyanın nadir incilərindən olan «Heydərbabaya salam» yaranıb. Şairin bu ruhda yaratdığı gözəl əsərlərdən biri də farsca qələmə aldığı «Azərbaycan» şeiridir. İranda türk sayılan, özünə «türkəm» deyən hər kəs üçün ağır bir dövrdə yazılmış bu şeirin meydana gəlməsinə görə biz, sözsüz ki, Şəhriyara – onun qüdrətli şair qələminə, böyük vətənsevərliyinə və hədsiz cəsarətinə əbədi borcluyuq.

Son vaxtlar İran həm daxilən təlatümlər keçirir, həm də xarici aləmlə münasibətlər baxımından ciddi gərginlik içərisindədir. Bu proseslərin fonunda Şəhriyarın soydaşlarının – İrandakı azərbaycanlı-türklərin taleyi xüsusi narahatlıq doğurur. Görünür, bu da təsadüfi deyil ki, Şəhriyar zaman-zaman belə keşməkeşlər yaşamış Güney Azərbaycanın İrandakı azərbaycanlı-türklərin taleyini, sabaha gedən yolunu özünün «Azərbaycan» şeirində mükəmməl səviyyədə təcəssüm etdirib.

Qeyd etdiyimiz kimi, Şəhriyar «Azərbaycan»ı farsca qələmə alıb, şeirin bu tayda – Bakıda doğma dilə tərcüməsi və nəşri ötən əsrin 60-cı illərində həyata keçib. Şeirin poetik tərcüməsi dəyərli şairimiz Fikrət Sadığın qələmindən çıxıb. «Başı çox bəlalar çəkmiş» (ifadə F.Sadığındır) bu şeirin sətri tərcüməsi isə unudulmaz alimimiz, Azərbaycan ədəbiyyatının və Şəhriyar irsinin fədakar tədqiqatçısı Qulamhüseyn Beqdeliyə məxsusdur. Bu şeirin Azərbaycan türkcəsinə tərcümə zamanı guya təhrif edildiyi, F.Sadığın çevirmə zamanı guya məzmun baxımından ifrat sərbəstliyə yol verdiyi barədə arasıra iddialar səsləndiyi məlumdur. Oxuculara təqdim etdiyimiz bu məqalədə F.Sadığın «Azərbaycan»ın ana dilimizə tərcümə olunmasının tarixcəsini açıqlayan şeirlə bağlı illərdən bəri səslənən məlum mülahizələrə münasibət bildirir.

Seyfəddin Hüseynov

1961-62-ci illərdə mən Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində beşinci kursda oxuyurdum. Diplom işi yazır-

dım. Mövzu «Məhəmməd Hadinin sənətkarlığı», elmi rəhbərim, müəllimim görkəmli şair Bəxtiyar Vahabzadə idi. Bir axşam Bəxtiyar müəllimgilə getmişdim. Orda ədəbiyyatşünas alim Şəhriyarı bu taya «gətirənlərdən» biri – Qulamhüseyn Bəydili (Beqdeli) ilə görüşdüm. Bəydili müəllim demə, bura gəlibmiş ki, Şəhriyarın üç şeirini Bəxtiyar müəllimə tərcümə elətdirsin. Amma məlum oldu ki, Bəxtiyar müəllim harasa, uzağa iki aylıq müalicəyə gedir, Bəydili müəllim dedi ki, mənə tez lazımdır.

«Azərnəşr»də «Şəhriyar» monoqrafiyam var, bu tərcümələri misal kimi orda işlədəcəm. Axırda Bəxtiyar müəllim bir çarə tapdı, dedi, şeirləri verək tələbəm tərcümə eləsin. Bəydili məni tanımırdı. Bəxtiyar müəllim Məhəmməd Hadiyə yazdığım elegiyanı mənə oxutdurdu. Bəydili naümid razı oldu. Hər üç şeiri çox dəqiqliklə edilmiş sətri tərcümələrini mənə verdi: «Azərbaycan», «Mumyalanmış adam», «Eynşteynə xitab».

Bu məqaləni yazmaq üçün köhnə kağızlarımın içindən həmin sətri tərcümələri tapdım. Tanrıya şükürlər olsun ki, itməyib. Çünki bu şeirlərdən birinin başı çox bəlalar çəkib. Bəlkə də, adının «Azərbaycan» olmasındandır. Çünki Azərbaycanın da başı olmazın bəlalar çəkib. Bu yazıya həmin şeirin həm sətri, həm də bədii tərcüməsini qoşuram.

İndi mən, gec də olsa, inanmayanlara, dedi-qodu yapanlara cavab verirəm. Tutuşdurun! Durun, bir az fikirləşin. Əgər, şeirin mənbəyini də bilmək istəsəniz, onu da deyirəm. Şəhriyar. «Divan», I cild, səh. 132. Fars dilini bilənlər tapıb, bu şeirin varlığına və yəqinliyinə inanarlar.

Bircə bunu bəribaşdan deyirəm, bayaq adını çəkdiyim «Məhəmmədhüseyn Şəhriyar» monoqrafiyası 1963-cü ildə işıq üzü gördü. O kitab bu tayda Şəhriyarı tanıtmaq üçün atılan ilk addımlardan biri, çox da uğurlu addım idi. Mənim tərcümə elədiyim «Azərbaycan» şeiri həmin monoqrafiyada misal çəkilir və bu şeir haqqında Qulamhüseyn Bəydili deyir: «Göründüyü kimi, bu şeirdə qəzəllərindəki mistik əhval-ruhiyyədən bir əlamət yoxdur. Burda odlu bir ürəyin çırpıntısı ilə bərabər, azadlığa çağırış vardır».

Mən də şeirdəki azadlığa çağırış ruhunu saxlamışam. Bu işıq telində köklənmişəm.

«Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan!» – deyən şairin sözləriylə qanadlanmışam. Bəlkə də yeganə günahım bu olub ki, mən bu şeiri başa düşmüşəm. Bizim zamanda başa düşmək o qədər də müsbət keyfiyyət sayılmır. Nadanlar daha hörmətlidirlər.

Şeir farscasından çıxıb, türkləşdikcə daha aydın, daha parlaq göründü. Bəzi nakəslərin gözünü qamaşdırdı. «Şəhriyar bu cür açıq-açığına azadlığa çağırmaz» – dedilər mənə. Şəhriyara gücləri çatmırdı, tərcümələrinə daş atırdılar. Amma bu daş qayıdıb öz başlarına düşdü.

Zaman keçdikcə inandılar ki, Şəhriyar azadlıq carçısıdır. Mən şeirin fars libasını dəyişdim. İzafət birləşmələrindən təmizlədim. Orda qafiyələr yad-e, azad-e, ustad-e, şümşad-e, Fərhad-e Azərbaycan… şəklində gedirdi. Mən qafiyəni dəyişdim. Amma həcmini, qəzəl şəklini, məna və məzmunu olduğu kimi saxladım. Vəzni əruza çox yaxın olan 16-lıq hecayla əvəz etdim. Bu, daha doğmadır. Türkcə məgrur səslənir. Sərtdir.

Qaldı «tərcümədəki üsyankarlıq ruhu hardan gəlir» sualına, bir də təkrar edirəm: Elə Şəhriyardan! Onun bu şeirinin hər sözündə, hər beytində həqiqət və üsyan var. Bu ruha bir az da 60-cı illərin inqilabiliyi qarışıb. «Azərbaycan» şeiri bizim üçün 60-cı illərin şeiridir. Budur cavab! Mən bu şeiri o taydan gətirmişəm, indi də bu taydan o taya aparmaq lazımdır. «Varlıq» dərgisi bunu bir dəfə eləyib. Bu tərcümə 1982-ci ildə dərginin iyun-iyul sayında Tehranda dərc olunub. Tərcümə öz qafiyələri ilə qalsaydı, yenə fars şeiri olacaqdı. Mən bunu fəhmlə, göydən gələn vəhylə bilirdim. Mütləq qafiyə – rədif vəhdətini pozmalıydım.

Fars mənim bütöv Ana yurdumu iki yerə bölüb ayıra bilərmiş. Mən onun (farsın) qafiyəsini rədifdən ayıra bilmərəm yəni?! Əvəzində qafiyə ilə rədifi həmqafiyə elədim:

«Vətən eşqi məktəbində can verməyi öyrənmişik,
Ustadımız deyib heçdir Vətənsiz can – Azərbaycan!»

Mən bu işi gördüm. Tərcümə alındı. Tapıldı! Bu kəşfi mən böyük şairimiz Məhəmməd Hadinin adına çıxıram. Əlimin altındakı diplom işində onun «Əşari-pərişan» və yaxud «Solğun çiçəklər» adlı şeirini təhlil edirdim. Ordakı qafiyə-rədif sırasını bəyəndim:

«Şövqi-Vətən ilə ürəyim qan, pərişan,
Könlüm kimi ol dilbəri vicdan pərişan.»

Burda qafiyə ilə rədifin həmqafiyə olması bənzərsiz bir ahəng, musiqi, alliterasiya yaradır. Bu da türk şeirinə xasdır. Qafiyə ilə rədif arasındakı bir nəfəs dərimi dayanıb, sonra ucadan «Azərbaycan» deyəndə səsin hər iki taya yayılır. Şəhriyarın da ruhu şad olur. Tərcümə nədir? Əslində ən dəqiq tərcümədə də qüsur tap-

maq olar. Şeir ana dilində yazılmalıdır, ana dilində də oxunmalıdır. Bir dəfə böyük rus şairi A.Puşkinin yubileyi ərəfəsində tərcüməçilər əl-ayağa düşdülər. Onda yazmışdım ki:

«Yubiley oldu mütərcimlər
daraşdılar Puşkinə.
Özlərinə gün ağladılar,
Puşkini qoydular pis günə».

(«Yubileyqabağı»)

Çünki bunların bəziləri özlərindən söz, misra, hətta bütöv bir parça artırırdılar. Elə tərcümələr də vardı ki, görürdün burda əsərdən əsər-əlamət qalmayıb. Mən bunları görürdüm, bilirdim. Odur ki, hər hansı bir şeiri tərcümə eləyəndə həcmini, şəklini, məna və məzmununu qorumağa çalışmışam. Gücüm çatanda vəzni də, formanı da saxlamışam.

Qeyri-təvazökarlıq olsa da, bir misal çəkəcəyəm. Mənim bir miniatür şeirim var:

«Üç cür olur zurnaçılar;
Biri elə zurna çalar,
Biri belə zurna çalar,
Biri də elə-belə zurna çalar».

Görün, bu şeiri gözəl şairimiz Mənsur Vəkilov rus dilinə necə düzgün tərcümə eləyib:

«Odna duda iqraet tuda,
Druqaya duda iqraet suda,
Tretya duda – i tuda, i suda».

Burda əsli türk sözü olan, sonralar ruslaşan «duda» sözü düdük, tütək – necə də yerinə düşüb. Dəqiqliyə baxın!

Mənim fikrimcə şeirin ruhu, məna və məzmunu, həcmi və şəkli gözlənilməndə tərcümə alınır. Tərcümə – kserokopiya deyil.

Tərcümə elədiyini də, o şeiri oxuyacaq millətin dilini də bilməlisən. Tərcümə etdiyin əsərdə müəllifin dərdi ilə tərcüməçinin dərdi də eyni görünməlidir. Bu mənada mənim bəxtim gətirib. Çünki mən elə bir şairi tərcümə eləmişəm ki, onun dərdi ilə mənim dərdim birdir, eynidir. Bizi rusnan fars iki yerə bölüb, Şimalı və Cənubi Azərbaycanlar elədilər. Bu Azərbaycanlar – bizim Vətənimizdir.

Sonralar «bölmə ustaları»na bu az göründü. Bizi təzədən iki yerə – Qərbi-Şərqi Azərbaycanlara böldülər. Olduq dörd para, dörd parça. Parça-parça parçalandıq. İndi dörd cəhətin dördü də cəm olub bizdə. Dünya fırlanır deyirlər, fırlanan cisimlər fırlandıqca üstündəkiləri də fırladır. Bu cisimlər fırlandıqca bir-birinə sıxılır, qarışıb bütöv olur.

Necə ki, əvvəl-axır Azərbaycan da belə olacaq – Böyük Azərbaycan!

«Azərbaycan» şeiri ustad Şəhriyarın vəsiyyətidir. Bu şeir – Dünya Azərbaycanlılarının himni olmağa layiqdir. Bəlkə də, olub. Şəhriyar da elə bunu istəyirdi. Bu əzəmətlə səslənən himn-marşın bəstəkarı Etibar Qasımlı, müğənniləri Azər Zeynalov, Ruhəngiz Allahverdiyeva və Zöhrə Abdullayevadır.

Tək-tək və bir yerdə oxuyurlar. Tək-tək, ayrı-ayrı, sonra bir yerdə!

Burda bir haşiyə də çıxım. Əsgər Fərid (və ya Fərdi, soyadını dəqiq bilmirəm) adlı bir iranlı burda – Bakıda tədqiqat işi müdafiə edərək elmlər namizədi, alimlik dərəcəsi alıb. Amma orda Şəhriyarı təftiş eləyib, onun azadlıq və milli məzmunlu fikirlərini yumşaltmaq istəyib. Bu sözləri Şəhriyarın yaradıcılığına bələd olanlar deyirlər.

Bir mühitdə yazılmış şeiri başqa bir mühitdə, mühitə görə dəyişmək olmaz. Bir dəfə yazılan şeir bir daha pozulmaz. Şeir – alın yazısı kimidir. Yazılmır. Həkk olunur. Qaşısan, yeri qalacaq. Şəhriyarın çox şeirlərini qaşıyıblar. Yeri çopur qalıb.

Adam hər deyilən sözə inanmaz. Gözü ilə gördüklərinə inanar. 1995-ci il idi (ya da 1996-cı il), Tehrana getmişdik, böyük Şəhriyarın 90 illik yubileyinə. Burdan gedən şairlərin hər birinə söz verdilər. Amma nədənsə məni danışmağa qoymadılar. Başa düşmədim, niyə? Səbrim tükəndi. Anar müəllimdən soruşdum. Dedi, mən də başa düşmürəm, hər dəfə mən sənin adını siyahıya salıram, kimsə pozur. Sonra bu «kimsə»ni tanıdım. O adam Əsgər Fərid, ya Fərdi idi. Dedim, mənə niyə burda söz vermirlər, dedi, sən Təbrizdə danışacaqsan. Doğrudan da Təbrizdə, Şəhriyarın məqbərəsində, yerin altında mənə söz verdilər. Lap yaxşı, Şəhriyara daha da yaxın oldum.

Demə, yerin üstündə azadlığa çağırış səsləndirmək olmazmış! Ona görə mənə yerin altında söz verdilər. Bəhanə də tərcümədəki bu beyt olub:

«Bəsdir fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa, ya azad ol, ya tamam yan, Azərbaycan!»

Əsgər Fərid (ya Fərdi) deyir ki, Şəhriyar bu sözü belə deməyib. Amma bu onun fərdi fikridir. Sətri tərcümə göz qabağındadır. Bir dəfə Əsgər Fərid (ya Fərdi) ilə Şəkidə rastlaşdıq. Karvansarayda sənədli film çəkirdi. Azərbaycan şəhərlərini gəzib, Bakı, Şamaxı, Dərbənd, Gəncə, Şəmkir, Şəki qalalarını lentə alıb «İran qalaları» adlı sənədli filmə yığırmış. Məndən əl çəkmədi, dedi, gəl, səni sorğu-suala tutum, cavab ver: sən o şeiri meydan üçün tərcümə eləmisən. Dedim, cənab, mən o şeiri 1962-ci ildə tərcümə eləmişəm. Meydan hərəkatı 1988-ci ildə başlayıb. Mən onun çəkdiyi kadrlarda şeiri necə tərcümə eləməyimdən danışdım. Bilmirəm, İranda göründü, ya yox.

Bu tərcümə ilə bağlı başıma gələn əhvalatlar çoxdur.

İlk dəfə «Azərnəşr»də dərc olunan «Monoqrafiya»da tərcümənin 7-ci beytini çıxarıb atmışdılar. 10-cu beytdə bir sözü dəyişmişdilər.

Atılan beyt budur:

«Tehrandakı Zöhhakların zülmü dərya olub bu gün,
Bəs Həddadın oyanacaq, söylə haçan, Azərbaycan?!»

(Zöhhak–zalım İran şahıdır. Həddad isə üsyankar dəmirçi Gavə. «Şahnamə»dən).

Dəyişilən söz də bu idi:

«Övladların nə vaxtadək tərki-vətən olacaqlar,
Əl-ələ ver, üsyan elə, bir də oyan, Azərbaycan?!»

İkinci misradan «bir də» ifadəsinin iki dəfə «oyan, oyan» getmişdir. O zaman «Azərnəşr»də «Qlavlit» var idi. Dövlət sirlərini qorumalı ikən, hər işə qarışırdı. Şairlərə şeir yazmaq öyrədirdi. Mələk sözləri ələk-vələk eləyib içindən şər tapırdılar. Şərnən şeiri qarışıq salırdılar. O səbəbdən «Monoqrafiya» (1963), Şəhriyar. «Seçilmiş əsərləri» (1966), «Varlıq» dərgisi (1982), «Yalan dünya» (1993) və bundan sonrakı bir çox nəşrlərdə tərcümə bu düzəlişlərlə, doğrusunu desək, qüsurlarla çıxıb. Mən sonralar «Dünya öz işindədir» (1989), «Seçilmiş əsərlər» (1991), «Taleyin acığına» (2003) kitablarında o «düzəlişlər»i ləğv elədim.

Bu bir dərd.

Keçək ikincisinə. 1963-cü ildən üzübəri bu tərcümə olunandan dəfələrlə mənim adımı bir mütərcim kimi yazmayıblar. «Cənubi

Azərbaycan şeiri» antologiyasında və «Yeni Azərbaycan» qəzetində dörd tərcüməmi çap eləyiblər, amma tərcüməçinin adı yoxdur. Şəhriyar bu şeiri türkcə yazmayıb, axı?! Ya da o əzəmətlə səslənən himn-marş oxunmazdan əvvəl müəlliflə bahəm, mütərcimin də adının çəkilməsinə haqqı var. Böyük Şəhriyar bu şeiri farsca yazıb, bunlar türkcə oxuyurlar. Mütərcimi yada salan yoxdur. Onun da müəlliflik hüququ var. Bəzən də bilmək olmur, hansısa səbəbdən mənim tərcüməmin altında başqa bir şairin adını yazırlar. «Fikrət Sadıq nəkarədir ki, Şəhriyarı tərcümə eləsin?!» Misal üçün, 1995-ci ildə çapdan çıxan orta məktəblərin 8-ci sinfi üçün «Ədəbiyyat» dərsliyində 144-cü səhifədə tərcümə Balaş Azəroğlunun adına yazılıb. Sözsüz ki, Balaş Azəroğlunun bundan xəbəri yox idi. Bilinmədi, bunu kim eləyib, gah redaktorun adına çıxdılar, gah korrektorun üstünə yıxdılar. Onda mən «Öyrətmən, (nəşriyyat) belə öyrətməzlər» adlı bir məqalə yazdım. Maarif Nazirliyində dərslik işlərinə baxan məmura oxudum. Dedi, tələsmə, mən tapşırıq verərəm, gələn ildən adını yazarlar. Hər məmura inanmaq olmaz. Bunun sözü düz çıxdı. Doğrudan da, dərsliyin növbəti nəşrində bu səhvi düzəltmişdilər. Amma nə fayda ki, çox çəkmədi. Bu ilin dərsliyinə baxdım. Gördüm, Şəhriyarı köklü-köməcli 8-ci sinif dərsliyindən çıxarıblar.

Mən cəhənnəm, ara yerdə Şəhriyara da zərbə dəyib. Bəlkə də, başqa bir sinfin ədəbiyyat dərsliyinə köçürülüb, bilmirəm.

«Ata yurdu» dərsliyində bu şeirdən parçalar verilib. Amma tərcüməçinin adını gizlədiblər.

Ara-sıra telekanallarda bu şeiri əzbər deyirlər, oxuyurlar, tərcüməçi yada düşmür. Saymırlar, qoy saymasınlar. İnanmırlar, qoy inanmasınlar. Bir də deyirəm: Mən özüm-özümə inanıram. Mətndən kənara çıxmamışam. Özümdən fikir artırmamışam. Sətri tərcümə də, şeirin əsli də var. İsti-isti sətri tərcüməni də, bədii tərcüməni də dönə-dönə oxutdurub, əsliylə tutuşdurmuşam, söz-söz, misra-misra, beyt-beyt. Fars dilini bilən ziyalılarla məsləhətləşmişəm. Fars dili müəllimim Əhməd Şəfai, şair Əbülfəzl Hüseyni, şərqşünas Əlibala Hacızadə və başqaları mənə tərcümə barədə müsbət fikirlər söyləyiblər.

***

Tarix bilir ki, bu milləti bir dəfə Səttarxan, bir dəfə Seyid Cəfər Pişəvəri oyatmışdı. Bir dəfə də Şəhriyar oyatmaq istədi. Babək övladları əvvəl-axır oyanacaq. Bu ayrılıq çox sürməz. Mənə deyiblər ki, Savalanın ətəklərində qartal yuvaları kimi yalçın qayalara sığınan kəndlərdə hər evdə bir ər oğlu, ər var. Adını soruşsan, ya Babək deyəcək, ya Səttarxan. İndi Şəhriyarlar da çoxalıb. Bu – öz içi-

nə çəkilmiş Azərbaycandır! Torpaq altında yatmış vulkandır. Torpaq darıxanda içindən püskürəcək. Mən o günü görməsəm də, nəvəm görəcək.

Qulamhüseyn Bəydili ilə görüşəndə məndən soruşdu ki, fars dilini bilirsənmi? Dedim, bir az bilirəm, müəllimim Əhməd Şəfai bir dəfə İrəc Mirzənin «Ana» şeirini bizə tərcümə elətdirmişdi. Deməli, «Azərbaycan» şeirinə qədər mən bir sınaqdan çıxmışdım.

Qaldı ikinci şeirə – «Mumyalanmış adam»a, bu, ustad Şəhriyarın yazdığı kimi, «azad şeir» idi, yəni sərbəst şeir. Heç kəsin ağlına gəlməz ki, bu günün Hafizi adlanan sərbəst şeir də yazırmış. «Eyvah, anam», «Mumyalanmış adam», «Eynşteynə xitab», «Rəssam» və başqa şeirləri misal çəkmək olar.

60-cı illərdə dünyanı bürüyən yeni şeir dalğası İrana da gəlib çıxmışdı. Farsca bu şeirə «şeiri-no», yəni «yeni şeir» deyirdilər. «Mumyalanmış adam» fəlsəfi fikrinə və ağırlığına görə neçə-neçə qəsidədən sanballı idi. Burdakı uzun, qısa misralarda insanın uzun-qısa ömrünü görmək üçün şair bizi bu günlərdən Misir fironlarının dövrünə aparıb-gətirir. Bu şeir elə azad olmalı idi. Qəzəl ilə ora gedib-gəlmək olmazdı.

Bu şeirin tərcüməsində də mən öz tərcümə prinsiplərimə sadiq qalmışam. Məna, məzmun, həcm, şəkil, sonra quruluş, qafiyə, rədif və s. gözlənib.

«Eynşteynə xitab» da müdrik şeirdi. Şərqin böyük şairinin Qərbin böyük aliminə nə sözü varmış, görəsən? Şair bu şeirdə deyirdi ki, o nəzəriyyələr ki, sən axtarıb tapmısan, dünyanı heyrətə gətirmisən, onların kökləri Şərqdən gəlir. Bəs, niyə elə bomba icad eləyirsən ki, Şərqi yerlə-yeksan eləsinlər?! Axı, sənin nisbilik nəzəriyyən Əshabi-kəfdən nəşvü-nüma tapıb göyərib. Qədim nağıllarda, əfsanələrdə, klassik şeir nümunələrində, nəhayət, müqəddəs kitabımız Quranda elmin gözlənilməz kəşflərinə açarlar, işarələr, eyhamlar var.

Eynşteyn kimi alimlər Şərq şeirindən Firdovsi, Xəyyam, Nizami, Xəqani, Füzuli, Nəvai, Hafiz, Sədi və onlarca dahi şairlərin şeirlərindən nələri öyrənməyiblər ki?! Sufiliyin, hürufiliyin sirlərini açmağa çalışıblar. «Min bir gecə» Qərbi min bir gecə düşündürüb. «Kəlilə və Dimnə», «Qobusnamə» «Dekameron»ların babasıdır desəm, səhv etmərəm. Əsrlər boyu Qərb Şərqdən öyrənib. Günəş də Şərqdən doğur. İndi Qərb bu mərtəbəyə çatıb, daha Şərqi bəyənmir.

Avropa gözündə kin və qəzəb parlayır bizi görəndə. Bu – bir az gözügötürməzlikdən, bir az tamah və qəsbkarlıq hissindən, bir az da dindən gəlir.

Çox təəssüflər olsun ki, mənə verilən 3-cü «Eynşteynə xitab» şeirinin tərcüməsini vaxtında çatdırmadım. 1963-də monoqRafiya çıxdı. Mən gecikdim. Həmin şeiri bir az sonra 1965-ci ildə şair Əbulfəzl Hüseyni tərcümə elədi.

Qayıdıram yenə «Azərbaycan» şeirinə. Meydan günlərində millətini sevən bir fotoqraf Şəhriyarın fotoşəklini və altında bu şeirin bir neçə beytini çəkmişdi. Bu şəkilləri meydana yığışanlara havayıca paylayırdı. Sonralar bu beytləri şüar eyləyib divarlara da yazdılar. Özü də ən çox cənab Əsgər Fəridin (ya Fərdi) şübhələndiyi beytləri. Yəqin o, bunları görə bilməzdi. O, bizimlə deyildi. Amma mən o günlərdə Şəhriyarı da meydanda gördüm…

Çağdaş şeirimizin bilicisi, ədəbiyyatşünas-alim Vaqif Yusifli bu tərcüməni oxuyanda deyib: «Misilsiz şeirdir, həm də misilsiz tərcümə!»

Başqa bir ədəbiyyatşünas-alim, həm də müqtədir şair, tərcüməçi, Ukrayna və gürcü ədəbiyyatlarından mükəmməl tərcümələr eləyən, tərcümənin nə olduğunu gözəl bilən Abbas Abdulla bu günlərdə İctimai televiziyada, böyük Şəhriyarın 100 illik yubileyinə həsr olunmuş ədəbi verilişdə «Azərbaycan» şeirinin tərcüməçisi haqda bu sözləri dedi:

«Şəhriyar bu şeiri türkcə yazsaydı, elə bu cür yazardı».

Bundan böyük qiymət olmaz. Elə bu sözlər mənim bəsimdir. Həm də mənim tərcüməmi təftiş eləyənlərə tutarlı cavabdır.

Şəhriyar – şair – döyüşçüdür! Zalimə baş əyməyib! Mərd yaşayıb ömrünü! Kişi olub!

Onun qədrini bilməyənlərsə fəraridirlər.

«Heydərbabaya salam» eposu – millətin varlığı, qeyrəti, dili, vicdanı, əzmidirsə, «Azərbaycan» şeiri onun sıyrılmış qılıncıdır. Azadlığa çağırışdır. Üsyandır. Gələcək bütöv Azərbaycanın kodudur.

Sentyabr, 2006-cı il

Əlavə 1

AZƏRBAYCAN

Qulamhüseyn Beqdelinin sətri tərcüməsi

Qanad çalır könlüm quşu yadınla, Azərbaycan,
Yad olsun Azərbaycan xalqının yaşadığı xoş günlər.

Çoxdandır ətəyindən uzağam, könlüm pərişandır,
Ey əzizlər, mən yenə də Azərbaycan eşqi ilə yaşayıram.

İranın azadlığı səndəndir, abadlığı səndəndir,
Azad yaşa, ey azad ölkəm Azərbaycan!

İnqilab Büsutununda Vətən Şirinin qovğasından,
Azərbaycan Fərhadı da başına çox külüng vurmuşdur.

Vətən eşqi məktəbindən can vermək dərsi öyrənmişdir,
İlahi, kim imiş əzəldən Azərbaycanımın ustadı?

Rey şümşadını cəllad əlindən azad etsin deyə,
Daima Azərbaycan şümşadı al qana boyanmışdır.
Mərkəzdəki Zöhhakların zülmü həddindən aşmışdır,
Nə vaxt Azərbaycan Həddadı baş qaldıracaq?

Ürəklər qan ilə dondu, İlahi, bu qədər zülmdən sonra
Zalımın kamını verirsən, yoxsa Azərbaycan istəyini?

İrana kömək üçün azərbaycanlı canını vermişdir,
Əvəzində İran hakim dairələri Azərbaycanlını əzir.

Nə vaxta kimi hər ölkədə avara, dərbədər olacaqsız?
Bir əl-ələ verin, ey adlı-sanlı Azərbaycan övladları!

Pərakəndəlik odundan nə vaxta kimi kül başınıza sovuracaqsınız,
Axı, bu viran olmuş Azərbaycan abad olmalıdır?!

Azərbaycanın yaralarına, ey Şəhriyar, mərhəm gərəkdir,
Onda onun qəmli ürəyi şad olacaqdır.

Əlavə 2

AZƏRBAYCAN

Fikrət Sadığın poetik tərcüməsi

Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan!
Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan!

Səndən uzaq düşsəm də mən, eşqin ilə yaşayıram,
Paralanmış qəlbim kimi, qəlbi viran Azərbaycan!

Bütün dünya bilir sənin hünərinlə, dövlətinlə
Azad olub, abad olub mülki-İran, Azərbaycan!

Bu Bisutun-inqilabda Şirin-vətən üçün Fərhad
Külüng vurmuş öz başına zaman-zaman Azərbaycan.

Vətən eşqi məktəbində can verməyi öyrənmişik,
Ustadımız deyib, heçdir Vətənsiz can – Azərbaycan!

Qurtarmaqçün zalımların əlindən Rey cümşadını
Öz şümşadın başdan-başa olub al qan, Azərbaycan!

Tehrandakı Zöhhakların zülmü dərya olub bu gün,
Bəs Həddadın oyanacaq söylə haçan, Azərbaycan?

Yarəb, nədir bir bu qədər ürəkləri qan etməyin,
Qolu bağlı qalacaqlar nə vaxtacan, Azərbaycan?!

İgidlərin İran üçün şəhid olub, əvəzində
Dərd almısan, qəm almısan sən İrandan, Azərbaycan.

Övladların nə vaxtadək tərki-vətən olacaqlar,
Əl-ələ ver, üsyan elə, bir də oyan, Azərbaycan?!

Bəsdir, fəraq odlarından kül ələndi başımıza,
Dur ayağa, ya azad ol, ya tamam yan, Azərbaycan!

Şəhriyarın ürəyi də səninki tək yaralıdır,
Azadlıqdır mənə məlhəm, sənə dərman Azərbaycan.

525-i qəzet,
11 oktyabr, 2006

MAHİRƏ ABDULLANIN QATMAQARIŞIQ NİZAMI

Bu yazı – bu kitabı görən kimi fikrimə gələn ilk təəssüratdır! İlk təəssürat – ilk məhəbbət kimi, bir az kor, bir az mübaliğəli olur. Amma çox təbii, ilkin və saf!

İndi keçirəm yazını oxumağa. Yaşımı nəzərə alın. Bu qədər sözü əzbər deyə bilmərəm.

Mahirənin əvvəlki kitabının adı «7 ayın ovqatı»dır. Bu kitab da elə o kitabın sovqatıdır. O misralar ki, «7 ayın ovqatı»nda vardı, burda onlar metamarfozaya uğrayıb, xəttə çevrilib. Bu hala «istihalə» deyirlər. Türk dilində bu söz sadəcə «çevrilmə»dir. «Qatmaqarışıq nizam» – təkcə kitab adı deyil. Təbiətin bir adıdır. Kainatın sinonimidir. Həyatın görünən xətləridir. Bu xətlər çəkilməyə başlanan anda qələmin ucu qoyulan nöqtənin yeri bilinirdi, şəkli çəkiləndən sonra o nöqtə gözdən itdi. Nöqtə gözdən itən kimi xətlər bir-birinə qarışdı. Bu xətlər fikrin modelləridir. Xəyalın saplarıdır. Yuxunun kserokopiyasıdır. Yerdən Göyə, Göydən Yerə rabitə telləridir. İsmarıclardır. Gənclər buna «mesaj» deyirlər.

Şeirdə söz var, oxuyub başa düşürsən. Bu şəkilləri başa düşmək üçün gərək sən də şairin bu şəkili çəkəndə nə çəkdiyini başa düşəsən. O əhval-ruhiyyəni, o ovqatı yaşayasan. Qayıdasan «7 ayın ovqatı»na!

Şəkillərə verilən adlar da şərtidir. Məsələn: «Demokratiya» (ikinci şəkil). Mən «Don-Kixot» adlandırardım. Çünki orada yel dəyirmanına bənzəyən bir şey gördüm. Amma körpənin adını öz anası qoyar. Bu həqiqətdir ki, kim şəklə hansı bucaqdan baxarsa, nəyə oxşadarsa, ad da qoya bilər. Bu, elə həyatdır! Çoxtinli, çoxtərəfli, ziddiyyətli, ağlı-qaralı həyat!

Çünki həyat deyəndə ölüm yada düşür. Bunlar bir-birinin içindədir. Bu kitabda toplanan qatmaqarışıq şəkillər – Göydən Yerə, sonra da Yerdən Göyə nizamla uzanan şüalardır. Adicə top yerə dəyib, sonra yuxarı qalxır. Yerdən su içməsə, sünbül də bitməz. Göydən Yerə fikirlər yağdığı kimi, Yerdən də göyə fikirlər axışır. Bu şəkilləri çəkən əllər də şüadır. Bu şəkillər birər-birər dualardır. İnSAnın Tanrıya münnətdarlığıdır.

Mən Mahirəyə demişdim. Bu həftə başım bərk ağrıyırdı. Bu şəkillərə baxa-baxa, bir də baxıb gördüm ki, başımın ağrısını bıçaqla kəsdilər elə bil! Söz var ki, müəmma baş ağrıdar. Amma bu müəmmalar mənim başımın ağrısını kəsdi. Deməli, bu şəkillərdə nəsə var. O hər nədirsə, həm də şəfalıdır. Gözyorucu, darıxdırıcı deyil, gözoxşayan və sakitləşdiricidir. Kimsə Mahirənin əlindən tu-

tub bu dəfə söz əvəzinə, sözün şəklini çəkdirib ona. Şeirdən əvvəlki dövrə, Qobustandan əvvəlki çağa qaytarıb onu. Sonra yenə bugünə qayıdıb, gələcəyə baş çəkib. Bu şəkillərdə Keçmiş, Bu gün, Gələcək bir-birinə qarışıb. Özü də bu zamanlar donuq şəkildə deyillər. Hərəkətdədirlər. Civə kimi oynaqdırlar. Saat kimi oyaqdırlar.

«Qatmaqarışıq nizam» elə budur. Qatmaqarışıq nizam Eynşteynin nisbilik nəzəriyyəsinə bənzəyir bir az! Sufiliyin, hurifiliyin gözlə görüləsi, əllə tutlası şəkillərdir bəlkə!

Mahirə özü boynuna alır ki, mən şəkil çəkə bilmirəm. Amma şəkil çəkir. Özü də çəkilir durur bir kənarda, çəkdiyinə baxır. Gözünə inanmır. Qələmin ucunda uzaqdan idarə edilən düymə var. Yadımdadır, mən birinci sinifdə oxuyanda ucudüyməli qələmlər var idi. O qələmlərdən indi yoxdur. O qələmlərə hüsni-xətt qələmləri deyilərdi. İndiki yazılarda hüsn (gözəllik) yoxa çəkilib. Xətt qalıb ancaq. Deməli, hüsni-xəttin də əsası, dayağı xətdir. Göy, göy qurşağı, kəhkəşan, ağ yol, hətta qara lağımlar, (dibsiz səma tunellər) xətdir. Yer, yollar, dərələr, dağlar, səhralar, meşələr, ağaclar, daşlar xətdir. İnsan, ailə, tayfa, qəbilə, el-oba, millət xətdir. Sevgi, arzu, ümid, təsəlli, vüsal, sevinc bir xətdir, ayrılıq, dərd-qəm, intizar, təklik bir xətdir. Burdakı bütün şəkillər də xətdir. Xətt əyri və düz olur. Bu əyri və düz xətlər birləşəndə şəkil olur. Həyat da əyri və düz xətlərdən ibarətdir. Hər şeyin üstündən xətt çəkmək olar. Təkcə xəttin üstündən xətt çəkmək olmaz.

İşdir, əgər xəttin üstündən xətt çəksən, müsbət alınacaq. Toplama işarəsi olacaq. Toplama olan yerdə çıxma yada düşəcək. Yenə iki xətt – müsbət və mənfi xətlər yan-yanaşı yol gedəcək. Hətta bərabərlik işarəsində də üst-üstə, ya alt-alta yazılan iki xətt də bərabər deyil. Biri üst xətdir. Biri alt xətdir. Bax, elə budur qatmaqarışıq nizam. Bərabərlikdə bərabərsizlik!

Bu qarışıq xətlərin arasında ilişib qaldığım bəsdir. Vaxtdır, bir az yana çəkilim. Hərçənd ki, bu xətlərin əhatəsindən çıxmaq olmaz.

Son zamanlar jurnallarda, qəzetlərdə (istəyirsiniz rənglərini də deyim) boz. Sarı, hansı bir məsələnin ağını çıxardan ağ mətbuatda «postmodernizm» adı altında yeni-yeni çiy, qatmaqarışıq, amma nizamsız şeirlər, romanlar sırıyırlar bizə.

Sizə «postmodernizm» lazımdırsa, alın «bu şəkilləri»!

Bizə düşmən gözü ilə Qərbdən gətirilən «postmodernizm» lazım deyil. Bizə olsa-olsa, «Dostmodernizm», yəni, dost-doğma Modernizm – Yeniləşmə lazımdır ki, onu da özümüz yazıb-yaratmalıyıq.

«525-ci qəzet»,
6 dekabr, 2006-cı il

XOCALI XƏCİLLƏRİ

Ələkbər Salahzadə. «Xocalı xəcilləri».
Şirvannəşr – 2006

42,5 səhifəlik kiçik bir kitabdır bu. Üz qabığı ilə birlikdə 48 səhifə.

Kitab əlimə sığır, amma aləmə sığmaz. Bu yumşaq cildli kitabın içində sərt bir dillə yazılmış bir faciə var! Xatın, Xirosima, Xocalı. Fikir verin, bu bədbəxt məkanların üçü də «X» hərfi ilə başlayır. «X» həm də «iks» deməkdir. Şair deyəndə ki, «X» ilində, «X» elində, Xocalı adında bir yer xarabalığa döndü yağı əlində. Hamı başa düşür ki, söhbət nədən gedir. Burada «X» da, il də, el də məlumdur! Bircə məlum olmayan budur ki, bu boyda qəddarlıq hardandır?

Bu ikslərin ikisi yan-yana duranda XX əsr olur. Bu iyirminci yüzilin gətirdiyi bəlaların sayına görə tarixdə ən qəddar yüzillərdən biri olmağına işarədir. Xocalı o bəlalardan biridir. Bu bəlanı törədənlər dünyaya məlumdur. Hələ indiyədək onlara «gözün üstə qaşın var» deyən olmayıb. Rusiya 366-cı motoatıcı polkun tanklarıyla kömək eləyib. Avropa ara qızışdırıb. Amerika göz yumub. Sonra da, 11 sentyabrdan sonra qapı-qapı gəzib, terrorçu axtarır. Bəs bu bizim yaxın qonşumuzu niyə görmür. Yoxsa, onlar xristiandır, ona görə?! Yəni dünya bu boyda fəlakəti görmədi?

«O körpələrin o gecə çəkdiyini, nə çəkdiyini, necə çəkdiyini» heç kim bilmir məgər? Bilirlər axı?!

Çingiz gəlib gördü, onları çəkdi. Çəkdi onların çəkdiyini. Onsuz da, söz var ki, Yerdə nə hadisə baş verirsə, birbaşa göyə çəkilir. Göy üzünə çəkilir. Bitdə-bitdə yazılır. Ah-nalə, fəryad səsləri də göyə yazılır. Donub qalır orda. Kainatın əbədi maqnitafonunda! Sonra zaman keçdikcə yenidən əriyib Yerə qayıdacaq. İnsan ağlının gözü ilə təkrar-təkrar oxunacaq. Bu çox sonra olacaq. Amma bizim əlimizdə Çingizin çəkdiyi şəkillər, yazdığı səslər var. Onun kamerası danışan Tarixdir! Yaddaşdır! Sənəddir! Həqiqətdir! Bəs bu həqiqəti niyə görmədilər? Bu həqiqəti niyə dünyaya göstərə bilmədik? Göstərməyinə göstərdik, amma inandıra bilmədik.

Dünya güclünün tərəfini saxlayır. Fağırı saymır.

Bu kitabda Xocalı var. Şair özü orda olmayıb, amma bizim əlimizdən tutub. Hamımızı əzab yurdu – Xocalıya aparır. O dərdləri ki, Çingiz kamerası ilə çəkmişdi, Ələkbər söz-söz, səs-səs çəkir. Misralarda gəzdirir bizi – qarış-qarış.

Körpələrin donub buz heykəllərə döndüyü qan ağlayan torpaqda ayağımızı yer yandırır.

Əlimdə bir kitab var. Əlimin içində əlimi yandırır. Ağrı baş barmağımdan süzülüb beş barmağıma yayılır.

(Beşbarmaq – ifadəsi. Şair Ələkbərin çox sevdiyi surətlərdən biridir).

Dağ-daş ayılır, ölü buzlar əriyir. Amma insan hələ də düşünür. Məgər bu ağrını, bu fəryadı görmədilər, eşitmədilər?! Xaçiklər xaça arxalandılar. Tanklarına xaç çəkdilər. Xəcalət çəkmədilər!

Rusiya – tank verdiyinə görə xəcalət çəkmədi.

Ermənistan – elədiyi vəhşiliyə görə xəcalət çəkmədi.

BMT – dörd dəfə qərar çıxartdı. Sözü yerə düşdüyünə görə xəcalət çəkmədi.

ATƏT – sülh danışıqlarını süründürdüyünə görə, saqqıza döndərdiyinə görə xəcalət çəkmədi. (Hələ də süründürür, hələ də saqqız çeynəyir).

Amma Çingiz bu «xəcaləti» çəkdi. Dünyanın gözü var. Amma görmədi bu dəhşəti, özünü görməməzliyə vurduğuna görə Dünya da xəcalət çəkmədi.

Burda iki il bundan əvvəl yazdığım «Sındırıldı sükut buzu» adlı şeirim yada düşdü. (Bu yazını oxuyanlardan üzr istəyirəm ki, özümdən misal çəkirəm).

«Gör BMT, nə BMT
Gör bu ATƏT, nə ATƏT-dir.
Bizdən mini qurban gedir,
Dünya susur.
Ondan biri getsə əgər
Qiyamətdir».

Bu kitabın mürəkkəbi o gecənin qatı qaranlığı ilə o qanlı qarın qarışığıdır. Bir az da Ay işığı qatılıb bu mürəkkəbə.

Çoxdandır Ələkbərin kitabı çıxmırdı. Bu kitab yuyub apardı giley-güzarı, umu-küsünü, niskili.

Bu kiçik kitabın ağırlığı dünyanı əyər. Bu kitab – dünyaya dəyər. Aqil adamın əlinə düşsə əgər. Cahil nə bilir ki, Vətən nədir?! Cahil də elə düşməndir.

Babamız Füzuli deyib: «Şeir elmli olmalıdır».

Ələkbər bu kitabda bədbəxtliyimizin tarixini – tarixi bədbəxtliyimizi mərhələ-mərhələ yazıb, yadımıza salıb.

Təkcə bizim yox, dünyanın da başına gələn faciələri bir-bir sadalayıb. Xatın, Xirosima, Sonqmi, Liditsa.

Bu kiçik kitabda böyük mətləblər var. Zəngəzur, Göyçə, Qarabağ. 1905, 1918, 1988 və bütün 90-cı illər ta bu günədək xatırlanır.

Kitabda neftdən də danışılır. O tanklar ki, Xocalını tapdalamışdı, onların yanacağı Bakı nefti idi.

Kitabın dili aydın, yığcam, sadə və düşündürücüdür. Kitabda rast gəldiyimiz alliterasiyalar çox məharətlə tapılıb. Ələkbərin bu özünəməxsus üslub özəlliyi hər yerdə yerinə düşüb. Gözəlliyi ilə seçilir. Bu sözü mum kimi oynadan şairin kamillik məqamıdır.

Kitabda elə misralar var ki, adam oxuyanda ayağa qalxır və o misralar düz sənin gözünün içinə baxıb deyir: «Qisasını qiyamətə qoyma!»

Biz – qiyaməti elə burda gördük.

Kitabda «sos» – «sus»la qafiyələnir. Bu da istehza ilə fəlakəti görəndə «susma» deməkdir. «X» hərfi ilə başlanan sözlərin çoxu burdadır. Xain də bu sözlərin içindədir.

Kitab başdan-başa eyhamla doludur. Gecənin gecəliyini nə necəliyini görüb şair.

O gecəni çəkən, qəzəbindən od tutub, alışıb-yanan Çingizi tapıb.

«Dəni – dəni dinsizlər dənlədilər Çingizi. Görəsən hər yetənə bəlliydimi çünkisi».

Kitabdakı şeirlər sərbəstdir. Qafiyələri təbiətin özü kimi aləlvan, pərakəndə, gözlənilməz və qayımdır.

Kitabda iki surət gözümüzün qabağında dağ kimi ucalır. Həm fiziki mənada, həm də məcazi mənada. Sinəmizə çalın-çarpaz çəkilən dağlardan ikisi! Hər ikisi hər tərəfdən görünür.

Xocalı – çöllərə səpələnmiş ölüləriylə yerlə-yeksan.

Çingiz – ayaq üstə kürəyindən yaralanmış sərt və kövrək insan.

Bu kitabın ən təsirli yeri Çingizin hönkürtüsüdür. Bu hönkürtünü hamımız eşitmişik. Bu hönkürtü təkcə Çingizin içindən gəlmirdi.

Bu, başı bəlalı bir torpağın, əli-qolu bağlanmış bir millətin hönkürtüsü idi.

Görəsən bu hönkürtünü əmin-amanlıqdan dəm vuran demokratiya alverçiləri eşitdimi?!

Dünya ölkələrindəki səfirlər, dünyanı gəzib-dolaşan məmurlar, boş danışıqlardan yorulmayan həmsədrlər bildilərmi görən bu hönkürtü nə hönkürtüdür?

Bu kitabda qəddar sözü qat-qat qəddar mərtəbəsində işlənir. O qəddarlar bu hönkürtünü həzm etdilərmi, görən? 366-cı diviziyanın tankçıları eşitdimi bu hönkürtünü? Yoxsa, o gecədən sonra; tırtılların səsindən onların da qulaqları kar olmuşdu? Ya özlərini karlığa vurmuşdular?

Eşitməyiblərsə, qoy eşitməsinlər!

Qoy onda şairin kitab boyu dediyi gün kimi aydın bir həqiqəti eşitsin onlar.

On bir sentyabra gedən yol 26 fevraldan başlayır, cənablar!

«Ədəbiyyat» qəzeti, 24 mart, 2006

ORDA NƏHƏNG VARDIR

Şair Vaqif Hüseynovun xatirəsinə

Mən Vaqifi iki dəfə gözüm dolusu görmüşəm. Bir – 60-cı illərdə, Bakıda. Onda ADU nəşriyyatında bir almanax nəşr olunmuşdu. Orda Vaqifin 3 bəndlik bir qoşması vardı. Qoşma çox sadə, rəvan və aydın dillə yazılmışdı. «…Görən qalacaqmı o çağa şeirim?» sualına gec də olsa, bu gün cavab veririk. Sənin dediyin o günlər gəlib Vaqif, şeirin də gəlib çıxıb bu çağa. Olub bizimlə çağdaş.

Sonra uzun illər görüşmədik. Amma səsi-sorağı gəlirdi. Bilirdim ordadır, yazıb-yaradır. Əyilmir, sınmır. Mərd-mərdanə zamanla üz-üzə durur.

İkinci görüşümü bir az dumanlı xatırlayıram. Krım dağlarının üstünü duman aldığı kimi, mənim də başım onda çox dumanlı idi. Deyəsən, 80-ci illərin əvvəlləri idi. Biz Yaltaya yaradıcılıq evinə getmişdik. Mən və Əhəd Muxtar. Əhəd dedi ki, burda yaxınlıqda bir sanatoriya var. Şəkər Aslan ordadır. Yerin adını ya Misxor dedi, ya Simeiz dedi, unutmuşam. Gedək onu tapaq. Getdik tapdıq. Şəkər Aslana dünyanı bağışladılar elə bil. dedi, Vaqif də burdadır. Burda bir «Qaragöl» restoranı var, sabah orda görüşərik. «Qaragöl» (restoran yox, əsl göl) dünyanın möcüzəsidir. Hardasa buralarda Krım Gərayxanlarının paytaxt şəhəri Baxça-saray var. O şəhərin altından, başımızın üstündən Uçansu (şəlalə) özünü Qaragölə atan yerdə görüşdük. Şəlalə – Uçansu uça-uça yerə enirdi. Biz də fərəhdən göyə uçurduq. O gün bizim ömrümüzə yazıldı. Şəkər Aslan Vaqif Hüseynovla zaraftlaşa-zarafatlaşa o günü vurduq başa.

Çox-çox sonralar ya mən hərdənbir Lənkərana gedərdim, ya o Bakıya gələrdi. Bakıya gələ bilməyəndə səsi, sözü, şeiri gəlirdi. Vaqif anadangəlmə şair idi. Hazırcavab və cəsarətli adam idi. İstədiyi sözü istədiyi adama deyərdi. Lap istəmədiyi adama da deyərdi, çox papiros çəkərdi, içərdi. Dərdi çaşdırmaq, əzabı azdırmaq istəyirdi. Bəzən pis adamları görməmək üçün bir güşəyə çəkilib, ürək sözlərini radio ilə səsləndirərdi. Vaqif əgər heç nə yazmasaydı, təkcə «Orda nəhəng vardır» şerini yazsaydı, elə bəs idi. Şeirimizdə qalacaq idi.

…Mən taqətsiz, düşmən güclü,
Əlində həm tüfəng vardır.
Su qarşımda, özüm təşnə,
Fəqət orda nəhəng vardır.

O, nəhəng kimdir? Bu suala özü cavab verir:

Vətənimi çalıb-çapır.
Bir göygözlü sarı iblis.
…Azad gəzə bilərəmmi
Əsir olan torpağımda?

Bu şeir böyük Füzulinin:

Dust bipərva, fələk birəhim, dövran bisükun.
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.

– misraları ilə səsləşir.

Epiqrafı «Kəlilə və Dimnə»dən gələn, vəzni, üslubu, şəkli klassik şeirimizdən su içib, müasirləşən, fikri, məzmunu yerlə-göylə əlləşən, ucqar Lənkərandan uzaq Moskvaya meydan oxuyan, zalıma zalım deyən –azadlıq təşnəsi olan bir şairin fəryadı, üsyanıdır bu şeir.

Başqa bir şeirində – «Ala-bəzək misralar» içində bir misra var. Zor misradır: «Allah necə tək yaşayır qana bilmirəm». Bu sualı tənhalığın sərt üzünü görən şair verə bilər ancaq. Dostlarının, zəmanənin və taleyin unutduğu bu adam Vaqif Hüseynov idi. O qədər tək qalıb darıxdı ki, oturub «Dirilmək qorxusu»nu yazdı. Bir də bu dünyaya gəlmək istəmədi. Doymuşdu bu dünyadan. Vaqifin müasiri Arif Abdullazadə də bu cür – əlacsız qalanda demişdi: «Tövbə, bu dünyaya gəlməyə tövbə!»

Bu şeirə fikir verin:

Ney niyə fəryad eləyir – bilmirəm,
Göy niyə gürşad eləyir – bilmirəm.
Ah, niyə gah mürgü vurur zəlzələ,
Gah niyə bərbad eləyir – bilmirəm.
…Söz niyə gah bağrımızı qan edir,
Bəs niyə gah şad eləyir – bilmirəm.
Dəm niyə yaddan çıxarıb bizləri,
Qəm niyə bəs yad eləyir – bilmirəm,
Sel gücüdür – söylədilər – el gücü,
El niyə bəs dad eləyir – bilmirəm.
Xar ikiqat əydi yazıq Vaqifi,
Yar niyə dördqat eləyir – bilmirəm.

Bütün şairlər eyhamla danışmağı sevirlər. Burda «bilmirəm» bilirəm – deməkdir.

Onun bildiyini biz də bilirik.

İndi Vaqifin Vaqif adlı nəvəsi var (Vaqif Sani). Zəncir qırılmadı. Övladlarında onun düzlüyü, cəsarəti yaşayacaq. Vaqif baba ilə fəxr etmək olar. Təkcə onun nəvələrimi fəxr etməlidir? Yox! Külli-Lənkəran mahalı və bütün Azərbaycan fəxr etməlidir ki, onun Vaqif kimi bir şair oğlu var. Nakam şairlərdəndir Vaqif. Şəhidlərimizdəndir Vaqif. Çox sözünü deyə bilib şair, çox sözünü də deyə bilməyib şair. Deyə bilmədikləri daş olub asıldı ürəyindən. Bu gün şairin ruhu da burdadır, o da görür ki, bilir ki, kim millət üçün yanıbsa, millət də onun üçün yanır. Əcəl qıymasaydı, indi 70 yaşı olacaqdı. Vaqifin adı ölməz şairlərin sırasındadır. Vaqif bu gün də dostlarının arasındadır.

«Ədəbiyyat» qəzeti,
12 may, 2006

HƏLƏ DƏ ŞAİRLƏR DOĞULUR

Qazax mahalında hələ də şairlər var – gördüm.

Bu qızın şeirində torpaq qarışıq qızıl misralar gördüm. Ara-bir xalis külçələrə də rast gəldim.

Şahinə Könül sonradan şair olmayıb. Özü deyir ki, şeiri anası bələyinə bələyib. Oxuduqca görürsən ki, doğru deyib. Mən dağlar haqqında minlərcə şeir oxumuşam. Aşıq Ələsgərdən tutmuş ta bu günün şairlərinədək. Heç kəs «Görən məni anam doğub, ya dağlar?» deməyib. Nə desən deyilib dağlara – ən gözəl təşbehlər, tərifl ər, gözəlləmələr. Amma bir kəsin də ağlına gəlməyib ki, dağlara Ana desin. Bu qız isə deyib. Şairlər torpağa, vətənə Ana torpaq deyiblər. Hətta Tanrıdağı da var. Amma dağa ayrıca Anadağ deməyiblər. Bunu bir zərif, kövrək qız uşağı deyib. Çünki anasına olan məhəbbətdən, çəkdiyi həsrətdən doğulub bu söz!

Bu söz ona göydən gəlib. Tanrı insanları dünyaya göndərəndə ələyib göndərir.

Kimini təmiz kəhraba un kimi,
Kimini kəpəkli un kimi,
Kimini də yalxı kəpək kimi.

Tanrı sonralar da bu adamlara bölündüyü kimi tale verir. Kim nə miqdardadırsa, o miqdar xoşbəxtlik göndərir ona. Bu gənc qızda birdən-birə əsl və böyük şairlərdə görünən bütün əlamətlər üzə çıxıb. Ana məhəbbəti, Ana Vətən məhəbbəti, insana sevgi, göylərə şükranlıq və dərdlər!

O dərdlər ki, qədim şeirimizdən nəsil-nəsil gəlib bu günə çıxıb – onda da var. O dərdlər ki, bu gün var, onlar da onda var. O dərdlər ki, sabah ola bilər, onları da gördüm onda. Şairlik də elə budur!

«Könül dağa Ana deyib
qaçarmış,
Görən məni Anam doğub,
ya dağlar?!»

Şahinənin bir adı Könüldür. Adam başdan-başa könül ola gərək ki, bu şeiri yaza. İstəyirəm bir neçə misal gətirim sözümün təsdiqi üçün.

«…Sözlərimdən asılmışam bu axşam,
Vurulacaq qara başım söz üstə»

Və ya:

«…Çevrilib özüm də
Vətən olmuşam»

Və ya:

«İçimdə həsrət var
Savalan boyda»

Yaxud:

«Yenə də göründü
bənövşə dərdim»

Yaxud:

«Sən demə, bir ömür
yuxu yatmışam,
Layladan başlayıb,
Qurana kimi».

Və bu cür misralar çoxdur, çox çoxdur, daha da çox olacaq. Qəribədir, bu gənc şairdə bir Dədə Qorqud nisgili var. Bir çox misralarında yada düşür babamız. Kökünə hörmət var onun dilində. Onun sözü Dədə Qorqudla güclüdür. O ərlərin-ərənlərin davamıdır onun şeiri, Şahinə Könülün – şeiri milliyyətcə türkdür. Birər-birər türk döyüşçüsüdür hər misrası.

Yoxsa, «Dilin var, dinmə» qanunu, «Gözün var, görmə» qanunu qanunlaşan məmləkətdə «niyə doğdun Anam məni?» soruşmazdı şair. Bütün şairlər (əlbəttə, əsl şairlər) haqsızlığa dözmür. Şahinə Könül də onların sırasında. Bu mənə çox böyük təsəllidir ki, hələ şeir var. Hələ də şairlər doğulur. İndən belə də doğulacaq. Mənim də ruhum şad olacaq!

Bu əl boyda yazı Şahinə Könülün «Çağırsam görən kim eşidər məni» kitabını görəndən sonra yazılıb. Mən səni eşitdim, qızım! Gördüm səni. Tanıdım səni. Bildim hardan gəlib, hara gedirsən, get, uğur olsun! Bu – bir baba xeyir-duasıdı, qəbul et!

«525-ci qəzet»,
4 noyabr, 2009-cu il

SƏRSƏNG – BAŞIMIN DAŞI

…Ürəkdə bir neçə sözüm paslanıb,
Xatirəm ağlayıb, gözüm islanıb.
Xətrinə dəyməsin Məmməd Aslanın,
Sərsəngə – başımın daşımı, deyim?!

Çinarlar qələmim, qayalar dəftər,
Yazdıqca tükənməz sinəmdə dərdlər.
Ah – çəkdim, diksinib kükrədi Tərtər,
Tərtərə gözümün yaşımı, deyim?!

Bu şeir bəxtəvər günlərdə yazılmışdı. 1976-da Kəlbəcərə getmişdim, onda.

Qoşmada, farsca «sər» – baş və «səng» – daş sözlərini oynatmışdım. «Sərsəngə başımın daşımı deyim». Mən hardan biləydim ki, Sərsəng – doğrudan da başımın daşı olacaq.

Erməni – Sərsəngdə əjdaha kimi suyun qabağını kəsəcək. Qamarladığını qamarlayıb, doymayıb, indi də Tərtərə bir qətrə su qıymayacaq. Öz suyumuzu özümüzə verməyəcək.

Aşağıda – kəndlər, ormanlar. Düzlər, çaylar, şirin suya həsrət qalacaq. Tərtər quruyacaq. Torpağın dodaqları çat-çat çatdayacaq. Burda, «Tərtərhes» nəğmələrini yazan şair Müşfiqin ruhu diksinəcək, pərişan olacaq. Dağlar utanacaq. Buludlar qaralacaq. Göylər ağlayacaq.

Dünya «demokratiya» deyib bar-bar bağırdıqca, bu barbarlara demək olmazmı görən, əjdahanı suyun qabağından kənara çəksin. Göydən od yağır, torpaq su içsin bir az. Yoxsa, ermənivə söz demək olmaz. O da xristiandı, axı! Bəs onda BMT və ATƏT nəyə gərəkdir?! Niyə indiyədək ayırd edə bilmirlər ki, bu dağlar, bu çaylar kimindir?! Dünyanın bütün ölkələrində buna bənzər su sərhədləri var. Amma heç bir ölkə öz ölkəsindən qonşu ölkəyə keçən çayın qabağını kəsmir.

Su hamınındır. Su Allahındır. Bir vaxt rusun tankına, topuna güvənib, torpaqlarımızı zəbt eləyən, indi də qərbin canfəşanlığına, hap-gopuna bel bağlayıb, suyumuzun qabağını kəsir.

Qarabağı qaçaq-quldur məskəni eləyir, mineral sularını xaricə daşıyır, yeraltı sərvətlərini mənimsəyir. Gülüstanı xarabazara çevirir. Ona gözün üstə qaşın var deyən yoxdur.

Yəni, bu millətin yüzdə bir faizinin öz müqəddaratını təyin etmək hüququ varmı? Əgər yoxdursa, bəs onda niyə bunu – torpağın

əsl yiyəsi olan qədim, bütöv bir millətin müqəddəratını tapdamaq hesabına eləyirlər.

Yalançı bir müqəddaratın özünütəyini, doğruçu bir müqəddaratın özünütəyinini şübhə altına almırmı? Bu ikili, ikiüzlü siyasəti günlərlə, illərlə təkrar-təkrar bizim beynimizə yeritməklə, bizi yorub bezdirməklə, təslim olmağa məcbur etməkdir. Bu oyunda hansı ədalətdən söhbət gedə bilər?

On beş ildir ki, bu gündəyik. Avropa indi-indi inanır ki, erməni işğalçıdır. Hələ də bu sözü bərkdən deməyə çəkinir. Demokratiyanın babası Amerika da, nəvəsi Rusiya da onu əlləri üstə saxlayırlar. Qorxurlar ki, yerə düşsə sınar. Sovetlər vaxtı eşitmişdim ki, ermənilər hara gəldi, harda oldu şikayətlənirdilər ki, bizim yaşadığımız ərazi büsbütün daşlıqdır, dağlıqdır və susuzdur. Düzənkahlarımız yoxdur. Amma qonşularımızın düzəngahı da var, suyu da, gürcülərlə işləri yox idi. Bu sözlər bizə aid idi. Biz həm müsəlman, həm də türkük. Odur ki, bizimlə yola getmirlər. Arazın qabağını kəsə bilməsələr də suyunu zibilləndirirdilər. O yandan da Tiflis Kürü zibilləndirir.

«Məndən ötdü, qardaşıma dəydi» timsalı ancaq özlərini düşünürlər.

***

Son zamanlar bir neçə zəbt olunmuş rayonu qaytarmağa razıyıq – deyirlər. Amma Laçın və Kəlbəcərdən başqa. Tələm-tələsik. Hay-küynən, çığır-bağırnan bizi yola gətirmək istəyirlər, tez olun, razılaşın, yoxsa sabah gec olar. İki rayon hələlik qalsın bizim əlimizdə. Qarabağ məsələsini də yavaş-yavaş həll edərik.

Laçın və Kəlbəcər iki, iri, qara, işıqlı göz kimidirlər. Onlarsız qaytarılan torpaqlar – gordur. Laçınsız və Kəlbəcərsiz Azərbaycan – bütöv Azərbaycan deyil!

Yəni, ATƏT bunu görmür? Yoxsa o da «sər» və «səng» sözlərinin mənasını bilir. Bilərəkdən başımıza daş salır. Heç daşda da bu ürək olmaz. Daşı itələməsən, götürüb atmasan adam başına düşməz.

Nağıllarda deyilir ki, suyun qabağını kəsən əjdahaya qurban verəndə suyun qabağından yana çəkilir. Bunlar elə acgözdürlər ki, bu qədər sərvəti mənimsəyiblər. Əvəzində Allahın suyunu da bizə çox görüblər. Dünyada əjdaha-zad yoxdur. Uydurmadır, yalandır, nağıldır. Sərsəngdə suyun qabağını kəsən əjdaha deyil, ermənidir. İndi dərəbəylik zamanıdır. Kim hara gəlibsə, kim harda durubsa, kim barmağını hara ilişdiribsə deyir «bura mənimdir».

ATƏT-də dərəbəyləri müdafiə eləyir. Belə çıxır ki, ATƏT dərəbəylər dərəbəyi, Avropa – bəylər bəyidir. Millətləri su ilə imt-

ahana çəkənlər özləri də suya möhtac olacaq, su tapmayacaq. Bu cür xalqlar insanlıq adına ləkədirlər.

XXI əsrdə hər cür ləkəni apara bilən dərmanlar icad olunub. Amma bu cür ləkəni heç «demokratiya» yuyucu tozu ilə də yuyub, təmizləmək olmur.

Aşıq Ələsgərin, Aşıq Alının, Dədə Şəmşirin ruhları bu yerlərdə dolaşır. Bu ruhların üçü bir yerdə əl-ələ verib cəhd eləsələr də Sərsəng əjdahasını itələyə bilməzlər. Suyun qabağını kəsən əjdahanın dalında əjdaha dövlətlər durub. Bu dövlətlərin başına söz batmır. Şairə, şeirə baxan kimdir?!

***

Hətta, faşistlər belə tutduqları ərazilərdən yerli əhalini tamam qovmurdular, tamam qırmırdılar. Amma bu faşistlər faşisti – ermənilər yerli əhalini ya tamam qırdılar, ya da öz doğma yurdlarından tamam qovub, didərgin saldılar. Qocaların kürəyində samovar qaynatdılar, uşaqları süngüyə keçirdilər.

Çünki, erməni «ər-mən-i» sözündəndir. Çox zaman qonşu xalqlar – qonşu xalqa xasiyyətinə görə ad tapıb qoyur. Burda da belə olub. Ermənilərə qonşu olan türklər, ərəblər, farslar, üçü bir yerdə ermeniyə – «ər-mən-i» adı qoyub. «Ər» – türkcə kişi, döyüşçü, ər – deməkdir. «Mən» ərəbcə inkar bildirir qadağa, yoxdur, deyil deməkdir. «İ» də fars dilində mənsubiyyət şəkilçisidir. Ər+mən+i, ərməni yəni kişi deyil. Fikir verin! «Səs məni» və «süxən məni», ifadələri, ərməni sözünə bənzəyir.

***

Azərbaycan – səhra deyil. Dörd-beş rayonumuz sudan korluq çəksə də şirin su ehtiyatımız çoxdur. Vay, o millətin halına ki, zəbt etdiyi su ilə torpağını suvarır, əl-üzünü yuyur. O cür millətin heç üzündə də su yoxdur. Abır yoxdur. Əgər üzündə su olsa idi, üzüsulu çəkilib gedərdi öz xarabasına! Hara? Xarabasına! Heç onun öz xarabası yoxdur. Olmayıb da!

Bu xaraba qoyduğu torpaqlar bizimdir! O torpaqlarda ki, Ermənistan böyrü üstə dirsəklənib uzanıb – o torpaqlar qədim türk torpaqlarıdır!

İki yüz ildir ki, 200 hiylə ilə yamağı yamaq üstə calaya-calaya özlərinə yurd düzəldiblər. Ağ parçada qara sapla salınmış yamaqları uzaqdan görünən torpaqlarda məskən salıblar. Bu torpaqların daş-qaşı olan Qarabağı da, «prokat»a götürüblər, elə bil. əclaf kirayənişinlər kimi Qarabağı zalımcasına dağıdırlar. Hətta, yandırırlar da! Son günlər bu isti iyun günlərində Ağdam ətrafında və qonşu kəndlərdə yanğınlar göründü. Get-gedə artdı, şaxələndi, yayıldı. Alov dilləri – aciz əllər kimi göylərə uzandı. Aman istədi. Yerdə

ot, çayır, taxıl zəmiləri, kəndlər, dağ-daş od tutub yanır. Kim bilir ermənin ürəyində nə var? Bu yandan yanğın törədir, o yandan da Yezid kimi suyun qabağını kəsir ki, söndürməyək.

O elə bilir ki, təkcə çölü-düzü yandırır.

Demə, Yeri-göyü yandırır, gecə-gündüzü yandırır, zəmini yandırırsa, deməli, ruzi yandırır. Ruzini insana Allah verir. Ruzi yandıran, ruzi kəsən şeytandır, iblisdir. İblisdən də pisdi. Dörd bir yanı qara tüstü bürüyüb. Gözümüzü kor eləyir. Görəsən bu tüstünü Avropadan görürlərmi? Heç olmasa səsi-sorağı çataydı ora. Torpaqları qaytarmaq istəmirlər. Bəlkə, buna görə acıqcan yandırırlar. Bəlkə, uğurlarımızı görüb, paxıllıqdan yandırırlar. Torpaqları yandırırlar.

Atəşkəsə – «kəs» deyirlər, müharibə şəraiti yaradırlar. Torpaqları yandırırlar. Qara tüstülərlə qanımızı qaraldırlar. Torpaqları yandırırlar. Onsuz da bu yanğınlar, ermənin də əlini, ayağını yandırır.

Dünyanın gözü görə-görə Qarabağı talayırlar. Qarabağı yağlı tikə, yaxmac bilib üzünün yağını-balını yalayırlar, çörəyini didim-didim didirlər. Çörəyi dizi üstə olmuşlar! Qoy eşitsin, bilsin erməni! Sən mənim torpağımda qonaqsan, gəlməsən. Adama bir deyən gərək ki, «Arə, nöş belə qudurmusan?»

Dünyada bir qondarma erməni dövləti var bəsdir!

İkincisi, üçüncüsü ola bilməz! Onda dünyada onlarca erməni dövləti yaradıla gərək. Budur Azərbaycan dövlətinin qəti fikri və gəldiyi qənaət! Bizim ərazi bütövlüyümüzü heç kəs və heç nə parçalaya bilməz.

Bu yerdə Azərbaycan türklərinin çox məşhur bir atalar sözü lap yerinə düşər, «Ölünü öz xoşuna qoysan…».

P.S. Bu yazı çapa hazırlanarkən telekanalların birindən eşitdim ki, Sərsəng, yəni «Başımın daşı» – su hövzəsinin» bəndi yeryerdən yarılıb. (Yəqin, əjdaha yorulub, mürgüləyir). Ətraf rayonları, kənd və qəsəbələri su basıb. Üzrü günahından betər. Bu fəlakətin astar üzüdür. Yenə dirriklər (oxu, diriliklər) ölür, məhv olur. Bağlar, baxçalar dolur, solur. Zəmilər islanır, dən çürüyür. Yollar palçıq, lığ, çöllər çönüb bataqlıq olur.

O qədər özlərinə arxayındırlar ki, hətta, Xaçın çayla üzü aşağı mina axıdırlar. Tək-tək, onlarca… O minalar bizim tərəfə keçib partlayır. Belə çıxır ki, bu da qəsdən düşünülüb. Belə düşmənçilik olmaz, canım! Dağımızı, dərəmizi, suyumuzu, çayımızı özümüzə verin! Özümüz bilərik, suyu necə bölərik.

Quraqlıq da, artıq su da eyni işi görür. Biri yandırır, biri boğur. Hər ikisi həyatın və təbiətin düşmənidir. İllah da ki, bu fürsət düşmən əlində ola! Düşmən düşmənə can deməz ki? Amma bu boyda vəhşilik yalnız elə bu əjdahasifət ermənidən çıxar.

«525-ci qəzet», 23 iyun, 2006-cı il

II

MƏQALƏLƏR

Mənim haqqımda yazılanlar

www.kitabxana.net



Səlahəddin XƏLİLOV,
Fəlsəfə elmləri doktoru,
professor

MİLLİ RUHUN POETİK TƏRƏNNÜMÜ

Fəlsəfə elmi düşüncənin poeziya məqamına, bədii tərənnümünə bənzəsə də, adi şüurun poetik qəliblərinə sığmır. Böyük fəlsəfə klassiklərini oxuduqdan sonra poeziya aləminə ayaq basarkən bəzən bir bəsitlik, eniş hissi keçirməli olursan. Lakin çağdaş Azərbaycan poeziyasında şeirlərindən mənəvi qida aldığım, oxuyarkən bir daxili yüksəliş keçirdiyim, özümü doğma mühitimdə saydığım bir şeir çəmənliyi vardır ki, bu da Fikrət Sadığın yaradıcılıq aləmidir. O, təkcə özünün deyil, həm də mənim kimi yüzlərlə, minlərlə azərbaycanlının, millətin, Vətənin qəlb dünyasını tərənnüm edir. Haqqında fikirləşsək də, şeirə çəkə bilmədiklərimiz Fikrət Sadıq qələmindən süzülərək düşünən və düşündürən nəğmələrə çevrilir və durğunlaşmış, ətalətli fikirləri hərəkətə gətirir.

Fikrin duyğusu və duyğuların kamilliyi! Bədii təxəyyülün fəlsəfi düşüncə səviyyəsi!

Fikrət Sadıq hər şeydən əvvəl, şair olsa da, düşüncə tərzinə görə həm də bir filosofdur. Xalqının dərd yükünü şeirin qəm karvanı ilə deyil, fikir qatarı ilə çəkən və bu yükün ağırlığını düşüncənin sanbalı ilə kompensasiya edən, həyatın qaranlıq guşələrinə idrak işığı səpələyən şair bu mənəvi təbəddülatlar dövründə ulu keçmişimizin çağdaş dünyamıza ərməğandır. Vətənin ağır günündə tünd rənglərin poetik sintezindən aldığı ağ işığı ona məlhəm edən həkim-şair! Təsadüfi deyildir ki, ərəb dilində həkim sözünün bir mənası da filosofdur.

Şairin 75 illik ömür yolunu vərəqləmək, yaxud onun bütün yaradıcılığını nəzərdən keçirmək, təhlil etmək fikrindən çox uzağam. Bu daha çox ədəbiyyatçıların işidir. Mən isə fəlsəfə tədqiqatçısı olaraq öz təəssüratımı, mülahizələrimi ancaq bir şeirin timsalında bildirmək istəyirəm. F.Sadığın istənilən əsəri fəlsəfi fikir üçün geniş yaradıcılıq meydanı açır. Ona görə də, mən şairin son kitablarından biri olan «Taleyin acığına» əsərini açaraq elə ilk səhifədəki «Torpaq» şeirini yenidən nəzərdən keçirirəm. Və nə üçünsə duyğularım məni torpaqdan Yer kürəsinə, sonra kainata, oradan da iç dünyama, mənəvi yaşantılarıma aparır (və ya gətirir). Gedən yollar və gələn yollar! Sən demə, torpaq həyatın mənbəyi olmaqla yanaşı, həm də aynası imiş. Hadisələri yox, mənaları göstərən bir ayna! Biz tor-

pağın sakinləriyik, torpaq da bizim mənəvi dünyamıza daxil olmuş, durulmuş, aynalaşmış, mənalaşmış, «Mən»ləşmişdir.

F.Sadıq poeziyasında vətənpərvərlik heç də vətən abstraksiyasının Şərq poeziyasına məxsus ənənəvi tərənnümü, bir mədhiyyə və ya vəsf olmayıb, onun konkret təzahürlərinin insanın iç dünyasından keçirilərək mənalandırılması kimi üzə çıxır. O, heç «vətən» sözünü işlətməsə də, insanlara təlqin etdiyi – vətənpərvərlik hissidir.

«Torpaq» şeirində Fikrət Sadıq torpağa insan həyatının, onun maddi və mənəvi fəaliyyətinin, yaradıcılığının, sevinc və kədərinin daimi iştirakçısı, ömür-gün yoldaşı kimi baxır və torpaq canlanır, insanlaşır, vətənləşir:

İnsana atəş verən, od verən, işıq verən,
Döşündə gül bitirib çölə yaraşıq verən,
Qədim abidələri əzizləyib saxlayın,
İnsanla bir sevinən, insanla bir ağlayan,
Torpaq deyilmi məgər?

Torpaq, insan dünyaya gələndə də, bu dünyadan köçəndə də öz intellektual potensialından istifadə edərək, böyük ideyalarını reallaşdıranda, yollar, körpülər çəkəndə, kəndlər, şəhərlər salanda, bağ-bostan əkəndə – istənilən əməli fəaliyyət sahəsində insanın əsas istinadgahı, öz bol sərvətini onunla səxavətlə bölüşməyə hazır olan, ana qədər təmənnasız və doğmadır:

Yaşayana yurd-yuva, ölənə yataq olan,
Dünyanın sevincinə, dərdinə ortaq olan…
Torpaq deyilmi məgər?

Fikrət Sadıq torpağa nəinki canlı bir varlıq kimi baxır, ona həm də insani keyfiyyətlər şamil edir. Onun səxavəti də, məhəbbəti də, fədakarlığı da təsadüfi deyil. Təkcə təbii sərvətlərindən, qızılından, gümüşündən əl çəkməyib, həm də «insanlıq gülsün deyə, gülüşündən əl çəkən» torpaq adi insani keyfiyyətlərin yox, ali insani keyfiyyətlərin, ancaq kamil insana xas olan yüksək mənəvi dəyərlərin daşıyıcısı kimi təqdim olunur.

Şairin torpağa sadəcə bir obyekt kimi, xammal, üzərində iş görmək üçün material kimi deyil, subyekt kimi, yaradıcı varlıq, ideya daşıyıcısı və hətta, müəllifi kimi yanaşması heç də təsadüfi olmayıb, klassik şərq fəlsəfi ənənələrinin poetik ifadəsidir. Fərabinin və İbn Sinanın irəli sürdüyü böyük Azərbaycan filosofu Şəhabəddin Yəhya

Sührəvərdinin İşraqilik təlimində davam etdirdiyi ideyaya əsasən insanın nəfsi olduğu kimi, göy cisimlərinin də nəfsi vardır. Ərəb fəlsəfi terminologiyasına görə «nəfs» əslində ruh, iç dünyası, mənəvi aləm, qəlb mənalarını verir. Deməli, Günəşin və Yerin qəlbindən, mənəviyyatından bəhs olunur. Ş.Sührəvərdi təlimində göy cisimlərinin işıqlanma dərəcəsi və deməli, daşıdıqları ideya insana nisbətən daha yüksəkdir. Yer də, Göy də sadəcə maddi varlıq olmayıb, əslində bir çox sirli mətləblərə işarə edən rəmzlərdən ibarətdir. Onların arasında gözlə görünməyən ruhi-mənəvi rabitə də vardır:

Göylərin qəlbindən süzülüb, hopub,
Çörəyə, çiçəyə, dağa, daşa nur.

Ulduzların, planetlərin, o cümlədən də Günəşin və Yerin nəfsini, ruhani missiyasını anlamaq və öz həyatını göylərin ahənginə uyğunlaşdırmaq şərq fəlsəfi fikrinin insan qarşısında qoyduğu böyük tələbdir. Yerə də məhz bu kontekstdə yanaşmadan, Yerin göy mahiyyətini, sadəcə göy cisimlərindən biri olmasını yox, insan ruhuna nəzərən daha uca bir ruhun daşıyıcısı olmasını nəzərə almadan, onun bu ali poetik təqdimatı da, yəqin ki, mümkün olmazdı.

Əlbəttə, biz bu fikirdən uzağıq ki, Fikrət Sadıq öz şeirindəki ideyanı orta əsr Şərq (islam) fəlsəfi fikrindən götürmüşdür. Şair ola bilsin ki, bu fəlsəfi təlimlərlə xüsusi məşğul olmur. Lakin o, qoca Şərqin bir parçası kimi, bu böyük fəlsəfi idealların genetik-mənəvi varisi kimi öz poeziyasında da məhz bu fəlsəfi təməldən çıxış edir. Kim bilir, bəlkə hələ 25 yaşında ikən ağaran saçlar da qoca Şərqin fəlsəfi müdrikliyinin bir timsalı, onun poetik obrazına bir işarə imiş.

«Doğmadır ana torpaq!» – deyən şairin bütün poetik yaradıcılığı da bu torpağın bütün övladları üçün doğmadır, əziz və ibrətamizdir. Torpaq və vətən duyğusunun, milli-fəlsəfi fikrin rəngarəng poetik aşırımlarında şairə yeni uğurlar diləyirik.

«Respublika» qəzeti,
14 iyun, 2005

Qurban BAYRAMOV

ÇAĞDAŞ POEZİYA
ƏDƏBİ İSTİQAMƏTLƏR
MÖVZU AKTUALLIĞI VƏ SƏNƏTKARLIQ MƏSƏLƏLƏRİ

(Məqalədən parçalar)

…Yeri gəlmişkən, onu da qeyd edək ki, ənənəvi milli realist üslubda yazan şairlərin yaradıcılığında mövzu rəngarəngliyi, bu istiqamətdə ciddi axtarışlar, bədii fikrin emosionallığı və fikrin lakonizmi, bənzətmə və təşbehlərin yeniliyi, poetik məntiqin ardıcıllığı, ənənəvi poetik modelə yeni ştrixlərin tapılıb əlavə edilməsi, həyati detallara, hadisələrə daha dəqiqliklə müraciət, yeni realizm ünsürlərinin poetikaya gətirilməsi, modern təfəkkür tərzinin güclənməsi aşkar müşahidə edilməkdədir.

Müasir ədəbi prosesdə özünün orjinallığı və novator axtarışları ilə seçilən həm ciddi ənənəvi realist üslubda, həm modernist-simvolist eksperimental üslubda yazıb-yaradan şairlərin yaradıcılığı xüsusi diqqət və əhəmiyyət kəsb edir. Müasir poeziyada bu xəttin ən ləyaqətli nümayəndələri yaşlı nəsildən Xalq şairi Fikrət Qocanı, Vaqif Səmədoğlunu və Fikrət Sadığı, sonrakı nəsillərdən Ələkbər Salahzadəni, Ramiz Rövşən, Vaqif Bayat Önəri hesab edirəm.

…Bİr cəhəti qeyd edim ki, modernist-simvolist üslub Azərbaycan poeziyasında, bir çoxlarının düşündüyü kimi, son onilliyin hadisəsi deyildir. Belə hesab etsək, həm insafdan kənar olar, həm də real ədəbi prosesin tarixi inkişafında yanlışlığa yol vermiş olarıq. Bizcə, bu üslubun Azərbaycan poeziyasında banisi poeziyamızın böyük klassiki Rəsul Rza olmuşdur. Başqa əsərlərinin adını çəkmədən, təkcə «Rənglər» şeir silsiləsi buna ən bariz nümunədir. Bu silsilə təkcə Azərbaycan şeirində, poeziyasında deyil, o dövrün Ümumittifaq poeziyasında da müstəsna yenilik idi. «Rənglər» çox çətinliklə, ciddi ədəbi münaqişələrlə qarşılaşsa da, şeirimizə modernist-simvolist eksperimental üslubun nəfəsliyini taybatay açdı, ədəbiyyatımıza tamamilə yeni poetik təfəkkür tərzi gətirdi. Bu prosesi estafet məşəli kimi Əli Kərim, Fikrət Qoca, Ələkbər Salahzadə, Fikrət Sadıq, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Vaqif Cəbrayılzadə (Bayat Önər), Çingiz Əlioğlu və digərləri davam etdirərək müasir gəncliyə ötürə bildilər. Elə ona görə də heç kim etiraf etməsə də, nəsillər arasında sıx, modern bir ənənə bağının mövcudluğunu gö-

rür, müasir gəncliyin bəzi sıra nəfərlərinin artıq səngiyən «cığallığı-nı» isə əvvəldən məqbul görmürdüm.

…Xalq şairi Fikrət Qoca müasir poeziyanın ritmi, ahəngi, döyüntüləri ilə daha sıx bağlı olan şairdir. Həmişə axtarışdadır, yeniliyə, novatorluğa, müasir həyatın ritminə çevrilməyə təşnədir. Başqa sözlə, həm Fikrət Qoca, həm Fikrət Sadıq müasir modern poeziya marafonunda təntimədən, tövşümədən cavanlarla çiyin-çiyinə, bir çox hallarda isə öndə gəlirlər…

…Fikrət Sadıq bu il ən məhsuldar, fəal, bol bəhrəli yaradıcılıq illərindən birini, həm də Fikrət Qoca kimi yubiley ilini yaşadı. Onun bir çox ədəbi orqanlarda, mətbuat səhifələrində müxtəlif illərdə və yeni yazdığı şeirləri, silsilə şəklində poetik nümunələri «Dünyadan qaçan adam» mini-dramatik poeması dərc olunmuşdur. «Mən alın yazısı demirəm buna» ümumi başlığı altında bir silsilə – «Balam», «Dünyam», «Bir ruhu küskünə», «Təlqin», «Şübhə və həqiqət», «Ömürçülük», «Gecə taksisi» şeirlərini oğul itkisinə (oğlu İlkinə) yazılan bir şair atanın könül sızıltılarıdır. Lakin bu sızıltılar ümumiləşir, bir könülün deyil, övlad itirmişlərin dərdini də daşıyır, bəzən də ictimai-sosial məzmun kəsb edir: «Ömür sürmək deyirlər; Bizimki ömür sürmək deyil. Bu ya ömür sürüməkdir, ya ömür boyu sürünməkdir. Belə ömür kimə gərəkdir, nəyə gərəkdir?» «Olubdu», «Yıxıldım», «70 yaş və pillələr», «Sındırıldı sükut buzu» (Ramil Səfərova – erməni başı əzən qəhrəmana), «Tərcümeyi-halım», «Türk» şeirləri lirik-psixoloji tonda yazılan duyğuları, kədərli sosial-ictimai düşüncələri, müasir insanın ağrılı-acılı yaşam tərzini əks etdirir: «Evim beton. Dərmanım diabeton. Sevincim-fərəhim – misqal-misqal, dərdim-qəmim – ton-ton».

Fikrət Sadıq «Dünyadan qaçan adam» mini-dramatik poemasında («Ədəbiyyat», 04.03.05) müasir insanın tragediyasını, faciəsini bariz detallarla əks etdirib. İctimai-sosial mühit elə bir situasiya yaradıbdır ki, insan mühitindən, ailəsindən, yaşam tərzindən, ölkəsindən, vətənindən, torpağından bezikib baş götütürb qaçır. Əslində, bu insanın mənəvi-sosial intiharıdır: dövrandan qaçdı. Güzərandan qaçdı. Yerin əzabından qaçdı. Cana doyub göyə qaçdı. Həkimi naşı, hakimi zalım. Müəllimi nadan olan Zamandan qaçdı.

…Cana doymuş Tolstoy da bu cür qaçmışdı evindən… Uzun dəhşətli bir röyadan qaçdı… Dünyanı başına götürən yalandan qaçdı… Ögey obasından. Elindən, TV-lərin pəltək dilindən, düzü-dünyanı tutmuş şeir selindən, bu qədər yalançı şair əlindən, paxılların qeyrətindən, xəbislərin söz-söhbətindən qaçdı. Azadlığın azlığından… Birliyin yoxluğundan qaçdı…» Əsərin ruhu, ideyası, es-

tetik qayəsi, ictimai-sosial məzmunu aydındır, əlavə izaha, şərhə ehtiyac yoxdur…

Fikrət Sadığın ənənəvi qəzəl janrının modelinə uyğun, ona oxşar, lakin məzmunca tamamilə orijinal «Seçilmiş beytlər» ümumi başlığı altında çap etdirdiyi («Kredo» qəzeti, 05.03.05) silsilə şeirləri də müasir şeirimizin dəyərli nümunələrindəndir. Bu şeirlərdə həyata tənqidi-ironik bir baxış, tamamilə müasirliklə yoğrulmuş kədərli psixoloji nüanslarla dolu faktlar əksini tapıbdır: «Layiq olmaaynlara ləyaqət paylanırsa, Minnət ilə verilən ləyaqəti neynirəm», «Dərdimiz başına götürüb bu dünyanı, Ehtiyaca diz çökən əmniyyəti neynirəm», və ya «Havanı da havayı bizə qıymır fələklər, hava verib can alır, heç nə deyildir müftə». Əzablı olsa da döz, pillələri özün qalx. İşıqlar tez-tez sönür, etibar yoxdur liftə». (Yəqin burda bir başa işıqdan, liftdən söhbət getmədiyi aşkardır).

Başqa bir şeirdən «Söz var, söz deyən də var, qəzet də bol, itə tök. Amma yazıların çoxusu hənək olur. Bir ələk tapa bilsən, bu milləti ələsən, görərsən nə qədər un, nə qədər kəpək olur».

Bu silsilədəki ironiya, sarkazm, kinayə tamamilə orijinaldır, yenidir və sosial məzmunu aqilanə yetkinliklə təqdim etməyə xidmət edir.

«Ulduz», № 4,
2006

Mürşüd MƏMMƏDLİ

MÜDRİKLİYİN POEZİYASI

Mən Fikrət Sadığın şeirləri ilə təkrar tanışlıqdan sonra bu düşüncəyə, nəticəyə gəldim ki, o, çağdaş poeziyamızın ən müdrik və cəfakeş yaradıcılarından biridir. Ancaq onun poeziyasının dərinliyinə varanda təəssüf hisləri bütün varlığımı çulğaladı. Düşündüm ki, əcaba, bu sanbalda, çəkidə olan şair necə olub ki, indiyə qədər poeziya araşdırıcılarının diqqətindən kənarda qalıb? Və yaxud ondan olsa-olsa poeziyanın epizodik hadisəsi kimi bəhs edilib.

Ötən əsrin əvvəllərində M.Hadi, 60-cı illərində isə Ə.Kərim eyni tale ilə üzləşiblər. Zənnimcə belə münasibətin əsasında yaradıcı şəxslərin təvazö hissi ilə özünü reklam etmək kimi zərərli peşəyə uymamaq mədəniyyəti durur. Bəlkə də bu mədəniyyətin kökündə təbiətin mahiyyətindən doğan örnəklər durur. Axı, göylərə ucalan dağların, palıdların, varlığın əzəli hikmətlərindən müjdə verən çayların, irmaqların, İsaq-Musaq quşlarının üfüqdə qənirsiz bir gözəllik lövhəsi yaradan göy qurşağının özünü təbliğə ehtiyacı yoxdur. Onları tanrı neməti, tale qismәti və mənəviyyat ruzisi kimi dəyərləndirmək çağdaş anlaq və əxlaq sahiblərinin borcudur.

Təəssüflə qeyd etmək zorundayam ki, bizdə poeziya tənqidi adı olub özü olmayan anlayışlar sırasında getdikcə möhkəm yer tutur. Belə olmasaydı həftədə, ayda bir kitab buraxdırıb şairlik iddiasına düşən qrafomanlar, cızmaqaraçılar, hətta səviyyəsiz və zövqsüz nəzm mətnlərinə musiqi bəstələndirib onları efirdən səsləndirənlər bu gün şeirin meydanında köhlən çapıb, at bağrı çatlatmazdılar.

Azərbaycanda hazırda bir poeziya «bum»u yaşanmaqdadır. Duzsuz, dadsız, zövqsüz nəzm parçaları əsl şeiri və onun müəlliflərini sıxışdırmaqdadır.

Belə şəraitdə abır-həya hissini qoruyan, gözə girmək xülyasından uzaq olan əsl şairlər öz poetik hücrələrinə çəkilib sözün müqəddəs əzabları ilə təkbətək qalırlar. F.Sadıq belələrindəndir. Məhz sözün üzücü, lakin şirin əzabına qatlaşdığı üçün onun əksər şeirlərində dənsiz sünbülə – yüksüz fikrə rast gəlmək qeyri-mümkündür.

Məsələn:

Bir muğam varmı görəsən,
Zili həzin olmasın.
Bir sevinc göstərin mənə
İçində hüzn olmasın.

Bənddə zildəki həzinlik və sevincdəki hüzn söz birləşmələri təkcə fikrin təzadlı ifadəsinə yox, həm də varlığın, əzvayişin kontrastları barədə dolğun təsəvvür yaradır. Hər zildə – fəryadda xəfif bir qəm, hər sevincin içində yandırıcı bir hüzn – ələm gözlənir. Dövrü-qədimdən bəlli olan həqiqətlərə şair yeni görmə bucağından işıq salır və bizi həyatın əbədi bilməcələri üzərində düşünməyə məcbur edir. Və yaxud şairin:

Göydən gələn bəlaların
Çoxusu yetimə gəlir.
Kasıba, fağıra gəlir,
Dərdlər bərabər bölünmür,
Bu dərd mənə ağır gəlir.

– poetik fraqmentində qədərdən gələn haqsızlığa bir etiraz əhval-ruhiyyəsi ifadə olunur. Bu etiraz da müəllifin humanizmindən doğur. Şair nə üçün sualının cavabını oxucunun ixtiyarına buraxır. Rüzgarın gərdişindən hali olan oxucu anlayır ki, ziddiyyət və əksikliklər üzərində qurulan həyatın özü də Xaliqin əsəridir və bu əsərdə hər kəsə növbənöv alın yazıları bəxş edilib.

Kasıbla, fağırla zənginlər arasında dərdlər bərabər bölünsəydi, həyatın disharmoniyası pozulardı, çünki onun mahiyyəti də, fəlsəfəsi də yalnız bu natarazlıqda və qeyri-mükəmməllikdədir.

Bənddə hər söz bir fikrə xidmət edir, onun poeziyasında «işsiz» qalan söz demək olar ki, yoxdur. «Son şeir» bu cəhətdən özünün fikir tutumu və ləngərli ahəngi ilə diqqəti cəlb edir. Beş bəndlik və həm də gəraylı üslubunda yazılmış şerin bədii qayəsi və strukturu ənənəvi qafiyələr üzərində qurulmuşdur. Ancaq bu ənənəvi qafiyələr şeirdə tamamilə yeni bir ovqat, hiss və duyğuların bakirəliyindən doğan ab-hava yaradır:

Döyüşdə ölmədim, deyəm,
Bayrağı örtün üstümə.
Üstündə son misram donmuş
Varağı örtün üstümə.

Başqa bir bənddə isə kimsəsizliyin, tənhalığın və çarəsizliyin son akkordu vurulur:

Ümidim – yaralı bir quş,
Qolum, qanadım qırılmış,
Üşüyürəm, xəzəl olmuş
Yarpağı örtün üstümə.

Fikrət Sadıq

Böyük Füzulinin beş yüz il əvvəlki müsibətzadə lirik qəhrəmanından fərqli olaraq («Nə yanar kimsə mənə atəşi-dildən özgə, nə açar kimsə qapım badi-səbadan qeyri») F.Sadığın qəhrəmanı bütün əlamət və keyfiyyətləri, ağrı və qayğıları ilə bu günün insanını təmsil edir. Lirik qəhrəmanın obrazı elə spesifik poetik cizgilərlə çəkilmişdir ki, gözlərimiz önündə yurd sevgisində əriyən, vətən torpağına tapşırılmaqdan özgə Tanrıdan ayrı umacağı olmayan bir insanın surəti canlanır:

Göylər niyə zalım olsun,
Tale mənə zamın olsun.
Bir dərə məzarım olsun,
Bir dağı örtün üstümə.

Lirik qəhrəmanın təvazödən və yurd sevgisinin şiddətindən mayalanan istəyinə fikir verin («Göylər niyə zalım olsun, tale mənə zamın olsun»). Şairin qəhrəmanı vətən qarşısında üzüağ, alnıaçıq və başı uca olduğundan onun torpağına qovuşmaq üçün göylərdən rəhm, taledən zəmanət istəyir. Lirik qəhrəmanın cismani-mənəvi möhtəşəmliyi «dərə» və «dağ» detalları təsdiq edir.

Göründüyü kimi, müəllif öz qəhrəmanının vətən sevgisini bəzi şairlər kimi ümumi patetik və ona görə də bayağı cizgilərlə yox, konkret bədii detallarla hiss etdirməyə nail olur. F.Sadıq poeziyasında söz duyğusu güclüdür. O, nədən yazırsa-yazsın, hər sözü, ifadəni konkret məna çalarları ilə zənginləşdirməyə çalışır.

M.Hadi haqqında yazdığı iki şeirdən gətirdiyimiz nümunələrə biganə qalmaq mümkün deyil:

O ki, elə yanırdı:
ya gərək əriyəydi, ya gərək kül olaydı.
Ana yurdun dərdinə, el-obanın dərdinə
Elə yanmadı ki, o, məzarı da qalaydı.

Və:

Şeiri alov dilli idi,
Sabah ona bəlli idi,
Dərd ona təsəlli idi,
İztirab idi dərmanı.

Birinci nümunədə Hadinin millət yanğısının şiddəti barədə tragik təsəvvürü iki əvvəlinci misrada, əzabkeş ömrün gözlənilməz

dramatik sonluğu isə digər misralarda öz ifadəsini tapıb. Burada bir artıq ifadəyə, mətləbə rast gəlmək qeyri-mümkündür. Poetik fraqmentin bütün fikir enerjisi bir söz tərkibində cəmlənib. («O ki, elə yanırdı…») İkinci nümunədə bədii sözün kəsəri, tişəsi ilə nakam şairin müsibətdən yoğrulmuş obrazı yaradılır.

Aydın olur ki, M.Hadi binəva və bəxtsiz xalqının sabahını dumanlı gördüyündən dərdi özünə təsəlli, iztirabı isə dərman kimi qəbul edir.

Şair ekspressiv və emosional, təsiri güclü olan sözlər seçməkdə çətinlik çəkmir. Təsəvvür etmək çətin deyil ki, F.Sadıq «dərd»in və «iztirab»ın yerinə major duyğular oyadan başqa söz qoysaydı, məzmun da itərdi, mətləb də.

Şeirdə artıq söz bədəndə artıq çəki kimidir.

Söz az olanda mətləb də saz olur: «Mətləb uzadılanda yaddaş döyənək olur, Gülləsi qurtaranda tüfəng dəyənək olur».

Əsl şair sözün qara fəhləsidir. «Min bir buta» şeirində F.Sadıq bu fikri əyani olaraq əsaslandırır. Şeirdə söz boyalarından o qədər səxavətlə istifadə olunub ki, onu oxuyan rəssam xalçaçı sənətkar isə şairin söz ilmələrindən nə naxışlarından bəhrələnməklə pəristişə layiq bir sənət əsəri toxuya bilər. Bayatı üstündə köklənmiş misraların doğurduğu assosiasiyalara diqqət edin:

Xalçanın gülünə bax,
İlmənin dilinə bax,
O yanda ocağına,
Bu yanda külünə bax!

Xalçaya bax, xalçaya,
Bənzəyir axar çaya.
Sahilləri bələnib
Çiçək açmış alçaya.

Bu nümunələrin sayını çoxaltmaq da olardı. Elə bilirəm ki, gətirdiyimiz nümunələr də şairin sözlə lövhə yaratmaq imkanlarının bolluğu barədə bilgi verir.

F.Sadıq poetik sözün sərhədlərini, şeirin texniki imkanlarını genişləndirmək sahəsində də ustad bir sənətkar olduğunu sübut edir: «Mən bir adam tapmadım zəng eləyəm, amma əcəl mənə zəng elədi», «Sabiri bəyənməyən varsa, qiyamət günüdür şeirimizin», «Hamı ağzına su alıb, yer üzündə su azalıb», «Dərd məni çaşbaş eləyib, özü də lap çaşbaş qalıb», «Nefti olan ölkələrin hamı-

sında Kərbəla var», «Oğlu ölən bir il ağlar, yüz il ağlar, min il ağlar, yurd itirən…», «Dedilər ki, bütləri qırın, demədilər ki, lütləri qırın» və s.

Şair ağız ədəbiyyatı örnəklərində – nümunələrində də (gəraylı, qoşma və s.) şeirlər yazmaqla folklor məktəbinə dərindən aşinalığını nümayiş etdirir.

Həm də təqdir edilməlidir ki, o, köhnə biçimdə də yeni görünə bilir. Məsələn:

Millətin dirənişi,
Ər işi, ərən işi.
Fələklər görə bilməz
Dirəniş görən işi.

Və ya:

Yaşamaq olub çətin,
Gününə bax millətin.
Yoxdur yoxun hörməti,
Hər nə varsa varda var.
Bilmirəm hara gedim?
Rahat ömür sürmədim,
Burda bir gün görmədim,
Bəlkə, nəsə orda var?

F.Sadıq fərmanla xalq şairi olmasa da, rəsmi olaraq haqq şairidir. O, bütün yazılarında gerçəkliyi, həqiqəti qələmə alır və bu mövqeyindən bir santimetr də olsa, aşağı enmir. Onun şeirlərində konyuktura əlamətlərinə, şəraitə uyğunlaşma cəhdlərinə rast gəlmək mümkün deyil. O, təbiətdən, gündəlik məişət qayğılarından bəhs edəndə də, ciddi sosial-mənəvi problemlərdən yazanda da oxucu ilə səmimi danışır, onu öz tövsiyə və mülahizələrinə inandırmağı bacarır. Dediklərimizə, «əşyayi-dəlil» kimi onun şeirlərindən bəzi nümunələrə diqqəti cəlb etmək istərdim. «Müşahidə» adlı kiçik poetik parçada o, hər kəsin bildiyi adi həqiqətləri bədii həqiqətlər səviyyəsinə qaldıra bilir:

Bu qurbanı olduğum Tanrıda
Bilmirəm bu nə adətdir, bu nə adət?!
Pulu olana pul verir,
evi olana imarət.
Kasıbı da unutmur,
Ona da
dərd üstündən verir dərd.

Dünya və Azərbaycan poeziyasında bu mövzuya dəfələrlə toxunulub. Lakin F.Sadıq şeirə milli mental şüurun möhürünü vurub və mövzunu məxsusi deyim tərzinə daha da müasirləşdirib:

Əyrini divara dirədilər,
Güllələdilər.
Güllələr əyri getdi,
Düzü divara dirədilər,
Güllələdilər,
Güllələr düz getdi.

Dövrü-qədimdən əyrilərin bəxtinə tumar, düzlərin qismətinə qubar yazılıb. Qəzavi-qədərin yaratdığı bu disharmoniyanı hətta, güllələr də aradan qaldıra bilmir. Bu bir həqiqətdir ki, düz əyilə bilsəydi, güllə onu da haqlamazdı. Və nə yaxşı ki, düzlər əyilmir, sınmır, yoxsa yaşamaq cəhənnəm əzabından betər olardı.

Onun poeziyası şəxsiyyətdən əvəz ummayan, əksinə bu istəyin əzabında qovrulmağa, yanmağa hazır olan sənətkardır. Bəlkə də bu sevginin şiddətindədir ki, şair «vətəndaş» seçimi qarşısında qalanda vətəni həmvətənlərinə ərmağan edir, daşını isə özü götürür:

Sevinc sənin yol yoldaşın,
Amma bu göz yaşı mənim.
Bir ölkədə vətəndaşıq
Vətən sənin – daşı mənim.

Belə bir düşüncə ilə yaşamaq hər bir kəsin vicdan və əxlaq normasına çevrilsəydi, yəqin ki, ölkənin həll olunmamış müşkülləri qalmazdı.

Minnətsiz və ləyaqətlə yaşamaq, təmənnasız ömür sürmək onun həyat fəlsəfəsidir:

«Layiq olmaaynlara ləyaqət paylanırsa, Minnət ilə verilən ləyaqəti neynirəm?!»

Şairə görə soykökə, mənşəyə və sələflərə hörmət olmasa, millət bir küll halında puç olub gedər: «Soykökünü unudar, millət puç olub gedər, Əgər ki, sələfinə hörmət yoxsa xələfdə».

Millətin taleyi kimlərinsə iddiasına, marağına qurban veriləndə zahirən təmkinli və soyuqqanlı görünən şairin içində bir vulkan püskürməsi baş qaldırır:

Fikrət Sadıq

Hər kəs öz işini görür özüyçün,
Bir iş görən yoxdur millət naminə.
Torpaq da, Vətən də satılır, Allah,
Varlanmaq naminə, sərvət naminə!

F.Sadıq poetik qənaətinə və fəlsəfəsinə görə insan yalnız öz təbii mahiyyətindən və mənəvi borcundan irəli gələn öhdəlikləri yerinə yetirəndə daşıdığı adın zirvəsinə ucalır. Heyf ki, insanların heç də hamısı daşıdığı adı və Tanrının onlara göstərdiyi etimadı doğrultmurlar:

Allahın ümidini
İnsan doğrultmayıbdı.
Canavar xislətində
İnsan olmaq ayıbdı.

Şair «yalan təriflənəndə, doğru təklənəndə», «çadırdakı yetimin üst-başını cındır görəndə», «birinin yoxudursa, birinin varıdırsa, insan insanın canavarıdısa» yazmaya bilmir. Həyatın əksiklikləri ilə barışmağa onun narahat vicdanı yol vermir.

F.Sadığın poeziyası çağdaş şeirimizin cüssəli, gövdəli bir qoludur.

Şairin təbiətində, insanlara və müşahidəçilərinə münasibətində müşahidə etdiyimiz müdriklik də öz başlanğıcını onun qüdrətli poeziyasından alır.

Əgər şeirin ümdə vəzifəsi insanı daxilən saflaşdırıb, ruhən sağlamlaşdırmaqdırsa, F.Sadıq öz sözü ilə bu vəzifənin öhdəsindən ləyaqətlə gəlir. Biz ona ömrünün müdriklik və həyatının naqolay çağlarında sevinc bolluğu və yeni yaradıcılıq uğurları diləyirik.

«525-ci qəzet»,
6 yanvar, 2005-ci il

Vaqif İBRAHİMOV

HƏRƏMİZ BİR CÜR

Çox hörmətli, Fikrət əfəndi!

Sayılan qəzetlərin birində Sizin aforistik şeirlərinizi oxuyub da xeyli zövq aldım. Bir acı etiraf kimi söyləməliyəm ki, son illər bəzi-bəzi səbəblərdən poeziyadan ruhlanmaq qabiliyyətim hiss olunan dərəcədə öləziməyə başlamışdı. Bəlkə bu ona görədir ki. Mayakovski demişkən, «…planetimiz poeziyadan ötrü az təchiz olunub», bəlkə ona görə ki, məmləkətimizdə qurğular pozulub, sanlar itibdi və nəticədə şairlər siyasətçiyə dönüb, siyasətçilər isə xalqa «qəzəl oxumağa» qurşanıb. Odur budur, Sizin də dərc olunmuş formatına görə çox kiçik, ədəbi dəyərinə isə çox yüksək səviyyəli şeirlərinizə ötərgi nəzər saldım. Ki, bir də gördüm: Hədiyyə almış adam kimi əməlli-başlı sevinirəm. Bu nəgah sevincə görə Sizə ən səmimi minnətdarlığımı bildirib də keçirəm növbəti mətləblərə.

Çox hörmətli, Fikrət əfəndi!

Sizə məhz bu cür müraciət etdiyimin səbəbi şeirinizdən qaynaqlanır və müəyyən mənada polemik xarakter daşıyır. Belə ki, «Adamlar» şeir aforizmində yazırsınız:

Dünya qocaldıqca azalır yaman,
Əfəndi adamlar, paşa adamlar.
Dünya qocaldıqca çoxalır yaman,
Araqarışdıran, maşa adamlar.

Ustad, izn verin Sizinlə razılaşmayım: şeirinizdən bərq vuran kübarlıq və səbrlə dolu hikmət müəllifin genetik (sözə görə üzr istəyirəm) əfəndiliyindən xəbər verir. Belə olan halda kəmiyyət haqqında əndişələnməyə dəyərmi, əcaba?

Doğrudur, məmləkətimizdə əsl və xalis əfəndi ziyalıların sayı gözəçarpan dərəcədə azalmaqdadır, amma və lakin Üzeyir bəy əsrin əvvəllərində söylədiyi kimi «…Bizə qalanlar bəsdir». Şəxsən mənə – bir ortabab ziyalıya Sizin şeiriniz kifayət oldu ki, nikbinliyim və yaradıcılıqla məşğul olmaq həvəsim birə on artsın!

O ki, qaldı «naşı adamlara», onların da sayını o Böyük Yaradan özü superdəqiqliklə tənzimləyir, Xətai demiş, onlarla «nəmiz var?»

Çox hörmətli, Fikrət əfəndi!

Müxtəlif «izm»lərin ədəbiyyatımızda tüğyan etdiyi halda Sizin milli şeir sənətinin ilkin qatlarına varıb da oradan su damcısı qədər sadə və su damcısı qədər mürəkkəb deyimləri çağdaş poeziyamıza ərməğan etməyiniz məndən ötrü bir daha ulu Zamanın qırılmazlığını təsdiqlədi. Hərəmiz bir cür yaşayırıq – bu aksiomdur, amma və lakin milli mədəniyyət və incəsənətinin, əxlaq və mənəviyyatının təəssübünü çəkən hər kəs eyni cür yaşayır, eyni cür düşünür, eyni cür mücadilə verir. Məsələn: uzatmadan Sizin «Lap kəsə söz»ünüzdən faydalanım:

– Mən – adamam,
Mən – gildənəm.
Mən də o,
Adəmgildənəm.

Çox hörmətli, Fikrət əfəndi!

Ədəbiyyatşünaslıq iddiasında olmadığıma görə bu qısa açıq məktubumda bir sıra olduqca maraqlı və dəyərli mətləblərdən vaz keçməli olacağam. Amma və lakin Sizin heyrətamiz söz duyumunuz, sözə etibarınız və sayğınızı, eləcə də sözlə sərbəst münasibətinizi qeyd etməyə bilmərəm. Onu da əlavə edim ki, iti düşüncənizin parlaq məhsulları məni həm də bolluca güldürdü. Axı, «Xaş» adlanan miniatürə necə gülməyəsən?!

– Divarda oxudum:
«Xaş var».
Deməli, divarın dalında
Kəsilmiş baş var.

Növbəti sevinclər ümidi ilə sağ olun, Fikrət əfəndim!

«Üç nöqtə» qəzeti,
19 noyabr, 2006

Atif İSLAMZADƏ

BU ŞEİRİN STRUKTUR – SEMANTİK TƏHLİLİ

(Bir şeirin təhlili)

Böyük şairimiz F.Sadığın «İşlə ev arasında» (B., Gənclik, 1997) kitabını vərəqlərkən «Özüm özümə» adlı bir şeirin üzərində dayandım s. 44. Bu şeirin müxtəlif səviyyələrini aşkarlamaq ehtiyacı məni rahat buraxmadı. İnsan öz-özü ilə söhbət edərkən onu məşğul edən cəmiyyətdən özünü müvəqqəti də olsa təcrid edir. Bu təcrid ya onu yanlış düşüncələrə, ya da doğru bilgilərə gətirib çıxarır. İnsan tənha olanda şüurunda mövcud olan informasiya dalğası elə zəifləyir ki, yalnız ona doğru yolu tapmaq üçün doğru düşünmək qalır. Cəmiyyət içindəki gündəlik informasiya tələbatı əksər vaxtlar bizləri çaşqın vəziyyətdə qoyur. Doğru istiqamətləri də çətin müəyyənləşdirə bilirik. Bizi əhatə edən əşyaların və canlıların bizim beynimizə yüklədiyi informasiya kütləsi bizi həm emosionallaşdırır, həmçinin də ağlımızı başqa-başqa tərəflərə yönəldir. Göz informAsiyası, qulaq informasiyası, dil informasiyası və s. Bu kimi dağınıq məlumat mənbələri fikrimizin əksər məqamda doğru məqamdan uzaq düşməsinə səbəb olur. Elə ki, insan təkliyə çəkildi bu məqamlar zəifləyir, özümüzün-özümüzlə danışdığımız məqam, bizimlə bizi yaradan qüvvə arasındakı məhrəmanə ünsiyyət başlanır. Kimi buna Allah qarşısında sorğu deyir, kimi vicdanla söhbət, F.Sadıq da özüm-özümə. «Özüm-özümə» olan bütün söhbətlərin son ucu insanı doğru yola gətirir. Göz doğrunu görür, qəlb doğrunu duyur, dil doğrunu söyləyir:

Təsəllini göydə axtar,
Sənin dadına Haqq çatar.
Rəhm eləyən öz Dinin var,
Ehtiyatda din saxlama.

(«Özüm-özümə»)

F.Sadıq öz-özüylə söhbətləşərkən Haqqa çatmanın Allah dərgahına üz tutmadan başladığı qənaətinə gəlib çıxır.

Haqq Allahın əzəmətli adlarından biridir. İnsan Haqq ola bilməz, yalnız haqlı ola bilər. Haqlı ola bilmək üçün də haqla ola bilməlidir. Hər gün dünyəvi ehtiyaclardan və həvəslərdən yaranan

min bir ehtiras və iddialarda haqlılığın olmadığını görən şair əşyalara və şəxsiyyətlərə pərəstişdən əl götürüb yaranmışa, Yaradanına üz tutmaq çağrışında bulunur. Fikir verirsinizmi, F.Sadıq məhz «Haqq» anlayışını da Allah-Təalanın ünvanı olaraq yəqinləşdirir:

Təsəllini göydə axtar,
Sənin dadına Haqq çatar.

Bu yəqinliklə Allaha İslam dinində üz tutmanın vacibliyi də mətnaltı düşüncə sistemində və mətnüstü ifadə planında diqqətə çatdırılır:

Rəhm eləyən öz Dinin var,
Ehtiyatda din saxlama.

Bir bəndin misra-misra mənalanması, bir tərəfdən semantik anlayışların zənginliyini üzə çıxarırsa, digər tərəfdən müxtəlif informativ bilgilərin sabit bir özəyə dayanan dəyişməz funksiyasını qabardır.

«Təsəllini göydə axtar» – ifadəsi yer üzünün və göy üzünün binor oppozsiyasını, bərpa edərək yaxşılıq və pislik, xeyir və şər, maddi olanla mənəvi olan, nəhayət, Yaradanla yaranan arasındakı məsafəni müəyyənləşdirir. Üstünlüyü birincilər üzərinə köçürməklə düşüncədəki modeldə İlahi gercəkliyin aliliyinin mövcudluğunu üzə çıxarır. Yeri göydən təcrid etməklə yer üzündəki fərdi, ictimai və s. Naqislikləri işarələyirsə, həm bunun qarşısının alınması yolu kimi İlahi ədalətə sığınmanın gərəkliyindən bəhs edir. Həm də son misralara keçid kimi fikir zəmini hazırlayır. Misra keçidi şeir strukturuna aiddirsə, fikir keçidi düşüncə modelinin bir parçasıdır. Bu modelin əsaslandığı təməl isə islami dünyagörüşüdür. Bu dünyagörüşünün söykəndiyi əsas prinsip Allahın birliyi, ona iman gətirməyin vacibliyi və davranış normalarını Allahın peyğəmbərlər vasitəsilə bizə çatdırdığı ehkamlara əməl etməyin zəruriliyi üzərində qurmaqdır. Bu baxımdan Allaha sığınmanın imandan gəldiyini göstərməklə bərabər şair, Allahdan başqasına əl açmağın Allaha şərik qoşmaq olduğunu metonimik qaydada nəzərə çatdırır:

«Sənin dadına Haqq çatar»

Sonrakı misrada isə yenə də geniş teoloji bilgilərin işarə səviyyəsində ifadələnməsi və ictimai reallığın acı mənzərəsi gözü-

müz önündə canlanır. Məlumdur ki, dini inanc sistemlərini iki hissəyə ayırırlar; səmavi və ideoloji dinlər.

Səmavi dinlərin özündə belə nə qədər təhrif olunmuş məsələlər mövcuddur. Digər dinlər isə küfr və batil inanclarla zəngindir. Şair: «Rəhm eləyən öz dinin var» – deməklə həşr zamanında, qiyamət məqamında, ərəsət meydanında, axirət qabağı hesab müddətində islamın köməyə yetəcəyini Mühəmməd əleyhissəlamın səfaətinin yeganə xilaskar olacağına, vaxtında macal var ikən, bu dünyada göyə əl açıb təsəlli tapdığın, dadına yetən Allah-Təalanın (əlhaqqın) sənə buna görə rəhm edəcəyini (Rahim və Rahmən Allahdır) bir misrada işarələyir. Öz-özüylə danışan şair Allah qarşısındakı riyakar olmağın da ağırlığını dərk edərək özündən bizə ünvanladığı fikirlərində əldə etmək, özünün müvəqqəti yaşayışını şəxsi eqoizmindən gələn dəbdəbəli görüntülər iştahasıyla təmin etmək istəyən kimsələrin özünə kimlərisə büt yapmaq ehtiraslarını əngəlləmək istəyən şair bu müvafiqliyin müşrikliyə gətirib çıxaracağına xəbərdarlıq edir. Özümüzün özümüzə qayıtmağımıza, özümüzə qayıdaraq Allaha itaət etməyimizə bizi çağıran şair, Allahın verdiyi ruzini öz adıyla misqal-misqal bizə verib, özünü bizə büt düzəltmək istəyənlərin şeytani məqsədlərindən bizi qorumağa çalışır. Bu şair həyacanları – öz-özüylə danışanda da hamını qəlbinə yığan bir insanın böyüklüyündən xəbər verir. Elə buna görə də şair sözü, Dədə sözü kimi səslənir:

Söz dilinin ucundasa,
Qorxma, dillən, din, saxlama!

Bu sözlərin ifadə səviyyəsində alliterasiya qaydasında «d» səsi üzərində qurulan ahəngdarlığı qulağa xoş gəlməklə bərabər bu ifadə altındakı düşüncə sxemini bərpa etsək bir çox anlayışların aşkara çıxmasını görərik. Bu anlayış modeli aşağıdakı təsnifat ardıcıllığını ortaya qoyur:

a) «Söz dilimin ucundadı» deyiminin yaddaş zəifliyindən deyil, can qorxusundan, sözə qadağa təhlükəsindən işlənməsini əngəlləmək;

b) Sözün mənəvi-psixoloji, tibbi və maddi enerjisini müəyyənləşdirmək;

v) Haqq olana inam;

ç) Sözə ağsaqqal icazəsi və s.

«Söz dilimin ucundadı» deyimi xalq arasında çox məşhurdu. Hansısa sözü yada sala bilməyəndə bu ifadəni işlədirlər. Şair Fikrət Sadıq isə bu sözün maraqlı bir tərəfini götürür. Sözün dil ucuna gə-

lib aşkarlanmamasını psixi hadisə kimi izah edir. Sözün dil ucuna gəlsə də özünü müdafiə instikti kimi qorxu reaksiyası nəticəsində söylənməməsini, yaddaş zəifliyi kimi bəhanə altında insanın sözünü gizləməsini nəzərə çatdırır. Dil ucunda olan sözün söyləmək vəzifəsini daşıdığını elan edərək sözə dəstək olur. Dil ucundakı sözün söyləmək gərəkliyini söyləyən şair sözü saxlamağa ehtiyac olmadığını bildirir. Misralardan aydın görünür ki, burada söhbət doğru sözdən, ədəb-ərkanlı kəlmədən, mərifət bilgisindən gedir. Haqqın hər kəsdən uca olduğuna işarə edən şair haqq sözü söyləməkdə insanın azad olmasını bəyan edir. Bu yerdə qorxunu atmaq lazımlığını da qeyd edir. Haqq sözü söyləyəni Haqqın özü qoruyar. Söz insanın mənəvi-psixoloji tələbatını özündə ciddi şəkildə əks etdirir. Dilin insana verilməsi, fərdi nitq ünsürləri hər bir insanın daxili aləmini açması üçündür, gizləməsi üçün deyil. Əlbəttə ki, sözə sərhəd səviyyəsində. Otuz iki diş arasında süzülən otuz iki səs əlifbası geniş söz söyləmək imkanının bizə Allah tərəfindən bəxş olunmasından xəbər verir. Sözü çox ürəkdə saxlamaq, qorxu çəkə-çəkə ağıza qıfıl vurmaq insanın səhhətini də pozur, onu xəstəhal edir. Söz insanın maddiləşən fikridir. Elə buna görə də səslərdən yaranan sözün çəkisi dünyanın tarazlığında maddi qüvvə olaraq iştirak edir. Artıq səsin olması bu tarazlığa nə qədər zərər vurursa, əskik səsin olması da daha böyük xaotiklik yaradır. Hər doğru səsi içimizdə qısmaqla biz bu artıq səslərin qara-qışqırığına yol veririk ki, bu xaric səs kütləsi hətta dünyanı məhvərindən tərpətməyə nail ola bilər. Bu baxımdan söz enerjisi günəş enerjisindən heç də əskik tarazlayıcı qüvvə deyildir. Şair bu misralarda eyni zamanda bu anlamları da bizə çatdırmağa çalışır.

Şairin bu misralarda Dədə öyüdü də özünü misra ifadəsi səviyyəsində göstərir. Öyüdün janr spesifikası müxtəlifdir. Davranış streotipi kimi öyüd qanundur. Bu qanun ağsaqqal missiyası daşıyan Dədə tərəfindən elan olunur. İcra olunması vacib əməldir. Dədə heç vaxt naqis söz söyləmir. Elə buna görə də ona qulaq asmaq borcdur. Buna əməl etməyən ağır cəzaya məhkumdur. Erkən dövrlərdə bu cəza maddi-fiziki şəkildə mövcud olmuşdursa da, sonrakı mərhələlərdən ta bu günə kimi ruhi-mənəvi formada qüvvədə qalır. Elə buna görə də «Ulu sözünü eşitməyən ulaay-ulaya qalar», «Böyüyə qulaq asmayan böyürə-böyürə gedər» kimi ata sözləri bu gün də el arasında işləkdir.

Eyni zamanda şair bu ifadə qəlibində sözə icazə verən ustad, mürşid dədə dərəcəsində çıxış edir. «Böyük olan yerdə kiçik danışmaz», «Usta yanında əlini saxla, ustad yanında dilini», «Ağır otur, batman gəl» və s. bu kimi müxtəlif situasiyalarda söylənən

deyimlərlə yanaşı şair söz danışmaq situasiyasından çıxış edir «Sözün doğrusunu de, atını min çap», «Söz qılıncdan kəsərlidir», «Söz odur ki, Haqqa çata» və s. bu kimi ata sözü və məsələləri timsalında söz demək istəyən kəslərə yaşından, cinsindən, rütbəsindən və vəzifəsindən asılı olmayaraq doğru söz deməyə hər kəsin hər zaman iznli olduğuna işarə vurur. Təki o söz Allahlı söz olsun. O sözə qadağa qoyan varsa, nə dərəcədə olursa olsun, onda gərək allahsız olsun. Allahsız önündə Allahlı söz demək borcu da insanın içindəki qorxunu öldürüb, tələf etməlidir. Çünki böyükdən də böyük var, ən böyük olan Allah-Təala qüdrətidir.

«Özüm-özümə» şeirinin elə bil ki, hər misrası ruhani ovqat üzərində köklənmişdir. Buna görə də «söz saxlama»nın qarşısını almağa çalışan şair, sözü kinə çevirib öz içini çürütmək azarına da eyni misra daxilində işarə vurur və bu işarəni aydınladan yeni misra düzümünü üzə çıxarır:

Söz dilinin uçundasa,
Qorxma, dillən, din, saxlama!

Dəvə kinli olar baba,
Sən insansan, kin saxlama!

Məlumdur ki, kin, qəzəb, nifrət, nəfs fəsadlarındandır. İnsanı doğru yoldan ayıran, gözünü bağlayıb İlahi sevgisindən məhrum eləyən şər xassəli əhval kimi böyük günahlardan hesab olunur. Allahı sevənlərə dünya ehtirasına bulaşmış nəfs fəsadlarına uymaq yol verilməzdir. Elə bu səbəbdən də nəfsə təqva qoymaq mərifət ədəbindəndir. Təsadüfi deyil ki, şair az qala bütün şeir boyunca kin təhlükəsindən insanları xəbərdar edir:

Kin ürəkdə güvə olar,
Saxlayarsan dəvə olar.
Dəvə olsa dava olar,
Damarında cin saxlama.

Məhz şeirin sonuncu misrasını da, Dədə öyüdü ilə «ürəyində kin saxlama!» nidasıyla bitirən F.Sadıq əvvəl köklənmiş ovqatın al-dadıcı təəssürat üzərində deyil, düşüncədə və ruhda sabit olan İlahi dəyərlər üzərində qurulduğunu göstərir.

İctimai həyatdakı naqislik və eybəcərliklərdən, ürəyə yük olan daxili sarsıntılardan uzaqlaşmaq, öz-özünə çəkilib cəmiyyət-dən ayrılıb təbiətə qovuşmaq, yenidən cəmiyyətə qayıdıb bu mənfi

auraya qarşı dözüm nümayiş etdirməyi təbiətdən öyrənmək – bu şairin öz-özünə pıçıltıları, təvazö gözləyib verdiyi öyüdü də öz-özünə ünvanlamaq tərbiyəsidir.

Unut qəmi, seyrə çıx sən,
Dağlara bax, təmkin öyrən.

Təbiətə çəkilmə insanın öz-özünə çəkilməsidir. Öz yaradıcılıq tərkibinə, torpaq ünsürünə yaxınlaşmaq süni asfalt döşəmələrdən uşaqlaşıb, əslinə qayıdıb saflaşması, ruhunu incidən təəssüratlardan təmizlənməsidir. Bir növ özünü yenidən bərpa etməsi, yeni mərhələyə keçməsi və yaşantısını davam etməsidir. Bu şeir mətnində işarələnən ictimai qusurların poetik əksidirsə, düşüncədə obrazlaşmış dünya modelinin ritualını, ölüb-dirilmənin epik səviyyədə təzahür edən görüntüləridir. İslami görüşün əxlaqi davranış normAsına çevrilən iman əsası, ruhun və cismin təmizlənməsi, ilkin mAhiyyətinə qayıtmasıdır.

Şair F.Sadığın lirik bir şeri üzərində apardığımız incələmələr onun daxili dünyasının zənginliyini ona görə bu qədər geniş şəkildə meydana çıxarır ki, o, hər sözündə əxlaqını yaşadan insan faktıdır. Buna görə də o, sözü axtarmır, söz onun içindən gəlir.

Buna görə də F.Sadıq fikir şairidir. Adının mənasından tutmuş saçının ağlığınacan böyük dərdin canlı fikir tablosudur. Saçıbaşı elə cavan çağından fikirdən ağaran şairin üzü ağ olub həmişə. Ruhunun işığı üzərinə düşüb, üzünü də ağardıb. O canlı tablonu mən elə bil ki, həmişə bütün cizgiləri ilə görürəm. F.Sadıq əyləşmiş masa arxasında, saçı-başı ağ, üzü ondan da ağ, qarşısındakı ağ vərəq qaraldıqca mən gözümün qarşısında bir Dədə canlandırıram, Ağ Dədə. Ağ Dədənin ağ varağa söylədiyi hikmətləri nə bir şeirə sığışdırmaq olar, nə bir kitaba. Bəlkə elə bu «Ağ Dədə» duyğusunu daşıdığımdan bu Dədə öyüdünə bənzər şeir nümunəsini – «Özüm-özümə»ni özüm-özümə örnək kimi götürdüm.

«Ədəbiyyat» qəzeti,
21 iyul, 2006

Mahirə ABDULLA

QƏDİMLİYİN MÜASİRLİYİ

İki ildir bu yazının yükünü çəkirəm. Adətən, nəsə yazanda ən çox üç-dörd ay vurnuxuram, sonra bir neçə saata ağrımı-acımı kağıza töküb rahatlanıram. Əvvəl təsəvvür edirdim bu bir nəzəri məqalə olacaq, yəni ədəbiyyatşünaslıq deyilən bölümdə, amma iki il müddətində onunla bir otaqda oturub işləmək xoşbəxtliyi düşüncələrimə ayrı dad-tam verdi. Əlimə qələm alanda özümə yenə eyni sualı verdim: «Mən şair Fikrət Sadığı tanıyırammı? Kimdir o – hər saatı, hər günü tapıntı olan, amma dəyişilməyən, «bəxtinin güneyində novruzgülü açan», insan olmaqdan bezib ağac olmaq istəyən, uşaq xəyallarına aldanan, Dədə Qorqud kimi müdrik, dili bayatılı, nağıllı…»

Sinonimləri, həmcins üzvləri sevmirəm, bunlar nala-mıxa vurmaqdır, yəni düyünlənə bilmirsən, doğanaqdan çıxmış sicim kimi açılıb gedirsən. Şair yerində demişdir:

Mətləb uzadılanda yaddaş döyənək olur,
Gülləsi qurtaranda tüfəng dəyənək olur.

Bu dəfə əhval başqaydı, ha toparlanırdım, görürdüm yadımdan çıxan məqamlar var. Bilirəm, görkəmcə ləngərlidir, fağırdır, yox, mən onu həmişə həqiqəti üzə deyən görmüşəm, heç kəsin ürəyinə dəymək istəmir, xəyanəti heç vaxt bağışlamır.

Saatlarca susur, öz aləmində olur.

Sonra hər kəlməsi batman ağırlığında ittihamları ilə yalanı soyundurub çılpaqlayır.

Axına düşüb, axarla axıb gedənlərdən deyil.

Sevməyi də var, nifrət etməyi də var.

Döyməyi də yoxdur, döyülməyi də.

Xalq yaradıcılığının sərrafıdır, qəzəl, rübai, qoşma, gəraylı… nəyə ürək qızdırır, ürəyinin oduyla qayalanıb, cilalanıb yenilənir, işıq saçır. Sınayıcı gözləri daim gəncləri axtarır çinar yarpağı kimi enli ovuclarıyla yollarına sığal çəksin. Filosof şair cəmiyyətlə fərd arasındakı münasibətləri palaz-palaz məqalələr, qalaq-qalaq namizədlik, doktorluq işləri ilə deyil, ikicə misra ilə ifadə edir: «Xalqımın şair oğluyam, quru dilmancı deyiləm». Yuxarıdan baxanda dünya, reallıqlar çox kiçik, cılız göründüyündən taleyin acığına adiliklərə istehza edir.

Bir kimsə yox çata dada,
Yerdə hamı – yerli adam…
Mən qəribəm bu dünyada.
Mən bu zamanca deyiləm.

Bu şeir 1966-cı ildə yazılıb.

Azman qaya kimi doğulub, necə var, elə qalıb. Hörülüb, salxımlanıb, dirək vurulub, qalxmayıb. Nə deyirsiniz deyin, iki il, iyirmi il, lap bir ömür də bəs etməz Fikrət Sadıq yaradıcılığını incələməyə, çünki həyat fəlsəfəsi həyat var olanacan sirlərlə doludur, sonacan anlaşılmayandır. Onu bilirəm hamı inanır. Fikrət Sadıq deyəndə:

Mən belə yaza bilməzdim,
Mən belə yaşaya bilməzdim.
Mən belə amansız olmazdım,
Mən belə fağır olmazdım.

Yəni, ədalətsizliyə, xəyanətə belə səbirsizlik göstərməzdim. İlhamın şıltaqlığına belə səbirli olmazdım.

Təkrarolunmaz, həmişəcavan Fikrət Sadıq.

Sabir ruhlu, Hadi kəsərli, ilhamı, qəlbi, insafı payandaz olmayan vüqarlı Fikrət Sadıq.

Sevdiyim, qibtə etdiyim, öyrəndiyim, mənə həmişə qaranlıq qalan. Gözlərindən heç nə qaçmaayn, yaxşılığa da, pisliyə də sərraf qiyməti verən.

Sözünə, zövqünə arxalandığım, haqq məhkəməm, məhək daşım, ağsaqqalım.

Qədimliyin müasirliyi.

XXI əsrin Azərbaycan poeziyasının sufii şairi.

Yaxşı insanların yaxşılıqları bizim olduğu kimi, günahları da bizim üstümüzə yazılmalıdır, axı bizdən qorunmaq üçün günah etməyə məcbur olurlar. Lakin Fikrət Sadıq günahkar kimi görünməyə çalışar, günah etməz. Haqqa xəyanət etməz.

Bu qarışıq dünyanın ziddiyyətli şairidir, çünki sadədir, aydındır, yaddaqalandır.

SADƏLİK ƏN BÖYÜK ZİDDİYƏTDİR.

Sadə olan – aydın olan. Həqiqəti tez qavranılan, ana öyüdü, körpə təbəssümü, sübh günəşinin ilk şüaları kimi pak. Bütün dünya filosoflarının maraqlandıqları, yozduqca yozduqları, sona, dibə-dibəyə vara bilmədikləri cəlbedici sufii nəzəriyyəsi kimi. Bunun sirri çox sadədir, sufizm həyat elmidir. Qısa ömür anında kim həyatın sonuna sonacan addımlayır?

Həyatı özündə, əməllərində ədalətlə, müdrikcəsinə ehtiva edən şəxs elə sufidir. Fikrət Sadığın bütün şeirlərində həqiqət işığı var. Şair könül azadlığını özünə məxsus şəkildə ifadə edir:

Arxalı köpəklərin
Basdığı o qurd mənəm.
Namərd təpikləriylə
Tapdalanan yurd mənəm.

Sufii təriqəti mənəvi qardaşlıq üzərində qurulmuşdur. Həqiqətə, kamilliyə yetmək üçün insan dünyanı dərkə özünüdərkdən başlamalıdır. Bu baxımdan əsl şair elə sufidir, çünki şairin mücadiləsi özü özüylədir. Əgər erkən sufizmin görkəmli nümayəndəsi Zun-Hun Əl-Misri deyirdisə «Sufi o kəsdir ki, nitqi rəftarına uyğundur, sükutu halından xəbər verir, o kəsdir ki, dünya əlaqələrini inkar edir». Fikrət Sadıq bu kəlamı ata-ana öyüdü kimi misralara düzür:

Biri vardı, biri yoxdu – nağıldı,
Biri vardı, biri yoxdu – ağıldı.
Ağıl gəldi, özüylə dərd gətirdi,
Biri vardı, biri yoxdu dağıldı.

Filosof V.V.Savski yazır ki, «sufizmdə dərk obyekti Allahın özü olur, Allahın yaratdığı insan isə dərk subyekti olur, məqsəd mütləq Həqiqəti dərk etməkdir: insan Allahı yalnız özünüdərklə dərk edə bilər».

Fikrət Sadıq isə bu fikirləri poeziya xalısına ilmələyir:

İnsan təbiətən azaddı, mərddi,
Amma azadlığı saxlamaq dərddi.
Yiyəsi comərdsə, ruh da comərddi,
Yiyəsi qorxaqsa, qorxaq olur ruh.

İnsan yaranışın bir damlası olduğunu duymaqla daxili buxovlarını qırır. Bu buxovlar nəfsdir, həsəddir, qəzəbdir, kindir. Xislət elə özünsən, öz içinə yığdığındır, içindən gəlir. Qurd kimi içini gəmirir, sarsıdır, məhv edir. Günəşin nuru bir şeh dənəsində cəmləndiyi kimi bu mətləblər şairin 2002-ci ildə yazdığı «Çəkilirəm» şeirində toparlanıb.

Dözümlü olum deyə, içimə çəkilirəm,
İçimi yeyə-yeyə, içimə çəkilirəm.

Dahi sufi alimi Əhməd Yasəvi deyir ki, kim çox bilir, onun ürəyində daha çox qorxu var. Fikrət Sadıq bu halı məcazi şəkildə insanın uşaqlıq dövrü ilə eyniləşdirir:

Bir zaman uşaqdım, sığmırdım
Yerə-Göyə.
Ta nə yerə, nə göyə, içimə çəkilirəm.

Bilik ağır yükdür, hər çiyin ona davam gətirmir. Yalnız bir simdən ibarət çalğı alətləri aləm simfoniyasını yarada bilməz. Həmişə uçmaq üçün qanad istəmişik. Qanad deyilən, həm də bükülən, yığılandır, həm də uçuşa hazır olandır.

Bütün şairlər orbitdən çıxmış planetlərdir. Lakin, bir çoxunun enerjisi çatmayır geri qayıtsın. Belələri başqalarının orbitinə düşüb onların süni peykinə çevrilirlər.

Biz deyirik, ömür an kimi keçdi, «beş gün qara dünyanı yeddi gün yaşadım» deyən insanı isə birinci dəfədir görürəm. Həm də bu insan heç kəsin yerini dar etmir, «baxtını söyə-söyə» içinə çəkilir. O, yüzlərlə insan kimi ömür payını az hesab etmir? Küskün insanın içinə çəkilməsi aləmdən təcrid olunmaqdır. Fikrət Sadıq sözdən şəhd çəkib qayıdan şairdir. Bu dönüş böyük qayıdışın, nəhəng uçuşun yeni pilləsidir. Çünki şair qırmanclanır, qovulub qaçmamışdı, dayanıb düşünmək üçün nəfəsini dərirdi.

Bu şeirin elə böyük fəlsəfəsi var, onu misra-misra tədqiq etməyə məcbur oldum. İnsanın sonu özünə – torpağa dönməkdir, oda, suya, nəfəsə… torpağa çevrilməkdir. Vəhdət prinsipində var olanın tərkibində olan hər şey daim var olandır:

Odam, suyam, nəfəsəm, torpağam
Təbiətə dönməyə içimə çəkilirəm.

Bu şeirdə bir incə məqam da var ki, bütünlükdə Allahın şairi Nəsiminin «Məndə sığar iki cahan, mən bu cahana sığmazam» hayqırtısı ilə üst-üstə düşür. Qədim fəlsəfədən dünyanın dörd ünsürdən – od, su, hava və torpaqdan ibarət olması ideyası ilə tanışıq. Fikrət Sadıq müdrikliyi bundadır ki, hava ünsürünü nəfəslə əvəz etməklə cansız aləmin ruhi aləmlə qovuşunun poetik həllini tapmışdır.

«İki cahana sığmamaq» ideyası «Məndə tək» ideyasına ziddir, söz pərdəsini götürsən, məğz eynidir, cahana sığmamaq üçün bəşər övladına verilən mənəvi dəyərlər, insani olanlar «mənlik» adlanan xəzinəyə toplanıb, sonra «xırıd» olunmalıdır. Mənbə – soy kökü, milli yaddaşdır, nəsil-nəcabətdir, şəxsiyyətdir, milli ruha, millətə qayıdışdır. Bu fasiləsiz proses olmalıdır idrak, kamillik zirvəsi fəth olunsun.

Qədim türklərin məskəni Altaya səfər etmək xoşbəxtliyi şairi təsirləndirir, qan yaddaşımıza köklənən şair deyir: «Elə bil, haçansa bu yerlərdə olmuşam».

Mən Metenin
Min il əvvəl günbatana atdığı
Dəmir uclu qayım oxam
Qayıtmışam baxım görüm
Hanı mənim sadağım?

Söz təbiətin ahəngidir. Fikrət Sadıq poeziyası əhvalın rəngidir, dilidir, sarı simə çəkilən mizrabıdır. Bu şeir elə bil, Altayın silsilə dağlarının özüdür. Hər şey Vahiddən başlayır, baxın, birinci misra bir-iki sözə ayaq qoyub zirvəyə yönlənir. Lakin, zirvə də yekundur, bu şeirin sonluqları kimi. Oracan özün gəlmisən, indi bitmisən, tükənmisən, əllərini Allahın mərhəmətinə açırsan. Altay isə Yer kürəsində Allahın dərgahına ən yaxın yerdir. Türkün mayası bu müqəddəs məkanda tutulub.

HƏR BİR SONLUQ HƏM DƏ MƏCHULUN SORĞUSUDUR. Ona görə şair göyləri sorğuya tutur:

Altıngöldən
Min il əvvəl su içmiş
Bir yağışın damlasıyam.
Qayıtmışam, baxım görüm
Hanı mənim buludum?

Yaradıcılıq janr cəhətdən paltarbiçdiyə oxşayır. Hər mövzunun öz donu var. Sadəcə, ola bilsin, hansı paltarsa, hansı dəbsə daha ürəyəyatandır. Bu, məqama görə baş verir. Fikrət Sadıq poeziyaya vurulsa da, həm də gözəl nasir, dramaturq, alim və tərcüməçidir. Onun iti yaddaşı, sərrast mühakimələri ədəbiyyatımıza «Dördlüklər» ensiklopediyasını gətirmişdir. Məna çaları, sərrastlığı, aktuallığı bu şeirləri siyasi aforizm, içtimai rəy səviyyəsinə yüksəltmişdir. 1965-ci ldə deyir:

Köhnə fikir, təzə libas geysə – cəhalət!
Köhnə fikir, köhnə libas geysə – ətalət!
Təzə fikir, köhnə libas geysə – əsarət!
Təzə fikir, təzə libas geysə – cəsarət!

Düz otuz dörd il sonra ikiyə bölünmüş Azərbaycan müstəqillik ağrısı, problemləri içtimai yüklə poeziya yəhərinə qaldırılır:

Sən başqa bir tərəfdəsən, mən başqa bir tərəfdəyəm.
Sən Şəhriyar tərəfdəsən, mən də Sabir tərəfdəyəm.
Bizim bütöv olmağımız qiyamətə qaldı, qardaş,
Çün, sən dözüm tərəfdəsən, mən də səbir tərəfdəyəm.

Mahir bənna daş üstünə daş qoyub bina tikir. Mən bu cümləni yazdım. «Taleyin acığına» kitabını bir də vərəqləyəndə «Söz hörgüsü» silsilə şeirlərinə rast gəldim. «Qafiyə» şeirində yazır:

Ekiz söz,
Ahəng tərəzisinin pərsəngi.
Şeir divarının hamar üzü.
Köhnə daşı çox olsa
Kifir göstərəcək hörgünüzü.

Millətin süqutu əxlaqın pozulmasından başlayır, əxlaq deyilən cəmiyyətin yaşayış normaları olmaqdan başqa milli varlığın mahiyyətidir. İndi sürrealizmdən, postmodernizmdən, nə bilim, nə… izmdən yazırlar.

GERÇƏKLİYİN ŞÜURALTI GÖRÜNTÜLƏRİ REALLAŞANDA ƏKSƏR HALLARDA ADİLƏŞİRLƏR.

Bu zaman yazarlar hansı hoqqabazlıqlardan çıxmırlar, mətləbləri dolaşdırır, hər şeyi ayaq-baş etməklə, eybəcərləşdirməklə, təhrif etməklə uzunömürlülük, şöhrət qazanmağa çalışırlar, hansı ki, postmodernizm psixoloji açımda baş verir. Bu zaman istedad xərclənməyə başlayır, həm dəyərli, qiymətli alacaq olmalıdır, həm də söz yükün çiyindən düşməməlidir. Bu yük bir dəfə yerə qoyulsa, çətin bir də qalxa. İndiyədək Fikrət Sadığın həcmcə çox kiçik «Xırdaca gəlin» hekayəsinin ədəbi aləmdə doğurduğu səs-küy yadımdadır. Çünki yazı hərənin ürəyinin bir sarı simini tərpətmişdi. Bəzi psixoloji məqamları misal gətirmək istyirəm:

Ürəkdən su içən baxışların gizlənpac oyununu izlədim.
Şübhə işıqdan qorxur, bilirəm.
Amma bu «kobud»u elə dedi ki, hələ yer üzündə heç kəs, heç bir zaman, indiyədək bu sözü belə incə deməmişdi.
Gözümüzdə gözüyumulu yatır bu sevgi.
Əyilib əlindən öpdüm, dodağım alışdı-yandı. – Nə yaxşı ki, üçüncü gecə olmadı.

Budur hamının sevdiyi, yenə tanımadığı Fikrət Sadıq, Şamaxı düzləri kimi enli sinəsində zərif ürək döyünən, əlçatmaz, bü-

tövlüyü dərk olunmaz Fikrət Sadıq. O, düzlərdə hər il yazda lopa-lopa lalələr açır, sarı, düymə çiçəklər qırmızı xalıya naxış vurur. Hər il nübar alçalar ləçəkləri dimdikləyəndə lalələr solur, yaşıl çəmənlərin yanaqları bozarır, lakin gələn yaz yenə çəmənlər süslənir. Fikrət Sadığın yaradıcılığı hər fəsildə yeni rəngləri, mənzərələri ilə cilvələnən çəməndir.

Çox çətinə düşmüşəm, ona görə yox ki, haqqında çox yazılıb, təkrarsız sözlər deyilib, sadəcə, qəlbimdəkiləri, ürəyimdən keçənləri bu yazıya sıxışdıra bilmədim. Bu yazının ardı var, çünki ölməzliyin nə proloqu olur, nə də epiloqu. Bir az özümə təsəlli verirəm qəzetdə cecim-palaz yazıları çətin çap edələr, bu yubiley qələmaçtısıdır, həm də yubiliyarın özü sərrast, mənalı deyimlər ustasıdır, uzunçuluğu bəyənməz.

Sona gəlirəm. Fikrət Sadıq 30 may 1930-cu ildə anadan olub. Numerologiyaya görə hər insanın öz tale rəqəmi olur. Bu, belə hesablanır: 30 (anadan olma tarixi) + 5 (ilin beşinci ayı) + 1930 (anadan olduğu il). Rəqəmlərini toplayırıq, cəm «3»dür. 3 – üçölçülü maddi dünyadır. «3» həm də sabitliyin, tarazlığın dayaq nöqtəsidir, rəngli görünən üçtərkibli nəzəriyyəsidir.

Bu hesablamaya görə Fikrət Sadığın əsas xasiyyəti – özünü ifadə, ziyalılıq, iti ağıldır. Hərtərəfli istedada malikdir. Ağıl oyunu ona hava-su kimi lazımdır. Doğrudan da, tam uyğun gəlir. Əlbəttə, numeralogiyaya müraciət etməklə mən ədəbi fənd işlətdim, böyük şairin yubileyini onu sevənlərə bir daha xatırlatdım, həm də yazıya bir az «duz» qatdım. Axı, «Dördlüklər», «Miniatür şeirlər» müəllifi Fikrət Sadıq qeyri-adiliyi çox sevir.

Yaşın 80-ci pilləsi gözləniləndir, arzu olunandır:

İlin payızı
onsuz da gələcək.
Ağacın payızı
onsuz da gələcək.
Ömrün də payızından qaçmaq olmaz,
Dünyanın payızı olmasın ancaq!

Bəlkə də qarışıq dünyamızda 80 yaşadək şərəfli yaşamaq, adını, ləyaqətini, imzasını qorumaq ən böyük qeyri-adlikdir.

Əziz Ustad, insan yaşlaşanda deyil, düşünməyəndə qocalır. İnanırıq Siz bu qəlblə, bu qələmlə ömrün 100-cü dönəmini də şərəflə addımlayacaqsınız.

«525-ci qəzet»,
23 aprel, 2010-cu il

BİR ŞEİR

Məmməd ASLAN

FİL BOYDA KÖRPƏ

Zarafat bələnib dilə-dodağa,
Fil boyda körpədi, gül boyda qönçə.
Ömrün bu çağında Fikrət Sadığa,
Qafiyə oyunu şirin əyləncə.

Ruhunda, sözündə eyni mərdliklər!
Bircə eyhamından çökər sərtliklər!
İndi bədahətən gələn dördlüklər
Gənclik bəhrəsiymiş, gecikib məncə.

Köhnə kişilərdən bir Orxanı var!
Min oğul əvəzi birər xanı var!..
Qılınclar korşaldan sərt qalxanı var:
Hər kim qarşı çıxsa, qısnayar küncə!

Var-yoxla işi yox, gözü özündə!
Bir ömür yol gəldi: özü-özündə!
Nəfsi qıfıl altda, sözü özündə,
Kamil övliyadı, hər şeydən öncə!..

Çiçəkli ağacdı: bəhrə, barı var!
Bir üskük balında minbir arı var!
Fikrətin elə bir söz gülzarı var:
Bənövşəsi qom-qom, gül pəncə-pəncə!

Bakı,
28.11.2007

KİTABIN İÇİNDƏKİLƏR:

ÖN SÖZ 4

Ş E İ R L Ə R

HİMN OXUNANDA 8
MƏNİM BAYRAĞIM 7
BAMBAŞQA 9
PƏRAKƏNDƏ VƏ BÜTÖV 12
GÖRK 15
BU YAĞIŞ 17
SÜKUT BUZU SINDIRILDI 19
TANRI TÜRKÜ QORUSUN 21
ƏLİMİ GÖRÜRSƏN 23
GƏLMƏ KƏLMƏLƏR 24
BAŞ ÜSTƏ 25
BİR DAHA SÖZ HAQQINDA SÖZ 26
HALBUKİ 27
VƏ LAKİN 27
SƏSLİLƏR VƏ SƏSSİZLƏR 28
O GƏLİNİ NƏNƏM GÖRDÜ 30
BABA-NƏVƏ NAĞILI 31
FƏXRİYYƏ 33
TELE–ŞAİR 34
SÜRREALİST ŞEİR 36
EYNƏN 37
ADIMI ÇƏKMƏ 38
70 YAŞ VƏ PİLLƏLƏR 39
BU DÜNYA BELƏ DÜNYADI 40
QOŞMAYA QOŞMA 41
DÜNYANIN 42
QOŞA RƏDİFLİ QOŞMA 42
BÖLGÜ 43
GÖRÜŞ ƏZABI 44
ŞEİR OXUMAĞA ADAM TAPILMIR 45
OLACAQ 46
KEÇƏCƏYİN YOL 47
QOYUN 47
BU ZƏMİ HƏR İKİMİZİN 48
KİMİNDİR 49
ÇƏPƏR 50
TV-LƏR 51
YENƏ DÜZ SÖZ 53
SƏBR 54
DÖVRLƏR 55

BAŞQA-BAŞQALAR ... 59
ADAMLAR ... 60
QIŞDAN ŞİKAYƏT ... 61
«İÇƏRİŞƏHƏR» – TƏQVİMDƏ ... 62
ŞƏKİL ... 64
DOST DƏRDİ ... 65
75-İM ... 66
AVTOPORTRET ... 67
KİTAB ... 67
KİTAB ATILMAZ ... 68
YETİM ƏLİNDƏ QOĞAL ƏCAYİB ... 70
BİR DƏSTƏ YAĞIŞ ... 70
QARA ŞAMAXISININ UCU İLƏ ... 72
RAHAT YAŞAMAĞI SEVƏNLƏR ÜÇÜN ... 73
3+1 (ÜÇ ÜSTƏ GƏL BİR) ... 75
MƏRSİYƏ ƏVƏZİNƏ ... 76
SƏN VARSAN DEYNƏN ... 77
GÖZ, GÖZ YAŞIYLA BİRGƏ ... 77
TARÇI, TARI KÖKLƏ ... 79
SONRA NEYNİRƏM ... 80
BİR UMU-KÜSÜ ... 81
MÖHÜR – SİYAHI ... 82
ŞAİR OLUB ... 83
«XATİRƏYƏ DÖNMÜŞ» ŞEİRLƏRDƏN
I. MƏZUNLAR GECƏSİ ... 84
II. «DAŞLI» BAĞ ... 85
ƏKS-SƏDA ... 86
BİR CÜT İŞIQ TELİ ... 87
YERDƏYİŞMƏ ... 89
UŞAQLAR ÜÇÜN YAZILMIŞ ŞEİRLƏRDƏN
1. GİLƏ ... 91
2. İKİ QORXAQ ... 91
3. ÇANAQLI BAĞA İLƏ QURBAĞA ... 91
BƏS BU NƏDİR ... 92
QARDAŞLAR ... 93
«GƏRAYLILAR»DAN
SON ŞEİR ... 94
GUZARANDAN KÜSƏNDƏ ... 95
VAR ... 95
İNSAN ... 96
TALE, SƏN MƏNİMLƏ BEŞDAŞ OYNAMA ... 97
GİRİR ARAYA ... 98
DEYİLƏM ... 98
UCBATINDAN ... 99
DEYİLƏM ... 100
ÖZÜM – ÖZÜMƏ ... 101
BİZ – SƏRNİSİN. DÜNYA – QATAR ... 101

OLMAZ 103
GƏRƏK ÖZÜN QOCALASAN 103
DAHA BİR GƏRAYLI 105

SİLSİLƏ ŞEİRLƏR

DUA 108
NƏVƏM SEVİLƏ
YEDDİ VUR ON İKİ 109
YENƏ SƏNİ GÖRDÜM 112
DAŞ, AĞAC – İNSAN 115
MAĞARA – BALIQ – İNSAN 117
QARLI ŞEİRLƏR 120
ANTİ-REKLAM VƏ YAXUD GÜZARANIMIZ 123
ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ
QƏSİDƏNİN TƏRİFİ 126
RUBAİNİN TƏRİFİ 127
QƏZƏLİN TƏRİFİ 129

QIZIL DAĞLAR ÖLKƏSİ 133
I. DOST PAYI 134
II. ÜÇ SÖZ 134
III. ALTAY 135
IV. «PERPETUM MOBİLE» 135
V. QOŞA ÇAYLAR – QOVUŞAN ÇAYLAR 136
VI. GƏLİN XATUN 137
VII. BİR ULDUZ AXDI 138
VIII. YİYƏ 139
IX. DÖRD BAYATI 139
X. YOLÇU YOLDA GƏRƏK 140
XI. ÇAQI 141
XII. MADAY – QARANIN ÖLMƏZLİYİ 142
XIII. DASTAN ÇIĞIRLARI İLƏ 143
XIV. MİN İLDƏN SONRA 143

ATAMIN XATİRƏSİNƏ
I. O ÇOVĞUN BƏLKƏ DƏ ÇOVĞUN DEYİLDİ 145
II. QƏLBİNDƏ O QƏDƏR İŞIQ VAR İDİ 145
III. ÜMİDƏ QARĞIŞ 146
IV. TƏSƏLLİ 146
V. GƏZMƏYƏ QƏRİB ÖLKƏ, ÖLMƏYƏ VƏTƏN YAXŞI 147
VI. PAXILLIĞIM TUTUR QOCA GÖRƏNDƏ 147
VII. KÖHNƏ DƏYİRMANDI, DAŞLARI TƏZƏ 148

ƏRƏBCƏDƏN DÖRD MƏŞHUR SÖZ
I. SƏMA 149
II. DÜNYA 150
III. ADƏM 150

KİÇİK POEMALAR

AYAMASI DÜZNƏQULU OLAN BİR QOCANIN «MİN BİR GECƏSİ» 154
DÜZNƏQULUNUN SƏHRADA AZMASI 157
DÜNYADAN QAÇAN ADAM 163
QITI 171

AĞ-QARA ŞEİRLƏR *(Ağı-poema)* 173
I Bölüm
I. KÖRPƏMİ İLKİN GÖRƏNDƏ 173
II. NƏSİHƏT 173
III. GÖY-GÖLDƏ 174
IV. TELEFON SÖHBƏTİ 175
V. NEYLƏYİM 175

II Bölüm
I. POÇT QUTUSU 176
II. LAYLA 176
III. QATIQ SATAN QOCA ƏMİ 177
IV. YUXARIDAN GÖRÜNƏN MAŞINLAR 178
V. AGİNSKİ POLONEZİ 179
VI. KİMİM GETDİ 180
VII. İLİN HANSI FƏSLİDİR 181
VIII. QARDAŞ DƏRDİ 181
IX. NİYƏ AXI 182
X. BİR DAMLA GÖZ YAŞI 182
XI. VİDA GECƏSİ 182
XII. ÜMİD DƏ QIRILDI 183
XIII. UÇURUM 184
XIV. ALIN YAZISI 184

III Bölüm
I. BALAM 186
II. ANALAR – BƏNÖVŞƏLƏR 187
III. KREML DİVARI YANINDA 188
IV. TƏLQİN 189
V. ŞÜBHƏ VƏ HƏQİQƏT 190
VI. BİR RUHU KÜSKÜNƏ 191
VII. GECƏ TAKSİSİ 193

KİRİLDƏN LATINA

CIĞIR 196
DAŞLAR 196
HƏYAT EŞQİ 197
VƏLƏS 198
ŞAHDAĞ 198

ƏBƏDİYYATIN YAZDIĞI KİTAB 201
QÖVSİ-QÜZEH 202
DAĞLAR 203
BOYAT KƏNDİ 205
QİBTƏ 205
EHTİYATLI OLUN HA 206
BAKI 206
TƏYYARƏYƏ TOXUNMAZMI GÖRƏN 207
III SİMFONİYANI DİNLƏRKƏN 207
GÖZLƏRİN SÖZLÜYÜ 208
ADİLİK 209
BU ÇAYIN ÇINQILI 210
ADSIZ ŞEİR – II 211
ƏLLƏR – QANADLAR 211
NATÜRMORT 212
DƏNİZDƏ SƏHƏR 213
ADSIZ ŞEİR – III 214
BATILİMAN 214
AĞ BƏNÖVŞƏ 215
ÇÖRƏK 216
NÖVBƏ DAŞLARI 217
AYIB 219
NƏFSİNİ ÖLDÜR 219
ÖMRƏ BEL BAĞLAMA 220
YEY İDİ 220
ƏLLİ YAŞIM 221
TEATR GEYİMLƏRİNİN KİRAYƏ MƏNTƏQƏSİNDƏ 222
«ƏLİN QUBARI» ŞEİRİNDƏN 224
«XANIM BÖCƏYİ» ŞEİRİNDƏN 224
ƏGƏR 225
TALEYİN ACIĞINA 227
ATİLLANI QINAMAYIN *(Rəvayət)* 228
ÜMİD MƏNDƏN ÜZ DÖNDƏRSƏ 230
MƏRMƏRDƏ DONMUŞ TƏBİƏT 231
ƏSGƏR ATASI 233
MƏHƏMMƏD HADİYƏ 234
MİRZƏ CƏLİLƏ 235
SABİR OLMASA 236
QORXURAM 236
DÜNYA ÖZ İŞİNDƏDİR 238
MONOLOQ 239
QOY BAŞINI ÇİYNİMƏ, GÜLÜM 240
YAXŞILIQ 240
QAPI GÖZLÜYÜ 241
DOĞMALARIMIN ÇİYNİNDƏ 241
YENİDƏNQURMA 242
AYDIN QARADAĞLIYA AĞI 242

PULUN BAŞINA DAŞ DÜŞSÜN 243
GƏTİR 244
ƏNVƏR PAŞANIN, NURU PAŞANIN VƏ ŞƏHİD TÜRK ƏSGƏRLƏRİNİN RUHUNA 245
MİRCƏ ƏLİ MÖCÜZ ŞƏBÜSTƏRİYƏ 246
ŞEİR YAZIR 247
SOYUQ MEHR 250
RUH 252
İKİ MƏLƏK 253
ƏLİFBANI BİLMƏYƏN NƏNƏMİN ƏLYAZMASI MİN BİR BUTA 254
PAYIZ DÜŞÜNCƏLƏRİ *(Lirik miniatürlər poeması)* 259
ƏHƏD MUXTARA 266

H E K A Y Ə L Ə R

XIRDACA GƏLİN 270
DAŞ BALKON 277
KİNOMEXANİKİN BACISI 279

I M Ə Q A L Ə L Ə R
Mənim yazdıqlarım

«QARŞI» SÖZÜNƏ QARŞI 286
BİR DAHA «QARŞI» SÖZÜNƏ QARŞI 287
ÜÇÜNCÜ KƏRƏ «QARŞI» SÖZÜNƏ QARŞI» VƏ BAŞQA DƏRDLƏR 292
BU YER MƏŞĞULDUR 317
MÜŞVİQ, YOXSA MÜŞFİQ, ƏHMƏDDƏ, YOXSA ƏHMƏD DƏ VƏ YOXSA İLƏ İKİ TOPONİM 318
ÜÇ QAT QALA DİVARI 322
İSTANBULDA BİR UŞAQ 325
BAŞI BƏLALI «AZƏRBAYCAN» 329
MAHİRƏ ABDULLANIN QATMAQARIŞIQ NİZAMI 340
XOCALI XƏCİLLƏRİ 342
ORDA NƏHƏNG VARDIR 345
HƏLƏ DƏ ŞAİRLƏR DOĞULUR 348
SƏRSƏNG – BAŞIMIN DAŞI 350

II M Ə Q A L Ə L Ə R
Mənim haqqımda yazılanlar

Səlahəddin XƏLİLOV
MİLLİ RUHUN POETİK TƏRƏNNÜMÜ 356

Qurban BAYRAMOV

Mürşüd MƏMMƏDLİ
MÜDRİKLİYİN POEZİYASI 362

Vaqif İBRAHİMOV
HƏRƏMİZ BİR CÜR 369

Atif İSLAMZADƏ
BU ŞEİRİN STRUKTUR – SEMANTİK TƏHLİLİ 371

Mahirə ABDULLA
QƏDİMLİYİN MÜASİRLİYİ 377

Məmməd ASLAN
FİL BOYDA KÖRPƏ 384

«Nərgiz-R» Nəşriyyat-Poliqrafiya firması.

Baş direktor: ***Hidayət Musabəyli***

«Nərgiz» nəşriyyatı.
Texniki redaktor: ***Kəmalə Məmmədova***
Korrektor: ***Yasəmən İsmayılova***
Mətn yığımı və dizayn: ***Yeganə İmanova***

Mətbəə müdiri: ***Akif Musayev***

Yığılmağa verilmişdir: 25.04.2010
Çapa imzalanmışdır: 12.05.2010.
Kağız formatı: 70x100 1/16.
Həcmi: 35,0 çap vərəqi.
Sayı: 500 nüsxə; Sifariş: 779.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyi tərəfindən 1998-ci ildə qeydə alınmışdır.
Şəhadətnamə № 45.
Ünvan: 8-ci km qəsəbəsi R.Rüstəmov küç. 36
Əlaqə telefonları: 323-69-53;
050-738-37-22.

www.kitabxana.net

Fikrət Sadıq
(Sadıqov Fikrət Abbas oğlu)

HALBUKİ

Azərbaycan dilində

«Nərgiz» nəşriyyatı